AZƏRBAYCAN

1'2020

1923-cü ildən çıxır

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

Baş redaktor: **İntiqam QASIMZADƏ**

Baş redaktor müavini: **Südabə AĞABALAYEVA**

Məsul katib: **Vüsal NURU**

REDAKSİYA HEYƏTİ: **Ağasəfa, Elçin, Musa Yaqub, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Asim Yadigar, Afaq Məsud, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu, Paşa Əlioğlu, Əli İldırımoğlu**

Redaksiyanın ünvanı:
Bakı - Az1000
Xaqani küçəsi, 25

Telefonlar:
Redaksiya –
498-78-10
493-28-32
493-2834
Mühasibat –
493-29-41

Çapa imzalanıb:
23.01.2020
Sifariş 262
Tiraj 500
Kağız formatı
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi

E-mail:
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru

Qiyməti
1 manat 50 qəpik

Bakı şəhəri,
"Azərbaycan"
nəşriyyatının mətbəəsində
ofset üsulu ilə çap olunur

Dərc olunmuş yazılar qəbul edilmir.
Əlyazmalara rəy verilmir və qaytarılmır.

BU SAYIMIZDA:

FİRUZƏ MƏMMƏDLİNİN 80 YAŞI

FİRUZƏ MƏMMƏDLİ – Şeirlər 3
SÜDABƏ AĞABALAYEVA – “Yaşımdan aşacağam” 12

POEZİYA

DƏYANƏT OSMANLI – Şeirlər 53
ƏYYUB QİYAS – Şeirlər 121
RAFİQ YUSİFOĞLU – Şeirlər 148
MƏNSURƏ QAÇAYQIZI – Şeirlər 154

DRAMATURGİYA

ELÇİN – Stalin (faciəli fars) 17

NƏSR

MÜBARİZ CƏFƏRLİ – Zəncir (roman) 61

ESSE

ANAR – Qanlı illərin şəhadəti 129
Şeyx Şamilin “qurbanı” Heydər Hüseynov 139
Güneydən gələn səslər 146
FİDAN ABDURƏHMANOVA – Uzun sürən cavanlıq 157

PUBLİSİSTİKA

MAHİR HƏMZƏYEV – “Biz Türkük, Azərbaycan isə, bizim yurdumuzdur” 161

TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

JALƏ QƏRİBOVA – Homo Nihilus
Sosial deqradasiyanın kimlik formatı 179
MÖHSÜN NAĞISOYLU – “Nəsimi “Divan”ının leksikası”:
Azərbaycan dilçiliyinin böyük uğuru 198
VAQİF YUSİFLİ – Hekayəni sevirik 202

KİTAB RƏFİ 207

Firuzə Məmmədlinin 80 yaşı

Firuzə MƏMMƏDLİ

QƏDR GECƏSİ

Hamı eşidirdi deyən, bu gecə,
Məndim vaxt qapısın döyən bu gecə.
Haçandan yatmısan, oyan bu gecə, -
Oyan, bu gecənin xətrinə, oyan.

Göylər savab yağır, günaha batma,
Yatma, hurim, yatma, mələyim, yatma.
Bu gecə fürsətdi murada çatmaq, -
Oyan, gecələrin qədrinə oyan.

Bu qədr gecəsi qəlbə nur yağır,
Gör nə savab yağır, nə hüzur yağır.
Dur, atam balası, oyan, dur, yağır,
Yağan duaların sətrinə oyan.

MƏN

Od manqalda, nur kənarda
Get, taxtını qur kənarda.
Çək kibriti, dur kənarda,
Nəyinə gərək, yanıram!

Vaxtın pəhriz adamıyam,
Qoşma, təcnis adamıyam.
Mən də məclis adamıyam,
Bir azca da söz qanıram.

Qəmə kəm gəlir taleyim,
Döyüş səngəri – taleyim.
Nə bir dincələr taleyim,
Nə iş-gücdən usanıram.

Mənə izin verib Tanrı,
Sözün düzün verib Tanrı.
Səbri uzun verib Tanrı,
Hərdən daş, hərdən xamıram.

Vaxt ölçüsü, bəxt azıyam,
Sağa-sola – riyaziyəm.
Öz qışımın ayazıyam,
Sözdə istim var, sanıram.

Nə hiyləyəm, nə kələyəm,
Yaxşı-yamana ələyəm.
Allaha şükür beləyəm,
Kürəm, Arazam, Samuram.

BİLMİRƏM

Bu gün sizdən uzaqdayam bir az da,
Gah səmimi, gah saxtayam bir az da.
Həm istiyəm, həm şaxtayam bir az da,
Bir kimsəyə yaxınlaşa bilmirəm.

Deyən məni addım-addım üzür vaxt,
Üz-gözümdə – çək-çevirin izi vaxt.
Allah, hara sürükləyir bizi vaxt? –
Qoşulub da axınlaşa bilmirəm.

Gah səbrimi çırtlayıram tum kimi,
Gah vaxtımı sovururam qum kimi.
Həyat məni əcəb yapdı mum kimi, -
Bir kimsəyə paxıllaşa bilmirəm.

Dünənlərdə düşüb qaldım, olmaya,
Mütiliyə bişib qaldım, olmaya?

Uzaqdakı işıq qaldım, olmaya? –
Dastanlaşa, nağıllaşa bilmirəm.

Səs eşitdim, kimsə məni çağırdı,
Baxıb gördüm, sağım-solum çığırdı.
Çəkəmmədi, yer-göy dedi: «Ağırdı»,
Çəkimdən ki ağırlaşa bilmirəm.

Vaxtı verən, baxtı verən Tanrıdır,
Bu gün onun saatıdır, anıdır.
Bəri durum, bəlkə məni tanıdı,
Görüşməmiş sağollaşa bilmirəm.

MƏNİ

Bir az bu xəbərdən gözüm açıldı,
Dərdimə, sərimə sözüm açıldı.
Canımda bir təzə dözüm açıldı,
Sürüdü zamandan zamana məni.

Ağrıdım dörd yana, bildim-bilmədim,
Çaşdım, hansı aydı, ildi, bilmədim.
Nadanlar dərdimə güldü, bilmədim,
Yozdular yaxşıya-yamana məni.

Nəyi qalmışdı ki, bu quru ömrün, -
Boş bir iftixarın qururu ömrün?!
Xainin, xəbisin uğuru ömrüm
Xərclədi şübhəyə, gümana məni.

İçərim atlandı – ürəyim adda,
Qururum tapdandı – çörəyim adda.
Daha ümid də yox, «gərəyəm» adda,
Çökdü dizlərimdə «aman»a mənim.

Qəmidi, bilmədim, məndim, bilmədim,
Dolandım şəhəri, kəndi, bilmədim.
Haçandan əyildim, endim, bilmədim,
Axır ki, çıxdılar yalana məni.

MÜRACİƏT

Tanrıya

Xəlbirimiz, ələyimiz yox deyən,
Faldan özgə gərəyimiz yox deyən.

Allahımız, fələyimiz yox deyən, -
Hara dönsək, ilişirik şeytana.

Fələk bizi niyə gözdən atıbdır? –
Bəxtdən, vaxtdan, yoldan, izdən atıbdır.
Xoş qılıqdan, şirin sözdən atıbdır,
Acı-acı girişirik şeytana.

İyəşməyə kimsə tapmır bəlkə də,
Tövbəsinə kilsə tapmır bəlkə də.
Çarə qılar... Nəsə tapmır bəlkə də,
Hər addımda dirəşirik şeytana.

Ay nur üzlü bir bizə də nəzər sal,
Ürəyinə məhəbbətdən Xəzər sal.
Qəlbimizə nə xiffət, nə azar sal,
Üzə düşüb, irişirik şeytana.

Sirr açırsan, minin bağla, yüzün aç,
Bəndələrə mərhəmətin gözün aç.
Özün arıt, özün çözə, özün aç,
Dərdinizi hürüşürük şeytana.

Oyanmışıq uyğuları öldürüb,
Qayğıları, sayğıları öldürüb.
İnsan adda duyğuları öldürüb,
Gündə bir az sürüşürük şeytana.

İNANAQ

Tor tutubdur mərhəmətin gözünü,
İnsaf, mürvət nazikindən üzülüb.
Tərs görmüşük söz yolunun üzünü,
Daha nəyə, daha kimə inanaq?

Sözümüzdə, işimizdə – canımız,
Ələk-vələk içimizdə canımız.
Susub duraq, dişimizdə canımız,
Nə caduya, nə tilsimə inanaq.

Ha gözlədik, söz çəkmədi vaxtına,
Haqqı olan yetişmədi haqqına.
Allah, bizi yaz Əlbaba baxtına,
Qapıaçan o «Sim-Simə» inanaq.

* * *

Endirin pərdələri,
Oyun bitdi, qurtardı.
Daha heç nə ummayın, -
Bu oyunun yox ardı.

Göz yaşı gözdə bitdi,
Abırda, üzdə bitdi.
Verdiyi sözdə bitdi, -
Söz yiyəsi gəbərdi.

Açıldı yelpazələr,
Əl-qol açdı tazələr.
Dəyişdi əndazələr,
Təzə hoqqa çıxardı.

* * *

Yeriyirəm, yürüyürəm,
Nə durur, nə dincəlirəm.
Uzaq günlər yorğunuyam,
Yaxın günlərdən gəlirəm.

Nələr gördüm, nələr keçdim,
Axşamını səhər keçdim.
Kənd böyükdə şəhər keçdim,
İynə-iynə gor dəlirəm.

Sısqa çayı gursanıram,
Hərbə-zorba qursanıram.
Gündə bir az korşalıram,
Əriyirəm, incəlirəm.

BİLMƏDİM

Dəcəl küləklərin dəli əlindən
Vallahi, nə desən, gəlir əlindən.
Vasvası bir ömrün zəli əlindən
Üzülüb bir yana çıxa bilmədim.

Hardan bir iz düşə, sıxa qəlbimi,
Sarsıda, heç-puça çıxa qəlbimi.

Mən yuxa sayandan yuxa qəlbimi
Qəlbimdən yumşaq bir yuxa bilmədim.

Eh, arzum, diləyim bu viranəni
Deyin, necə geyim bu viranəni?
Tikmək istədiyim bu viranəni
Təzədən tikməyə yıxa bilmədim.

QURUCULUQ

«Qız qalası»nın böyründəki qədim memarlıq abidəsini də sökdülər.

Demək bu binanı da
dağıtdılar beləcə.
Daşından kəsəyinə
ağlatdılar beləcə.
Qıydılar tarixinə,
qıydılar bəzəyinə,
yolunu, yolağını
bağlatdılar beləcə.
Çökdü, dizindən çökdü,
«bina» sözündən çökdü.
Biri dedi: «Sökdülər»...
Başqa birisi dedi:
«Yəqin özündən çökdü», -
Evi yıxıb-tökdülər,
plan-filan çəkdilər.
Təzəsini tikməyə
yerə beton əkdilər.
Ötən əsrin nəslini
aldatdılar beləcə,
ağrıtdılar beləcə.

QƏLƏMİ YERƏ QOYAQ?

Yaşıdlarıma

Daha yorulmuşuq da...
Nə dinək, nə danışaq?..
Üz tutaq orda-burda
köhnə dosta, tanışa.
Vərəqləyək illəri,
ataq gün-gün keçmişə,

xatirə girdabında
Yaş sürünsün yetmişə,
Yaş sürünsün səksənə.
Tanış-biliş, dost, yaxın
bir-bir qeybə çəkilsin,
Sən qalasan təkcənə...
Görək heç nə yoxuymuş,
olub-keçən yuxuymuş.
Ürəyimizdən əvvəl
gözlərimiz sıxılsın.
Ən dəcəl günlərimiz
budaqlardan yıxılsın.
Vaysınaq bizdən keçib
biz olmayan illərə,
bircə əməlimizdən
iz olmayan illərə.
Baxaq – nə Yer, nə Göy var,
Doğmadan çox, ögey var...
Eh... od üstdən keçəntək
keçdik yaşımız üstdən.
Neçə fürsət uçurtduq
hər gün başımız üstdən.
...Əlimiz, ayağımız
yerişimiz – qəribə.
Hara üz tuturuqsa,
təxribat... Müharibə...
Cəfəng fikirlərdəki...
bizi sülhə çəkəmmir,
açılır dərd süfrəsi, -
giley-güzar tükənmir.
Allahın var günündə
yollarımız – dolaşıq.
Yüz yol dəstəmaz da al,
vicdan yenə bulaşıq.
Zamanın Cənnət yolu
Cəhənnəmdən keçirmiş.
Əzabı, işgəncəsi
kimə içdən keçirmiş,
kimə gendən keçirmiş...
Olsun ki, sabahkı gün –
dünənkindən bir az xoş.
Qəlbindəsə – həmişə
Bir az payız, bir az qış.

* * *

Sabah
bütün yolların,
cığırların,
izlərin,
dərdli-dərdli
sözlərin,
yaşlı-yaşsız
gözlərin sənə axışan
günüdür.
Yoxluğunu
çıraq edib
sənə baxışan
günüdür.
Sabah
bilinəcək ki,
sən demə, bu dünyanın
ən səmimi,
ən müdrik, ən qayğıkeş,
ən sədaqətli,
ən istedadlı
yoldaşı,
ərəni,
ataşı,
dostu,
qardaşı,
babası,
şairi sən imişsən!
Əlbəttə, elədir.
Amma
bəs nədən
bunu indi görürük,
ilahi?!

TƏRƏZİ

Haqq bölgüsündə
tərəzinin
«mənim» gözündən
ağır
günah,
«sənin» gözündən
yüngül
savab yoxdur.

* * *

Qulağımı keçmişə
tutub
gələcəyi dinləmək
istədim, –
«ənənəçi»
dedilər.
Gözüm – ənənədə,
məni tərifləyəni
aradım.
Nə sözündə,
nə əməlində,
atasından, anasından
nişanə gördüm.
Doğrudanmı
bu adamın keçmişi
yoxdur?!
Onda bəs
gələcəyə nə aparır?!

KÜSKÜNLÜK

Dirənib taleyin sərt divarına,
Dayanıb durmuşam, susub durmuşam.
Çırpıb qapısını dərd divarının
Özümdən, sözümdən küsüb durmuşam.

Ötən ilki deyil o daş, o kəsək
Elə bu quşlar da o quşlar deyil.
Dərələr, təpələr, yamaclar – təzə,
Belini əyəndə yoxuşlar deyil.

Talanıb, tükənib yol xatirələr,
Gözdə toranlıqdı, duyğuda yadlıq.
Qaçıb uzaqlaşır izimdən elə
Bir yetim qızcığaz – Firuzə adlı.

Keçərəm, bir doğma, bir tanış sima
Bir qəfil salamla ötməz yanımdan.
Bilmərəm ərk olub sarılım kimə,
Bu yorğun tənhalıq çıxsın canımdan.

“YAŞIMDAN AŞACAĞAM”

Üşüyən adamın nigaranlığı

Ötən yüzilin gəncliyində yaşamış insan üçün 2000-ci illərdə yaşamağı görmək – az qala kosmosa gedə bilmək kimi əlçatmaz bir hissdir. İndi isə, bir vaxt əlçatmaz olan 2020-ci il gəlib həyatımıza. Yeni əsrin kür gəncliyini yaşayanlara 60-70 yaşı “qürub çağı kimi görsə də, işin-gücün qürur vaxtını yaşayan “qocalığın gəncliyi” sabahları yaxın edəcək ümidlərin havasına köklənir. Məskunlaşmış tənhalıqlar zamanında yaşasa belə.

Kim deyir ömrün yazı
Fəsil deyil, qayıtmaz?!

Yubiley yaşı yeni cümlənin başlanması üçün qoyulan nöqtəyə bənzər. Yeni cümlənin ovqatını ətrafın diqqəti, qayğısı, sevgisi yazar.

Çiçəklənər ümidləri yenidən,
Yallı gedər duyğuları yenidən.
Duyğulanıb, körüklənib yenidən
Coşan selə, axar çaya çevrilər.

Sosiallıqla tənhalığın iç-içə yaşandığı bugünün ovqatı

Şirinim də, acım da
Fələyin saydığında.
Eh, ömür ağacında
Bir quru yarpaq qalıb.

qüssəsi də yaşadar. Bu solğun kədərin sarılığı sarsa da ruhunu, o yenə də bir möcüzə gözləyər; gözləyər ki, “hansısa bir rəssam” əli o yarpağı pəncərəyə nəqşləndirəcək... O “rəssam” hər kəs ola bilər; umduqları, sevdikləri, gözlədikləri, gözləmədikləri...

Allah, bu yorulub
yolda qalmışı
hansı tərəfdən gözləyim?
Xeyir tərəfdən?
Şər tərəfdən?
Yoxsa ki –
Hər tərəfdən?

...Sınaqsa da, cəzasa da, bu çaşqınlıq bir ümidi də nişan verir:

Gələnini gözləməyə de nə var,
Gedənini gözləməkdi intizar. *(Musa Yaqub)*

Ümidin hüdudları məğrurluğun həddini bir ilğım fırtınasıyla sınamaqdan usanmadıqca, böyük ümidsizliklərin böyük güc gətirdiyinə inanmağa başlayır:

Əlim göydə, dərgahına yolum yox,
Bu həsrətə qadağa var, ölüm yox.

Bir halda ki iradəmizin hökmünün yetmədiyi, gücünün çatmadığı məqamlar da izləyir ömrümüzü, bir halda ki ən səmimi, ən dərin hisslərimizin sonu da

Canım ağrı qışqırır,
Kimsə eşitmir məni.

məyusluğu gətirir, elə isə, hətta ən ümidsiz tənhalığa ən munis ünsiyyət kimi baxmaq niyə də təsəlli olmasın?!

Mənim daha heç kimə
Deyiləsi sözüm yox.

Və unutma ki, bu seçimin " suçlusu" sən deyilsən!

Yüz yol özümdən yıxıldım,
Bir yol qaldıran olmadı.

Yadın-yaxının yalanlarına, inandıqlarının dönüklüyünə, güvəndiklərinin susqunluğuna... dözmək və... unutmağa çalışmaq ən doğru qərar deyilmi?

Həmişə tək olmuşam,
Elə yenə təkəm mən.

Qoy lap qarası qəlbində, ağı saçında qıvrılsın. Ağlı-qaralı bu tənha birgəliyin heç nəyə gücü çatmasa da, unutmağa qoymayacaq:

Dönüklər səadət gətirmir, bacım...

Ac gəzib tox sallanan nənələrin dost önündə ehtiyacını, düşmən önündə içini gizlədən qüruru sıxıntını yola verməyə çalışacaq: sənin tənha qalmaq kimi müqəddəs bir hüququn da var axı...

Başqa gün olacaq sabah, bilirəm,
Sabahdan sonrakı sabahlar – sənsiz.
Yenə olacağam, vallah, bilirəm,
Necə var idimsə qabaqlar sənsiz.

Vəssalam! Bura qədərmiş! Bundan sonra nə qəlbin möhnətini, nə hissin töhmətini dərd eləməyə dəyməz.

Alış; doğmasına, yadına baxma,
Yaşa; ünvanına, adına baxma.
Sevda şərbətdisə, dadına baxma,
Verilir, çək başa, iç gülə-gülə.

> *"Demək, mənim qismətimə Ayın qaranlıq tərəfi olmaq düşüb. Canımda işıqlı tərəfin həsrəti, mən qaranlığı yazıram, qaranlığı ağlayıram, qaranlıqdan çəkib çıxardıram dərdlərimi – misra-misra, bənd-bənd. İşıqlı tərəfi hamı görür, qaranlıq tərəfi görməyə can atanların isə, hələ zamanı gəlməyib."*

Bax, bu zamanı gözləməyin yolu – həyatla yol yoldaşı olmaq.

Yəni: yaşamaq, hər şeyə rəğmən yaşamaq!

Dörd yanım bahara qovuşur yenə,
Qışını üstündən atanlar kimi.
Mənsə təkliyimi salıb çiynimə,
Gəzirəm üşüyən adamlar kimi.

"Gözüm gördüyünə inana bilmir"

Bu "üşüyən" adamı tanıyıram.

Yolayrıcında çaş-baş qalan bu tənha məğruru... sözünün mis kimi səsindən tanıdığım kimi.

Mənim səsimin içi
Səssizlikdən boğulur.
Dörd yanı divar canım
Ölür, yenə doğulur.

Müasir Azərbaycan ədəbiyyatının ağbirçəyi Firuzə Məmmədli!

"Müasir Azərbaycan dilçiliyində öz üslubunu qoya bilmiş" (Afad Qurbanov) dilçi – tənqidçi. "Ədəbi prosesin daimi iştirakçısı" (Qəşəm Nəcəfzadə),

pedaqoq – alim; fəal ictimai mövqeyi ilə həmişə ön sırada addımlayan publisist, uzaqları yaxın etmək məramlı tərcüməçi, yazıçıların dərd ortağı – uzun illərdir Yazıçılar Birliyində Həmkarlar təşkilatına rəhbərlik edir. Uzun illər Pedaqoji Universitetdə təkcə müəllim olmayıb, tələbələrə sirdaş olub, analıq edib. Vikipediya məlumatında Teymur Əhmədovun "Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə)" kitabına istinadən yazılıb ki, 60-cı illərin ortalarında Vahid Azərbaycan uğrunda mübarizə aparanların sırasında olub, necə deyərlər, aşağı enən eskalatorla yuxarı çıxmaq istəyib.Əlbəttə, başını sığallamayıblar; təqib və repressiyaya məruz qalıb.

Nə olsun ki, lap acıdır,
Gözümdə fikrin tacıdır.
Düz söz bir dar ağacıdır,
Boyundan keçə bilmirəm.

İnsan seçimini müqəddəs bildiyi dəyərlərlə müəyyənləşdirir, sonra ömrü boyu üzləşdiyi, onu izləyən çətinlikləri dəf etməkdə yeganə dayağı da düşüncə və fəaliyyətini tənzimləyən bu dəyərlər olur. Seçiminin düzgünlüyü həyatın hər cür hərc-mərcliyinə bir nizam qatır.

Firuzə Məmmədlinin 10 cildlik Seçilmiş əsərləri, yaradıcılıq axtarışları, elmi tədqiqatlarının məzmunu və istiqamətləri onun düşüncə sisteminin mənzərəsini təqdim edir. Bu mənzərə onu göstərir ki, bir insan kimi də, bir şair, bir alim kimi də Firuzə xanım sidq-ürəklə inandığı, dəyərləri yeni zamana ona görə daşıyıb gətirə bilib ki, bu dəyərlər insanları bir-birindən ayırmağa deyil, birləşdirməyə hesablanıb. Bu mənada şairin tapındığı – güvəndiyi ən böyük dəyər – Sözdür.

Bəxti "yüzə - yüz" gətirdi sənlə, –
Firuzəni sənsiz öyən olmadı.

Yeni dəyərlər sisteminə mənəvi-intellektual təcrübənin sağlam genetik əsaslı nəticələri kimi qovuşmağı bacarmış Firuzə Məmmədli yaradıcılığında seçim və təqdimat manerası, ənənə ilə müasirliyin, müdrikliklə gənclik şövqünün qaynayıb-qarışması bu yaradıcılığa marağı bu gün də qoruyub saxlayır. Vətəndaş mövqeyi, milli düşüncənin dərinliyi və genişliyi ədəbiyyatın əzəli mövzularında onun poetik istedadının, şair obrazının və adının Azərbaycan poeziyasında, min illərin oğuz şeirində halal yerini, sanballı mövqeyini təmin edib.Yaradıcılığı rəsmi səviyyədə də təsdiqlənib:"Tərəqqi" medalı, "Qızıl kəlmə"mükafatı və s, və s. Poeziyasını sevənlər bu istedadlı şairənin şəklini Fəxri lövhədə görmək haqqının təqdirini də onunla eyni ürəkdolusu sevinclə bölüşərdilər. Əlbəttə, sahib olmağı istəmək aid olmağı öyrənməkdən başlasa da, bunu müəyyən edən meyarlar hər arzunu güldürmür. O isə,

Zamanın gecəsində
Gündüzü axtarıram.
Min əyrini ələyib
Bir düzü axtarıram.

"Allah, eşidirsən? Bəndən ağlayır!"

Firuzə xanımə da bütün yaradıcı təbiətlilər kimi, sözünün eşidilməsinin, görünməsinin intizarını yaşamamış deyil. Amma diqqətin deyil, diqqətsizliyin həssasıdır. Hərdən şeirinə də giley qonduran bu həssaslığı "məni uçqunların arasında gəz" – yazdırsa da, "dənizi daşacaq kinimdən çəkin" – təhdidinin zərif qəlbini zədələyəcəyindən narahat olub, ovundurmaq istəyirsən. Arxanca

danışırlarsa, deməli, sən yerində -- qabaqdasan – təsəllisi ilə sığallamaq istəyirsən ona heç yaraşmayan küskünlüyü. Öz sözünü xatırlatmaq istəyirsən:

Bu, yalvarış deyil, bu, fəryad deyil.
İnsana inamın harayıdır bu.
Özünə qayıtmaq bizə yad deyil...
Nə olar, özümü sevdirin mənə.

Onun gündəm mövzularına yanaşmasında bir müdrik xəbərdarlığı var; təmkinli səssizliklə cəmiyyəti gözləyən acı aqibəti xatırladır:

Kiçik insanların kölgəsi böyüyürsə, demək, Günəş batır!..

Onun şeirinin intonasiyası çığırmır, amma diqqət çəkir, diqqətə çəkir.

Onun iddiasının tonu da səssizdir; öz gücündən, ləyaqətindən başqa güman bilməyənin səssizliyi. Beləsinin nitqinin tipi, olsa-olsa, monoloq olar. Bu monoloqda bəzən dözümün tükənməsini, yollara qanad taxmaq istəyinin öləziməsi elə kədərlidir ki...

Bir ümidin yollarında
Ömrümün izi göynəyir.
Dualara diz çökməkdən
Səbrimin dizi göynəyir.

Bədii yaradıcılığın (şəxsiyyətin də) inkişafını şərtləndirən (müəyyənləşdirən) amillər sırasında relyefin, iqlimin, ”etnoqrafik məxsusiliyin”, fiziki şəraitin və s. rolundan çox yazılıb. Poetik nəfəsin təbiətindəki maskulin və ya feminist başlanğıcların “yerdəyişməsini” necə izah etmək olar? Bunu özünütəsdiqin özünüifadə və özünümüdafiə prinsiplərilə əlaqəsində axtarmaq nə dərəcədə doğrudur? Bəlkə, həyatımız boyu yaşadığımız gündəlik təsirlərin əhəmiyyətini də əlavə edək?!

Firuzə Məmmədlinin poetik təhkiyəsində “kişi üslubu”na xas sərt, ötkəm, “tündməcaz” intonasiya var.

Evinin kişisi olmaq
istəsən
öncə
sözünün kişisi ol.
Sonra
düzünün
kişisi ol,
ən sonda
dözümün kişisi ol.

həsi – həqiqətin acısı:

Kəsilib atılmış qıçını gəzir
Veteran cibində əli əsgərin.

* * *

Qulağı doludur
top səsilə,
pulemyot taqqıltısıyla.
Nə qədər yuyur,
Nə qədər qurdalayır,
Çıxıb tökülmür
Səslər qulağından.
Həkimlər dadına çatsın,
Ay qoca əsgər!

Onun "lüğəti"nin kompası da doğulub boya-başa çatdığı bölgəni – Azərbaycanın şimalını göstərir.

Demirəm ki, odun daha istidir,
Demirəm ki, suyun daha dadlıdır.
Məni soyuq torpağın da isidir,
Mənə acı küləyin də bal dadır.

Firuzə Məmmədlinin elmi tədqiqatının bir istiqaməti də Azərbaycanın şimal-şərq bölgəsinin etnolinqvistik vahidlərinin öyrənilməsilə bağlıdır. Necə deyərlər, bu yurdun etnoqrafik yaddaşının damarında axan qanına da bələddir. Eynən böyük Vətən ağrısına, Dünya dərdlərinə olduğu kimi.

Bir qadının "kişi səsilə danışması" təkcə torpağın, landşaftın, iqlimin... deyil, həyatın və... kişinin günahıdır!

Bir kişinin "qadın təhkiyəsində" ötməsi... cəmiyyətin faciəsi olduğutək.

Fikrim məni güllələyir fərari kimi,
İntiqamı "qan" qışqıran bir hədəyəm mən.
Vətənimin ağrısına yararlı kimi
Sətir-sətir, misra-misra cəbhədəyəm mən.

Firuzə Məmmədlinin dili Azərbaycan dilinin, türk təfəkkürünün təmizliyini, dərinliyini və zənginliyini yaşadır. Zənnimcə, xalq dili üslubunun şeirdə təcəssümünün çoxçeşidliliyi Firuzə Məmmədli yaradıcılığını elmi tədqiqat səviyyəsində öyrənməyə imkan verir.

Onun dilinin yaddaşı qloballaşam şəhər rahatlığının, texnologiya sürətinin tozanağında əriyib uzaqlaşan kəndin yaddaşıdır, adət-ənənənin, törə əxlaqının, kənd həyatının, uşaqlığının yaddaşıdır.

Qovladılar bu il kənddən Vəlini,
Gedənəcən yenə "tövbə" deyirmiş.
Ağsaqqallar kəsəcəkdi dilini,-
Deyirlər ki, haram tikə yeyirmiş.

"Bu zamandı, hər məqamda, anda sən"

Yubiley yaşı yeni cümlənin başlanması üçün qoyulan nöqtəyə bənzər.

Azərbaycanın görkəmli şairəsi Firuzə Məmmədli həyatın növbəti onluğuna keçmək üçün səkkizinci nöqtəni qoyur.

Ömür-gün işidi... Ələkdən keçib,
Fərqi nə, şeytandan, mələkdən keçib.
Eh, mənə nə gəlib, fələkdən keçib,
Daha yol üstədir xatirələrim.

Yeni cümlənin ovqatını həm də ətrafın diqqəti, qayğısı, sevgisi yazar.

"Tanrıdan səda sözü" insan qəlbində, poeziyanın yaddaşında, mədəniyyət tarixində bir işıq kimi, bir ilıq nəfəs kimi yaşayacaq şair üçün hələ çox səhərlər açılacaq, hələ Günəş çox güləcək.

Xatirələri yolçu etməyə dəyərmi? Dəyər!

Çünki xatirələr də Firuzə Məmmədlinin poeziyası kimi, insana, həqiqətə, ədalətə inamdan danışacaq və deyəcək ki, ən dar zamanda, nə olur-olsun, inan, inan ki:

"Bu gün dünənki düşüncələrinin səni gətirdiyi yerdəsən və sabah bugünkü düşüncələrinin daşıdığı yerdə olacaqsan"! (Paskal)

Südabə AĞABALAYEVA

ELÇİN

STALİN



İki hissə və səkkiz şəkildən ibarət faciəli fars

Mənim həyatımın böyük bir hissəsi Sovet İttifaqında keçib.

İllər amansız bir sürətlə bir-birini əvəz edir və bu nəhəng imperiyanın – Sovet İttifaqının süqutu uzaqlaşdıqca, elə bil, elə həmin sürətlə də suallar bir-birini əvəz edir: mən necə bir ölkədə yaşamışam?, bu ölkəyə kimlər rəhbərlik edib?, rəsmi portretlərinin arxasında o rəhbərlər kim idi?, onlar üçün ölkə, xalq, kommunizm idealları və hakimiyyət nə demək idi?, əqidə onlar üçün həqiqət idi, yoxsa maska?, söz ilə əməl arasındakı uçurumun səbəbi nə idi? Və s., və i.a.

«Stalin» pyesi bu suallara cavab axtarışlarının nəticəsi, bu düşüncələrin ifadəsi kimi yazıldı.

Bu pyes Mikayıl Müşfiqin və onun timsalında bütün repressiya qurbanlarının xatirəsinə yazılmışdır.

Müəllif

İŞTİRAK EDİRLƏR:

Stalin *(1-Kondratyev, 2-Vasilyev, 3-İqnatov)*
Siyasi Büro üzvləri:
- Partiya kuratoru
- Nazirlər kuratoru
- Təhlükəsizlik kuratoru
- Ticarət kuratoru
Polikarpov (İvanov)
Olqa Aleksandrovskaya
Marşallar
Zabitlər
Oğlan
Qız

Zaman: *1950-ci illərin əvvəlləri*
Məkan: *Bakı, Xəzərin sahili*
Moskva, Kreml. Konsperativ mənzil. Lyublyanka zirzəmisi

BİRİNCİ HİSSƏ

BİRİNCİ ŞƏKİL

Bakı. Xəzər dənizinin sahili. Axşam.
Qız, Oğlan.

Oğlan ilə Qız dənizin sahilindəki qayalıqda oturublar. Ara-sıra qayalara çırpılan dalğaların səsi eşidilir.

OĞLAN. Sənə nə olub?
QIZ. Heç nə.
OĞLAN. Düzünü de.
QIZ. Bizim qonşumuz var, coğrafiya müəllimidir, Səfər müəllim, bayaq, sənlnlə görüşə gələndə, küçədə qızıyla rastlaşdım. Ağlamaqdan gözləri şişmişdi. Atasını elə məktəbdə, dərs keçdiyi vaxt, sinifdə həbs ediblər.
OĞLAN. Deməli, xalq düşməni imiş!
QIZ *(tərəddüdlə).* Ancaq... çox sakit, mülayim adam idi... Heç deməzdin...
OĞLAN. Elə olur də!.. Onlar məharətlə maskalanırlar, sən bilmirsən?.. Qızının neçə yaşı var?
QIZ. On iki-on üç olar.
OĞLAN. Hələ başa düşmür də!.. Başa düşmür ki, xalq düşməni olan həmin əksinqilabçı Səfər müəllim onun yalnız bioloji atasıdır. Onun əsil atası isə Stalindir! Düz demirəm?
QIZ *(tərəddüddən qurtularaq).* Əlbəttə... Ancaq bunu hələ başa düşmür...
OĞLAN. Yəqin hələ komsomolçu deyil, hə?
QIZ. Hə *(Elə bil, özü-özünə təskinlik verir.)* Bir az böyüsün, hər şeyi başa düşəcək!
OĞLAN. Sən gözlərini yum, ləpələrin səsinə qulaq as, əzizim... O ləpələr qayalara çırpıldıqca, elə bil, mənim bütün içimə... necə deyim sənə... bir... bir coşqunluq dolur... Qulaq as... Qulaq as, əzizim... Elə bil, onlar dil açıb danışırlar...
QIZ. Nə deyirlər?
OĞLAN. Deyirlər ki, siz xoşbəxtsiniz! Siz Sovet İttifaqının gənclərisiniz!.. Sizi xoşbəxt gələcək gözləyir! Sizin yolunuz Stalin yoludur!.. Sən düz deyirsən, əlbəttə, o qız da bunu başa düşəcək!.. Ləpələr deyir ki, əziz Stalin, onun sədaqətli silahdaşları, onun mətin şagirdləri sizi həmin xoşbəxt gələcəyə aparır! Sən də qulaq as, əzizim! Bir anlıq gözlərini yum və qulaq as!..

Pauza.

Qulaq asırsan?
QIZ. Hə.
OĞLAN. O ləpələr sənə nə deyir?
QIZ. Mənə? *(Ruh yüksəkliyi ilə.)* Mənə şeir pıçıldayırlar!
OĞLAN. Hansı şeiri?
QIZ. Sevdiyim şeirləri...
OĞLAN. Heç olmasa o şeirlərdən birini mənə de. Sən həmişə şeiri gözəl söyləyirsən! Söylə! Söylə, əzizim!..
QIZ *(daha artıq bir ruh yüksəkliyi ilə).*

Bu sonsuz fəzalar bizimdir, ey dost!
Bu dərin dəryalar bzimdir, ey dost!
Səmada yıldızlar, yerdə çiçəklər,
Ətirlər, ziyalar bizimdir, ey dost!

Bu dünya ki, mənə açmış qoynunu,
Mən də oxşamağa hazıram onu.
Tərlan xəyalımı pərvazlasın qoy,
Ulu Stalinin əsas qanunu.

Dərələr, təpələr deyir: Stalin!
Gurlayan ləpələr deyir: Stalin!
Mehriban qocalar, sevdalı gənclər,
Dil açan körpələr deyir: Stalin!

OĞLAN *(təəccüblə).* Bu ki, Müşfiqin şeiridir... Sən bilmirsən ki, o, xalq düşmənidir?!

QIZ *(pərt).* Hə. Heç özüm də bilmədim ki, necə ağlıma gəldi... Mən Müşfiqi çox sevirəm... sevirdim. Şeirlərini əzbər bilirəm...

OĞLAN. Səncə xalq düşməni yaxşı şair ola bilər? Onlar hamısı maskalanmış əksinqilabçılardır!.. Kapital dünyasının maskalanmış nökərləridir!.. Cəsuslardır!.. Onlar yoldaş Stalinə bu cür riyakar sevgi şeirləri yazmaqla, öz düşmən xislətlərini ört-basdır edirlər. Ancaq bizi aldatmaq olmaz!.. Bizi!.. Biz komsomolçuları!.. *(Qızın çiynini qucaqlayır.)* Unut! Əzizim, unut o şeirləri! Qopar, at qəlbindən o riyakar şeirləri! Onlar yoldaş Stalinə layiq deyillər!

Kiçik pauza.

QIZ. Sən elə bil ki, məni o maskalanmış şeirlər yuxusundan oyatdın!.. *(Şövqlə.)* Unudacağam! Əlbəttə, əzizim, unudacağam! Mən o şeirləri ürəyimdən dartıb çıxaracağam! Onları bax, bu dalğalara atacağam! Getsinlər dənizin dibinə! Qoy, balıqlar yesin onları!..

OĞLAN *(romantik bir əhval-ruhiyyədə).* Yoldaş Stalinə hələ nə qədər şeirlər yazılacaq! O şeirləri təmiz ürəklər yazacaq! Biz o şeirləri övladlarımıza öyrədəcəyik! Onlar da öz övladlarına! O zaman artıq düşmənlərdən təmizlənmiş saf bir cəmiyyətdə yüz milyonlarla Stalin övladları yaşayacaq!

İşıq sönür.

İKİNCİ ŞƏKİL

Moskva.
Kreml, Stalinin kabineti. Gecə.

Stalin, Partiya kuratoru, Nazirlər kuratoru, Təhlükəsizlik kuratoru, Ticarət kuratoru, Polikarpov.

Kuratorlar uzun iclas mizinin arxasında üz-üzə oturublar. Stalin öz yazı mizinin yanında dayanıb, çubuqla qəlyanını eşələyir.
Gərgin pauza.

STALİN *(nəhayət, qəlyanı yandırıb, kuratorlara baxmayaraq, pəncərəyə yaxınlaşır və qalın pərdəni kənara çəkərək, eşiyə baxa-baxa, aramla).* Qo-

ridə bizim qonşuluğumuzda bir kişi yaşayırdı, Cansuq Kaladze... Qorinin məşhur əyyaşlarından biri idi. Bir eşşək arabası var idi, odundan, çaxır küplərindən tutmuş qarpızacan ona-buna nəsə daşıyırdı. Özünün ayıq vaxtı olmurdu, ancaq eşşək öz işini yaxşı bilirdi, hara lazımıydısa, ora da gedirdi. Bir iti də var idi, acından qabırğaları görünürdü. Sərxoş Kaladze arabada boynunu büküb, ağzından su axa-axa yatırdı, oyananda da araba çarxlarının cırıltısı ilə kefli Kaladzenin zümzüməsi bir-birinə qarışırdı. İt də ləhləyə-ləhləyə Qorinin küçələri ilə o arabanın dalınca gedirdi. Kaladze iki gündən bir təpik vurub, iti qovurdu, ancaq o it yenə qayıdıb gəlirdi...

Kiçik pauza. Kuratorlar diqqətlə qulaq asırlar.

Mənim acından ölən o itə yazığım gəlirdi. Bir yaz günü məktəbdən gələndə gördüm ki, o it başını Kaladzenin bağlı qapısına sürtə-sürtə zingildəyir. Anam Kato, evdə yox idi, mənim naharımı mizin üstünə qoyub, harasa getmişdi. Qızardılmış kartofun yanında ət parçası varıydı. Bizim evdə ət çox nadir vaxtlar olurdu, ayda bir dəfə, iki dəfə, ancaq mən o ət parçasını götürüb, Kaladzenin itinə apardım. Əti ona uzatmağımla, bircə anın içində əlimdən qapıb, yeməyi bir oldu. Qurtarıb, əvvəlcə mənə baxdı, sonra əlimə baxdı və birdən atılıb barmaqlarımı sümüyünəcən dişlədi. Yazıq anam, Kato, bir həftə cürbəcür məlhəmlər düzəldib, əlimi sarıyırdı...

Pəncərədən aralanıb, asta və yumşaq addımlarla uzun iclas mizinə yaxınlaşır və mizinin ətrafında dairə vura-vura gəzişir.

Kapitalizm hər vasitə ilə sosializmi laxlatmaq, onu yenidən kapitalizm ilə əvəz etmək istəyir. Baxın, Yuqoslaviyada nə baş verir? Bir ölkədə sosializmi dağıtmaq, bütün sosializm cəbhəsinə yalnız xəbərdarlıq deyil, bu, bir zərbədir, bu, real təhlükədir. Satqın Tito başda olmaqla bir dəstə quldur əslində Yuqoslaviyada kapitalizmi bərpa etmək istəyir. Kim idi Tito? Kaladzenin iti kimi acından qabırğaları görünürdü. Biz ona nələr etmədik? Ona «Qələbə» ordeni verdik! Birinci dərəcəli Suvorov ordeni verdik! Onu dünyaya tanıtdıq. Biz olmasaydıq, Yuqoslaviya Hitlerlə bacaracaqdı? Partizanlar ov tüfəngi ilə Yuqoslaviyanı azad edəcəkdilər? *(Təhlükəsizlik kuratoruna baxaraq.)* Müharibə vaxtı biz onlara nə qədər yardım etdik?

TƏHLÜKƏSİZLİK KURATORU *(cəld ayağa qalxaraq).* 115 min tüfəng, 35 min avtomat...

STALİN *(onun sözünü kəsərək, sərt).* Dayan!.. Sən, nədi, bizim köməyimizi azaltmaq istəyirsən? 38 min avtomat!

TƏHLÜKƏSİZLİK KURATORU. Üzr istəyirəm, yoldaş Stalin! Mexaniki səhv dedim...

STALİN. Bilmirəm, mexaniki idi, yoxsa, yox?

Kiçik və gərgin pauza.

Davam et.

TƏHLÜKƏSİZLİK KURATORU. 38 min avtomat, 16 min pulemyot, 50 təyyarə, 70 tank.

STALİN *(Nazirlər kuratoruna baxaraq).* Bəs, valyuta?

NAZİRLƏR KURATORU *(cəld ayağa qalxaraq).* 44-cü ildə onlara faizsiz olaraq valyuta və qızılla 10 min dollar borc verdik.

STALİN. Bəs, Tito nə etdi? Özünü kommunist adlandıran bu tip indi marksizmə, leninizmə zidd siyasət yürüdür. İngiltərə ilə him-cim edir. Niyə?

Bu siyasət sənə nə verəcək? Təəccüb edirəm: bu adam özünü Yuqoslaviyanın Bismarkı hesab edir, ancaq Balkanların nə olduğunu başa düşmür, Balkanlardakı közün qızartısını hiss etmir. Fürsət düşən kimi, elə həmin İngiltərə, Amerika, onların əlaltıları Yuqoslaviyanı parçalayıb, cırtdan dövlətlərə çevirəcək, onlar da bir-birini qırmağa başlacaq. Yuqoslaviya zəhmətkeşləri yenə kapitalizmin əsarətinə düşəcək. Bizim üzümüzə gülürdü, daxili isə bizə qarşı kin-küdurətlə dolu idi. Biz olmasaydıq, Çörçil Yuqoslaviyadan əl çəkəcəkdi? Ancaq Tito indi gedib ingilislərə yaltaqlanır!.. İngilislərə etibar etmək olar? İngiltərə hansı xalqı xoşbəxt edib? Ərəbləri? Afrika xalqlarını? Hindistanı iki yerə bölüb bir-biri ilə düşmən edən İngiltərə deyil? *(Ayaq saxlayaraq, Ticarət kuratoruna baxır.)* 18-ci ildə ingilislər 26 Bakı komissarını Ağcaqum çöllərində xaincəsinə güllələmədilər?..

TİCARƏT KURATORU *(cəld ayağa qalxaraq).* Bəli, yoldaş Stalin, elədir.

STALİN *(bir az susduqdan sonra təbəssümlə).* Ancaq əslində onlar neçə nəfər idi?

TİCARƏT KURATORU. Mən... mən yerli bolşeviklərin köməyi ilə həbsxanadan qaça bildim.

STALİN *(eləcə təbəssümlə).* İyirmi yeddi oldu iyirmi altı, hə?

TİCARƏT KURATORU. Bəli, yoldaş Stalin. Ancaq... *(Həyəcandan udqunur.)* ancaq yoldaşlar bu faktı yoxlayıblar, mənim dediklərim təsdiq olunub. Mən Bakı bolşeviklərinin köməyi ilə həbsxanadan qaçdım və partiyada fəaliyyətimi davam etdim. Bunu Lenin də təsdiq etmişdi.

STALİN. Əlbəttə, təsdiq olunub. Bunu Lenin də təsdiq etmişdi, düzdür. Sən demirsən, ancaq özüm deyirəm: bunu mən də təsdiq edirəm.

TİCARƏT KURATORU *(həyəcan içində).* Yoldaş Stalin... Siz bunu dəfələrlə təsdiq etmisiz.

STALİN. Başqa cür necə ola bilər?.. *(Təhlükəsizlik kuratoruna baxır.)* Elə deyil?

TƏHLÜKƏSİZLİK KURATORU. Elədir, yoldaş Stalin! Ancaq...

STALİN. Ancaq nə?

TƏHLÜKƏSİZLİK KURATORU. Ancaq siz tapşırsaz, yenidən yoxlayarıq!

STALİN *(gəzişə-gəzişə).* Tapşırsam, əlbəttə, yenidən yoxlayacaqsız. Ancaq buna lüzum var?

Gərgin pauza.

(Partiya kuratoruna baxaraq.) Necə bilirsiz?

PARTİYA KURATORU *(cəld ayağa qalxaraq).* Siz necə tapşırsanız, biz də o cür qərar qəbul edəcəyik, yoldaş Stalin!

STALİN. Bilirəm. Siz mənim dediklərimi həmişə səmimiyyətlə, həmişə ürəkdən qəbul edirsiz. Elə deyil?

PARTİYA KURATORU. Elədir, yoldaş Stalin!

STALİN. Həmişə ürəkdən, hə?

PARTİYA KURATORU. Bəli! Həmişə ürəkdən!.. Həmişə, yoldaş Stalin, həmişə.

STALİN. Bilirəm... Bilirəm... *(Yenə ayaq saxlayıb, Ticarət kuratoruna baxaraq.)* Siz hətta Bağırovla da dostsunuz, bilirəm... Mir Cəfər Azərbaycanda, siz isə burda, Moskvada, Kremldə – ancaq dostluq edirsiz. Bu, çox yaxşıdır. Hə?

TİCARƏT KURATORU *(dili dolaşa-dolaşa tələsik).* Mən... Siz... Yol... Yoldaş Stalin... iki dəqiqəlik icazə olar?

STALİN. Çıxmaq istəyirsiz? Buyurun, buyurun...

Ticarət kuratoru qarnını tutub, az qala qaça-qaça kabinetdən çıxır.

STALİN *(gəzişə-gəzişə).* Müharibə vaxtı da, elə müharibədən əvvəllər də bizim necə ağır vaxtlarımız olub. Kim bizə kömək edib? Heç kim!.. İyirminci illərin sonlarında, o ağır zamanda biz hətta Ermitajın eksponatlarını satmağa məcbur olduq. Gələcək nəsillər, bilmirəm bunu bizə bağışlayacaq, ya yox? Rafael... Tsian... Van Deyk...

Pauza.

(Eləcə gəzişə-gəzişə.) Ancaq nə etmək olardı? Xoşbəxt həyat müftə əldə olunmur! *(Nazirlər kuratoruna baxır.)* Elə deyilmi?

NAZİRLƏR KURATORU. Bəli, yoldaş Stalin, elədir!

STALİN. İnqilabdan sonra hakimiyyəti saxlamaq hakimiyyəti əldə etməkdən daha vacibdir, daha çətindir.

NAZİRLƏR KURATORU. Siz bunu bacardız!

STALİN. Yox, biz bunu Lenin başda olmaqla, hamımız birlikdə bacardıq! Biz! Ancaq biz bunu nə üçün bacardıq?

PARTİYA KURATORU. Sizin dahiyanə...

STALİN *(onun sözünü kəsərək).* Qurtarın bu ştamplanmış sözləri... Yoldaş Stalini nə qədər tərifləmək olar? Biz xalqa arxalandığımız üçün bunu bacardıq. Xalq bizi müdafiə etdiyi üçün bunu bacardıq.

Ticarət kuratoru içəri daxil olur.

TİCARƏT KURATORU. İcazə olar, yoldaş Stalin?

STALİN *(onun qarşısında dayanaraq).* Ancaq biz Ermitajdakı əsərləri satmağa məcbur olanda, Gülbenkyanın namizədliyini siz verdiz. Elə deyilmi? O da bütün kapitalistlər kimi, xəsisin biri idi... *(Yenə gəzişərək, elə bil, kuratorların ayaq üstə dayandığını indi görür.)* Əyləşin, siz niyə ayaq üstə durmusuz? *(Ticarət kuratoruna.)* Keçin, keçin oturun.

Kuratorlar əyləşirlər.

(Gəzişə-gəzişə.) Biz gərək səhvlərimizdən nəticə çıxaraq. İsrail dövlətini kim yaratdı? İngiltərə? *(Təbəssümlə.)* Əksinə, onlar əleyhinə idi, hər vasitə ilə çalışırdılar ki, bu iş baş tutmasın. Amerika? Kapitalist Avropası? Yox! İsrailin adını dünya xəritəsinə biz yazdıq. Biz, Sovet İttifaqı! Biz olmasaydıq, İsrail ərəblərin qabağında nə edəcəkdi? Ancaq sonra nə oldu? İsrail Amerika ilə bacı-qardaş oldu. Yəhudiləri bizim əleyhimizə qızışdırdı, yəhudi hiyləsi ilə bizim ətrafımızda hörümçək toru hörməyə başladı. *(Bir anlıq ayaq saxlayaraq, Nazirlər kuratoruna baxır.)* Bunun sizə dəxli yoxdur. Siz yəhudi deyilsiz, siz kommunistsiz. Elə deyil?

NAZİRLƏR KURATORU *(cəld ayağa qalxaraq).* Elədir, yodaş Stalin.

STALİN *(gəzişərək).* Biz gərək xaricdəki düşmənlərimizi vaxtında tanıyaq və xalqımıza da tanıdaq. Vaxtında da cəzalandıraq. Daxildə də düşmənlər az deyil. Bizim öz aramızda da mənən satılmış adamlar sinfi mübarizə genişləndikcə, xalq düşmənینə çevrilirlər. Çünki nəzəri cəhətdən də, mənəvi cəhətdən də sinfi mübarizəyə hazır deyillər. Bir tərəfdən də kapitalizm dünyası bizim uğurlarımızı görüb, daha da azğınlaşır, özümüzünküləri ələ

almağa çalışır və bəzən buna nail də olur. Deyəsən, sayıqlığı itirmişik... Siz yox, siz cavansız... Siz sayıqsız, hə?

Kuratorlar şaşırmış vəziyyətdə susurlar.

Hə, vintləri bir az boşaltmışıq... Siz yox... Bilirəm, siz sayıqsız. Mən... mən... *(Yenə pəncərəyə yaxınlaşıb, qalın pərdəni kənara çəkərək, çölə baxır.)*

Kiçik pauza.

Yüz yaşına çatmış, ürəyi mərhəmətlə dolu bir Şeyx bir yay günü gölün yanından keçəndə, görür ki, uşaqlar oynaşa-oynaşa, qışqır-bağır sala-sala çimirlər. Əlləri, ayaqları şikəst olan bir uşaq da bir kənarda oturub, həsrət dolu nəzərlərlə göldə çimən uşaqlara baxır, çünki özü o uşaqlar kimi göldə çimə bilmir. Şeyxin o əlil uşağa yazığı gəlir, əllərini göyə tutub: «- Ya Allah,- deyir.- Yalvarıram sənə, o şikəst uşağı sağalt! Qoy, o da o sağlam uşaqlar kimi göldə çimsin, oynasın, atılıb-düşsün!» Şeyxin bu yalvarışından sonra o uşaq birdən-birə sağalır, uşaqlarla birlikdə göldə çimir və Şeyx hər dəfə o gölün kənarından keçəndə o uşağın xoşbəxtliyinə sevinir. Bir gün o gölün kənarı ilə Şeyxin yolu sübh tezdən düşür və Şeyx görür ki, həmin uşaq da tezdən ora gəlib, əlindəki bıçaqla bir-bir qamışları kəsib, uclarını sivirərək, itiləyir, sonra onları gölün dibinə basdırır ki, bir azdan gəlib burda çimən uşaqların bədəninə batsın. Şeyx əllərini göyə qaldırıb: «- Ya Allah,- deyir.- Bağışla məni! Bağışla ki, mən sənin əməllərinə şəkk etdim!..»

Pauza.

(Elə bil, özü özü ilə danışır.) Axmaq Şeyx!.. Allahın işinə qarışır!..

Qəflətən zəng səsi eşidilir və yazı mizinin üstündə yaşıl işıq tez-tez yanıb-sönür. Stalin mizə tərəf baxır və asta addımlarla o tərəfə yaxınlaşıb, elə bil hava ilə danışır.

(Sakit səslə.) Nə olub?

İşıq qəbul otağında ayaq üstə özünü tarım çəkib, farağat duraraq, telefon dəstəyini qulağına dirəmiş Polikarpovun üzərinə düşür. Onun səsi kabinetə yayılır.

POLİKARPOV. Yoldaş Stalin! Tapşırmışdız ki, de Qoll zəng edən kimi sizə məruzə edim! O, zəng edib.
STALİN. Yaxşı... (*Polikarpovun üstünə düşən işıq sönür.) (Kuratorlara.)* Siz gedə bilərsiz.

İşıq sönür.

ÜÇÜNCÜ ŞƏKİL

Moskva. Kreml, Stalinin kabineti və qəbul otağı.
Stalin, Olqa Aleksandrovskaya, Polikarpov.

Səhnənin sağ tərəfində Stalinin kabineti. Kabinetin sol tərəfində Stalinin qəbul otağı. Kabinetlə qəbul otağı arasında içi pambıqla doldurulmuş qalın

meşin qapı var. İkinci meşin qapı isə kabinetin yuxarı başında, Stalinin mizinin arxasındadır.

Stalin kabinetdə pəncərənin qabağanda dayanıb, qalın və ağır pərdəni aralayaraq eşiyə baxır.

Qəbul otağında Polikarpov üstünə yeddi-səkkiz telefon düzülmüş mizin arxasında oturub. Bir telefon isə qalanlardan aralı çəkilib.

Olqa Aleksandrovskaya Polikarpovla üzbəüz kreslolardan birində əyləşib.

Telefonlar dayanmadan zəng çalır.

POLİKARPOV *(telefonun dəstəyini qaldıraraq).* Mümkün deyil! *(Dəstəyi yerinə qoyur.)*

Polikarpov telefon dəstəklərini bir-bir götürərək cavab verir:

- Məşğuldur!
- Sabah zəng edin!
- Mənə belə bir tapşırıq verilməyib!
- Çatdıraram!
- Bir dəqiqə. *(Qarşısındakı ikinci qalın dəftərə baxır.)* Sizi 23.30-da qəbul edəcək.
- Məşğuldur!

Və mexaniki bir çevikliklə qarşısındakı dəftərə zəng çalanların adlarını qeyd edir.

Kabinetdə isə Stalin pəncərənin qarşısından aralanıb, asta addımlarla yazı mizinə yaxınlaşır və qəlyanını götürüb, yandırmaq istəyir. Ancaq bir neçə an gözləyib, qəlyanı yenə yerinə qoyur və saata baxaraq, mizin üstündəki zəngi basır.

POLİKARPOV *(ayrıca dayanmış telefonun dəstəyi qaldırıb, cəld ayağa qalxaraq farağat dayanır).* Eşidirəm, yoldaş Stalin!

STALİN *(asta səslə).* Aleksandrovskaya gəlib?

POLİKARPOV. Bəli, yoldaş Stalin!

STALİN. Gəlsin...

POLİKARPOV *(dəstəyi asaraq).* Keçə bilərsiniz, yoldaş Aleksandrovskaya.

Olqa Aleksandrovskaya qalxıb irəliləyərək, meşin qapını açmaq istəyir, ancaq gücü çatmır və yardım üçün Polikarpova baxır. Polikarpov ona fikir verməyərək, qeydlərini edə-edə telefonlarla məşğuldur:

- Siz sabah zəng edin!
- Çatdırmışam!
- Mümkün deyil!
- Sizi saat 0.45-də qəbul edəcək!
- Məşğuldur!
- Saat 1.30-da sizinlə danışacaq! Hazır olun!

Olqa Aleksandrovskaya nəhayət ki, meşin qapını açmağa müyəssər olur və kabinetə keçib qapını örtür.

Qapının örtülməsi ilə telefonların səsi kəsilir və dərhal da qəbul otağı gözdən itir.

Görünən yalnız Stalinin kabinetidir.

STALİN *(eləcə asta addımlarla Olqa Aleksandrovskayaya yaxınlaşaraq, iki əli ilə də onun əllərindən tutur, bir müddət ona baxır və asta səslə).* Olqa!.. *(Sonra Olqa Aleksandrovskayanın bir əlini qaldırıb, öpür.)*

Kiçik pauza.

Çox qocalmışam, hə?
OLQA ALEKSANDROVSKAYA *(yüngülcə başını bulayaraq).* Ancaq...
STALİN. Ancaq nə?
OLQA ALEKSANDROVSKAYA. Çox yorğunsan...

Olqa Aleksandrovskaya əlini çəkmək istəyir. Stalin onun əlini buraxmır və bir müddət eləcə qapının ağzında dayanırlar.
Olqa Aleksandrovskaya araya çökmüş bu sükutda özünü açıq-aşkar naqolay hiss edir.

OLQA ALEKSANDROVSKAYA. Mən ilk dəfədir ki, sənin kabinetini görürəm, İosif...
STALİN *(onun əlini buraxaraq, divana tərəf işarə edir).* Keç, əyləş...

Olqa Aleksandrovskaya divanda oturur və maraqla kabineti gözdən keçirir.

(Ayaq üstə.) Olqa!.. Knyajna Olqa Aleksandrovskaya!..
OLQA ALEKSANDROVSKAYA. Knyajna yüz illik bir keçmişdə qalıb, İosif. Təkcə sən bunu hələ də unutmursan... Mən SSRİ Xalq artisti Olqa Aleksandrovskayayam.
STALİN. Knyajna və SSRİ Xalq artisti!.. Qəribə səslənir, hə? Axır vaxtlar bu, yadıma düşəndə içimdə gülmək tutur məni.
OLQA ALEKSANDROVSKAYA. Gör, nə qədər illər keçib, ancaq sən hələ də güləndə, içində gülürsən...
STALİN. Hə, çox illər keçib... *(Yazı mizinə yaxınlaşaraq, qəlyanı götürüb, yandırmaq istəyir, ancaq dayanır.)* Yox, sənin qəlyan tüstüsündən xoşun gəlmir...
OLQA ALEKSANDROVSKAYA *(mütəəssir).* Sən hələ bunu yaddan çıxarmamısan?

Stalin cavab verməyərək, asta addımlarla gəzişir.
Kiçik pauza.

STALİN. Nə deyirlər, nə danışırlar, Olqa? *(Gülümsəyir.)* Böyük Teatrın intriqalarından başqa!.. Yoldaş Stalindən nə deyirlər?
OLQA ALEKSANDROVSKAYA. Hamı yoldaş Stalini sevir...
STALİN. Hamı sevir və tərifləyir, hə? Səncə nə qədəri ürəkdən tərifləyir, nə qədəri boğazdan yuxarı? Nə qədəri də, əslində... *(Sözünə ara verərək.)* düşməndir!?
OLQA ALEKSANDROVSKAYA. Mən bunu deyə bilmərəm, İosif. Hər halda çoxu səni ürəkdən istəyir.
STALİN. Yalnız Olqa Aleksandrovskayadan başqa. Çünki onun genetik yaddaşı buna imkan vermir. Görünür, mən də, Olqa, genetikanı nahaq yaxına buraxmıram!

OLQA ALEKSANDROVSKAYA. İosif, mən səni istəməsəydim, iyirmi il bundan qabaq sənin yatağına girməzdim.

STALİN. Çünki sən də yoldaş Stalindən qorxurdun! Düz deyirəm, yoxsa, yox?

OLQA ALEKSANDROVSKAYA. Sən birinci dəfə telefonla mənə zəng eləyəndə, mən əvvəlcə inanmadım ki, Stalinlə danışıram... Sonra sən «Yevgeni Onegin»ə gəlmişdin, indiki kimi yadımdadır. Sən gələndə, həmişə olduğu kimi, teatrın divarları da həyəcan içində idi. Mən o qədər həyəcanlıydım ki, səhnəyə güclə çıxırdım, az qalırdı ki, Tatyananın ariyasını yarımçıq kəsib, səhnədən qaçım. Tamaşadan sonra gördüm ki, xalatımın cibində kağız var: məni maşın gözləyirdi.

Kiçik pauza.

Qorxu deyirsən... Əlbəttə, qorxu var idi, ancaq bir macəra romantikası, bir maraq da var idi. *(Elə bil, həmin hissləri təzədən yaşayır.)* Ərli gənc qadın idim, özüm də knyajna, mən nə etməli idim. Fikirləşirdim ki, tək özümlə yox, ərimlə də nə desən edə bilərlər. Naum Solomonoviç sakit adam idi, daima da Sibir qorxusu altında yaşayırdı, qardaşı biz evlənməzdən qabaq xalq düşməni kimi güllələnmişdi. Bir tərəfdən də, hə, o romantika... Birinci dəfə sənin yataq otağına girəndə də, qorxu var idi, əlbəttə, ancaq qorxudan da çox, mənim ürəyimi bir nağıl əhval-ruhiyyəsi bürümüşdü. Yataq otağında dediyim o sözlər də, indiki kimi yadımdadır: «... Yoldaş Stalin!.. Siz nə edirsiz, İosif Vissarionoviç?.. Yox...» Ancaq mənim o müqavimətim, əslində, razılıq idi... Sən də bunu çox gözəl başa düşürdün. Ancaq sonralar mən sənə biganə olsaydım, sənin çarpayına girməzdim, İosif. Sibirə gedərdim, özümü öldürərdim, ancaq sənin çarpayına girməzdim. Naum Solomonoviç on beş ildən çoxdur, o biri dünyadadı. Bilmirəm, indi orda məni bağışlayır, ya yox?.. Bunlar elə-belə sözlər deyil. O zaman, İosif, sən mənim üçün yoldaş Stalindən daha çox, Kobaydın. Əfsanəvi Koba...

STALİN *(fikirli).* Sən Koba haqqında nə bilirsən ki... Koba Robin Qud deyildi.

OLQA ALEKSANDROVSKAYA. Hər halda, mənə belə gəlirdi. Şeirlər yazan Koba! İnqilabçı Koba! Sürgünlərdən qaçan Koba!

STALİN. O şeirləri tapıb, rus dilinə tərcümə edənləri mən gərək güllələtdirəydim!

OLQA ALEKSANDROVSKAYA. İosif!..

STALİN. Sən indi də məndən qorxursan... Polikarpov özü zəng edib, səni dəvət etdi?

OLQA ALEKSANDROVSKAYA. Hə...

STALİN. Sən də qorxdun?

OLQA ALEKSANDROVSKAYA. Bilmirəm, bəlkə nostalgiya ilə bərabər, maraqla bərabər – zarafat deyil, bu qədər illər keçib – bir az da qorxu var idi...

STALİN. Biz səninlə axırıncı dəfə, gör, nə vaxt görüşmüşük... Bu keçən illər ərzində, sən heç məni görmək istəmirdin?

OLQA ALEKSANDROVSKAYA. İosif, mən səni hər gün görürəm. Qəzetlərdə, jurnallarda, kinoda... Hərdən mənim tamaşalarıma gəlib, öz lojanda oturanda da, mən səni, düzdü, uzaqdan da olsa, görürdüm. İosif, həqiqəti bilmək istəyirsənsə, mən səni görürdüm və sevinirdim. Sevinirdim ki, sən səhnəyə baxa-baxa, mənə qulaq asa-asa bizim görüşlərimizi xatırlayırsan... O görüşlər mənim üçün çox əzizdir, İosif...

STALİN. Ancaq o sevincin, o əzizliyin içində həmişə qorxu da olub...
OLQA ALEKSANDROVSKAYA. Nə bilim... Bəlkə də...
STALİN. Deməli, qorxmaq üçün səbəb var!
OLQA ALEKSANDROVSKAYA *(gülərək).* Sən ki, hələ indi də yada salırsan: «knyajna Olqa Aleksandrovskaya». Mən Sovet İttifaqında yəqin yeganə keçmiş knyaz qızıyam ki, güllələnməmişəm, xaricə qaçmamışam...
STALİN *(Olqa Aleksandrovskayanın yanında oturaraq).* Ancaq mənə görə yox, öz sənətinə görə. Mən bilirəm, Olqa, sən ürəyində sovet quruluşunu sevmirsən, hətta bu quruluşa nifrət edirsən. Ancaq bilirsən, sənin bu nifrətin mənasız bir şeydir. Ona görə ki, sən sovet mədəniyyətinin böyük nümayəndəsisən! Şalyapin knyaz oğlu deyildi. Sədə bir kəndçinin övladı idi. Düzdü, ona «Əlahəzrətin solisti» adını vermişdilər. Biz isə iyirminci illərin əvvəllərində «Respublikanın xalq artisti» adını təsis etdik və bu adı ilk dəfə ona verdik. «Respublikanın xalq artisti Fyodr Şalyapin»! Xalqın oğlunu əlahəzrətdən alıb, xalqa qaytardıq! Bəs, xalqın oğlu nə etdi? Qastrol adı ilə Amerikaya, Avropaya getdi. Əslində isə, dovşan kimi ölkədən qaçdı. Elə bir vaxt idi ki, sovet uşaqları acından ölürdü. Şalyapin isə kapitalist ölkələrində konsertlər verirdi, monarxist emiqrantların uşaqlarına yardım edirdi, xeyriyyəçiliklə məşğul olurdu. Biz xalqa xəyanət edən bu adamın «Xalq artisti» adını ləğv etdik ki, qoy, özünü xalqın yox, əlahəzrətin solisti hiss etsin... Görünür, bu, onun üçün daha xoşdur: «Əlahəzrətin solisti.» Ancaq sən, Olqa, öz böyük sənətinlə sovet xalqına xidmət edirsən! Sən sovet konservatoriyasının professorusan, sovet gənclərini sənətə gətirirsən! Sən donmuş Ladoqa ilə yük maşınında mühasirədə olan ac Leninqrada gedib, orada konsertlər verəndə, sovet insanına, sovet əsgərinə ruh verirdin!.. Və mən... mən sənlə fəxr edirdim!..
OLQA ALEKSANDROVSKAYA *(aşkar bir sevinclə).* Oy, İosif, sən mənim o konsertlərimdən də xəbərdarsan?
STALİN. Olqa... Olqa... Mən sənin romanlarından da xəbərdaram... Yox, yox, sən pərt olma, şaşırma, mən bunda pis bir şey görmürəm. Sən gözəl idin... Tək idin... Bəlkə də... bilmirəm... tənha idin...

Kiçik pauza.

Sən indi də gözəlsən, Olqa. Sənin sinənin altında, ürəyində nə var, o yalnız sənə aiddir, ancaq sən sinənin üstündə sovet ordenləri gəzdirirsən və o ordenlər həqiqətən sənin sənətinə görə verilib. Sən Stalin mükafatları alanda, ola bilər düşünmüsən ki, bu, mənə görədir. Yox, mən heç vaxt bunun təşəbbüskarı olmamışam, sən o mükafatları öz sənətinlə almısan. Sovet zəhmətkeşləri səni qiymətləndirirlər.
OLQA ALEKSANDROVSKAYA. İosif, bu qədər illərdən sonrakı görüşdə bu söhbət, səncə, qəribə deyil? *(Maraqla kabineti gözdən keçirir.)* Yoldaş Stalinin kabineti... Bu kabinet uzun illər boyu kimləri... kimləri görməyib?..
STALİN *(ayağa qalxaraq).* Onların çoxu indi ordan mənə baxır. *(Barmağını yuxarı tuşlayır.)* Ordan!.. *(Yenə gəzişir.)* Kimlərisə Allah çağırıb, kimlərisə ondan icazəsiz mən ora göndərmişəm. Bilirəm, Olqa, sən dindarsan. Sən o vaxtlar da gizlincə boynunda xaç gəzdirirdin. Soyunanda o xaçı açıb, məndən gizlədirdin. *(Yenə barmağını yuxarı tuşlayır.)* Ondan yox, məndən qorxurdun... *(Ayaq saxlayaraq, təbəssümlə.)* Olqa, səncə, yoldaş Stalindən nəsə gizlətmək olar? *(Var-gəlinə davam edir.)* İndi də əminəm: boynundan xaç asılıb. O xaç yanlız ona görə sənə əziz deyil ki, nənəndən, ya anandan yadigar qalıb, ən başlıcası ona görə ki, o, sənin təskinliyindir. Sən Allaha inanırsan.

OLQA ALEKSANDROVSKAYA. Bəs, sən, İosif?

STALİN. Mən? Mən qocaldıqca, deyəsən, bir az səfehləyirəm, Olqa... Axır vaxtlar cürbəcür fikirlər girir beynimə... Hər halda... yox! İnanmıram! Bilirsən, niyə? Çünki mən heç nəyə inanmıram! Qabaqlar heç kimə inanmırdım, indi heç nəyə inanmıram! Bu, dəhşətdir, hə? *(Sarkazm ilə.)* Yoldaş Stalin heç kimə və heç nəyə inanmayan bir insandır!

Kiçik pauza.

(İstehza ilə.) İnsandır? İnsandır, yoxsa Allahdır, hə, Olqa?

OLQA ALEKSANDROVSKAYA. İosif, sən çox yorğunsan...

STALİN *(gülümsəyir).* Sovet İttifaqının ən böyük düşməni Çörçildir. Mən Tehranda da, Yaltada da, Potsdamda da onunla yanaşı oturanda, onun gizlətmək istədiyi nifrətini – söhbət şəxsən məndən getmir, bizə, Sovet İttifaqına, kommunizmə, bizim gücümüzə nifrətini cismani hiss edirdim. Ancaq onun bir yaxşı sözü var: «Hakimiyyət – yorur, hüdudsuz hakimiyyət isə – hüdudsuz dərəcədə yorur.» Hm... qəribədir, mən bunları sənə nə üçün danışıram? Ona görə ki, azad, sərbəst danışdığım yeganə adam sənsən? Ola bilər... Yəqin belədir... Səninlə də, gör, neçə illərdir görüşmürük. Müharibə... Sonra da bu ağır illər... Bir maraqlı şey deyim sənə? Hərdən öz-özümə də səninlə danışıram.

OLQA ALEKSANDROVSKAYA *(mütəəssir).* Gəl bura, gəl mənim yanımda otur, İosif.

Stalin, elə bil, bu sözləri eşitmir və eləcə var-gəl edir.

Heç olmasa nəvələrinlə görüşməyə vaxt tapırsan, İosif?

STALİN. Məsələ vaxtda deyil. Mənim nəvələrimin nə üçün xüsusi imtiyazı olmalıdır? Sovet İttifaqındakı nəvələrin hamısının babası yoldaş Stalin deyil? Onlar mənimlə görüşə bilir? Mənim nəvələrim də onlardan biridir!

OLQA ALEKSANDROVSKAYA. Axı, həyatın öz qanunları var...

STALİN. Həyatın yalnız iki qanunu var: dünyaya gəlmək və dünyadan getmək. Qalan qanunları hakimiyyət yaradır! Həmişə də belə olub! Sadəcə, formalar dəyişib. Hakimiyyət və saray! *(Barmağını yuxarı tuşlayır.)* O, hakimiyyəti yaradanda sui-qəsdləri və çevrilişləri, siyasi satqınlığı və riyakarlığı, yaltaqlığı və xəyanəti də hakimiyyətlə birlikdə yaradıb. Epoxalar dəyişir, siyasi formasiyalar dəyişir, ancaq saray həmin saraydır. Dünən adı bir cür idi, bu gün Siyasi Bürodur, sabah başqa adı olacaq, mahiyyət isə dəyişməzdir. Napoleonun yanında daima Taleyranın olması mütləqdir.

OLQA ALEKSANDROVSKAYA. Sənin ki, bütün ətrafın sadiq silahdaşlarındır...

STALİN. İuda da İsusun sadiq silahdaşı idi, Olqa...

Pauza.

OLQA ALEKSANDROVSKAYA. Sən bütün ömründə kimisə sevmisən, İosif?

Stalin pəncərənin qarşısında ayaq saxlayıb, tünd rəngli, qalın və ağır pərdəni aralayaraq, çölə baxır.

STALİN. Qar yağır...

OLQA ALEKSANDROVSKAYA. Sən heç olmasa dırnağının ucu qədər məni sevmisən?

STALİN. Səni sevənlər az olmayıb, Olqa!

OLQA ALEKSANDROVSKAYA. Sən elə bilirsən ki, mən onların hamısından soruşmuşam ki, məni seviblər, ya yox? Buna ehtiyac olmayıb. Mən səndən soruşuram, İosif.

Stalin pəncərənin qarşısından aralanıb, yenə var-gəl edir.

STALİN *(təbəssümlə).* Mənə çox gülməli gəlir... «Yoldaş Aleksandrovskaya!» Ya da, «yoldaş Olqa.» «Yoldaş knyaz qızı Olqa Aleksandrovskaya!» Necə səslənir? Sovet İttifaqında yeganə adamsan ki, sənə heç cürə «yoldaş» deyə bilmərəm! Aleksey Tolstoy mənim üçün qraf yox, «yoldaş Tolstoy»dur. Uzaqbaşı *(Gülümsəyir.)* «qırmızı qraf»dır... Ancaq sən «yoldaş Aleksandrovskaya» deyilsən.

OLQA ALEKSANDROVSKAYA. Sən mənim sualıma cavab vermədin, İosif!

STALİN. Bəyəm bu cavab deyil?

OLQA ALEKSANDROVSKAYA. Nə? Mənə «yoldaş» deyə bilməməyin?

STALİN. Bəyəm bu azdır, Olqa? *(Gəzişə-gəzişə.)* Pu İ – Mancuriyanın imperatoru, qədim Çin imperatorlor nəslinin son nümayəndəsi, müharibədən sonra bizim əsirimiz idi. Onu Xabarovskdakı düşərgədə saxlayırdıq. *(Gülümsəyir.)* Ordan mənə məktub yazmışdı ki, onu Çinə təhvil verməyək, qorxurdu... Yazırdı ki, marksizm-leninizmi öyrənir, partiya üzvü olmaq istəyir, xahiş edirdi, onu partiyaya üzv qəbul edək.

OLQA ALEKSANDROVSKAYA. Kommunist partiyasına?

STALİN *(aşkar bir tənə ilə ayaq saxlayır).* Bizdə başqa partiya var, Olqa? *(Yenə gəzişə-gəzişə.)* «Yoldaş imperator...» Gülməlidir, hə?

OLQA ALEKSANDROVSKAYA. Gülməli?.. Məncə... məncə, daha çox faciəvidir. Bəs, sən nə etdin?

STALİN. Onu Çinə göndərdim.

Kiçik pauza.

Belə-belə işlər, Tamara!..

OLQA ALEKSANDROVSKAYA. Tamara? Tamara sənin yadından çıxmır... Qafqaz qızı Tamara... Qafqazı sənin yadına salır?

STALİN. Yox...

OLQA ALEKSANDROVSKAYA. Bəs, niyə, İosif? Bu qədər illər keçib...

STALİN. Mərhəmətinə görə.

Stalin uzun iclas mizinə yaxınlaşaraq, stəkan götürür və su tökür.

Su içirsən?

OLQA ALEKSANDROVSKAYA. Yox, sağ ol.

STALİN *(bir-iki qurtum su içərək, stəkanı yerinə qoyur və asta addımlarla pəncərəyə yaxınlaşır, yenə ağır pərdəni kənara çəkib, çölə baxaraq).* Qar daha da bərkiyir...

Pauza.

Tamara da knyaz qızı idi... Araqvinin sahilində yaşayan təmiz, gözəl, azad bir qız...

Kiçik pauza.

Heç kim olan, rusca aksentlə danışan, Sibirdən qaçıb gəlmiş bir gürcü Böyük Teatr balkonunun son sıralarında oturub Rubinşteynin «Demon»una baxır... Hər dəfə bunu yadıma salanda, elə bil, o anları yenidən yaşayıram...

OLQA ALEKSANDROVSKAYA. Bilsən, İosif, mən nə qədər istərdim ki, onda səni görəydim. Səni, Kobanı! Təəssüf!.. Çox təəssüf!.. Mən nə biləydim, tək mən yox, aktyorların hamısı, o günkü tamaşaçılar, bütün Böyük Teatr nə biləydi ki, gələcəyin yoldaş Stalini həmin zalda oturub tamaşaya baxır?

STALİN. Qırx ildən də çox keçib, ancaq elə bil, dünən idi...

OLQA ALEKSANDROVSKAYA *(yarızarafatla).* İlləri tez-tez yada salma, İosif!

STALİN. Olqa, sən həmişə cavansan! Mələk sənin Tamaranın ruhunu göylərə apardı... Sənin Tamaran bağışlanıb! O, cənnətdədir! İblis isə yenə əbədi tənhalığa məhkumdur... *(Bir neçə an sükutdan sonra, yavaşdan, elə bil, öz-özünə söyləyir.)*

И Ангел строгими очами
На искусители взглянул.
И, радостно взмахнув крылями,
В сиянье неба потонул.
И проклял Демон побежденный
Мечты безумные свои,
И внов остался он, надменный,
Один, как прежде, во веселенной
Без упованья и любви!..

Pauza.

Tamara İblislə öpüşdü, ancaq Olqa, bizim görüşlərimizdə mənə elə gəlirdi ki, onun öpüşü həmişəlik sənin dodaqlarındadır, ona görə də o dodaqlar o cürə alışıb-yanırdı. Mən səni öpəndə, Tamaranın dodaqlarında qalmış İblis təmini hiss edirdim. Mən Böyük Teatrda o zaman hələ xalqına xəyanət etməmiş Şalyapinin İblisinə, sənin Tamarana qulaq asdıqca, bu sənətin qarşısında özümü kimsəsiz bir küçə küçüyü kimi hiss edirdim. Mən gözlərimi yumurdum ki, heç nə görməyim. Ancaq sənə qulaq asanda sifətin, bədənin gözlərimin qabağına gəlirdi. Sənin ariyaların, elə bil, səni soyundururdu, ancaq mən bilirdim ki, sənin çılpaq bədənin məndən çox uzaqlardadır!.. Mən başa düşürdüm ki, bu əbədi bir uzaqlıqdır!.. Mən başa düşürdüm ki, ailəsinin sözünə baxmayıb, knyaz Aleksandrovskinin qadağalarına məhəl qoymayıb səhnəyə çıxan, inadkarlığı az qala əfsanəyə çevrilmiş gənc knyaz qızı Olqa Aleksandrovskaya məndən uzaq olduğu qədər də, lojalarda oturub, əyinlərindəki fraklarda toyuğa oxşayan özündənrazı o bantlı ağalara yaxındır. Mən o ağalarla bərabər, o bərbəzəkli lojaları da partlatmaq istəyirdim. Mənə elə gəlirdi ki, o ağalar heç vaxt Tamaranı başa düşməz. Onlar Tamaranı yalnız ittiham edə bilərlər, çünki Tamara İblisin sevgisini hiss etdi, İblisin eşqinə inandı, İblisin tənhalığa məhkumluğu, bəlkə özünün də xəbəri olmadan Tamaranın ürəyini ağrıtdı. Bu böyük bir mərhəmət idi ki, sevgiyə çevrildi. Tamaranın bu sevgisi İblisə təmiz, pak bir ruh verirdi, bəlkə də onu o

məhkumluqdan qurtaracaqdı?.. Bəlkə İblisin ürəyində çaxmış o zəif qığılcım bir işığa çevriləcəkdi, hə?.. Onun ürəyini qızdıracaqdı?.. Onun ürəyindəki o kini, kədəri dağıdacaqdı?..

Kiçik pauza.

Bu əfsanəni kim yaradıb? İnsanlar. Kim onu dahiyanə poemaya çevirib? Dahi Lermontov! Ancaq bu sevgiyə, bu mərhəmətə görə Tamaranı müqəddəs etməkdənsə, onlar «Kinli, qorxuc ruh» uydurub, Tamaranı əvvəlcə öldürürlər, sonra da yalançı «Xeyir Mələyi» uydurub, onu cənnətə aparırlar. Yəni *(Barmağını yuxarı tuşlayaraq.)* O, Tamaranı bağışlayır. Tamaranın günahı nə idi ki, onu bağışlayırdılar? Bəlkə Tamaranın mərhəməti, Tamaranın sevgisi İblisi də cənnətə layiq edəcəkdi? Bəlkə o mərhəmət, o sevgi İblisin də içinə dolub, onu cənnətlik edəcəkdi? Bəlkə onu da özü ilə çəkib cənnətə aparacaqdı?

Kiçik pauza.

İblisin həyata nifrətinin, onun tənhalığının günahkarı insandır və insanın uydurduğu Allahdır. *(Pəncərənin qarşısından ayrılaraq, Olqa Aleksandrovskayaya yaxınlaşır və onun əlindən tutur.)* Sən buradan hara gedəcəksən?

OLQA ALEKSANDROVSKAYA. Konservatoriyaya. Bir azdan dərsim başlayır.

STALİN. Yox... Sən *(Barmağı ilə pəncərəyə işarə edir.)* o qarda addımlaya-addımlaya Kremldən çıxıb azadlığa gedəcəksən.

OLQA ALEKSANDROVSKAYA. Bəs sən nə edəcəksən?

STALİN. Mən? *(gülümsünür.)* Mən bu kabinetdə Özbəkistanlı yoldaşlarla pambıq müşavirəsi keçirəcəyəm.

Olqa Aleksandrovskaya ayağa qalxır. Stalin onun əlini öpür.

Bu düzdür ki, Olqa, knyaz Aleksandrovski imperatordan xahiş edib ki, sənə təsir etsin, səhnəyə çıxmayasan, ancaq sən imperatorun da sözünə baxmamısan?

OLQA ALEKSANDROVSKAYA. Mənə elə gəlir ki, İosif, keçmişdə nələr olubsa – hamısı yuxudur...

Sol tərəfdəki qapıya yaxınlaşıb, dayanırlar.

STALİN. Mən, deyəsən, mənasız söhbətlərlə səni yordum.

Olqa Aleksandrovskaya bir söz deməyərək, gözlənilmədən Stalinin üzündən öpür və bu dəfə zərblə meşin qapını açaraq, kabinetdən çıxır.

İşıq sönür.

DÖRDÜNCÜ ŞƏKİL

Moskva. Konsperativ mənzil. Gecə.

Nazirlər kuratoru, Partiya kuratoru, Təhlükəsizlik kuratoru, Ticarət kuratoru.

Siyasi Büro üzvləri görüş yerinə yenicə gəlmişlər.

TƏHLÜKƏSİZLİK KURATORU. Soyunun, yoldaşlar... Əyləşin...

Kuratorlar paltolarını soyunub, şlyapalarını çıxarıb, hərəsi bir tərəfə atır və girdə mizin arxasında əyləşirlər.

TİCARƏT KURATORU. Biz əmin ola bilərik ki, bura təhlükəsiz bir yerdir?

TƏHLÜKƏSİZLİK KURATORU. Məndən başqa bu konsperativ mənzildən heç kimin xəbəri yoxdur. Açarı da şəxsən mənim özümdədir.

TİCARƏT KURATORU. Heç kimin?

TƏHLÜKƏSİZLİK KURATORU *(acıqlı bir istehza ilə).* Xəbəri olanlar artıq mələklərlə dərdləşirlər.

PARTİYA KURATORU. Yəni deyirsən ki, Polikarpov bura burnunu soxmayıb?

TƏHLÜKƏSİZLİK KURATORU. Ümid edirəm ki, yox. Ancaq bilmirəm, bizlərdən kimisə izləyiblər bura gələndə, ya yox?

TİCARƏT KURATORU. Mən kürəkənimin maşınında gəlmişəm.

NAZİRLƏR KURATORU. Sənin kürəkəninin maşınını izləmək, çətin işdir?

TƏHLÜKƏSİZLİK KURATORU. Yoldaşlar, artıq bu söhbətin mənası yoxdur. Hər şey ola bilər. Bu, bəlkə də bizim son görüşümüzdür. Başqa bir yol yoxdur! Ya biz, ya da o qoca paranoik!

NAZİRLƏR KURATORU. Bizim dördümüzü də qaralayıb. O birilərini, bizim fədakar bolşevikləri, Leninin silahdaşlarını necə cəhənnəmə göndəribsə, bizi də eləcə ora göndərəcək.

PARTİYA KURATORU. Cəhənnəmə niyə?

NAZİRLƏR KURATORU. Bizim o qədər günahlarımız var ki...

TƏHLÜKƏSİZLİK KURATORU. Ən böyük günahımız ölkəni bu qoca paranoikin öhdəsinə buraxmaqdır. Özümüz heç, bəs, bu ölkə nə olacaq? Gələcək nəsillər şəkillərimizə tüpürməyəcəklər ki, əlinizdə bu qədər ixtiyar vardı, bəs, siz hara baxırdız?

TİCARƏT KURATORU. Biz niyə heç? Biz insan deyilik? Bizim ailəmiz yoxdur? Biz yaşamaq istəmirik? *(Nazirlər kuratoruna.)* Səni məcbur etmədi ki, arvadını boşayasan, onu da ingilis casusu kimi Sibirə göndərmədi? *(Təhlükəsizlik kuratoruna.)* Sənin qardaşını trotskiçi kimi güllələmədi?

PARTİYA KURATORU. Özünün! Özünün yaxın-uzaq qohumu qalmayıb, hamısını xalq düşməni kimi güllələyib, Sibirə göndərib! Sabah...

TİCARƏT KURATORU *(onun sözünü kəsərək).* Biz də məcbur olub, o güllələnmə siyahılarına qol çəkmişik...

PARTİYA KURATORU *(davam edir).* Sabah oğlunu, ya qızını da ingilis casusu, ya Titonun adamı elan etsə, onları xalq düşməni kimi güllələsə, mən təəccüblənmərəm!

TİCARƏT KURATORU. Tito bir bəhanə idi. Siz bunu başa düşmədiz?!

NAZİRLƏR KURATORU. Bizimki daha təəccüblənməkdən çoxdan keçib! Görmürsən, yəhudilərə qarşı necə gizli nifrət var içində? *(Yamsılayır.)* «Siz yəhudi deyilsiz, siz kommunistsiz.» Yəhudi kommunist ola bilməz? Marks kim idi?

TİCARƏT KURATORU. O, nə deyirsə, məqsədlə deyir. Yenə nəsə fikirləşib. İsraili də elə-belə demədi, mənim burnum yeni bir kampaniyanın abhavasını hiss edir... Bəs, o Bağırov söhbətini eşitmədiz? Mənə deyir ki, Bağırovla dostsuz!.. Guya bilmir ki, Bağırov mənimlə düşmənçilik edir? *(Təhlükəsizlik kuratoruna.)* Bağırov sənin dostundur, ancaq mənə deyir.

TƏHLÜKƏSİZLİK KURATORU. Əslində elə mənə eşitdirirdi. Bu tiran üçün insan, ya milçək – fərqi yoxdu! Yaltada təklif etdi ki, əlli min alman zabiti məhkəməsiz güllələnsin. Əlli min! Təsəvvür edirsiz? Əlli min insan – məhkəməsiz! Mən orda idim. Çörçilin də, Ruzveltin də gözləri çıxmışdı kəllələrinə. Təkid edirdi! Çörçil dedi ki, Böyük Britaniya heç vaxt buna razı olmayacaq! Axırda otaqdan çıxıb, qapını da çırpdı.

NAZİRLƏR KURATORU. Ancaq bu Kalliqula həmişə gecikə-gecikə danışıqlar zalına girəndə, Çörçil sıravi əsgər kimi ayağa qalxırdı.

TİCARƏT KURATORU. Stalinin otağına kim... *(Sözünü yarımçıq kəsib, Təhlükəsizlik kuratoruna baxır.)* Sən bura mikrofon qoymamısan ki?

TƏHLÜKƏSİZLİK KURATORU. Bu dəfə yox. Sözünü de, qurtar.

TİCARƏT KURATORU. Onun kabinetinə kim birinci dəfə girir, çıxanda başı ağarır.

PARTİYA KURATORU *(aşkar bir kin-küdurətlə).* Ancaq sənin başında ağ tük yoxdur!

TİCARƏT KURATORU. Nə olsun? Bizim Zaqafqaziyada müsəlmanlar meyitləri ağ parçaya büküb, dəfn edirdilər. O vaxtdan mənim üçün ağ rəng – qorxulu rəngdir.

NAZİRLƏR KURATORU. Onda mənim bütün içimdə ağdan başqa rəng yoxdur. Bəyəm tək mənim?

TƏHLÜKƏSİZLİK KURATORU. Sizə bir daha deyirəm, məndə məlumat var: o, bizi xalq düşməni elan edəcək və *(Sözləri hecalayır.)* gül-lə-lə-dəcək. İntuisiya mənə deyir ki, bu, səhv məlumat deyil.

PARTİYA KURATORU. Bir sözlə, bizim daha vaxtımız yoxdur. Sabah məsələ həll olunmalıdır!

TƏHLÜKƏSİZLİK KURATORU. Hələ məlum deyil ki, sabaha sağ çıxacağıq, ya yox?

PARTİYA KURATORU. Ona görə də biz bu gün qərar verməliyik!

TİCARƏT KURATORU. Dünən hiss etmədiz ki, sondur? Mənim hissiyyatım heç vaxt məni aldatmayıb. Bu, sondur! Görmədiz, hələ qurultay vaxtı cibindən heç kimin görmədiyi siyahını çıxarıb, Siyasi Büronu uşaq-muşaqla necə doldurdu? Guya, bunları Mərkəzi Komitə seçdi!.. Mən elə onda hiss etdim ki, bütün bu həngamə bizi əvəz etmək üçündür! Onun üçün bizi əvəz etmək nə deməkdir? Məhv etmək! Bizi dövlətin əleyhinə işləyən antipartiya qrupu yaratmaqda ittiham edib, xalqın tələbi ilə güllələmək! Məqsəd budur! Dördümüzü də nişan alıb, bu gün-sabah tüfəngin tətiyini çəkəcək!

PARTİYA KURATORU. Fikir vermədiz, dünən mənimlə necə ikibaşlı danışırdı!

TİCARƏT KURATORU. Bəs, mənimlə?! Guya ki, Ermitajdakı rəsmləri Qalust Gülbenkyana mən özbaşına satmışam? Neynəmişəm, onun pulunu cibimə qoymuşam? Onun puluna biz Rastovda o boyda zavod tikdirdik! *(Nazirlər kuratoruna.)* Sənin yadında deyil?

NAZİRLƏR KURATORU. Necə yadımda deyil!? Biz Ermitajdan Rafaeli, Tisianı, Van Deyki götürüb kapitalistlərə satdıq, bəli! Ancaq əvəzində Azərbaycandan tutmuş Barnaulacan, Leninqraddan tutmuş bilmirəm haracan, onlarla fabrik-zavod tikdik! Maqnitka, Dneproqes, Uralmaş!..

TİCARƏT KURATORU *(sarkazm ilə).* Bəs, bilmirsiz?! O fabriklər, zavodlar olmasaydı, Rafaellə Tisian əl-ələ verib, Hitleri məğlub edəcəkdi!

PARTİYA KURATORU. Mən o Belomorkanalda canımı qoymuşam, ad isə onunkudur! Dahi rəhbərin!

TİCARƏT KURATORU *(yamsılayır).* «İyirmi yeddi Bakı komissarı oldu iyirmi altı...» 30 ildir bunu əlində süngü eləyib, mənim ürəyimə sancır.

TƏHLÜKƏSİZLİK KURATORU. İndi bu qaranlıq məsələni xatırlamağın yeri deyil.

TİCARƏT KURATORU *(hiddətlə).* Nə? Qaranlıq? Mənim bolşevikliyim sual altındadır? Bilirəm, biz onu ləvğ edəndən sonra – əgər ləğv edə bilsək! – bunu siz də əlinizdə mənə qarşı süngü edəcəksiz.

PARTİYA KURATORU. Biz yenə bir-birimizlə çəkişməyə başlasaq, heç nə edə bilməyəcəyik.

NAZİRLƏR KURATORU. Ona da elə bu lazımdır! Dünən de Qoll zəng etməsəydi, kim bilir, hələ nə olacaqdı...

TƏHLÜKƏSİZLİK KURATORU. Kaladzenin iti söhbəti!.. Şeyx nağılı!.. Siz ki, yaxşı bilirsiz, o, elə-belə söz deyən deyil!

TİCARƏT KURATORU. Bəs, o sayıqlıq söhbəti?!

PARTİYA KURATORU. De Qoll zəng edib, o saat da bizi kabinetdən çıxardır. *(Yamsılayır.)* «Siz gedə bilərsiz.» Bizim yanımızda de Qolla danışmaq olmaz? Biz kimik? Biz də bu ölkənin rəhbərləriyik!.. Biz bilməməliyik ki, de Qoll nə deyir? Niyə sən onun zəngini gözləyirsən? Özün ona nə deyəcəksən?!

TİCARƏT KURATORU. Hələ bilmək olmaz ki, de Qoll doğrudan zəng etmişdi, yoxsa, bu da onun qurduğu oyunun bir bəndi idi? Bilmək olmaz...

NAZİRLƏR KURATORU. Sabah yenə bizi çağırıb. Özü də günorta! Son illərdə onun günorta iclas etməsi mənim yadıma gəlmir!

TƏHLÜKƏSİZLİK KURATORU. Dünənki kimi, yenə yalnız dördümüzü!

TİCARƏT KURATORU. Hissiyyatım mənə deyir ki, Polikarpov sabah bizi o mənfur kabinetdən birbaşa Lyublyankaya yola salacaq!

NAZİRLƏR KURATORU. Biz dövləti onun əlindən xilas etməliyik!

TİCARƏT KURATORU. Özümüzü də! Bəli, dövləti və özümüzü xilas etməliyik!

TƏHLÜKƏSİZLİK KURATORU *(əsəbi).* Sabah o, yox olmalıdır! Məhv olmalıdır! *(Tərini silir.)* Mən hər şeyi hazırlamışam!

NAZİRLƏR KURATORU. Xalqa nə deyəcəyik?

TƏHLÜKƏSİZLİK KURATORU. Əvvəlcə xəstəliyi barədə məlumat verəcəyik. *(Şalvarının cibindən kağız çıxarıb oxuyur).* «SSRİ Nazirlər Sovetinin sədri və Sov.İKP Mərkəzi Komitəsinin katibi İosif Vissarionoviç Stalin yoldaşın xəstələnməsi haqqında hökumət məlumatı. Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti partiyamıza və xalqımıza bədbəxtlik üz verdiyini – Stalin yoldaşın ağır xəstələndiyini xəbər verirlər.» Sonra diaqnozu, guya beyninə qan sızıb, müalicə edən həkimlərin adı. İstəmirəm, hamısını oxuyub, vaxtımızı itirək.

TİCARƏT KURATORU. Özü morqda olacaq də?

TƏHLÜKƏSİZLİK KURATORU. Əlbəttə. İkinci gün *(Şalvarının o biri cibindən kağız çıxarır.)* partiyanın bütün üzvlərinə, Sovet İttifaqının bütün zöhmətkeşlərinə ölümü haqqında xəbər veririk. *(Kağıza baxa-baxa.)* Ayın filanında, filan saatda ağır xəstəlikdən sonra vəfat edib. *(Oxuyur.)* «Leninin silahdaşı və onun işinin dahi davametdiricisi, Kommunist partiyasının və sovet xalqının müdrik rəhbəri və müəllimi yoldaş Stalinin qəlbi döyünməkdən qaldı. Stalinin adı partiyamız üçün, sovet xalqı üçün, bütün dünya zəhmətkeşləri üçün hədsiz dərəcədə əzizdir.» Və sairə.

TİCARƏT KURATORU. Burada dəqiq mikrafon yoxdu?

PARTİYA KURATORU. Olsa da, artıq iş işdən keçib!

NAZİRLƏR KURATORU. Ölümü haqqında tibbi arayış?

TƏHLÜKƏSİZLİK KURATORU *(pencəyinin döş cibindən kağız çıxarır).* Hazırdır.

NAZİRLƏR KURATORU. Bunu kim imzalayacaq?
TƏHLÜKƏSİZLİK KURATORU. Səhiyyə naziri Tretyakov. Kremlin Müalicə-Sanitariya İdarəsinin rəisi Kuperin.
TİCARƏT KURATORU. İmzalayacaqlar?
TƏHLÜKƏSİZLİK KURATORU. Biləndə ki, ölüb, nə verəcəyik, imzalayacaqlar.
PARTİYA KURATORU. Aydın məsələdir.
TƏHLÜKƏSİZLİK KURATORU. Altı nəfər professor hazırlamışıq. İki akademik, üç professor, müalicə edən həkim.
TİCARƏT KURATORU *(dəhşətlə).* Hazırlamısız?! İndi də azad gəzirlər?!
TƏHLÜKƏSİZLİK KURATORU. İzolyatordadırlar.
PARTİYA KURATORU. Aralarında bir gürcü də olsaydı, yaxşı olardı.
TƏHLÜKƏSİZLİK KURATORU. Mən də bu fikirdəyəm. Ancaq birini tapa bilmirik razılıq versin. İki gürcü professor buna görə xalq düşməni kimi güllələnib. Mən bütün gürcü professorları məsələdən agah edib, sonra da güllələyə bilmərəm ki!
NAZİRLƏR KURATORU. Güllələmə kabus kimi bizdən əl çəkmir...
TƏHLÜKƏSİZLİK KURATORU. Biz nə etməliydik? Belə təklifdən sonra, mən onları sağ buraxmalıydım?
TİCARƏT KURATORU *(tələsik).* Yox, yox!.. Əlbəttə!..
NAZİRLƏR KURATORU. Dəfni?
TƏHLÜKƏSİZLİK KURATORU. Özümüzdən ibarət dəfn komissiyası.
PARTİYA KURATORU *(dərhal).* Sədri kim olacaq?
TƏHLÜKƏSİZLİK KURATORU. Onu sonra müəyyən edərik.
NAZİRLƏR KURATORU. Dəfn məsələsi?
TƏHLÜKƏSİZLİK KURATORU *(pencəyinin o biri döş cibindən kağız çıxarır).* Partiyanın, Nazirlər sovetinin qərarı olacaq. *(Oxuyur.)* «Yoldaş Stalinin cənazəsi qoyulmuş sarkofaq Qızıl meydandakı V.İ.Leninin sarkofaqı yanında saxlanılsın.»
NAZİRLƏR KURATORU. Zəhmətkeşlər onunla harda vidalaşacaqlar?
TƏHLÜKƏSİZLİK KURATORU. Qərar çıxaracağıq ki, vidalaşma mərasimi İttifaq Evinin Sütunlu salonunda keçirilsin. Dörd gün ölkədə matəm elan edəcəyik. Hamımız orda olmalıyıq. Tez-tez fəxri qarovulda durmalıyıq.
TİCARƏT KURATORU. Dörd gün?.. Naharı da orda edəcəyik?
TƏHLÜKƏSİZLİK KURATORU *(elə bil, onun sözlərini eşitmir).* Dəfn mərasimi Qızıl meydanda keçiriləcək. Hərbi parad olacaq. Toplardan atəş açılacaq.
NAZİRLƏR KURATORU. Fadeyevə tapşırmaq lazımdır ki, şairlər şeirlər yazsınlar.
TİCARƏT KURATORU. Nə tapşırıq? Özləri o saat başlayacaqlar yazmağa.
TƏHLÜKƏSİZLİK KURATORU. Vida mitinqi mavzoleyin tribunasında olacaq.
PARTİYA KURATORU *(dərhal).* Mitinqi kim açacaq?
TƏHLÜKƏSİZLİK KURATORU. Onu sonra müəyyən edərik.
PARTİYA KURATORU. Elə sonra, sonra! Əsas məsələ bundadır.
NAZİRLƏR KURATORU. Xeyr, əsas məsələ odur ki, bu qoca kaftar necə aradan götürüləcək? Onu qoruyan o qədər orqan işçiləri, onun o qədər keşikçiləri, xidmətçiləri!..
TİCARƏT KURATORU. Gözəgörünməz adamları?!
NAZİRLƏR KURATORU. Polikarpov?!
TİCARƏT KURATORU. Hə, hə! Polikarpov?!

TƏHLÜKƏSİZLİK KURATORU. Bəli, əsas məsələ də elə burasındadır! Nə qədər ki, Polikarpov sağdır, mənim adamlarım onları tərksilah edə bilməyəcəklər. Hay-küy düşəcək, Polikarpov duyuq düşəcək, qoca da o saat xəbər tutacaq. Onun da kabinetində yüz dənə düymə var! İlanı başından əzmək lazımdır! Əvvəlcə qoca!

PARTİYA KURATORU. Cəhənnəm onun yolunu çoxdan gözləyir!

NAZİRLƏR KURATORU. Özü də guya ateistdir! Bizim yanımızda ateistdir, guya dinin qəddar düşmənidir, ancaq tək qalanda, mənim buna şübhəm yoxdur, Allaha yalvarır!

TİCARƏT KURATORU. Çox düzdür!

PARTİYATORU. Sən Allaha yalvarmırsan?

TİCARƏT KURATORU. Xeyr! Mən ateistəm!

TƏHLÜKƏSİZLİK KURATORU *(əsəbi).* Bəsdirin! İndi Allah-mallah söhbətinin yeridi?! İndi ancaq bir yol var: biz onu məhv etməliyik! Kabinetə silahla keçmək mümkün deyil. Biz də, elə bil, adi adamlarıq, Polikarpovun yanına gələnəcən on dəfə yoxlayırlar. *(Gözlənilmədən Partiya kuratoruna.)* Onu sən boğacaqsan!

PARTİYA KURATORU *(qəzəbli).* Nə? Mən? Mən niyə? Niyə sən yox?

TƏHLÜKƏSİZLİK KURATORU *(mizin üstündəki kağızları göstərərək.)* Bu kağızlardan biri bəsdir ki, mən bütün nəslimlə məhv olum! Hər şeyi mən etməliyəm ki, siz də rahatca canınızı xilas edəsiz?

PARTİYA KURATORU *(Nazirlər kuratorunu göstərir).* Onda niyə o yox, *(Ticarət kuratorunu göstərir.)* o yox, mən?!

TƏHLÜKƏSİZLİK KURATORU. Sənin təcrübən var. Kabinetində marşal Perovskini boğub öldürmədin?!

TİCARƏT KURATORU. Düzdür!

PARTİYA KURATORU. O, xalq düşməni idi!

TƏHLÜKƏSİZLİK KURATORU. Bəs, bu kimdi? Cənnətməkan əhlidir? Göydən enib yerə?

TİCARƏT KURATORU *(istehza ilə).* Yəqin elədir!

NAZİRLƏR KURATORU. Ən böyük xalq düşməni elə o özüdür!

PARTİYA KURATORU. Mən qəti etiraz edirəm! Mən partiyanın adından etiraz edirəm!

NAZİRLƏR KURATORU. Partiyanın adından etiraz edirsən ki, ona əl dəyməsinlər?

PARTİYA KURATORU. Mən elə demədim.

TƏHLÜKƏSİZLİK KURATORU. Yaxşı! Bəsdir! Mən əvvəldən bilirdim ki, belə olacaq! Püşk atacağıq! Kimə düşdü, düşdü!

NAZİRLƏR KURATORU. Başqa nə edə bilərik ki?

TİCARƏT KURATORU. Necə? Püşk? Nə püşk?! Bu, nə oyundur? Mən heç toyuq başı kəsə bilmirəm!

PARTİYA KURATORU. Sən elə təkcə Ermənistana gedib, orda nə qədər adam güllələtdin?! Nə qədər ailəni məhv etdin?! Nə qədər uşaqları yetim qoydun?!

TİCARƏT KURATORU. Bəs, sən nə etmisən? Moskvada partiyalı, partiyasız neçə minlərlə adamı güllələtdirməmisən? Sən deyildin, həftədə ona bir ərizə yazıb, yalvaran ki, əziz rəhbərimiz, bizə ayrılmış güllələmə kvotasını artırın?!

PARTİYA KURATORU. Onlar xalq düşməni idi!

TİCARƏT KURATORU. Bəs, mənimkilər nə idi? Xalq düşmənləri, əksinqilabçılar, trotskiçilər deyildi?! İngiltərənin, Türkiyənin casusları deyildi?! Pantürkistlər deyildi?! Xalqı Allahla qorxudan keşişlər, mollalar deyildi?! Nə

püşk? Yox, mən belə oyunlarda iştirak edə bilmərəm! *(Ayağa qalxıb, paltosunu götürür, şlyapasını başına qoyur.)* Sağ olun! Mən yoldaş Stalinin rəhbərliyi altında, yorulmaq bilmədən xalqımıza xidmətimi davam edəcəyəm! Xudahafiz!

TƏHLÜKƏSİZLİK NAZİRİ. Yaxşı, yaxşı!.. Şlyapanı çıxar başından. Otur!

NAZİRLƏR KURATORU *(həyəcanla).* Yoldaşlar, bu, hara gedir?

PARTİYA KURATORU. Onu buraxmaq olmaz!

TƏHLÜKƏSİZLİK KURATORU. Əyləş dedim! Sən püşkatmada iştirak etmə. Otur, üçümüz üçün kağızları sən hazırla.

TİCARƏT KURATORU. Hə?

NAZİRLƏR KURATORU. Otur.

PARTİYA KURATORU. Sənə dedilər də. Tez elə!

Ticarət kuratoru paltosunu, şlyapasını divanın üstünə atıb, mizin üstündəki bloknotdan üç ağ vərəq cırır və kənara çəkilib, vərəqlərin hər birinə işarə qoyur.

NAZİRLƏR KURATORU, Birdən kabinetdə səs-küy olar. Polikarpov nəsə hiss etməz?

TƏHLÜKƏSİZLİK KURATORU. O meşin qapıdan səs keçər?

Ticarət kuratoru kağızları bürmələyərək, onları mizin üstündə cidd-cəhdlə qarışdırır.

TİCARƏT KURATORU. Götürün!

Kuratorlar bir-bir vərəqləri götürüb baxırlar.

NAZİRLƏR KURATORU *(dərindən rahat nəfəs alır).* Of-f-f!..

PARTİYA KURATORU *(kağızı mizin üstünə çırparaq).* Ən zibil işlər həmişə mənim baxtıma düşür!

TİCARƏT KURATORU. Bu, nə bəxt söhbətidi belə? Sən kommunistsən!

TƏHLÜKƏSİZLİK KURATORU. Görürsən, Allah da səni məsləhət gördü!

İşıq sönür.

BEŞİNCİ ŞƏKİL

Moskva, Kreml. Stalinin kabineti və qəbul otağı.

Stalin, Polikarpov, marşallar, Siyasi Büro üzvləri, Partiya kuratoru, Nazirlər kuratoru, Təhlükəsizlik kuratoru, Ticarət kuratoru.

Kabinetdə Stalin yazı mizinin arxasında oturub, qarşısındakı kağızları oxuyur.

Polikarpov qəbul otağında öz mizinin arxasında oturub.

Siyasi Büro üzvləri onun qarşısındakı kreslolarda əyləşiblər.

Telefon zəngi.

POLİKARPOV *(telefonlardan birinin dəstəyini qaldıraraq).* Məşğuldur!

Telefonlar beləcə zəng çalır. Polikarpov ayrı-ayrı dəstəkləri qaldıra-qaldıra cavab verir və dəftərçələrdə qeydlər edir.

- Məşğuldur!
- Mümkün deyil!
- Məşğuldur!
- Sizə özü zəng edəcək!
- Bilmirəm, bir tapşırıq verməyib!
- Məşğuldur!

TİCƏRƏT KURATORU. Yoldaş Stalin həqiqətən perpetium-mobiledir! İnsan nə qədər işləyər!.. Xalq naminə! Vətən naminə!

NAZİRLƏR KURATORU. Lenin bizim şanlı keçmişimiz idi. Yoldaş Stalin isə bizim möhtəşəm bugünümüz, cahanşümul gələcəyimizdir!

PARTİYA KURATORU. Siz bilmirsiz yoldaş Stalin bizi hansı məsələ ilə bağlı çağırıb?

POLİKARPOV *(növbəti telefon dəstəyini yerinə qoyaraq).* Yoldaş Stalin mənə hesabat vermir.

PARTİYA KURATORU. Bağışlayın, yoldaş Polikarpov.

Kiçik pauza.

POLİKARPOV. Siz çox həyəcanlısız.

PARTİYA KURATORU. Mən?

POLİKARPOV. Hamınız... Nəsə olub?

TİCARƏT KURATORU. Xeyr, xeyr!.. Nə ola bilər ki?..

Stalin kağızları kənara çəkərək, sönmüş qəlyanını mizin üstündən götürüb fikirli-fikirli əlində oynadır. Nəhayət, mizin kənarındakı düyməni basır.

Polikarpov cəld telefon dəstəyini qaldıraraq, ayağa qalxıb, farağat dayanır.

POLİKARPOV. Eşidirəm, yoldaş Stalin!

STALİN. Gözləyirlər?

POLİKARPOV. Bəli, yoldaş Stalin!

Kiçik pauza.

STALİN. Gəlsinlər.

POLİKARPOV *(dəstəyi yerinə qoyaraq, oturur və başı ilə meşin qapıya tərəf işarə edir).* Keçin.

Siyasi Büro üzvləri tələsik qalxıb, tələsik də üst-başlarını qaydaya salırlar və meşin qapını açaraq, bir-bir içəri girib, qapının ağzında dayanırlar.

- Salam, yoldaş Stalin!
- Xoş gördük, yoldaş Stalin!
- Salam, yoldaş Stalin!
- Sizi xoş gördük, yoldaş Stalin!..

STALİN *(başının işarəsi ilə salamlaşaraq, qəlyan tutduğu əli ilə kənardakı uzun iclas mizinə tərəf işarə edir.)* Əyləşin.

Siyasi Büro üzvləri ikisi uzun iclas mizinin bir tərəfində, ikisi də o biri tərəfində qarşı-qarşıya əyləşirlər.

Stalin qəlyanı yandırıb, ayağa qalxır, asta və yumşaq addımlarla onlara yaxınlaşaraq, mizin ətrafında var-gəl edir.

(Asta-asta, elə bil, öz-özü ilə danışır.) Bizim son məqsədimiz kommunizmin qələbəsidir... Biz bütün həyatımızı bu məqsədə sərf etmişik... Biz buna inanırıq... Faşizm üzərində qələbəni mən, o, o birisi əldə etmədi! Faşizm üzərində qələbəni həmin inam əldə etdi!.. *(Partiya kuratorunun oturduğu kürsünün yanında dayanır.)* Elə deyilmi?

PARTİYA KURATORU *(dərhal ayağa qalxaraq).* Əlbəttə, yoldaş Stalin! Başqa cür necə ola bilər ki?!

STALİN *(yenə asta və yumşaq addımlarla mizin arxasınca dairəvi gəzişərək).* Əyləşin.

Partiya kuratoru əyləşir.

Doğrudur, başqa cür ola bilməz!.. Düz deyirsiz!..

Kiçik və gərgin pauza.

Onda nə üçün biz geridə qalırıq?.. İmperializm inkişaf edir, fəhlələrin maaşı artır, kəndlə şəhərin fərqi aradan qalxır, tikirlər, qururlar, ancaq biz?.. Biz bütün sahələrdə onlardan geri qalırıq. Nə üçün?.. Bizim staxanovçularımız Amerika fəhlələrindən pis işləyir?.. Yoxsa, bizim kolxozçular İngiltərə fermerlərindən az zəhmət çəkir?..

Kiçik və gərgin pauza.

Bəli, müharibə bizə qat-qat artıq ziyan vurdu. *(Partiya kuratorunun yanında ayaq saxlayaraq.)* Elədir?

PARTİYA KURATORU *(cəld ayağa qalxaraq).* Elədir, yoldaş Stalin!

STALİN. Əyləşin.

Partiya kuratoru əyləşir. Stalin eləcə asta və yumşaq addımlarla mizin ətrafında dairə vurmağına davam edir.

Düz deyirsiz... Elədir... Onda, bəs, Almaniya?.. Biz ki, Almaniyanı darmadağın etdik! Biz ki Almaniyada daşı daş üstə qoymadıq! Nə üçün dağılmış Almaniya bizdən qat-qat artıq bir sürətlə özünü bərpa edir? Fabrikləri, zavodları nəinki işə salır, təzələrini yaradır, yeni texnologiyalara sahib olur, universitetlər açır... Niyə?.. Şatır oğlu Adenauer göydən göndərilib ki, Almaniyanı təzədən qaldırsın? Almaniya təzədən dünyaya meydan oxusun? Niyə imperializm get-gedə gücdən düşmək əvəzinə, get-gedə daha da inkişaf edir. Niyə? Çünki... *(Ayaq saxlayır.)*

Gərgin pauza.

Çünki biz yanılırıq? *(Yenə yavaş-yavaş addımlayaraq, uzun mizin ətrafında dövrə vurur.)* Hə? Biz düzgün yolda deyilik? Biz həyatımızı, ömrümüzü boş şüarlara həsr etmişik? *(Partiya kuratorunun yanında ayaq saxlayaraq.)* Siz belə düşünürsüz, hə?

PARTİYA KURATORU *(cəld ayağa qalxaraq, çox həyəcanlı).* Xeyr, yoldaş Stalin!

STALİN. Marksizm-leninizm bəlkə... bəlkə həqiqətən utopiyadır? Hə?

PARTİYA KURATORU *(get-gedə daha da artan bir həyəcanla).* Xeyr, yoldaş Stalin!

STALİN *(qəlyanını tüstülədə-tüstülədə yavaş səslə).* Onda nə üçün Amerika Yaponiyaya atom bombası atır, dinc insanları, zəhmətkeşləri milçək kimi qırır, ancaq bundan sonra Yaponiya Amerika ilə müttəfiq olur? Kapitalizm dünya siyasətində xeyiri, mənfəəti maqnit kimi özünə çəkir. Niyə? Yunanıstan kommunistləri böyük qəhrəmanlıqla vuruşdu, faşistləri qovdu, ölkələrinə sahib çıxdı. Məntiqlə Yunanıstan sosialist ölkəsi olmalı idi, ancaq nə oldu? Kapitalizm xalqı kommunistlərə qarşı çevirdi, kommunistləri məhv etdi. Niyə? Nə üçün? *(Yazı mizinə yaxınlaşıb, sönmüş qəlyanını yandıraraq, yenə gəzişməyə başlayır.)*

Pauza.

Yenə məsələ gəlib insan amilinə çıxır? Bəlkə bizim rəhbərlikdə də düşmənlər var, hə? Bəlkə onlar daxili siyasətdə də, xarici siyasətdə də ziyankarlıqla məşğuldurlar və biz də buna görə lazımi sürətlə irəli gedə bilmirik, beynəlxalq nüfuz qazana bilmirik? Nə üçün bizim gücümüz çatmır ki, Fransa kommunistlərinə, İtaliya, Türkiyə kommunistlərinə hər cürə kömək edək ki, hakimiyyəti öz əllərinə alsınlar? Hə? *(Diqqətlə Partiya kuratoruna baxır.)* Ancaq siz çox həyəcanlısız...

PARTİYA KURATORU. Mən... mən yoldaş Stalinlə danışıram...

STALİN. Siz içəri girəndə, artıq çox həyəcanlıydız... *(Üzbəüz oturmuş Ticarət kuratoruna müraciətlə.)* Elə deyilmi?

TİCARƏT KURATORU *(cəld ayağa qalxaraq).* Elədir, yoldaş Stalin!

STALİN *(təzədən Partiya kuratoruna baxaraq).* Niyə biz kapitalizmi tənqid edəndə, siz həyəcanlanırsız? *(Yenidən Ticarət kuratoruna baxır.)* Nəsə olub? *(Çoxmənalı, eyni zamanda, istehzalı bir tərzdə.)* Nə olub ki, bizim bundan xəbərimiz yoxdur?

TİCARƏT KURATORU *(qorxu içində).* Mənim... mənim günahım yoxdur...

STALİN. Yox! Bunu düz demədiz! Bizim hamımızın günahı var. *(Sərt.)* İndi isə, deyin görüm nədə günahınız yoxdur?

TİCARƏT KURATORU. Mən... mən... Yoldaş, Stalin, mən...

PARTİYA KURATORU *(Ticarət kuratoruna).* Qorxaq tülkü!..

STALİN *(hiddətlə).* Nə?

PARTİYA KURATORU *(kobud).* Heç nə!..

Və Partiya kuratoru gözlənilmədən Stalinin üzərinə atılaraq, iki əli ilə də onun boğazından yapışıb boğmağa başlayır.

Heç nə!.. Heç nə olmayıb!.. Heç nə!..

Partiya kuratoru bütün varlığından doğan bir nifrət və həyəcanla Stalini boğur. Stalin çapalayaraq onun əlindən qurtulmağa çalışır, ancaq bu mümkün olmur. Siyasi Büro üzvləri ayağa qalxaraq, hipnoz olublarmış kimi, yerlərində donub qalıblar.

Öl!.. Gəbər!.. Gəbər!..

Stalinin nəfəsi kəsilir və Partiya kuratoru əllərini onun boğazından çəkəndə, onun cəsədi yerə sərilir.

Bitdi!..

Siyasi Büro üzvləri, elə bil, hipnozdan çıxırlar. Ticarət kuratoru Stalinin cəsədinə yaxınlaşaraq, diqqətlə baxır, sonra ona bir təpik vurur.

TİCARƏT KURATORU. İt oğlu it, axır ki gəbərdi!.. Axır ki gorbagor oldu! *(Cəsədin üstünə tüpürür.)* Tfu!.. Daha Kaladzenin iti kimi hamını qapmayacaqsan!.. Hər şey qurtardı!

NAZİRLƏR KURATORU. Hələ heç nə qurtarmayıb!

TİCARƏT KURATORU *(sol tərəfdəki qapıya tərəf baxaraq pıçıltıyla).* Polikarpov!..

NAZİRLƏR KURATORU. Bəli, Polikarpov!..

TƏHLÜKƏSİZLİK KURATORU. Narahat olmayın, adamlarım mənim siqnalımı gözləyirlər. İndi...

PARTİYA KURATORU *(üz-gözünün tərini silə-silə hələ də həyəcanlı halda onun sözünü kəsir).* Biriniz də mənə kömək etmədiz... Mən Mərkəzi Komitənin üzvləri ilə bir-bir danışmalıyam. Yoldaş Stalinin... *(Stalinin yerə sərilmiş cəsədinə tüpürür.)* Yoldaş Stalinin ağır xəstələnməsi barədə onlara məlumat vermək lazımdır. Sabah səhər Mərkəzi Komitənin plenumunu çağıracağıq. Biz...

TƏHLÜKƏSİZLİK KURATORU *(onun sözünü kəsərək).* Bura bax, biz indi burada vəzifələri bölüşəcəyik, plenum da təsdiq edəcək! Dedim ki, mənim adamlarım siqnalımı gözləyir. *(Qolundakı saatı göstərir.)* Bax, bu düyməni görürsən? Bunu basan kimi, sənin yox, mənim adamlarım hər şeyi həll edəcək!

TİCARƏT KURATORU. Biz nə bilək ki, sənin adamların gəlib bizi həbs etməyəcək?

TƏHLÜKƏSİZLİK KURATORU *(hirsli).* Hələ ki, yox! Arxayın ol!.. İndi isə vəzifələr bölüşdürülməlidir!

PARTİYA KURATORU *(tərini silə-silə).* Partiya adından artıq mən hər şeyi hazırlamışam! Plenumun gündəliyi hazırdır.

TƏHLÜKƏSİZLİK KURATORU, Bu saat partiya da, hökumət də, KQB də mənəm!

PARTİYA KURATORU. Partiya buna yol verməyəcək!

TƏHLÜKƏSİZLİK KURATORU. Qulaq as! Özü də diqqətlə qulaq as, eşitdin! Hökumətə biz rəhbərlik edəcəyik! *(Nazirlər kuratoruna işarə edərək.)* O və mən! O, sədr, mən birinci müavin! *(Stalinə baxaraq, onu yamsılayır.)* «Niyə imperializm inkişaf edir?» Çünki partiya hökumətin işinə qarışır! Dövləti idarə etməyə qoymur! Dövləti partiya idarə edir! Buna görə də *(Yenə Stalini yamsılayır.)* «kapitalizmdən geri qalırıq»! Partiya öz siyasəti ilə məşğul olsun! Bütün bunlar qurtardı! Ölkəni qaldırmaq lazımdır!

PARTİYA KURATORU *(Stalinin cəsədinə işarə edərək).* Onu partiya öldürdü!

TƏHLÜKƏSİZLİK KURATORU. Onu sənin canındakı qorxu öldürdü! Əgər sən onun dalınca getmək istəmirsənsə, səsini çıxarma! Səni sabah plenumda partiya rəhbəri edəcəyik, hökumət isə bizimdir, eşitdin?! Yoxsa mənim adamlarımla zarafat etmək istəyirsən?

PARTİYA KURATORU *(pıçıltı ilə Nazirlər kuratoruna).* Sonra da sənin başını yeyəcək!..

NAZİRLƏR KURATORU *(pıçıltı ilə).* Onu sonra sənlə danışarıq...

TƏHLÜKƏSİZLİK KURATORU. Nə mızıldanırsız elə?

PARTİYA KURATORU. Heç nə.

TİCARƏT KURATORU. Mənim isə rəhbərlik iddiam yoxdur!

TƏHLÜKƏSİZLİK KURATORU. Səni rəhbər qoyan da yoxdur!

TİCARƏT KURATORU. Çox yaxşı! Mənə əvvəlki yerim kifayətdir. Mən sadəcə olaraq *(Sözü hecalayır.)* ya-şa-maq istəyirəm! Öz ailəm ilə qorxusuz, rahat ya-şa-maq istəyirəm. Bilim ki, ölüm hər gün qan süzülən qılıncı əlində başımın üstünü kəsdirməyib! *(Stalinin cəsədinə baxaraq, yenə üstünə tüpürür.)* Tfu, «xalqlar atası»!.. *(İstehza ilə.)* Marks-Engels-Lenin-Stalin partiyası!.. Yox bir, Vissarion partiyası! *(Yamsılayır.)* «Şatır oğlu Adenauer...» Bəs, sən kimsən? Padşah oğlusan? Dünya proletariatının rəhbərinə bax! *(Əlini ağzına tutub, başını yuxarı qaldıraraq.)* A-u-u-u!.. Pinəçi Vissarion!.. Oğlun axır ki layiqincə gəbərdi! Mənəm-mənəmliklə deyil!..

PARTİYA KURATORU. Ancaq sən şalvarını bulamışdın! Beş saniyə geciksəydim, məni satacaqdın!..

TİCARƏT KURATORU. Xeyr, mən...

PARTİYA KURATORU *(hiddətlə onun sözünü kəsir).* Nə «xeyr, mən...»? Nə, «xeyr, mən...»?

TƏHLÜKƏSİZLİK KURATORU *(həyəcanla).* Dayanın!..

NAZİRLƏR KURATORU. Nə olub?

Bu zaman kabinetin yuxarı başındakı qapı cırıldayaraq açılır.
Siyasi Büro üzvləri hürkmüş halda qapıya tərəf baxırlar.
Pauza.
Stalin asta addımlarla kabinetə daxil olur. Yazı mizinə yaxınlaşıb, kibrit götürür və əlində tutduğu qəlyanı yandırır. Eləcə asta və yumşaq addımlarla dəhşət içində donub qalmış Siyasi Büro üzvlərinə yaxınlaşır və qəlyandan bir qullab vurub, Siyasi Büro üzvlərini bir-bir diqqətlə gözdən keçirir, sonra yerə sərilmiş cəsədə baxır.

STALİN *(yerə sərilmiş cəsədə işarə edərək, soyuq bir sərtliklə).* Siz yoldaş Kondratyevi nə üçün qətlə yetirdiniz? O, partiyaya sədaqətli, mətin bir kommunist idi. Öz rolunu yaxşı ifa edirdi. *(Yenə Siyasi Büro üzvlərini bir-bir nəzərdən keçirərək, müdhiş bir istehza ilə.)* Siz, silahdaşlar, şagirdlər məni öldürmək istəyirdiniz?! Zəhmətkeşlər mitinqlərdə, paradlarda mətin silahdaşlar, sədaqətli şagirdlər kimi sizin portretlərinizi qaldırırdılar, siz isə mənə sui-qəsd hazırlayırsız?!

TİCARƏT KURATORU *(Stalinin ayaqlarına atılaraq).* Nə yaxşı! Nə yaxşı ki, siz sağsınız, yoldaş Stalin! *(Stalinin ayaqlarını öpə-öpə barmağı ilə Partiya kuratorunu göstərir.)* O elədi! O boğdu! *(Yenə Stalinin ayaqlarını öpməyə başlayır.)* Yoldaş Stalin!.. Nə yaxşı ki, siz sağsız!..

STALİN *(aşkar bir ikrah hissi ilə ayağıyla Ticarət kuratorunu kənara itələyərək).* Yaxşı, yaxşı!.. Səni sonuncu güllələyərik...

Siyasi Büro üzvlərinin üçü də birdən Stalinin üzərinə atılır və onu boğa-boğa, vura-vura, təpikləyə-təpikləyə yerə yıxmağa çalışırlar. Stalin müqavimət göstərərək onların əlindən qurtulmaq istəyir, ancaq get-gedə gücdən düşür. Siyasi Büro üzvləri axır ki, onu yerə yıxırlar. Stalin daha müqavimət göstərmir, hay-küy içində onun yalnız xırıltısı eşidilir. Ticarət kuratoru da iməkləyib onlara qoşulur və əli-ayağı ilə Stalinə zərbələr endirir. Stalinin xırıltısı artıq kəsilib, Siyasi Büro üzvləri isə bir-birlərinə macal vermədən Stalini döyəcləyir, təpikləyirlər:

- Sən gəbərəcəksən, yoxsa, yox!..
- Öl!..

- Gəbər!..
- Al!..
- Bax, belə!..
- Belə!..
- Al, Kaladzenin iti!..

TİCARƏT KURATORU. Bu dəfə səninki tutmadı, oxşarınla bizi aldada bilmədin!..

Siyasi Büro üzvləri, nəhayət, əldən düşüb, Stalinin cansız vücudundan əl çəkərək, taqətsiz halda tövşüyə-tövşüyə döşəmənin üstündə otururlar.
Stalinin cəsədi Kondratyevin meyidindən bir az kənarda yerə sərilib.

TƏHLÜKƏSİZLİK KURATORU *(dərindən nəfəs ala-ala).* Öldü?
TİCARƏT KURATORU *(ayağının ucu ilə bir-iki dəfə Stalinin cəsədini vurur).* Çoxdan cəhənnəmdədi! Pinəçi Vissarionun küçüyü!

Kiçik pauza.

NAZİRLƏRİN KURATORU. O nə səsdir?
TƏHLÜKƏSİZLİK KURATORU. Səs? Nə səs?
PARTİYA KURATORU. Sakit durun.

Gərgin pauza.
Yavaş-yavaş addım səsləri gəlir və bir-neçə andan sonra kabinetin yuxarı başındakı qapı cırıltı ilə yenidən açılır. Əvvəlcə Polikarpov, ardınca əllərində tapanca tutmuş üç nəfər Sovet İttifaqı marşalı, onların da ardınca Stalin kabinetə daxil olurlar.
Stalin qəlyan tutduğu sağ əli ilə marşalları kənara itələyərək, döşəmədə oturmuş Siyasi Büro üzvlərinə yaxınlaşır.

STALİN *(qəlyan tutduğu əli ilə yerə sərilmiş ikinci cəsədə işarə edərək).* Siz yoldaş Vasilyevi də qətlə yetirdiniz! Yoldaş Kondratyev... İndi də yoldaş Vasilyev...
TİCARƏT KURATORU. Yoldaş Stalin... Əziz yoldaş Stalin... *(Özündən gedir.)*
STALİN. Siz imperializmə satılmış əliqanlı qatillərsiz! Partiya sizdən heç nə əsrgəməmişdi! Partiya sizi yetişdirmişdi! Partiya sizə güvənirdi! Bəs, siz nə etdiz? Antipartiya qrupu yaradıb, ölkədə çevriliş etmək istədiz! Kapitalizmi bərpa etmək istədiz! Sizi xalq mühakimə edəcək! *(Polikarpova.)* Bu xalq düşmənlərini, Amerikanın casuslarını aparın!
TİCARƏT KURATORU *(özünə gələrək).* Yoldaş Stalin... Mən... mən Amerikanın casusu deyiləm...
STALİN. Əlbəttə... Bilirəm. Amerikanın casusu onlardı, siz yox...
TİCARƏT KURATORU. Bəli... Bəli...
STALİN. Siz Türkiyənin casususuz... Elə deyilmi?
TİCARƏT KURATORU. Yoldaş Stalin... Yoldaş Stalin... *(Yenə özündən gedir.)*

Polikarpov, ardınca da marşallar qəti addımlarla Siyasi Büro üzvlərinə yaxınlaşırlar.

POLİKARPOV. Qalxın!

Özündən getmiş Ticarət kuratorundan başqa, o birilər ayağa qalxır.

İrəli addımlayın!

Siyasi Büro üzvləri Polikarpovun qabağına düşərək, sol tərəfdəki qapıya tərəf addımlayırlar. Marşallardan biri Ticarət kuratorunun pencəyinin boynundan tutub sürüyür. Qapının ağzında Polikarpov kənara çəkilir.

(Marşallara.) Aparın!

Siyasi Büro üzvləri və marşallar kabinetdən çıxırlar. Polikarpov Stalinə yaxınlaşır.

Yoldaş İqnatov, xidməti borcunuzu layiqincə yerinə yetirdiyinizə görə yoldaş Stalinin tapşırığı ilə sizə təşəkkür elan edirəm! Yoldaş Stalin partiya və sovet xalqı qarşısındakı xidmətlərinizə görə sizi Lenin ordeni ilə təltif edib! Təbrik edirəm, yoldaş İqnatov!

Polikarpov cibindən çıxartığı Lenin ordenini İqnatovun yaxasına taxır.

Bir daha təbrik edirəm, yoldaş İqnatov! *(Hərarətlə İqnatovun əlini sıxır.)*
İQNATOV *(hərarətlə).* Təşəkkür edirəm! Yaşasın yoldaş Stalin!

İşıq sönür.

İKİNCİ HİSSƏ

ALTINCI ŞƏKİL

Moskva. Kreml, Stalinin kabineti. Axşam.
Stalin, Olqa Aleksandrovskaya.

Olqa Aleksandrovskaya divanda əyləşib. Stalin onunla üzbəüz kresloda oturub.

OLQA ALEKSANDROVSKAYA *(işvə ilə).* İllər boyu görüşmürdük, indi üç gündən bir görüşməyə başlamışıq, İosif?
STALİN *(sönmüş qəlyanı əlində oynada-oynada).* Kim bilir, bəlkə daha heç vaxt görüşməyəcəyik? *(Sarkazm ilə.)* Yoldaş Stalin də adi adamlar kimi ölümün qarşısında gücsüzdür.
OLQA ALEKSANDROVSKAYA. İosif!..
STALİN. Onun gücü yalnız insanlara çatır, ölümə yox.

Kiçik pauza.

Yoldaş Stalindən sonra bu dövlət necə olacaq? Sovet İttifaqı on-on beş ilə dağılıb, bir-biri ilə çəkişən on altı kapitalist ölkəsinə çevriləcək?.. Hər halda, kapital dünyası əlindən gələni edəcək!..
OLQA ALEKSANDROVSKAYA. Sən keçən dəfəkindən də artıq yorğunsan...
STALİN *(fikirli).* Ya da, bəlkə sabah görüşəcəyik, kim bilir? *(Ayağa qalxıb gəzişməyə başlayır.)*

OLQA ALEKSANDROVSKAYA *(xoş əhval-ruhiyyə ilə).* Birinci sualını bilirəm, İosif. *(Onu yamsılayır.)* «Nə deyirlər, danışırlar, Olqa? Böyük Teatrın intriqalarından başqa! Yoldaş Stalindən nə deyirlər?»

STALİN *(təbəssümlə).* Hə, nə deyirlər? Mən soruşuram, sən də heç nə demirsən.

OLQA ALEKSANDROVSKAYA. Sən onsuz da hər şeyi bilirsən, İosif. Sənə bəyəm məlumat vermirlər ki, kim nə deyir?

STALİN. Onlar vəzifələrini yerinə yetirirlər. Sən isə başqa... Onlar səni gizlincə pusanlardır, izləyənlərdir.

OLQA ALEKSANDROVSKAYA *(həyəcanla).* İosif, məni də pusurlar, izləyirlər?

STALİN *(çiyinlərini çəkib, əllərini yana açaraq).* Nə bilim?.. Güman edirəm ki, səni nəzarətsiz buraxmazlar...

OLQA ALEKSANDROVSKAYA. Onlar yorulmur?

STALİN. Onların yorulmağa ixtiyarı yoxdur! Nədi, deyəsən, həyəcanlanmısan?

OLQA ALEKSANDROVSKAYA. Biləndə ki səni pusurlar...

STALİN *(gülümsəyir).* Pusqusuz dövlət olar, Olqa?! Olsa da, tezliklə dağılar! Bəyəm çarizm vaxtı məni Gürcüstandan, Azərbaycandan tutmuş Sibirəcən az pusublar? Bəlkə, elə indi də pusurlar...

OLQA ALEKSANDROVSKAYA *(heyrətlə).* Səni?

STALİN. Niyə də yox? Hər şey ola bilər! Dünyada, Olqa, hər şey, hər şey ola bilər! Yaxşı, belə şeyləri dramatikləşdirməyə dəyməz... Hərə öz vəzifəsini yerinə yetirir.

OLQA ALEKSANDROVSKAYA *(hələ də sakitləşməyib.)* Bu dəfə mənim səndən bir xahişim olacaq, İosif!

STALİN *(təəccüblə).* Xahişin olacaq?

OLQA ALEKSANDROVSKAYA. Bəli. Ancaq, düzdür, bir dəfə sən mənim xahişimi yerinə yetirmədin...

STALİN. Hansı xahişini?

OLQA ALEKSANDROVSKAYA. Tretyakov barədə. O da Demonu əla oxuyurdu. Tretyakov gələcəyin Şalyapini idi. Ancaq Sibirdə, sürgündə öldü.

STALİN. Bilirəm, yadımdadı. O, sənin o Tretyakovun, bütün Böyük Teatrı Sovet hökumətinə qarşı qızışdırırdı.

OLQA ALEKSANDROVSKAYA. Sənə yalan məlumat verirdilər... O, kölgəsindən də qorxan bir adam idi...

STALİN. Kölgəsindən qorxan adam gərək Demonu oynamasın.

OLQA ALEKSANDROVSKAYA. Sən mənə söz vermişdin ki, onu qaytaracaqlar...

STALİN. Mən verdiyim bütün sözlərin üstündə durmalıyam? Yaxşı, Olqa, nə xahişdi?

OLQA ALEKSANDROVSKAYA. Kitablarından birini avtoqrafla mənə bağışla.

STALİN. O-o-o!.. Bitərəf Olqa Aleksandrovskaya marksizm-leninizmlə maraqlanmağa başlayıb?

OLQA ALEKSANDROVSKAYA. İosif, pis-yaxşı – mən istəyirəm ki, xatirələr də izsiz qalmasın, yox olmasın, yaşasın... Mən istəyirəm ki, gələcək nəsillər mənim arxivimdə yoldaş Stalinin avtoqrafını görsünlər.

STALİN. Olqa, o vaxtlar sən sağ olsan, o kitabı özün yandıracaqsan ki, yoldaş Stalinin avtoqrafına görə, səni ən azı Sibirə gəndərməsinlər, sənin adını rus vokal sənətinin tarixindən silməsinlər!..

OLQA ALEKSANDROVSKAYA *(şaşırmış)*. Doğrusu, mən heç bilmirəm sənin sözlərinə nə deyim?..

STALİN. Mən bilirəm... Mən öləndən sonra, qəbrimin üstünə dünyanın zibilini tökəcəklər, ancaq tarixin küləyi əsib, o zibili amansızcasına göyə sovuracaq. Amansızcasına!.. Bilmirəm, gözləri bağlı bu pişik balaları bir-birləri ilə cırmaqlaşa-cırmaqlaşa ölkəni kapitalistlərdən qoruyub saxlaya biləcəklər, ya yox? Ancaq o külək mütləq əsəcək!..

Kiçik pauza.

(Təbəssümlə.) Ancaq sən maraqlı bir şey söyləmədin ki, yoldaş Stalin barədə nə deyirlər?

OLQA ALEKSANDROVSKAYA *(hələ də sakitləşməyib).* Hamı səni se...

STALİN *(onun sözünü kəsərək).* Hamı yoldaş Stalini sevir və sairə... Bunlar məni təngə gətirib, Olqa!

OLQA ALEKSANDROVSKAYA. Deyirlər ki... *(Tərəddüdlə.)* Deyirlər ki, sən əslində... gürcü yəhudisisən...

STALİN. Hə, bunu eşitmişəm... *(Gülür.)* Bədbəxt Vissarion bunu eşitsəydi, qəbrində çevrilərdi... Yəhudiləri xoşlamırdı, çünki yəhudilər gecə-gündüz onunla içib, əyyaşlıq etmirdilər... *(Birdən-birə sərt.)* Mən rusam! Mən gürcü əsilli rusam! *(Ayaq saxlayıb, qəlyanını yandırmaq istəyir, ancaq yandırmır və gəzişməyə davam edir.)* Ancaq mən yuxuda gürcü dilində danışıram, Olqa!.. *(Az qala isterika ilə.)* Gürcü nəğmələri eşidirəm!.. Araqvinın sahilində gəzirəm!.. Niyə? Nə üçün mən Sibiri görmürəm?! Nə üçün mən Solvıçeqodskı, Narımı, Aqinskı görmürəm? Peterburqu, Tsaritsını yox, Tiflisi görürəm? Niyə? Mən bunu xəyanət hesab edirəm! Mən bunu rus xalqına qarşı da xəyanət hesab edirəm, kommunizm ideallarına qarşı da!.. Vasya uşaq vaxtı Svetlanaya bilirsən nə deyib? Deyib ki, sənin xəbərin var, bizim atamız əvvəllər gürcü olub!.. Buna nə deyirsən?

OLQA ALEKSANDROVSKAYA. Mən nə deyə bilərəm, İosif?..

STALİN. Hərdən yuxuda Bakını görürəm, Moskvanı yox... Niyə? *(Pəncərəyə yaxınlaşıb, qalın pərdəni kənara çəkir və çölə baxaraq.)* Heç bir şəhərdə Bakının qoxusu yoxdu! Dənizin və neftin qoxusu... Mən o qoxuda həmişə Bakı neft milyonçularının qəddarcasına istismar etdikləri fəhlələrin tərini də hiss edirdim. 43-cü ildə mən Tehrana gedəndə, əvvəlcə Bakıya uçdum. Soyuq, çiskinli bir payız gecəsi idi. Əgər mənə deməsəydilər də bura haradır, mən o qoxudan o andaca Bakını tanıyardım. Qəribədir, hərdən ürəyim o qoxunu hiss etmək istəyir... Burada, bu kabinetdə!.. O istəkdə yəqin bir nostalji də var... Nostalji, elə bil, xərçəng kimi pusquda dayanıb, qocaldıqca, sənin içinə girir...

Kiçik pauza.

Sən Koba deyirdin... Koba oralarda qaldı, Olqa!.. Sən romantika deyirdin, o da Koba ilə birlikdə oralarda qaldı!.. Əsrin lap əvvəlləri idi. Bakı fəhlələrinin elə bir kütləvi tətilini – iyirmi gün çəkdi! – tətilini keçirdik ki, milyonçular Rusiya imperiyasının tarixində ilk dəfə fəhlələrlə müqavilə imzaladılar! O gün mənim ən xoşbəxt günlərimdən biri idi. O Bakı milyonçuları ki, həyətlərində neft fantan vuranda, bir anın içində fəhlədən milyonçuya çevrilmişdilər. Milyonçu olmuşdular, ancaq fəhləni də unutmuşdular!

OLQA ALEKSANDROVSKAYA. İosif, bu doğrudur ki, sən orada milyonçuları qaçırıb, girov götürürdün, sonra pul alıb, buraxırdın?

STALİN. Mən nə etməliydim? Partiyanın kassası boş olurdu. Milyonçular öz istəkləri ilə bizə pul bağışlayacaqdı? Bunu yalnız axmaq Savva Morozov

edirdi. Biz milyonçuların ailəsindən qopardığımız o pullarla partiya kassasını doldururduq.

OLQA ALEKSANDROVSKAYA. Bəs, Morozov niyə axmaqdır? O ki, deyirsən, sizə pul verirdi.

STALİN *(təbəssümlə).* Ona görə axmaqdır ki, biz onun pulları ilə onun bütün sinfini məhv etdik!.. Bir tərəfdən Türküstanda pambıqçıları istismar edirdi, o biri tərəfdən də biz Bakıda «İskra»nı onun pulu ilə çap edirdik.

OLQA ALEKSANDROVSKAYA. Axı...

STALİN *(onun sözünü kəsir).* Biz Bakının fəhlə rayonlarında – Qara şəhərdə, Balaxanıda, Bibi-Heybətdə menşevikləri qovub, fəhlələrə yaxın buraxmadıq...

Kiçik pauza.

Ancaq Kato da Bakıda xəstələndi... Onun iyirmi bir yaşı vardı... Mənim iyirmi yeddi... Evlənəndən sonra biz Bakıya getdik, şəhərin yaxınlığında, Balaxanı deyilən bir fəhlə məntəqəsində balaca bir otaq kirayə etmişdik. Pəncərəmiz neft buruqlarına baxırdı. Bir il idi evlənmişdik, vərəm tutdu, bircə ayın içində əriyib, yox oldu... Yakov onda səkkiz aylıq idi... *(Pəncərədən baxaraq, bir müddət susur, sonra sönmüş qəlyan tutduğu əlini tavana tərəf qaldırır.)* İndi orda bir-birləri ilə görüşüblər... *(Yenə bir müddət susur.)* Mən Nadyanı da ilk dəfə Bakıda görmüşdüm, onda iki yaşı vardı... O da cəmi otuz il yaşadı...

OLQA ALEKSANDROVSKAYA *(pərt).* İosif, öz aşnana arvadların barədə danışmaq, səncə, nə qədər düzdür?

STALİN. Bizim aşnalığımız çox uzaqlarda qalıb, Olqa! Biz indi sənlə bacı-qardaşıq...

OLQA ALEKSANDROVSKAYA. Nadyanı görmüşdüm, gözəl idi.

STALİN. Hə... O da Allaha inanırdı, məndən gizlin kilsəyə gedirdi...

OLQA ALEKSANDROVSKAYA. Yazıq Kato da gözəl idi?

STALİN. Gözəl idi... Onu Tiflisdə dəfn etdik, Kukiy qəbiristanlığında. İndi yəqin itib-batıb, o qəbrin yəqin heç izi də qalmayıb... Onu dəfn edəndə, mən də özümü qəbrə atdım. Bir dostum var idi, Qerontiy Kikodze, aşağı düşüb, məni qəbirdən güclə çıxartdı. Bilirsən, Kikodzenin uşaqları sonralar nə deyirmişlər? Kaş, atamız Kobanı o qəbirdən çıxarmayaydı. Yaxşı fürsət düşmüşdü ki, insanlar yoldaş Stalindən xilas olsun. Bax, belə!

Stalin pəncərənin ağır pərdəsini bağlayır və yenə var-gəl etməyə başlayır.

OLQA ALEKSANDROVSKAYA. İndi o Kikodze hardadır?

STALİN. Bilmirəm. Bəlkə Sibirdədi, bəlkə, güllələyiblər, dəqiq yadımda deyil. Ancaq xatırlayıram, mənə dedilər ki, o da xalq düşmənidir. Katonu eləcə Tiflisdə dəfn etdik... Nadya Novodeviçyedə dəfn olundu...

OLQA ALEKSANDROVSKAYA. Deyirlər, sən onun dəfninə getməmisən...

STALİN. Çünki o, öz ölümü ilə mənə xəyanət etdi. *(Birdən-birə qəzəblə.)* Onların ikisinin də ölümü mənə xəyanət idi!

OLQA ALEKSANDROVSKAYA. Axı, İosif, ölüm Allahın işidir!

STALİN *(əsəbi).* Hansı Allahın? Mənə nə dəxli var, hansısa Allahın işidir? Məni tək qoyub, getmək, xəyanət deyil?!

OLQA ALEKSANDROVSKAYA. İosif, bəlkə mən gedim, sən bir az istirahət edəsən?..

STALİN. Sən də satqın həkimlər kimi, mənə istirahət təklif edirsən?
OLQA ALEKSANDROVSKAYA *(əsəbi).* Axı hamı satqın, hamı xəyanətkar, hamı xalq düşməni, ingilis casusu, imperializmin nökəri, trotskiçi, buxarinçi, nə bilim, kim, kim, kim ola bilməz!..
STALİN. Hamı ancaq mələk ola bilər, hə?
OLQA ALEKSANDROVSKAYA. Mən elə demədim...
STALİN. Bəs necə dedin?

Pauza.

OLQA ALEKSANDROVSKAYA. İosif, bilirsən mən nə fikirləşirəm? Teatrlarda, kinoda artistlər sənin surətini necə də üzdən yaradırlar... Necə də bəsit pyeslər yazırlar...
STALİN *(istehza ilə).* Bunun üçün Şekspir qələmi lazımdır?
OLQA ALEKSANDROVSKAYA. Bəli! Bəli! Sən lağla deyirsən, ancaq Şekspir qələmi lazımdır, bəli! Bəlkə də, qorxurlar?..
STALİN. Sibirdən?
OLQA ALEKSANDROVSKAYA. Yəqin... Şapovalov filmlərdə, elə bil, səni yox, sənin heykəllərini oynayır.
STALİN *(təbəssümlə).* O axmaq MK-ya məktub yazıb ki, yoldaş Stalinin şəxsiyyətini dərindən hiss etmək üçün, bir-iki həftə yoldaş Stalinin Ritsa gölünün sahilindəki bağında qalmaq istəyirəm. Mənə gətirib göstərdilər.
OLQA ALEKSANDROVSKAYA. Getdi?
STALİN. Tapşırdım ona yazsınlar ki, yoldaş Stalinin şəxsiyyətini dərindən hiss etmək üçün, Narıma gedib, orda bir-iki həftə qalmaq daha faydalı olar... Axmaq!
OLQA ALEKSANDROVSKAYA. Sənət üçün sənin xarakterini açmaq yəqin, çox çətindir...
STALİN. Heç mən özüm də Stalinin xarakterindən baş açmıram!

Stalin yenə pəncərəyə yaxınlaşıb, ağır pərdəni kənara çəkir və çölə baxır. Kiçik pauza.

OLQA ALEKSANDROVSKAYA *(tərəddüd və həyəcanla).* İosif...

Stalin pəncərənin qarşısından çevrilib, ona baxır.

İosif, sən... sən həqiqətən yoldaş Stalinsən?
STALİN *(əllərini yana açıb, çiyinlərini çəkir).* Kim bilir... *(Sonra yenidən pəncərə şüşəsindən çölə baxır.)* 1-ci Aleksandr Paveldən sonra Rusiya imperiyasını möhkəmləndirdi, genişləndirdi, bütün Qafqazı imperiyanın bir hissəsinə çevirdi, Rusiyanın düşməni Napoleonu taxtdan saldı, sonra da o sağlam, cavan, yaraşıqlı imperator, Rusiya imperiyasının hakimi-mütləqi guya bir günün içində Taqanrokda vəfat etdi... Hətta alimlər də deyirlər ki, bu, yalandır. Sadəcə, o, taxt-tacdan, saraydan əl çəkib, uzun ömrünün sonuna qədər Sibirli Fyodor Kuzmiç adı ilə sadə bir həyat sürüb... Şərqdə buna bilirsən nə deyirlər? Dərviş həyatı... *(Qəflətən özü-özünə əsəbiləşərək, Olqa Aleksandrovskayaya tərəf çevrilir və gözlənilməz bir qəzəblə.)* Mən bütün bunları nə üçün danışıram? Bütün bunların heç kimə dəxli yoxdur! *(Qəzəblə.)* Sənə də dəxli yoxdur!.. Dur! *(Sarkazm ilə.)* Dur, get, knyaz qızı Olqa Aleksandrovskaya! Uydurulmuş Tamara! Əlvida! Biz bir də heç vaxt görüşməyəcəyik!

Olqa Aleksandrovskaya ayağa qalxır. Kabinetin işığı yavaş-yavaş sönür. İşıq yalnız Stalinin üzərinə düşür.

(Pəncərənin qarşısında gözlərini yumaraq, asta səslə.)

В те дни, когда мне были новы
Все впечатленья бытия –
И взоры дев, и шум дубровы,
И ночью пенье соловья, –
Когда возвышенные чувства,
Свобода, слава и любовь
И вдохновенные искусства
Так сильно волновали кровь, –
Часы надежд и наслаждений
Тоской внезапной осеня,
Тогда какой-то злобный гений
Стал тайно навещать меня.

İşıq sönür.

YEDDİNCİ ŞƏKİL

Mokva. Lyublyankada zirzəmi.
Polikarpov, Partiya kuratoru, Nazirlər kuratoru, Təhlükəsizlik kuratoru, Ticarət kuratoru, marşallar, zabitlər.

Səhnə qaranlıqdır. Birdən zirzəminin işığı yanır və Polikarpov qəflətən qaranlıq içindən zirzəmiyə daxil olur.

POLİKARPOV. Gətirin!

Bir neçə zabitin mühafizəsi ilə üz-gözləri döyülməkdən qana bulaşmış, əyin-başları cırılmış sui-qəsdçi kuratorlar qaranlıqdan çıxıb zirzəmiyə gəlir. Onları o qədər döyüblər ki, güclə yeriyirlər.
Sui-qəsdçilərin ardınca artıq bizə tanış olan marşallar gəlir.

Məhkəmə sizi güllələnməyə məhkum edib!
TƏHLÜKƏSİZLİK KURATORU. Axı, biz heç bir məhkəmədə olmamışıq. Bizi məhkəməyə aparmayıblar.
PARTİYA KURATORU. Bu, özbaşınalıqdır!..
NAZİRLƏR KURATORU. Lenin belə deməmişdi!..
POLİKARPOV *(Təhlükəsizlik kuratoruna).* Siz sovet məhkəməsinə, Stalin ədliyyə sisteminə şübhə edirsiz?
TƏHLÜKƏSİZLİK KURATORU *(tələsik).* Yox... Mən elə demirəm...
POLİKARPOV *(o biri suiqəsdçilərə).* Siz?
KURATORLAR *(tələsik).*
- Yox...
- Yox...
- Yox...

Ticarət kuratoru Polikarpovun ayağına atılır.

TİCARƏT KURATORU. Yoldaş Polikarpov!.. Yoldaş Polikarpov!.. Yoldaş Stalin sizi çox istəyir... Məni xilas edin, yoldaş Polikarpov! Mən yoldaş Stalin yolunda günahlarımı yumaq istəyirəm. Mən o biri dünyaya belə bir günahla gedə bilmərəm! Axı, mən boynuma aldım ki, Türkiyənin də, İngiltərənin, Amerikanın, Yaponiyanın, İsrailin də casusuyam!.. Daha nəyi deyirsiz, təsdiq edim!.. Kimi deyirsiz, üzünə durum ki, yoldaş Stalini zəhərləmək istəyirdi... Partiya naminə mən hər şeyə hazıram!..

POLİKARPOV *(ayağı ilə onu özündən itələyərək, zabitlərə).* Bu qatı xalq düşmənini divara dirəyin!

İki zabit Ticarət kuratorunun qollarından yapışaraq, onu divara tərəf sürükləyib, ayağa qaldırırlar. Qalan üç sui-qəsdçini də divara düzürlər.

NAZİRLƏR KURATORU. Mənim yoldaş Stalinə deməli vacib sözüm var!

POLİKARPOV. O biri dünyada Trotskiyə deyərsən! Sən köhnə tortskiçisən! *(Marşallara.)* Yoldaş Sovet İttifaqı marşalları! İmperializmin casusları olan bu satqın xalq düşmənlərini güllələməyə hazır olun!

Marşallar bellərindən tapança çıxarıb sui-qəsdçilərə tuşlayırlar. Partiya kuratoru özünü saxlaya bilməyib, hönkür-hönkür ağlayır.

POLİKARPOV *(ikrah dolu nəzərlərlə xalq düşmənlərinə baxaraq).* Son sözünüz?!

GÜLLƏLƏNƏNLƏR *(sözləri güclə deyə-deyə):*

- Yaşasın yoldaş Stalin!
- Koba, mən sənin adınla bu dünyadan gedirəm!
- Yaşasın dünya proletariatının dahi rəhbəri, yoldaş Stalin!
- Yaşasın sovet xalqını kommunizmin qələbəsinə doğru aparan yoldaş Stalin!

POLİKARPOV *(işarə üçün sağ əlini yuxarı qaldıraraq).* Xalq düşmənlərinə ölüm!

GÜLLƏLƏNƏNLƏR:

- Yox!..
- Vurmayın!..
- Vurmayın!..
- Yalvarıram!..

POLİKARPOV *(əlini aşağı salaraq).* Atəş!

Ticarət kuratoru atəş açılmazdan əvvəl yerə sərilir. Atəşdən sonra isə bütün sui-qəsdçilər yerə yıxılır.

(Belindən tapanca çıxararaq Ticarət kuratoruna yaxınlaşır.) Murdar xalq düşməni! *(Atəş açaraq Ticarət kuratorunu öldürür.)* Yoldaş marşallar və zabitlər! Sovet xalqı qarşısındakı böyük xidmətlərinizə görə yoldaş Stalin sizin Sovet İttifaqı Qəhrəmanlarının qızıl ulduzları və Lenin ordenləri ilə təltif olunmağınız barədə təklifləri şəxsən imzalayaraq SSRİ Ali Soveti Rəyasət Heyətinə göndərmişdir. Təbrik edirəm sizi, yoldaşlar!..

Zirzəminin işığı sönür. Qaranlıqda addım səsləri eşidilir, sonra işıq Polikarpovun üzərinə düşür. O, səhnənin küncündə divardan asılmış telefona yaxınlaşıb, dəstəyi qaldırır və nömrələri yığır.

POLİKARPOV. Alo! Eşidirsiz? Parol: 32 drob 163 nöqtə 11.

Kiçik pauza.

TELEFON DƏSTƏYİNDƏN GƏLƏN SƏS. Alo!
POLİKARPOV (İVANOV). Salam, yoldaş Polikarpov! Mənəm, İvanovdur.
POLİKARPOVUN SƏSİ. A-a-a!.. İvanov?
İVANOV. Bəli, mənəm, yoldaş Polikarpov, İvanovdur. İcazə verin sizə məruzə edim: tapşırıq yerinə yetirildi!
POLİKARPOVUN SƏSİ. Xalq düşmənləri güllələndi?
İVANOV. Bəli, yoldaş Polikarpov!
POLİKARPOVUN SƏSİ. Çox yaxşı, yoldaş İvanov! Yoldaş Stalinə məruzə edəcəyəm!
İVANOV. Çox sağ olun, yoldaş Polikarpov! Mən gedə bilərəm?
POLİKARPOVUN SƏSİ. Yox! Başqa bir tapşırıq var!
İVANOV. Başqa tapşırıq?.. Eşidirəm, yoldaş Polikarpov.
POLİKARPOVUN SƏSİ. Mənim yanıma gəlin!
İVANOV. Oldu, yoldaş Polikarpov! *(Dəstəyi asır.)* Of-f-f!.. Evə də gedə bilmirəm!.. *(Ehtiyatla o tərəf-bu tərəfə baxaraq astadan.)* Sizi görüm, lənətə gələsiz!.. *(Daha da astadan.)* Səni də, qoca İblis, görüm, lənətə gələsən!..

İşıq sönür.

SƏKKİZİNCİ ŞƏKİL

Bakı. Xəzər dənizinin sahili. Axşam.
Oğlan, Qız.

Oğlan sahildəki qayalıqda dayanıb, sakit dənizə baxır. Qız qaça-qaça gəlir.

QIZ *(nəfəsini dərərək).* Oy!.. Gecikdim...
OĞLAN. Eybi yox... Çıxışa hazırlaşırdın? Qurultaya dörd gün qalıb. *(Təntənə ilə.)* Azərbaycan komsomolçularının qurultayı! Necə səslənir?
QIZ. Sevincdən az qalır adamın ürəyi partlasın! Ancaq çıxışım hazırdır.
OĞLAN. Hazırdır? Bəs, hardaydın?
QIZ. Çörək növbəsində...
OĞLAN. Çörək növbəsində?
QIZ. Hə. Evdə çörək yox idi, getmişdim çörək almağa.

Kiçik pauza.

OĞLAN. Bəli, bizim çətinliklərimiz var. Ancaq biz bu çətinliklərə sinə gərəcəyik! Biz bu çətinlikləri keçəcəyik! Biz kapitalizmə qalib gələcəyik! Biz imperializmin caynaqlarını qoparıb çıxardacağıq!.. Sən dənizə bax, əzizim!.. Gör, necə sakitdir...
QIZ. Hə... Bu gecə qəribə bir yuxu görmüşəm...
OĞLAN. Qəribə yuxu? Söylə, görüm!..
QIZ. Axı deyirlər yuxunu ancaq suya söyləmək olar.
OĞLAN *(əlini dəniz tərəf uzadır).* Bəs, bu boyda su?!.
QIZ *(sevincək gülür).* A-a-a!.. Doğrudan e!..
OĞLAN. Söylə, görüm!.. Söylə, əzizim!..
QIZ. Görürəm ki, Qafqaz dağlarının qarlı zirvəsidir... Mən özüm heç vaxt Qafqazın zirvəsini görməmişəm, ancaq yuxuda bilirdim ki, bu, başı qarlı Qafqaz zirvəsidir. Zirvənin ən uca bir nöqtəsində, sıldırım bir qayanın üstündə bir qartal dayanmışdı. Mən yuxuda hiss edirdim ki, bu, adi qartal deyil... O, sıldırım qayanın üstündən diqqətlə aşağı – Yer kürəsinə baxırdı...

Onun o cür zənnlə baxan gözlərindən heç nə yayına bilməzdi... Bilirsən, mən... mən birdən elə yuxuda başa düşdüm ki, o qartal əslində yoldaş Stalindir!.. Bu, qəribə bir hiss idi. Mən yuxudan oyandım, ancaq gözlərimi açmaq istəmirdim... Mən elə hey o zirvədə, o sıldırım qayanın üstündə durmuş o qartala baxmaq istəyirdim...

OĞLAN *(mütəəssir).* Hə... Düz deyirsən, əlbəttə, o adi qartal deyil... O, Qafqaz qartalıdır!.. Bax, dənizdən də necə gözəl meh əsdi. Dəniz də bizim deduklərimizi təsdiq edir!.. *(Qızın çiyinlərini qucaqlayıb, özünə sıxır.)* Üşümürsən?

QIZ. Yox, yox... Mən sənə sığınanda necə üşüyə bilərəm?

OĞLAN. Mənim əzizim!.. *(Qızı öpür.)* Dəniz yenə sənə qulaq asmaq istəyir. Hayıf, mən şeir yaza bilmirəm!.. Yenə şeir de, əzizim. Bilirsən ki, sənin şeir söyləməyini necə sevirəm!.. Səni necə sevirəmsə, şeir deməyini də o cür sevirəm!..

QIZ *(coşğun).*

Gözəl Vətən, o gün ki, sən
Al bayraqlı bir səhərdən
İlham aldın... yarandım mən.
Gülür torpaq, gülür insan,
Qoca Şərqin qapısısan!

Nəğmələrin sərin-sərin,
Aşiqiyəm bu günlərin.
Atamız – şanlı rəhbərin
Gəncliyi söylənir burda,
Həyat vermiş bizim yurda!

Dinlə məni, gözəl Vətən!
Bir söz gəlir ürəyimdən:
Stalinin eşqilə sən
Güləcəksən hər bir zaman,
Azərbaycan, Azərbaycan!.

OĞLAN *(iki əlini də qaldırıb, geniş açaraq, ucadan.)* Ey, gələcək nəsillər, eşidirsiz?! Siz dünyanın ən xoşbəxt insanları olacaqsız!.. Siz Stalinin övladlarısız!..

QIZ *(hiss olunan bir tərəddüdlə).* O vaxt Stalin olacaq?

OĞLAN. Əlbəttə, əzizim! Sənin gördüyün o Qafqaz qartalı daimidir! O Qafqaz qartalı bütün dünyanı, Amerikanı da, Avropanı da kapitalizmdən azad edəcək! O, kapitalizmi məhv edəcək! İnsanlar kapitalizm buxovlarını qırmış azad dünyada yaşayacaqlar!.. Bütün dünyada, eşidirsən, bütün dünyada zəhmətkeşlərin istismarına son qoyulacaq!.. Müharibələrə son qoyulacaq!.. Yer üzündə ancaq qardaşlıq və sülh, əmin-amanlıq hökm sürəcək!.. *(Coşğun bir ruh yüksəkliyi ilə.)* Gedək!.. Gedək, əzizim!.. Gedək gələcəyə doğru! *(Qızın əlindən tutaraq.)* İrəli!..

Və ikisi də gələcəyə doğru qaçaraq, səhnədən çıxır.

İşıq sönür.

S O N

Yanvar, 2018
Roqaşka



Dəyanət OSMANLI

SUYA QARIŞMIŞ İZLƏR

1

Küləyin izi saçlarında,
yağışın rəsmi pəncərəmdə,
doğulduğum iyun axşamının
qaranlıq tablosu
səhər açılar-açılmaz
sinəmi göynədir susqun anılartək.

Hər dəfə
yagış pəncərəmdə
göz dağıtək iz qoyub
qaranlığa qarışanda
sənin yoxluğunla birgə
yuxuya verirəm ötənləri.
Dan üzü söküləndə
göyün sakit qübbəsində
adını yazmaq keçir ağlımdan
ən ufacıq azadlığı sevəntək...

2

Heç anlamırsan,
bəlkə də umurunda deyil,
hər gün axşam olanda
niyə şərin simasıtək qarışır
adamın içindəki düşüncələr...

Hər axşamı gözləmək
ürək uçuna-uçuna,
sənə çatıb gülümsəyən
bir xeyir xəbəri
eşitmək qədər sevincli.

Gecə də keçir,
sabah da gülümsəyir...
Yollarda qəhr olur ömür
eynən ağ kəfəntək
ölümünə sarsıdır adamı
hər şeyi itirmək qorxusu
ağ üzündə rəsmə dönüşəndə...

3

Unutmaq yağışda islanmağını,
küləkdən asılmağını
və hər gecə xatirələri dindirmək...
Ruhunu cırnadıb,
yaşamın ağrılarını əzizləmək
köhnə adətimdi.

Belə havalarda
hərdən ürəyim gedir
özümdən xəbərsiz
sənin yanına.
Bu ürək zatən yormuşdu məni
apar da onu özünlə
bir daha qaytarmadan.
Yağış islatmasın,
külək qurutmasın...
Onun qanına boya azadlığı,
küləyi və yağışı...

Bir dostun aqibətiylə
barışdığı günün şərəfini
yağışdan sonra
torpağın ətrinə qatıb,
kəmşirin azadlığı içib, içib
üst-başıma dağıtmaq...
Küləkdən,
yağışdan sonra
yuyulmuş ağacların,
əzilmiş otların,
duru suyun qoxusu
ehtiyac duyduğum məlhəm olsun...

4

Bir gerçək vardı,
zamanı gözüylə dindirməyən,
diliylə qınamayan,
mənim üzümü belə
tanımaq istəməyən.

Getmək istəyirdi
yolun ağına-bozuna varmadan,
bir daha geri baxmadan,
qovub incitmədən
dalıyca veyillənən həsrəti.

Həyatdan gedərkən də,
bir daha gecələr yatıb,
gündüzlər oyanırkən
sahmana salmaq keçir ağlımdan
ürəyimi bir kimsəsiz yuva kimi.

5

Günlər qurtarmır,
zaman saymazyana
keçir yanımdan.
İndi hansı səmtə baxıb,
tərk etdiyin ünvanı
kimdən sorasan...
Öndə nə bir yol görünür,
nə də gəlib-gedən.

Səndən başqa
rastıma çıxan yox
bu yorucu zamanın dalanlarında,
halını hər gün
özündən soruşuram,
harda itib-batmısan deyə.

Sənin sükutuntək
sabah ağır gəlir,
gecə daha da qaralır,
səssiz və kinayəli
ötür ayrılıq anı.

Gəlməyi qərara alsan
sabahın tənbəlliyi də,
gecənin qaranlığı da
uzaqdan duyub
yol verər simsar hənirtinə.

6

Hara getsəm də,
qayıdıb qaçılmaz bir qismət kimi
ömrün dilinin ucundan asılıram.

Həyata yenidən başlayır kimi,
öz ruhumu əzizləmək,
ya da bu dünyada
bir əziz əmanəttək
saxlamaq istərəm...

Getsəm də hara qədər
bir yad ürəyə çatanda
elə bil üzə bilmədiyim bir nəhrdə
boğulur,
boğulur,
sonra ani bir möcüzə sayəsində
başımı sudan çıxarıb
hələ də sağ qaldığımı görüb
yenidən bayılıram...

7

Sən xəbər vermədən döndün
illər öncə unutduğun o yerə.
Köhnə yurd yeridi ürəyim,
dayan qapının önündə qərarsız,
sonra da dönərək qayıt özünə
olacağı düşünmədən.
Tanrının gözünə görünmədən,
halalaşmağı gözləmədən uzaqlaş...

Hər sabah adətincə
yasəmən gülütək
qəlbimdə pardaqlanıb,
könülsüz açırsan pəncərəni,
qarışdırırsan havanı
öz yasəmən ətrinə.

Bağla ürəyimin qapısını,
hər gecə uyu orda
cənnətdəymiş kimi.
Səndən xəbərsiz
kimsə içəri girməsin,
tanımasın kimsə səni.

8

Hər gün özümdən çıxıb
baxıram ömür yoluna,
bəlkə gəlib-keçərsən deyə.

Hər gün daha çox
uzanır səbrin təmkini,
itir ömrün ortasında.
Hər gün də bilərəkdən
gecikirsən haqqın dərgahına.
Hər gün iz göstərirəm
çəkilib o yoldan,
bir-birini könülsüz ötürüb
göz yaşıyla uğurlayanlara.

Hər dəfə bir səbəb olmadan
yürüməkdən bezmiş kimi
qiyamətə gedən yol ayrıcında
özümü unudub qayıdaram
ilk addım atdığım yerə,
gözləmədən dünyanın axırını
müdhiş bir olay kimi.

9

Hər sabah yorulanda
qaranlığın düşməyini gözləyirəm,
bilirəm,
yenə şər qarışanda
anılar səbrim daraldacaq.
Bu dəfə də yuxumu qaçırdacaq
xoş bir üzüntü verən
keçmişin nostaljisi.

Divarda bekar saat
vaxtı sayıb qurtarmağa tələsir,
sürət qatarı kimi iniltiylə
keçir qulağımın dibindən.
Dilim gəlmir deməyə:
Eheyy...
gözlə,
məni də götür
gec qalıram keçmişin dəfninə...

Gecədən də qara səbrimdən
səni salamat qurtarırkən
təkər səsinə diksindiyim
qatardan da vaz geçib,
sabaha sağ çıxmaram.
Gəlməsən nə olur,
gəlsən nə olur,
təsəllim yanında mürgüləyən
bir gecə bəkçisiyəm.

10

Əgər bir gün ölüm xəbərim
yalan çıxsa unutma:

dost üzündən gecikib
avara qaldım bu dünyada.

Yaman könlümü sıxır saflıq,
kimsəni tanımadan yaşamaq,
ölümdən sonra
hüznlü bir xatirəyə dönmək...

Hərdən nəbzimi dinşəyib
səbəbsiz nəfəs aldığımı,
boşuna sevindiyimi duyuram.
Hər gün ustufca
ayağımın ucunda özümdən qaçmaq,
arzulardan can qurtarmaq
keçir zavallı könlümdən.

11

Yad və yanlış yerdə
buluşma vədəsi hikkəylə
ötüb keçdi yanımdan
tələskən və saymazyana.
Sanki deyirdi:
bu dünyada,
bu adda
sən heç olmamışsan.

İşıq söndü odamda,
əlimdə üzü döndü qələmin,
uyğu kimi çökdü sükut
həmişə gəlib keçdiyim yola.
Bir sükut kimi,
bir səbirli saat səsi kimi
bir ilac kimi ötürdüm ismarışlarını.

12

İşığı yandırmadan,
qələmi dindirmədən,
sükutu səsinlə dağıtmadan
gecəni göndərdim uzağa.
Amma hələ də
nə özün,

nə səsin,
nə də ətrin duyulur.
Havada külək yox,
heç yağış havası da deyil.

Özün geciksən belə,
göndər sükutla süslənmiş sözünü
su kimi,
əkmək kimi
küləkdə və yağışda,
quşlar yatandan sonra…

13

Bəzən olacağa salam verib,
salamalmaqçün
gündüzü tələm-tələsik
birtəhər yola salıb,
axşamın qorxusunu özlədim.

Hər gün gecəni ötürüb,
yeni günü uğurlamaq,
ömür fırtınasından
sağ-salim çıxdığına inanmaqçün
sabahların sirrini
yaralı azadlıqtək özlədim.

Və hər dəfə aqibətimi
qaçılmaz xəta bildim.
qənşərimdə görüncə
gecəni də,
sabahı da,
üzünü də
unutdum uşaqlıq xatirəsitək.
Dərindən nəfəsalıb,
şeirin kölgəsində
xəyalən dadıram ölüm həzzini.

♦ Nəsr

Mübariz CƏFƏRLİ



ZƏNCİR

♦ *Roman*

S. xanımın xatirəsinə

Qırılan zənciri xəyali halqalarla da birləşdirmək olar.

Müəllif

NASKA

Yuxudan oyanıb yerimin içində qurcalandım, gözüm qaranlığa alışanda gördüm ki, Naska kreslonun yanında uzanıb, tərpənib-eləmir. Birdən-birə yazığım gəldi ona, yaman qocalmışdı, dişləri də tökülmüşdü, lap dəqiqi, tək-təkcənə yuxarıdan bircə dişi qalmışdı ağzında...

– Naska, – çağırdım yavaşca, – quru yerdə uzanma, bura gəl...

Bilmədim səsimdəki həlimlikdən doğan yüngül titrəyiş hardan hakim kəsilmişdi varlığıma, yay gecəsində ona soyuq-zad dəyən deyildi. Nə qışın oğlan çağındakı şaxtanı vecinə alırdı, nə yayın istisindən təntiyirdi, üzü üzlər görmüşdü Naskanın. Yəqin elə buna görə çağırdığım qımıldanmadı, əvəzində mən ərinmədən yatağımdan qalxıb döşəmədə uzununa doğru addımladım. Amma yaxınlaşanda baxdım ki, parketin üstündə, kreslonun yanında ins-cins yoxdu. Deyəsən, məni qara basmışdı, gözümə də huri-mələk, cin-şeytan yox, Naska görsənmişdi. Allah bilir Naska indi hansı ağacın budaqları arasında özünə təbii beşik düzəldib uyuyurdu, ya hansı divarın üstündəcə gecə işım-işım işıldayan gözlərini bərəldib oğrun-oğrun, nigaran-nigaran qaranlıqda ətrafı seyr eləyirdi, yay gecəsində ev-eşik dar gəlirdi ona, içəridə qərar tuta bilmirdi. Qayıdıb çarpayıda oturdum, əsnəyib təzədən yerimə uzansam da, hava işıqlananacan gözlərimə yuxu getmədi, yerimin içində sağa-sola çevrilə-çevrilə səhəri dirigözlü açdım.

Ertəsi qonşumuz Xanım xala dedi ki, sənin pişiyin həyətdə dayanan yük maşınının altında ölüb... Yəqin ki, mənə xoş gəlməkdən ötrü ağlamsınıb boğuq səslə əlavə elədi: “Yazıq heyvan... Hamımız öyrəşmişdik ona... Hayıf...”

– Maşın vurub onu? – bikef-bikef soruşdum.

– Yox, – arvad izah elədi, – elə pişik özü dayanan maşının altında uzanıb ölüb... Qocalmışdı da... – burasını, nədənsə, üzrxahlıqla, çəkinə-çəkinə dedi,

elə bil qorxurdu ki, qəfil mən də onun dərin qırışlı sifətinə baxaraq dilimi dinc saxlamayıb: “Elə sən özün də qocalmısan,” – deyə bilərəm...

– Bəs, ölüsü necə oldu?

– Heç necə, səliqə ilə qoydum ayaqqabı qutusunun içinə, uşaqlar aparıb basdırdı məktəbin həyətindəki bağda...

Bilmirəm, arvad düz deyirdi, ya mənim zəif damarımdan tutub yerini şirin salmaq istəyirdi, ancaq həmin gün məktəbin həyətini ha axtardım, ha ələk-vələk elədim, Naskanın basdırıldığı yeri tapmadım.

Evə qayıdıb eyvanda həyətə baxa-baxa siqaret çəkəndə nədənsə, birdən-birə yadıma xalam oğlu Vüqar düşdü...

VÜQAR

Uşaqlığımız bir yerdə keçmişdi deyə bilmərəm, amma yay tətilini birlikdə keçirərdik. Kənddə, babamgildə, anamın atasıgildə, namaz qılan, oruc tutan, Quran oxuyan, axşamlar cürbəcür dini rəvayətlər, əfsanələr danışaraq hamımızı sehirləyən, xəyalən bizi ucsuz-bucaqsız kainatda gəzdirərək keçmişdən gələcəyə, gələcəkdən keçmişə aparan babamın yanında... Uşaqlıqdan Vüqar küçədəki itləri yığardı başına, mən pişikləri sığallayardım, həmişə it yaxşıdı, ya pişik? – sorğusuyla öz aramızda çılğın-çılğın mübahisəyə girişsək də gedib dalana dirənərdik axırda. Mən özümdən çıxaraq hirslənib babamı köməyə çağırardım:

– Baba həmişə deyir ki, itlər murdardı... Elədi, baba? – bir anda sakitləşib kişinin qırışmış üzünə fağır-fağır baxaraq istəyərdim ki, o, mənim tərəfimi saxlasın.

Babam isə məni yarıyolda qoyub yaxasını kənara çəkərdi:

– Mən elə söz deməmişəm. Allah yaradanın murdarı olmaz...

Vüqar babamın sözlərindən ürəklənib məni üstələyərdi:

– Amma itlər sədaqətlidi... Çox sədaqətlidi... Elədi, baba? – sorusub kişinin ağzına marıtlayardı.

Babam mənim xətrimə dəyəcəyindən ehtiyatlansa da, bu dəfə əlacsız-əlacsız ağızucu mızıldanaraq təsdiqləyib:

– Orası elədi... Düz sözə nə deyəsən... – suçluymuş kimi, günahkarcasına, çarəsiz-çarəsiz mənim üzümə baxardı.

O vaxt mən Vüqara – elə babama da – tutarlı cavab vermədiyimə, daha doğrusu, verə bilmədiyimə görə – çünki tapmadığını, olmayanı vermək mümkün deyil – cırnayırdım için-için, indisə, illər ötəndən sonra cavabı həyat özü öyrətmişdi mənə... Düzdü, itlər sədaqətlidi, lakin insanlar itin sədaqətinə layiqdilərmi? Hayıf ki, gec idi, gəldiyim nəticəni o rəhmətliklərə deyə bilmədim... Həm də bəzən ifrat sədaqət get-gedə qula, köləyə çevirir sədaqət yiyəsini, məncə, pişiklərin idarəolunmazlığı itlərin sədaqətindən qat-qat irəlidi...

CAVİD

Hava qaralmışdı qapım döyüləndə. Cavid idi gələn, əlində də selofan zənbil... İçəri girib əlindəkini yerə qoydu. Çəkmələrini güc-bəla ilə çıxarda-çıxarda – corablarının da dabanları çırıq idi – mızıldadı.

–Dedim bekarçılıqdı, gəlib bir sənə dəyim... Araq da gətirmişəm ki, yüz-yüz vurarıq iki qardaş... – özünütərifə keçdi. – Belə qonaqdan kim inciyər? – zənbili götürüb yeyin addımlarla birbaş mətbəxə cumdu.

Gələnin dabanları cırıq qara çorablarına baxa-baxa mən də onun ardınca düşdüm.

– Arağım var evdə, – dedim, – amma yeməyim yoxdu... Qulluqçu üç gündü gəlmir. Xəstədi...

– Eybi yoxdu, mən ehtiyatlı adamam, kolbasa-sasiska da gətirmişəm, – əşyayi-dəlil kimi əlindəki zənbili nümayişkaranə silkələdi. – Bə nədi, bu? Bu gecə iki qardaş möhkəm vuracuğ e... – dediklərini sübut eləməkdən ötrü çənəsinin altına, lap dəqiqi, boğazına bir çırtma vurdu.

Məsələ aydındı, arvadı Cavidi evdən qovanda keçmiş tələbə yoldaşım əliaçıq olurdu, yüngülvari bazarlıq eləyib gəlirdi bizə. Hərdən mən evdə olmayanda mobil telefonuma zəng eləyirdi ki, qapınızın ağzındayam, tez evə gəl. Arabir zəng eləməyə də halı, həvəsi olmurdu, mən evə gələndə görürdüm bikef-bikef binanın qabağındakı rəngi getmiş dəmir skamyada oturub ulduzlara baxır, alıb gətirdikləri də dizinin üstündə... O dəm mənə elə gəlirdi ki, yer üzündə Caviddən bədbəxt adam yoxdu. Ancaq həmin "bədbəxt" səhər tezdən əkilirdi evinə. Çox vaxt xəbərim də olmurdu gedişindən, qapını da açıq qoyurdu... Beləcə, canavarın gözü, ürəyi, qəlbi meşədə, Cavidinki isə öz evində idi. İstəyirsən qabağına qızıl qablarda min bir nemət düz, xeyri yoxdu, ertəsi yenə həmən-həmən olacaqdı. Ətrafına qırx incəbelli pəri düzülsəydi belə, yenə onu yolundan döndərmək müşkülə çevriləcəkdi. Başa düşə bilmirdim; bir adam ki, arvadından ötrü əldən-ayaqdan gedir, bəs, hərdənbir kişiləşib – bir gecəlik də olsa – küsüb evdən çıxmağına nə ad verəsən? Nə yardan doyur, nə əldən qoyur... Yox, burda da məsələ qarışırdı: biz görmüşük arvad küsüb atasığılə gedər, Cavidgildəsə əksinəydi, belə çıxır ki, dar məqamda mən Cavidə atalıq eləyirdim...

– Hələ Naskanın da payını gətirmişəm, – mətbəxdə zənbili masanın üstünə qoydu. – Bu axşam Naska da kef eləyəcək...

– Day Naskaya yemək lazım deyil...

– Niyə? – yerində donub qaldı bir anlıq.

– Naska ölüb...

– A... Yazıq... Nə vaxt?

– Bu gecə...

– Neynək, başın sağ olsun... – zarafat eləmək istəsə də, üzümə baxıb ciddiləşdi. – Onda boğazımızı yaşlayıb Naskanın ruhunu şad eləyərik... Sən keç otur otaqda, televizora-zada bax... – Cavid ev sahibi kimi ərklə dedi. – Burda mənim əl-ayağıma dolaşma...

Mənə də çar-naçar qonaq roluna girib ona qulaq asmaq qalırdı, ayağımın ucunda ürkək-ürkək qonaq otağına keçən kimi mobil telefonum zəng çaldı.

– Sizdədi? – o başdan salam-kəlamsız qadın səsi gəldi.

– Hə.

– Bu gecə heç, səhər onu göndər evə...

– Yaxşı... Onsuz da sabah işim var, Vəfagilə gedəcəm...

– Vəfa kimdi?

– Xalamın qızı...

– Mənim sənə zəng vurmağımı ona demə, qoy ayağı yer almasın...

– Ayıb söhbətdi ki...

Sağollaşmadan düyməni basdığından qulağıma ritmik siqnallar gəldi... Əslində mən, bir növ, yerimi şirin salırdım, zəng eləyənin xəbəri yox idi ki, Cavidi dilə tutmağa ehtiyac yoxdu, yəqin həmişəki kimi sabah mən yuxudan oyanmamış, o, aradan çıxacaqdı... Hərdən o, səssiz-səmirsiz – həmişə beləydi, hay-küylə gəlib sakitcə gedərdi – mürəxxəs olandan sonra yuxudan oyananda mənə elə gəlirdi ki, evdə tək olmuşam, yalnız qalxıb masanın üstündəkı boş butulkanı və boşqabları – həqiqətən də boş qabları – görəndə Cavidin gəlişi yadıma düşürdi.

...Bir azdan isə ürəyimdə Cavidi tərifl ədim, fikirləşdim ki, elə onun gəlişi yerinə düşüb, bəlkə də ömründə birinci dəfədi ki, vaxtında gəlib mənim yanıma, yoxsa qanqaraçılıqdan yaxa qurtara bilməyəcəkdim, Naskanın ölümünə heyifsilənsəm də, əlidolu gələn qonaq dil boğaza qoymayıb başımı qatırdı.

– Vallah, sənə "dyadya" deməyinə baxma, mənim oğlum səni mənnən çox istəyir, özüm ölüm... İn...

Cavidin sözünü kəsdim:

– İstəmək öz yerində, siz o uşağa öz dilimizi öyrədin, böyüyəndə çətin olar ona. Keçən dəfə mən bir-iki kəlmə dedim telefonda, yazıq uşaq səssiz-səmirsiz qulaq asdı, yəqin heç nə başa düşmədi, axırda zara gəlib qayıtdı ki, ya abacanski ne znayu... Özü də, sözə bax e, abacanski...

Cavid qəhqəhə çəkdi:

– Necə, necə?.. Abacanski... – təkrarladı. – Ərköyündü də... – ciddiləşdi. – Axı sən özün bilirsən ki, neçə il gözlədik onun yolun, neçə il uşağımız olmadı... Anası o uşağa hamilə qalanacan neçə dəfə kilsəyə də getdi...

– Day kilsəyə niyə? – təəccübləndim.

– Nə fərqi var, sinaqoq, kilsə, məscid, hamısı Allahın evidi də...

– Bütün kainat Allahındı, onun ayrıca evə ehtiyacı yoxdu... – Bu kəlmələri mən demədim, çünki mənim səsim birdən-birə həddən ziyadə qalınlaşıb xırıldaya bilməzdi, sanki divarlar, döşəmə, tavan dilə gəldi, bu vaxtacan eşitmədiyim yorğun səslə mənim dilimdən səslənənlərə o qədər mat qaldım ki, yerimdə qurcalanıb heyrətlə ətrafa boylandım, yaxşı ki, Cavid bunun fərqinə varmadı, dodaqaltı nəsə mızıldaya-mızıldaya qədəhlərə araq süzdü. Nədənsə, dediklərimdən çox qəfil səsimin bir anlığa dəyişməsinin müsahibimə qəribə gələcəyindən əndişələnirdim...

Cavidsə öz aləmindəydi, qədəhi qaldırıb gözlərini üzümə dikdi:

– Vuraq?.. – mən qədəhimi götürməyə macal tapmamış, əlindəkini yavaşca masanın üstündəkinə toxundurdu.

Mən:

– Yox, – deyib əlimi geri çəkdim, qədəhi götürmədim. – Bu gündən mən içməyəcəm. Qurtardı...

– Niyə? – Cavidin gözləri bərəldi. – Naskaya yas saxlayırsan?

– Xırdalamaq istəmirəm, onsuz da başa düşməyəcəksən... – Qədəhimi süfrənin ortasına qoydum, daha doğrusu, sürüşdürdüm, ağzınacan doldurub dodaq yeri belə saxlamadığından qədəhdəki daşaraq süfrəyə də dağıldı.

– Tək içəcəm mən? – sir-sifətini turşudub diqqətlə gözlərimə baxdı, yəqin qırımımdan anladı ki, bu xına o xınadan deyil, üz vurmağın mənası yoxdu. – Neynək, özün bil, – gözlədiyimdən tez təslim oldu. – Sağ ol, sənin sağlığına... – deyib qədəhi dodaqlarına apardı.

Dilxor olduğumdandı, ya nədəndi, baş açmırdım, gözümün qabağına saysız-hesabsız rəngbərəng işıqlar gəlirdi, o rənglərin çoxunu birinci dəfə gördüyümdən, adını da bilmirdim. Qara-ağ şüaların arasında sayrışanların bir-birinə qarışan çaları ahəngdar, sakit uğultu yaratmışdı qulaqlarımda, sanki o işıqlar nə isə anlatmaq üçündü, nəyi isə başa salmaq istəyirdi mənə... Gözümün önündəki rəngbərəng şüalarla, qulaqlarımdakı uğultu ilə bahəm, beynimdən təkrar-təkrar bir fikir keçirdi, daha doğrusu, sanki bu sözləri kimsə ağzını açmadan, səsini çıxarmadan birbaşa ürəyimə, baş-beynimə pıçıldayırdı: "Tələsmə, bundan sonra sənin vaxtın hüdudsuzdu..."

1

...Anam xəstə olanda qardaşım qəfil bizə gəldi. Arvad lap agırlaşmışdı. Yatagından dura bilmirdi. Həkim də başının üstündəydi. Həkimlə gələn gombul sestra gah iynə vururdu heysiz-hərəkətsiz uzanan anama, gah da təzyiqini ölçüb çanfəşanlıq, canıyananlıq eləyirdi. Təcili yardım həkimi ilə bizə gəldiyi birinci kərə deyildi, bilirdi ki, evimizə gələn "ağxalatlıları" layiqincə yola salırıq. Beləcə, bu dəfə də həkimlə gombul sestranı yola saldım, gedənlər qapını təzəcə örtmüşdülər ki, qardaşım hirsli-hirsli üstümə çımxırdı:

– Az, nə key kimi quruyub-qalmısan, resepti götür, cum aptekə!.. Görmürsən arvad ölür?.. Tez elə!..

O dəm qardaşımın dediklərini xəstənin eşidə biləcəyi ağlıma gəlmədi, əksinə, onun özünü itirib bəlkə də əlacsızlıqdan üstümə qışqırmağı xoşuma gəldi, lap ləzzət elədi mənə, mən başdanxarab elə bilirdim arvadağız qardaşım gönüqalının yekəsidi, anamın yatağa düşməyi onun vecinə deyil, bəlkə də sevinir anamızın xəstələnməyinə... Görünür, birinin üstünə beşini qoyub qaşınmayan yerdən qan çıxarmaq, içi mənqarışıq bütün qadınların, qızların, baldızların canında var. Demə, indiyəcən mən onu tanımamışam, demə, qardaşımın nəyi varsa, dilindəymiş, demə, hay-küyü elə gözə kül üfürmək üçünmüş, demə, ürəyiyuxaymış...

...Ürəyiyuxa qardaşımı evdə qoyub bayıra necə çıxdığımı bilmədim, kövrəlsəm də ağlaya bilmirdim, gözlərim dolsa da yaş axmırdı, intəhası, ətrafı düz-əməlli sezməyimə mane olurdu – deyəcən, bəxtimdən narın yağış da yağırdı, hönkürsəydim də qorxusu yoxdu – çaşdığımdan məhəlləmizdəki apteki qoyub xeylaq uzağa getmişdim, orda da özümə gəlmişdim ki, pərvərdigara, resepti götürməmişəm, pul da qalıb evdə... Fikirləşdim ki, əlim ətəyimdən uzun evə qayıdanda qardaşım itə dönəcək. Ancaq demə, qardaşımın azarı dərman-filan, aptek-zad deyilmiş, mən evdən çıxan kimi otaqları ələk-vələk eləyib bağımızın sənədlərini götürübmüş... Mən bunu anamın qırxı çıxmamış, qardaşımın bağımızı satdığını eşidəndə bildim. Anamın qırxından sonra mən təzədən ərə getdim, çünki tək yaşamaq çətin deyildi, sadəcə, mümkünsüzdü... Di gəl, qardaşım yenə məndən əl çəkmədi, hər gün zəng eləyib ərimə deyirdi ki, boşa arvadını, sən bilirsən kimə evlənmisən, sənin arvadın yol kənarında dayanıb müştəri axtaran fahişədi... Qardaşımın istəyi ata evimişi də satmaq idi, özü mənə demişdi ki, mən səni küçələrdə qoyacam, baxarsan... Qardaşımın bir acgöz arvadı vardı ki, iki dünyanı bir uduma yesə, yenə gözü doymazdı... Nə isə, günümüz göy əskiyə dönmüşdü, ərim üstünü vurmasa da, mən yoldaşımın üzünə baxa bilmirdim, düzü, heç ərimi qınamaq da olmazdı, doğmaca qardaşı öz bacısı haqqında "yağlı" sözlər deyirsə, ər köpəyoğlu nə fikrə düşsə, haqlıdı. Anamın ölümü bir yana, qardaşımın çıxardığı həngamələrdən bilmirdim canımı hara qoyum, kimdən kömək umum, kimin qapısına gedib dərdimə əlac istəyim? Qalmışdım yol ayrıcında səksəkəli, anlamırdım qardaşım sabah nələr gətirəcək başıma... Beləcə, bir gecə yatdım, yuxuda atamla anamı gördüm. Mənə dedilər ki, bilirik, xəbərdarıq, bizə əyandı ki, qardaşın çox haqsızlıqlar eləyir, səni çox incidir, çox oyunlar açır sənin başına, amma darıxma, səbirli-təmkinli ol, onu gətirəcəyik yanımıza, özü də lap tez...

Mən həmin yuxunu görəndən iki ay sonra qardaşım, buz baltası kimi sapsağlam adam, o əlmeymunu arvadının dediyinə görə, evində çay içə-içə kompüterdə oyun oynadığı yerdə qəfil huşunu itirib, oturduğu stuldan aşaraq

rəhmətə gedib. Heç bilinmədi yerə dəyməmişdən ürəyi dayanıb, ya yıxılanda başı zərblə divara-döşəməyə dəydiyindən dünyasını dəyişib...

Bircə mən bilirdim ki, suçlu axtarıb bu ölümü qəzavü-qədərin, qismətin, taleyin boynuna yıxmaq əbəsdi, qardaşımı aparan aparıb...

VƏFA

Xalamgilin binasını rahat tapdım, amma hansı mənzildə yaşadıqlarını unutmuşdum. Maşını binanın qabağında saxlayıb düşdüm, ətrafa göz gəzdirdim, günün istisi adamları təntitmişdi, ya nəydisə, gözümə ins-cins dəymədi, yox, lənət şeytana, azca irəlidəki həmişəyaşıl ağacın kölgəliyində qaraltı sezilirdi, hə, skamyada başı tül örpəkli qadın əyləşib mürgüləyirdi, böyründəki iri qabda da qalaqlanmış tum... Salam verəndə arvad diksinib qeyri-ixtiyari əlini qabın içindəki plastik stəkana apardı:

– Neçə stəkan?

– Tum istəmirəm mən... – binanı göstərdim əlimlə, mənə elə gəldi ki, açıq-aşkar işarə eləməsəm, başı yalnız tuma işləyəni anlatmaqda zülüm çəkəcəm. – Deyirəm, bu binada yaşayansınız?

Qadın iri stəkandakı tumu dairəvi ləyənə boşaldıb altdan-yuxarı şübhəli-şübhəli üzümə baxdı, qaramtıl, toppuş sifəti kölgələndi, bəlkə də məni kiməsə oxşatmışdı, amma yadına sala bilmirdi:

– Hə, necə bəyəm?

– Çoxdan?

– Bu bina tikilənnən... – arvadın qızıl dişləri çoxdan parıltısını itirmişdi. – Sən bizim binanı sökmək istəyənlərin nümayəndəsisən?

– Nə nümayəndə... – gülümsündüm. – Mən Kamran müəllimin mənzilini axtarıram. O da çoxdan burda yaşayır...

– Kamran məllim bizim blokda olur, qonşumuzdu... Amma... – qadın çəkinə-çəkinə udqundu. – Amma Kamran məllim rəhmətə gedib axı, sən hansı Kamran məllimi deyirsən? – tumsatanın qaşları çatıldı.

– Düz tapmısan, mən elə rəhmətə gedən Kamran müəllimi axtarıram...

– Nə? – müsahibim təəccüblə yerində qurcalandı.

Tumsatan lapdan gözlərini bərəldib bir anlıq qorxu, vahiməqarışıq heyrətlə altdan-yuxarı üzümə baxanda izahat verməli oldum:

– Mənzili ki yerindədi, arvad-uşağı ki, qalır...

Müsahibim özünə gəlib yerli-yataqlı danışmağa çalışdı:

– Oğlu da ölüb Kamran məllimin... Oğlu özündən qabaq rəhmətə getdi. Elə oğlunun dərdi bükdü Kamran məllimin belini, yoxsa, sapsağlam kişiydi...

– Bilirəm... – çənəsinin altına salmağa, hərçənd mən köhnə skamyada əyləşənin çənəsinin altına düşmək üçün gərək uzanaydım, adam axtaranın sözünü elə bəri başdan kəsdim, çünki onun dediklərindən ağlım bir şey kəsmədi, mən biləni xalam oğlu Vüqar atasından, yəni Kamran müəllimdən qabaq ölmüşdü, nə isə, indi bunun elə bir fərqi yoxdu.

Adını çək, qulağını bur, burda deyiblər, xalam qızınınsa adını çəkməmişdən tumsatanın gözü onu aldı, əlini binanın tininə sarı uzatdı:

– Odey, Kamran məllimin qızı gəlir. Vəfa...

Əlində iri həsir zənbil, gələni mən o saat tanıdım, illər incə-mincə Vəfanın sir-sifəti, üz-gözü ilə bahəm bütün bədəninə sehirli sığal çəkmişdi, o sirli-sehirli təmasın təsirindən xalamın qızı elə əlindəki dolu zənbil kimi ətə-cana dolmuşdu. Zənbilin ağırlığından sağ çiyni əyiləninsə, deyəsən, ətrafa baxacaq halı yox idi, ya da az qala gözünü açandan seyr elədiyi məhəllə onun üçün tamam adiləşmişdi. Tumsatan xırıltılı səslə əli zənbillini

çağırmasaydı, yəqin xalam qızı elə yerə baxa-baxa sakitcə bloka girəcəkdi.

– Vəfa!.. Vəfa!.. – ayaq saxlayıb dayanmaq istəyənin gözü məni alan kimi yerində mıxlandı, əlindəki zənbili də qoydu yerə. – Az, bu kişi sizə gəlib...

Mən irəli yeridim, tumsatan ərinmədən yerindən qalxıb yekə dalını burcuda-burcuda mənim yanımdan ötdü, cangüdən kimi dayandı xalam qızının böyründə, maraqla bir ona baxdı, bir mənə, baxışlarındakı marağa narahatlıq, nigarançılıq da qarışmışdı, sanki xalam qızını məndən qorumaq üçün tarım dayanmışdı, marığa yatmışdı, bir az o yan-bu yan eləyib Vəfanın xətrinə dəysəydim, üstümə atılıb ciyərimi çıxarmağa hazır idi.

Mənsə nəinki Vəfanın, bacardıqca çalışırdım ki, heç kəsin könlünə dəyməyim. Əvəzindəsə xalam qızı durduğum yerdə məni əməlli-başlı pərt elədi.

– Səndən nə əcəb? – salam-kəlamsız xəbər aldı.

– Sənə... – çaşdığımdan dilim topuq vurdu. – Sizə... gəlmişəm...

Xalamqızı lap ağ elədi:

– Niyə? – az qala deyəcəkdi ki, nə itin azıb buralarda...

– Xalama dəyməyə... – yaxşı ki, bu dəfə özümü itirmədim, yoxsa ağzımıza marıtlayan tumsatanın yanında ölüb yerə girəcəkdim.

Vəfa zənbili yerdən götürdü:

– Gözlə, bunu evə qoyub düşürəm...

Əlimi zənbilə uzatdım:

– Qoy mən aparım, ağır olar sənə...

Xalam qızı üzə durdu, əlindəkini bərk-bərk tutub narazı-narazı qaşqabağını salladı, baxışlarından narahatlıq yağırdı, guya mən vaxtsız-vədəsiz gələn qonaq idim, bilmirdi məni necə başından eləsin:

– Yox, sən burda gözlə, mən tez gələcəm... – deyib aram addımlarla girdi bloka, əlindəkini güc-bəla ilə apara-apara...

Mən də bayaqdan ağzına su alıb nədənsə, tənəli-tənəli üzümə baxan tumsatandan – bəlkə də tənə-filan yox idi arada, dilxorçuluqdan mənə elə gəlirdi – yaxa qurtarmaq üçün gedib oturdum maşında. Beləcə, hərə öz yerinə qayıtdı; mən maşına, tumsatan skamyaya, Vəfa da evlərinə... Bəlkə də başqası mənim yerimə olsaydı, maşını sürüb gedərdi, mən isə getmədim. Eşşəyə minmək bir ayıb, düşmək iki... Birinci, elə yəqin ki, sonuncu dəfə gördüyüm arvaddan – tumsatandan – utanmağımın özü də eşşəklə maşının müqayisəsi kimi uyarsızdı.

Birdən-birə anladım ki, Naska ölməsəydi, indi mən bura gəlməzdim, düzdü, zahirən o itki ilə bu gəlişin əlaqəsi yoxdu, lakin on illik “dostumun” ölümü son hədd kimi illərlə bütün beynimə-ürəyimə-qəlbimə yığılanları üzə çıxarıb pərən-pərən eləmişdi; di durmaq vaxtı deyil, yolu əlinə al, get beynini dumanlandırıb, fikrini alt-üst eləyib yuxunu qarışdıranları axtarmağa...

Naskanın sakit-səssiz ölümü son nöqtə, son yarpaq olmuşdu, daha geriyə yol yox idi, stəkandakı su daşıb dağılmışdı, istər-istəməz irəli getməliydim.

Hələliksə, tumsatan kölgəlikdə yerini rahatlasa da, sağ əlini günlük kimi alnına tutub maşına, maşının içində oturana – mənə – baxırdı. Deyəsən, mən özüm vasvası olmuşdum, hər şeydən xoflanırdım, yazıq arvad mənə baxmırmış, blokdan çıxıb maşına tərəf gələni – xalam qızını – seyr eləyirmiş. Gələn isə paltarını dəyişmişdi, saçlarını da tarım yığmışdı, yəni beş-on dəqiqənin içində özünə yüngülcə əl gəzdirmişdi.

O, yanımda əyləşəndə tünd ətir qoxusu məni vurduğundanmı, bayaqdan içimə dolan, yox, içimdən daşan hirs-hikkədənmi dilimi dinc saxlamadım, bəzək-düzəksiz qəfil hücuma keçib yanımdakını karıxdırmağa çalışdım,

istəyirdim o, utansın, mat-məəttəl qalıb deməyə, cavab verməyə söz tapmasın:

– Niyə imkan vermədin yuxarı qalxım? Deyəsən, sevgilini gizlədirsən evdə... İstəmirsən görək sənin ürəyini fəth eləyəni ki, kavalerinə gözümüz-zadımız dəyər...

Maşının qapısını örtüb ah çəkdi:

– Eh... Mən nə hayda, sən nə hayda... Kefdən dəm vurursan... Nə var ki yuxarıda? Vüqarın arvadı, uşaqları, mənim qızım uşağıynan, hamısı bizdədi... İstəmədim bizim evi elə görəsən... Aləm qarışıb bir-birinə, ev deyil ki, bazardı, bazar...

Qırsaqqızlığıma haqq qazandırıb ağ bayrağı qaldırdım:

– Dedim gəlmişkən bir xalamı da görərdim...

– Xalan evdə yoxdu ki...

– Bəs hardadı?

Vəfa yad adam barəsində danışırmış kimi, etinasız cavab verdi:

– Əri ilə oğlu öləndən sonra şəhərdə qala bilmədi, çoxdan gedib rayona. Bacısıgilə... Day xalan əvvəlki kimi ding-ding dingildəyən arvad deyil, əriyib gedib, bir dəridi, bir sümük, səhər-axşam gözləri yol çəkir yazığın, hələ də inanmır itirdiklərinin yoxluğuna, adamayovuşmaz olub xalan, başı səs-küy götürmür, öz aləmindədi, elə bil ağzını açmağa da taqəti qalmayıb, dindirməsən, danışmaz... – maşın yerindən tərpənəndə Vəfa uzun-uzadı xalamın indiki halını təsvir eləyən söhbətini dəyişdi. – Hara gedirik, hara qaçırdırsan məni?

– Buralarda yaxşı bir kafe olmalıdı. Bağın içində...

– Deyəsən, bizim məhəlləni pis tanımırsan...

– Elədi, əvvəllər tez-tez gəlirdim sizin tərəflərə... Burda bir tanışım olurdu. Mən onun əsl adını sonralar öyrəndim, tanışlığımızdan çox sonra... Çünki bütün tanış-bilişlərindən əsl adını gizlədirdi cidd-cəhdlə... – içimi çəkdim yüngülcə. – Sən çətin tanıyasan, bəlkə evdəkilər, qızın tanıdı, çünki sənnən çox uşaqdı, “Cenifer” deyirdilər adına. Cenifer Lopesə bənzədiyinə görə... Deyəsən, bir dəfə ona dedim ki, mənim xalam qızı Vəfa buralarda olur... Tanıya bilmədi səni...

Sözümü ağzımda qoydu:

– Aaa... Nöş tanımıram... Yalan deyib sənə... O da məni yaxşı tanıyır, prosta bicliyə vurub özünü sənin yanında... Bizim evin dalında “Cenifer” gözəllik salonu da açmışdı. Ay xatakar, day denən girmədiyin dərmə-deşik qalmayıb da... Martovski kotsan da sən... – qəhqəhə çəkdi. – Belə baxanda, səndə də günah yoxdu, mən arvadlığımnan tamah salırdım o qıza, körəyin qızı yaman oxşayırdı Cenifer Lopesə... Hələ yerişi, duruşu, hərəkətləri ilə də kopyalayırdı onu. Yaxşı, bəs, hara yox oldu sənin o Ceniferin? Birdən-birə yoxa çıxdı e... Bir də gözümüzü açdıq ki, onun gözəllik salonunu da eləyiblər market...

– Deyəsən, xariciyə ərə getdi, köçdü ya Fransaya, ya da Hollandiyaya... Dəqiq bilmirəm... – gözlərimi bozumtul asfalta dikib çiyinlərimi çəkdim.

– Oyy, nə yaxşı, sağ əli bizim başımıza... – xalam qızı əməlli-başlı həsədlə, gözləri yol çəkə-çəkə dedi.

– Mən heç nə arzulayıb-eləmirəm daha. Məncə, bizim ancaq bir yerə köçmək şansımız var...

– Hara? – içini çəkib maraqla xəbər aldı.

– O dünyaya...

Vəfanın:

– Uy, iraq olsun... – deməsi ilə maşını bağın qabağında saxlamağım bir oldu, maşından düşə-düşə qəfil, öz-özünə danışırmış kimi, dodaqaltı

mızıldandı. – Qəribə gündü bu gün, gün çıxsa da, elə bil hər yan gümüşü rəngə çalır. Günün qızılı telləri də bomboz bozarıb... Hiss eləyirsən?

Maşının qapısını örtüb kəsəsinə cavab verdim:

– Yox.

...Akasiya ağacının kölgəsindəki masanın arxasında əyləşmişdik, ofisiant yemək süfrəsini yığışdırıb kofe, dondurma gətirməyə gedəndə mən ağzımı salfetka ilə silə-silə:

– Axır vaxtlar tez-tez Vüqar yadıma düşür, – dedim. – Nədən öldü o?

Vəfa yəqin ki, içdiyi çaxırdan qızaran yanaqlarını sığallayanda – özü təkid elədi ki, sən içmirsən, içmə, mən vurmaq istəyirəm, indi keflənməsə yaxşıdı, – elə bildim göz yaşlarını gizlətmək istəyir, amma xalam qızı səsindən nəinki ağlayana, heç kövrələnə, qəhərlənənə də bənzəmirdi.

– Əvvəllər tez-tez başında ağrılar olurdu, bizim həkimlər diaqnoz qoydu ki, qaymaritdi... Sonra birdən-birə üzü şişib tanınmaz hala düşdü... Demə, o zəhrimardan imiş... Xərçəng... Yazığın iki körpə qızı qaldı... Hayıf ki, arzusuna da çata bilmədi...

– Hansı arzusuna?

– Həmişə deyirdi ki, general olacam. Əcəl imkan vermədi... Yazıq qardaşım... Cavan yaşında getdi... Heç nədən... Gözüdolusu yaşaya bilmədi...

– Hə... – mızıldayıb özümə haqq qazandırdım. – Mən Vüqarın ölümünü gec eşitdim... – olub keçənləri Vəfanın yadına saldım. – Anam tez öldü, atam evləndi, – rəsmiyyətə keçdim, – məlum səbəblərdən sizə də gediş-gəlişimiz seyrəldi... – əslində, gediş-gəlişimiz tamam kəsilmişdi, “seyrəldini” nəzakət xatirinə dedim...

– Allah rəhmət eləsin, atan da ölüb, deyirlər...

– Hə, elədi... Çoxdan... çoxdan ölüb... – dilim dolaşdığından sövq-təbii gülümsündüm. – Hələ analığım da rəhmətə gedib...

Vəfa təəccübləndi:

– Aaa... o niyə? Deyirdilər cavandı axı...

– Maşın vurdu onu... Yük maşını... Sümükləri xıncım-xıncım oldu, bədənində salamat yer qalmadı... – heç bilmədim niyə analığımın ölümünü ətraflı, az qala xırdalıqları ilə danışıram xalamın qızına...

– Oy!.. Yazıq... Əcəl qocaya-cavana baxmır... – nazik qaşları çatıldı və lap-dan söhbəti dəyişdi. – Necə görünürəm mən, çox qocalmışam? – yəqin ki, bayaqdan fikri öz xarici görünüşündə qalmışdı, ona görə danışığı mənə robot kimi gəlirdi, öz aləmində yaşlanmağına izahat verdi. – Kökəlmişəm də, arıqlaya bilmirəm... – guya, arıqlasaydı, ən azı, iyirmi il əvvəlki kimi olacaqdı.

– Kim deyir onu, sən çox cavan görünürsən, lap uşağa oxşayırsan...

– Uşağa bax... – ağzımı əydi. – Kim deyəcək, sən!.. – bilmədim qəsdən özünü incik göstərdi, ya doğrudan-doğruya nədənsə incimişdi.

– Mən? – bu dəfə mən heyrətləndim, daha doğrusu, çaşdım. – Mən hacan elə söz dedim?

– Bayaq dedin ki, Cenifer məndən uşaqdı...

– Orası... elədi... Yaş öz yerində... – malalamağa uyarlı kəlmələr axtardım. – Amma səndə də özünəməxsus gözəllik var...

– Gopa basma... – saymazyana əlini yellədi. – Abırsızam mən... Mənə dəyən kimə dəysəydi, o dünyalıq olmuşdu. Bilmirəm rəhmətlik qardaşımın yetimçələrinin dərdini çəkim, öz nəvəmin qeydinə qalım, ya bədbəxt anama baxım... Aləm bir-birinə qarışıb, hərdən baş götürüb uzaqlara, çöli-biyabana qaçmaq istəyirəm. Elə bir yerə ki, heç kəs məni tapa bilməsin... – azca ara verdi. – Yaxşı ki, sən gəldin, başım bir az qarışdı... İnan, hərdən adamın belə görüşlərə çox ehtiyacı olur...

Söhbətin yönünü dəyişmək istəsəm də, deyəsən, işləri lap korladım:

– Nəçidi ki, kürəkənin?

– Heç nəçi, avaranın biridi, heç vaxtı-vaxtında alimenti də verə bilmir...

– Niyə boşandı ki, sənin qızın?

– Mənə çəkib də, qabağından yeyən deyil... O vaxt mən də ərimdən tez ayrılmışdım. Heç üçcə il yaşamadıq...

Kəpənək qalstuklu ofisiant sinidəki mer-meyvəni, kofeni, dondurnanı masaya düzüb dodaqaltı: "Nuş olsun," – deyərək mürəxxəs oldu.

– Bir yerdə işləyib-eləyirsən sən? – yerimdə qurcalanıb əlimi çay qaşığına uzatdım.

– Hə... Universitetdə laborantam... Həm də "Psixoloji Yardım Mərkəzi"ndə psixoloqam... Belədi də, gülməli günə düşmüşəm, mənim öz günümə ağlayan lazımdı, mən ona-buna məsləhət verirəm... Çörəkli yerdi, ölkədə psixlərin sayı artdıqca bizim işimiz yaxşı gedir... Nə isə, Əlinin papağın Vəlinin, Vəlininkini Əlinin başına qoyuram ki, evdəkilər korluq çəkməsin... Sən nə işlə məşgulsan?

– İndi heç nə ilə... İşlədiyim bank bağlandı, hələ ki, atamdan qalanlarla birtəhər başımı dolandırıram...

– Axı, sən qabaqlar şeir-zad yazırdın...

– Eh... O çox qabaqlar olub... Həm də ki, indi şairi-filanı saya salan var bəyəm? Diribaş şairlər toylarda tamadalıq eləyir, ölüvayları açından günorta durur...

Sözümün sonunu-canını vecinə almayıb gülümsündü:

– Yadındadı, sən mənə də şeir yazmışdın?

– Yadımdadı, – təsdiqlədim, – sənə şeir yazmışdım dəftər vərəqində, sənin özünə də and içdirmişdim ki, heç kəsə deməyəsən... Yaman sirr saxlayan idin, heç bircə gün keçmədi üstündən, sair dili ilə desəm, sirrimi dünyaya yayıb, məni el içində rüsvayi-cahan elədin gülə-gülə ki, bəs, ay qızlar, bu uşaq mənə şeir yazıb... Yaxşı ki, mən sənin xalan oğlu idim, özgəsi olsaydım sirri bir dəqiqə də saxlamazdın... Utandığımdan bilmirdim qaçıb harda gizlənim... Aramızda cəmi beş yaş fərq olsa da, sən mənə bapbalaca uşaq kimi baxırdın... –bir anlıq key-key süfrəyə baxdım. – Qalır səndə o seiri yazdığım vərəq?

– Yox, – başını buladı, – indiyə vərəq qalar?.. – məzələndi. – Sevirdin də sən o vaxt məni, hə? – bic-bic göz vurdu mənə. – İkilikdə olanda qıpqırmızı qızarırdın, yadındadı?..

– Ooo!.. Dəli-divanə idim lap... – mən də borclu qalmadım. – Mən yazıq səndən ötrü Məcnun kimi çöllərə düşdüm. Bəlkə elə sənə görə arvad almaq məsələsində bəxtim gətirmir...

– Kiri, kiri, bəxti gətirməyənə bax... Dalınca sürünmədiyin bir yubkalı qalmayıb...

– Onu sənə kim deyib?

– Mələy... Babagillə üzbəüz yaşıyırdılar axı... O vaxtlar mənim padruqam idi. Sonralar da zəngləşirdik hərdən... Ozü də sənnən üç yaş böyük... Heç abır-həyan yoxmuş sənin...

– Nişanlısı atmışdı Mələyi... – özümə haqq qazandırdım. – Mən bir-iki il ona kömək elədim. Qoymadım, daha doğrusu, qıymadım tək qalsın... Pis şey ağlına gətirmə, pis nə var axı burda? Dar ayaqda sənin rəfiqənə kömək eləmişəmsə, sən buna görə mənə "çox sağ ol" deməlisən.

– Sus, dillənmə barı... Köməkçi... Olmaz sənin kimi köməkçidən... Gör kimə nömrə gəlir... – Vəfa məni yamsıladı. – Nə yaman ürəyiyumşaqsan... Babnik... Arvadlara kömək eləmək üçün əldən-ayaqdan gedirsən... Heç olmasa, Mələyə yaxın durmayaydın... Axı sən bilirdin ki, Mələy mənim rəfiqəm olub... Gec-tez zibilinizin üstü açılacaq...

– Elə Vüqarın ölümünü də mənə Mələk xəbər verdi... – qəfil dilimdən çıxanları dəbbələyib, rəndələyib səhvimi düzəltməyə çalışdım. – Amma rəhmətliyin ili də çıxmışdı Mələk mənə xəbər eləyəndə...

Vəfa bunun fərqinə varmadı, deyəsən, qanqaraldıcı söhbətlərdən bezikmişdi, deyib-gülmək fikrindəydi:

– Çoxdandı səs-səmiri gəlmir, görəsən Mələy hara yoxa çıxıb?

– Türkə ərə getdi də... Bilmirdin?

– Yox... Hardadı indi?

– Bursada...

– Adamların işi düz gətirəndə səsləri çıxmır. Deyirəm axı niyə xəbər-ətər yoxdu Mələydən... – yüngülcə köksünü ötürdü. – Neynək, təki xoşbəxt olsun... Yaxşı qız idi Mələy... – elə dedi ki, guya, haqqında danışdığı dünyasını dəyişmişdi, necə deyərlər, ərə yox, gora getmişdi. – Nolar, Bursa da pis yer deyil... – söhbəti qəfil, tutalqasız dəyişib soruşdu. – Sənin Şotlandiyaya yolun düşüb?

Çaşdım:

– Yox, necə ki?

– Elə yaxşı ki, düşməyib... Ora gedib çıxsaydın, kişilərə də cumardın... – qəhqəhə çəkdi.

– Sən yubka məsələsinə görə belə deyirsənsə, onda gərək mən buralarda arvad üzünə həsrət qalaydım, çünki day zənənlərin hamısı şalvar geyinir...

– Baban sağ olsaydı, ağacla döyərdi səni...

– Hə, babamın çomağına tuş gəlmək Əzrayılı dirigözlü görməkdi... Babanın gözü qızdısa, gərək qaçıb bir yerdə gizlənəydin canını qurtarmaqdan ötrü... Metrə yarım boyu vardı kişinin, çomağı özündən böyükdü, di gəl, gözü qızanda hirsindən-hikkəsindən yer-göy titrəyərdi...

– Əsas boy-buxun deyil ki, ürəydi, ürəy... – Vəfa əlini sinəsinə vurdu.

– Yadındadı, babanın bacısı Nisbətin oğlu Ramazan?.. – ürək söhbətini qulaqardına vurub xəbər aldım.

– Yox... Heç Nisbət dediyin arvadı da xatırlamıram mən... Görməmişəm bəlkə də... Mən babagildə qalanda sənin kimi hər yerə burnumu soxmurdum axı... Məhəllədəki qızlarla oturub-dururdum, padruqalarımla sənin mənə yazdığın şeiri oxuyub gülüşürdük...

Müsahibim son sözlərini havaya deyibmiş kimi, davam elədim:

– Hə, həmin o Ramazan dayısıgilə, yəni babamgilə gələndə babam nənəmə tapşırardı ki, elə elə o biqeyrət mənim gözümə görsənməsin... Nədi, nədi, Ramazan arvadını boşayıb başqa arvad almışdı... İndi gündə beşi evlənir, altısı boşanır, heç kəsin də vecinə deyil, əyyam dəyişib... Baxma ki, qoca vaxtında baban özü də ikinci kərə evlənmişdi...

– Arvadı ölendən sonra evlənmək qəbahət deyil... Burda pis nə var ki?.. – Vəfa babasının, lap dəqiqi, babamızın tərəfini saxlayıb az qala üstümə çımxırdı.

– Nə isə, sözüm onun evlənməyində deyil, həmin o Ramazana yazmışdım mən ilk seirimi:

Ramazan, qəbir qazan,
Arvadına məktub yazan...

– Yox, mənə yazdığın şeir ondan yaxşı idi... Bir də Ramazan öz arvadına niyə məktub yazmalı idi ki?

– Bilmirəm... İlk qələm təcrübəsi idi də... Sənə seir yazanda püxtələşmişdim... – məzələndim. – Əmelli-başlı sair idim...

Süfrədən əl götürüb oturduğu stulda yerini rahatladı, ayağını ayağının üstünə aşırıb bic-bic gözlərini üzümə dikdi:

– Hə... Mənim dərdimdən şair olacaqdın... – yüngülcə nəfəsini dərdi. – Bura bax, Ramazan, şeir-filan öz yerində, indi əsl mətləbin üstünə gəl, düzünü de görüm, birdən-birə gün hardan çıxıb, mənim yazıq anam, başı bəlalar çəkmiş xalan hayandan düşüb sənin yadına?..

Araya sükut çökdü.

Mən bayaqdan ətrafa düz-əməlli fikir vermirdim, bağın kənarındakı yolda şütüyən maşınların səsini də şəhərin ümumi ahəngi hesab eləyərək eşitməməyə çalışırdım, amma indi elə bil iri, həmişəyaşıl ağacların ən sıx yarpaqlı yerində yuva quraraq gizlənən və gözəgörünməzə çevrilən quşların da səsi kəsildi, ya da bizim oturduğumuz bağın üstünə, yan-yörəsinə səs, səda, ün keçirməyən halə çəkdilər sanki. Sükut nə qədər çəkdi, müsahibim kirpiklərini də qırpmadan diqqətlə mənə nə qədər baxdı, mən nə qədər çarəsiz-çarəsiz alnımı ovuşdurdum, bilmirəm, nəhayət, ağır-ağır, çəkinə-çəkinə dilləndim:

– Deməyinə deyəcəm e, ancaq bilmirəm, sən məni anlayacaqsan, ya yox?..

Özünü yığışdırıb tamam diqqət kəsildi:

– Sən bir sına, çalışaram başa düşüm...

– Birincisi, mən son vaxtlar qəribə yuxular görürəm, o yuxulara da həyatımda baş verənlərdən, verəcəklərdən, keçmişimdən, gələcəyimdən daha çox inanıram... – boğazımı arıtladım. – Əslində kələfin ucunu itirmişəm e, bilmirəm hardan, nədən başlayım... Çünki ilk baxışdan ağlasığmaz fikirlər girir başıma...

– Açıq de görüm səni narahat eləyən nədi? – diqqətlə üzümə baxdı. – Yox, rəng-ruhun pis deyil. İstədiyin vaxt gələrsən mənim qəbuluma, sənə pulsuz kömək eləyərəm, – gülümsündü.

– Məzələnsən day heç nə danışmayacam, – dedim incik-incik. – Keçi can hayındadı, qəssab piy axtarır...

Maraq ona güc gəlsə də, zarafatından qalmadı:

– Yaxşı, yaxşı, mən susdum... Ancaq, sən canın, bir də özünə kazyol demə...

Xalam qızının susmasına imkan verməyib xəbər aldım:

– Sənin yadındadı da xalan... mənim anam?.. – boğazımı arıtladım. – Öz anamı deyirəm...

– Həlbət ki, yadımdadı... O qədər məni oynadıb ki... Allah rəhmət eləsin... Xalamın gözündəki işıq indiyəcən xatirimdədi... O iri gözlərdəki par-par yanan işığın həmişəlik sönüb getdiyinə adamın inanmağı gəlmir... – yeddimərtəbəli sözlərlə kiçicik nitqini başa vurdu.

– Bəs, babam... yəni babamız?.. – dilim dolaşa-dolaşa soruşdum, müsahibimi bir azdan deyəcəklərimə hazırlamaq lazım idi.

– Dəlisən... Mən sənnən böyüyəmsə, adi məntiqlə babamı sənnən daha yaxşı xatırlamalıyam da, elə deyil? Kəsəsinə gəl, birdəfəlik sözünün canını de, çox “mus-mus” eləmə...

Onun dediklərini qulaqardına vurdum, ucundan tutub ucuzluğa getsəydim, mətləbdən yayınardım, nə istədiyimi mənimlə üzbəsurət əyləşənə anlada biməzdim. Çünki əslində nə baş verdiyini heç özüm də başa düşə bilmirdim.

– Hər şeyə öyrəşdiyimiz adi məntiqlə yanaşsaq, uzağa gedə bilmərik, məsələ bunda deyil... Bax, o babamızın bir əmisi arvadı vardı. Çox ağır seyid idi həmin arvad. Amma guya, sonsuz idi seyid arvad, uşağı olmurdu...

Yenə sözümü kəsdi, lakin bu dəfə dediklərimi axıracan dinləməməyi mənə kömək elədi, mən fikrimi cəmləyə bildim.

– Yaxşı, bəs, guya niyə? Əslində övladı vardı ki?.. – dirsəyini masaya dayayıb ovcunu çənəsinin altına qoydu.

– Hə... övladı vardı... elə... indi də var... diqqətlə qulaq as, məni başdan xarab hesab eləmə... – boğazımı arıtladım. – O qadının övladı... e... oğlu... mənəm... – deməyimlə Vəfanın təəccüb içində:

– Nəə?!. – qışqırmağı bir oldu, yaxşı ki, ətrafımızdakı masalar boşdu, hər halda, bizə fikir verən yox idi, ancaq ya yerində silkələndiyindən, ya da oturduğu stulun ayağı çökəyə düşdüyündən, yıxılacaqdı az qala, son anda cəld tərpəndi, masanın qırağından yapışıb özünü birtəhər saxlaya bildi, masanın üstündəki boş fincanlar nəlbəkidə titrəyib çingildəsə də, boşqablar qoyulduğu yerdə silkələnsə də, Vəfanın mobil telefonu iri qədəhə dəyib toxunduğunu ləngərlətsə də, ümumən yaxşı qurtardıq. – Sağdı ki o arvad?.. – səsini birdən-birə elə yavaşıtdı ki, güclə eşitdim, amma pıçıltı ilə xəbər aldığı elə bil qulaqlarımda bir neçə dəfə əks-səda verdi.

– Nə danışırsan, indiyə arvad qalar?.. Çoxdan ölüb... Eşitdiyimə görə, müharibə vaxtı... – nədənsə, mən də onun səsinə uyarlı astacadan dedim.

Qəfil qışqırdığı kimi, tez də köpü yatmışdı, görünür, zarafat-zarafat, əsl psixoloqdu:

– Hansı müharibə?..

– Hansı olacaq, nemeslərlə müharibə zamanı da...

Gözlərini döyüb kirpiklərini tez-tez qırpa-qırpa matdım-matdım üzümə baxdı:

– Bu necə ola bilər, axı sən o müharibədən çox-çox sonra dünyaya gəlmisən?.. Sən doğulanda o arvad çoxdan ölmüşdü... – sanki nə edəcəyini bilmədən, qeyri-ixtiyari süfrədəki üzümdən bir gilə atdı ağzına.

– Bilirdim belə deyəcəksən... Noolsun?.. Səni gördüyüm kimi əminəm dediklərimə... Qırılan zənciri xəyali halqalarla da birləşdirmək olar...

– Anlamadım... Nə zəncir?.. – qeyri-ixtiyari əlini boynuna, sinəsindəki qızıl boyunbağıya apardı, yan-yörəyə göz gəzdirdi.

– Yəni, mənim məqsədim o arvadla mənə qədərki qırılan zaman zəncirini bərpa eləməkdi, birləşdirməkdi... Buna görə də əvvəlcə xalamı görməliyəm... Sən o arvad haqqında nəsə eşitmisən?

– Yox, heç nə eşitməmişəm...

– Səni çaş-baş salmamaq üçün anam demirəm ona, amma mənim əsl anam odu... Bilirəm, ağlına batmır...

– Batmaz də... Ağzın, dilin deyəni qulağın eşidir sənin?

– Hələlik ümidim xalamadı... Sonrasına Allah kərimdi...

Əlini yellədi laqeydliklə:

– İnanmıram xalan sənə kömək eləsin... Xalanın öz işi Allaha qalıb, onun öz adı yadından çıxıb... – özü öz dediklərinə düzəliş verdi. – Belə görürəm, elə hamımızın işi o kişiyə qalıb... – barmağını göyə tuşladı.

– Kömək elədi, eləmədi, mən sabah hökmən rayona gedəcəm... İstəsən, mənə yoldaş ola bilərsən... – burasını ürəksiz dedim, çünki elə səfərlər var ki, adam ora hökmən tək çıxmalıdı, tək getməlidi... – birlikdə gedərik... – həm də bilirdim ki, nə o mənimlə gedə bilər, nə də mən onunla, bizim yol yoldaşı olmağımız mümkün deyil.

Bəlkə də səsimin ahəngindən, titrəyişindən təklifi candərdi, nəzakət xatirinə, “xala xətrin qalmasın” elədiyimi başa düşdü.

– Yaxşı olardı... Mamamı da görərdim... Hayıf ki, gedə bilmərəm... Evdəkilərin əlindən şəhərdən çıxa bilmirəm mən... Mənsiz bir udum su da içə bilmirlər. Nökərçılık alnıma yazılıb mənim... – mobil telefonu zəng çalmasaydı, hələ çox gileylənəcəkdi. – Bax, görürsən, hələ tapşırmışam ki, bir-iki saat mənnən işiniz olmasın... – deyinə-deyinə telefonu götürdü. – Yenə görəsən nə buyuracaqlar hazıryeyənlər... – telefondakı nömrəyə baxıb gülümsündü. –

Yox a, babal yuyuram, padruqamdı... – telefonu qulağına apardı. – Alo... Salam... Yox, evdə deyiləm... Bağdakı kafedəyəm... Hansı bağ olasaq, sənlə axşamlar gəzdiyimiz bağ, evimizin yanındakı... Xalam oğluyla, belə oğlandı... – deyəndə mən qımışdım, çünki onun baş barmağını qaldırmağını, şübhəsiz ki, zəng vuran rəfiqəsi görə bilməzdi. – Dayan görüm... – telefonu qulağından çəkib üzünü mənə tutdu. – Padruqamdı e, bura gəlmək istəyir, gəlsin?.. – aciz-aciz elə soruşdu ki, guya, mən gönüqalınlıq eləyib kəsəsinə: "yox, gəlib - eləməsin!" – deyərək müsahibimin üstünə çımxıra da bilərdim.

Vecsiz-vecsiz əlimi yellədim:

– Özün bil... Mənə nə var... Gəlir gəlsin də...

O, təzədən telefonu qulağına apardı:

– Az, gəl... Yox, hələ burdayıq... Gözləyirik, gözləyirik... – mobil telefonu masanın üstünə qoydu. – Gəlir... – boynuma minnət qoya-qoya dedi, guya, rəfiqəsi məni görməyə gəlirdi və mən onun rəfiqəsini görmək üçün əldən-ayaqdan gedirdim. – Amma o... – qısaca ara verdi, – padruqamı deyirəm, qəfil burda gicləsə, sən fikir verib dərinə getmə, elə bil heç nə olmayıb... Yola verərsən getsin...

Bəri başdan özümü yığışdırdım:

– Anlamadım... Necə yəni, gicləsə?.. – əlimdəki boş fincanı ağzı üstə nəlbəkiyə qoydum çaşdığımdan. – Neyləyə bilər ki?

Vəfa səbrlə izahat verdi, elə bil mənimlə rəfiqəsini görüşdürəcəyinə görə üzrxahlıq eləyirdi:

– Yaxşı qızdı, intəhası, qardaşı öləndən, üstəlik, özü də üşüncü ərindən boşanandan sonra, – barmağını gicgahına apardı. – ağlı üstündə olmur arabir, hərdən başı qaçır... Başlayır hətərən-pətərən danışmağa... Necə deyim sənə... – uyarlı sözlər axtardı. – Ölçü hissini itirir... Dağı arana qatır, aranı dağa... Mən öyrəncəliyəm, qatmaqarışıq bir söz desə, sən də fikir vermə... Dünyadı da, heç kim bilmir sabah başına nə gələcək, heç kəs yekəxanalıqla döşünə döyüb öyünməsin... Əslində, rəfiqəm bilirsən necə ağıllı qız idi, yaradan mıxı mismara çevirdi, hər şey oldu kəlləmayallaq...

– Məhəbbətə bax... Ərinin ayrılığına dözə bilməyib havalanır adam... – zarafata saldım. – Divanə olub düşür çöllərə...

– Yox, yox... Day o dərəcədə havalı-zad deyil, hərdən-birdən çaşır... Özü də ərinin məsələyə sən deyən dəxli yoxdu. Qardaşı öləndən sonra birtəhər oldu padruqam... Özünü qardaşının ölümündə günahkar sayır, deyir ki, mən böyük günah işlətdim, dünya malına uyub doğma qardaşıma qarğış elədim, o da... – Vəfa nədənsə, sözünü yarımıq kəsdiyindən mən:

– O da nə? – soruşmalı oldum.

– O da qarğışımın qurbanı olub öldü... – sakitcə cavab verdi. – Bilmirəm, işimlə əlaqədardı, ya nədəndi, axır zamanlar elə başdanxarablar, ağlı çaşanlar, havalılar çıxır mənim qabağma... Eh... – dərindən ah çəkdi. – Nələr arzulayırdım, gör nə günlərə qaldım, neynək, buna da şükür, necə deyiblər onu: " Çətini ölənəcəndi..."

Onun sözlərindən mən də öz payımı götürdüm, baxışlarımı yayındırıb gözlərimi günahkar-günahkar süfrəyə dikərək sakit-sakit dedim:

– Yox, deyəsən, əsl zırıltı öləndən sonra başlayır...

2

Qardaşının oğlu dünyaya gələndə Hacı Ayaz sevindiyindən yerə-göyə sığmırdı. Qurbanlar kəsildi, nəzirlər paylandı, şadyanalığın ardı-arası neçə gün kəsilmədi. Qardaşların imarəti yan-yana olduğundan bilinmirdi hay-

haray hansı evdə daha çoxdu, daha gurdu. Ara sakitləşəndən sonra Hacı Ayaz öz arvadının da könlünü almağı unutmadı, çünki, nədənsə, Hacı Ayaza elə gəlirdi ki, arvadının sonsuz şadlığının içində gizli və öləzik bir nisgil, ən azı, kövrək bir dalğınlıq var. Yay axşamında, işığı səyriyən dövrələmə şamdanların düz ortasında ay kimi tək-tənha dayanan onluq lampaya – işığından başqa heç nə ilə Aya qətiyyən bənzəməsə belə – baxa-baxa uzun-uzadı fikrə gedib deyəcəklərini daş-tərəziyə qoydu və sözə başlamamışdan özünü yığışdırıb səsini yavaşıtdı, sanki kəlmələrini kiminsə eşidəcəyindən ehtiyatlanırdı, hərçənd çəkinməyə dəyməzdi, nəinki otaqda, evdə də arvadından savayı heç kəs yox idi; aşbaz, qulluqçular, nökərlər bir günlük izn almışdılar, qardaşının oğlu dünyaya gələndən onsuz da rəhmli olan Hacı Ayazın ürəyi lap yuxaya dönmüşdü, neçə gündü ki, özünü təkliyə verib bağ-bağatda, yarpaqları sıx ağacların arasında uşaq kimi ağlayırdı da, amma bu hönkürmək deyildi, ağlayanda göz yaşları damcılayar, Hacı Ayazınsa kirpikləri bir-birinə sıxılanda sir-sifətini, bığını-saqqalını sel-su bürüyürdü, axdıqca axırdı, özünə gəlib toxtayandan sonra gedib Kürün qırağında əl-üzünü yuyurdu, səbəbini düz-əməlli anlamadığı göz yaşlarını gizlətsə də, gözlərinin qıpqırmızı qızarmağı onu "ələ verirdi", başqaları ürək eləyib heç nə soruşmasa da, arvadı, deyəsən, nə isə başa düşmüşdü – hərdən ağlayana elə gəlirdi ki, arvadı çox şeyləri anlayır, çox-çox şeyləri duyur və işdi-şayəd, o, anlayıb duyduqlarını öz halalca əri ilə bölüşsəydi, hər şey tamam başqa çür olardı, onda ağlına gəlməyən hacının başına gələrdi və bəlkə də görəcəklərinə hazır olmadığından, zövcəsi onu qorumaqdan ötrü duyuq düşdüklərindən aralı saxlayırdı ərini – arvadı Hacı Ayazın "qocalıram yəqin, gözlərim ağrıyır", kəlmələrinin başına ip atmasa da, əslində, ağrının ərinin gözlərində yox, qat-qat dərində olduğunu duyurdu, indi də o duyğu qadını əndişələndirdiyindən, baxışlarını önündə bardaş quranın üzünə zilləmişdi, Hacı Ayaz da yol cəkən gözlərini yumub açdı, açıb yumdu, arvadının üzünə, bir dünyalıq işığı bəbəklərinə sığışdıran qara gözlərinə baxaraq kədərlə, qəm-qüssə və yorğunluqla dərindən ah çəkib zorla gülümsündü:

– Cəddinə qurban olum, ay arvad, şükür ki, Allah dualarımızı eşitdi, qardaşımın oğlu oldu, yurdumuz başsız qalmadı... Sizin ocağın kəramətinin bir daha şahidi oldum mən... Sən o ziyarətgahda mənə necə demişdinsə, eləcə də baş verdi hər şey... Sanasan ki, gələcəyə gedib olacaqları öz gözlərinlə görmüşdün... Gününə söz ola bilməz... Dediyin vədədə qardaşımın arvadı dünyaya buz baltası kimi bir oğul gətirdi... Öz adını da dünyaya təzəcə gələn oğluna verdi qardaşım... Əmma... – Hacı Ayazın səsi qırıldı. – Ürəyinə pis fikir gətirmə, sən mənim gözümün işığısan, özün bilirsən ki, dünya-aləm yığışa, vermərəm, dəyişmərəm səni... İki dünya bir ola, sənin yerini verə bilməz... Ona görə sənin üstünə günü gətirmədim, ölərəm, gətirmərəm də... – deyəsən, Hacı Ayazın fikirləri qarışıq olduğundan dağı arana, aranı dağa qatırdı, "günü" söhbətindən də tutalqasız dönüb təzədən qardaşı oğlundan danışdı. – And olsun Allaha ki, elə bilirəm qardaşımın oğlu elə mənim öz balamdı... Buna iynənin ucu qədər şəkk-şübhən olmasın. Qədəm basdığım o müqəddəs torpaq haqqı, əminəm ki, sən də o körpəyə öz döğma balan kimi baxacaqsan, ona analıq eləyəcəksən, öz doğma anasından da bir köynək yaxın olacaqsan o uşağa... – Hacı Ayaz sözü-söhbəti uzada-uzada, əslində, uyarlı kəlmələr axtarırdı. – Əmma... Əmma yəqin bunda da bir hikmət var ki, xüdavəndi-aləm bizim özümüzə övlad qismət eləmədi... Qız...

Arvadı Hacı Ayazın sözünü kəsdi:

– Olacaq övladımız!.. İnşallah, hökmən olacaq!.. – deyəsən, arvadı doğrudan-doğruya gələcəyi apaydın görürdü. – Buna zərrəcə şəkk-şübhən olmasın... Şübhədənsə ümid yaxşıdı, şübhə bəndəni küfrə sürükləyər... Səni

gördüyüm kimi əminəm övladımızın olacağına... Bizim də oğlumuz olacaq, bunu bil...

Arvadının səsindəki qətiyyətdən Hacı Ayazın bütün bədəni titrədi, bardaş qurub oturmasaydı, yəqin ki, yerə yıxılardı, gözlərini taxçanın üstündəki şamdanlardan, lampadan çəkib iniltiyəbənzər bir səs çıxardı:

– Nə... nə vaxt olacaq?.. – əlini çoxdan üzdüyü xəzinəni gözlənilmədən ayağının altında tapan səyyah kimi uçuna-uçuna, kəkələyə-kəkələyə soruşdu, səsi içindən boğazına axanacan, ordan da bayıra çıxanacan sanki min kərə ölüb dirildi.

– Sonra... Çox sonra... Məqamı yetişəndə... – arvadı yenə qətiyyətlə dilləndi. –Eşidirsən, hökmən olacaq!.. – təkrarladı. – And olsun yeri-göyü yaradana!.. – arvadının dediyi sözlərdən Hacı Ayaz düz-əməlli sevinə bilmədi, arvadının səsindən oturduğu yerdəcə bütün bədəni silkələnib xəfifcə tir-tir titrəmişdi, əti ürpəşmişdi, tükləri biz-biz olmuşdu, çünki arvadı heç vədə belə ürəklə, arın-arxayın, hökmlü-qətiyyətli and içməmişdi.

Arvadının asta, yavaş, lakin şaqraq, hökmlü səsinin daş-qaya dələn gücündəndi, ya nə sirri-xudadı, bilinmədi; sanki yarpaqlar belə ürpəməyən yay axşamında açıq qapı-pəncərədənmi, haradansa içəri burulğanvarı ani bir yel gəldi – lakin gələn sirli-sehirli yeldən həmin o qapı-pəncərələrdəki pərdələr xəbərsiz qaldı – şamdanlardakı şamlar qəfil söndü, çırağın alovu isə titrəyib balacalaşaraq yenidən iriləşdi və əvvəlkindən də gur yanmağa başladı, elə bil ortadakı sönənlərin yükünü də öz üzərinə götürdü...

...Hacı Ayaz bir də heç vaxt bu söhbətə qayltmadı və “sonra”nı gözləyə-gözləyə dünyasını dəyişdi...

Tanrının onun qardaşı oğlundan, buz baltası kimi bir uşaqdan boy-buxun əsirgəməsindən də yəqin ki, Hacı Ayazın xəbəri olmadı...

ƏLİBABA

“Əgər Vəfanın rəfiqəsi dünyadan köçmüş ata-anası ilə, yaxınları ilə əlaqə yarada bilibsə, bunu mən niyə bacarmayım? Vəfa ilə söz güləşdirməyin mənası yoxdu, iki ayağını dirəyəcək bir başmağa... Axı, ölənlər özü rəfiqəmlə əlaqə yaradıb... Səndə isə əksinədi... Yox, təxminən eyni şeydi, burdan ora xəbər aparmaq mümkündüsə, ordan bura da nə isə çatdırmaq olar, çünki əslində ora-bura yoxdu, xalaqızı, Allah hər yerdədisə, o sərhədi adamlar çəkib xalaqızı, adamların qələmindən çıxanlarsa həmişə xətalıdı, xalaqızı, mən buna öz adım kimi əminəm, intəhası, səni anlada bilmirəm, xalaqızı, başa salmaq üçün yuxularımı danışmalıyam sənə, bunu da heç vaxt eləmərəm, çünki o yuxular yalnız mənə aid deyil... Əslində, o yuxuları kiməsə danışsam, ola bilsin ki, heç nə dəyişməz, ancaq danışacaqlarım bir ömür yaşayıb başqa förmaya keçənlərin mənə olan etibarını heçə endirər. Həm də yəqin ki, ən əsrarəngiz hadisələr nəinki yazılmayan, hətta nəql olunmayan, bəlkə heç zaman yaşanılmayandı...

...Zəhrimar, key kimi olmuşam, belə getsə yatacam sükan arxasında”...

Maşını yolun qırağındakı ağacın kölgəsində saxladı. Balaca bir tikili vardı aralıda, qapısı da açıq... Cayxana idi yəqin ki... Yüngül, ağ masa və kresloları düzmüşdülər salxım söyüdün ətrafına, külək kresloları aşırmışdı, yalnız bir stol səliqəli idi, ətrafındakı oturacaqlar da yıxılmamışdı, elə bil o tərəfə yel dəymirdi, ya masa arxasında oturan buxara papaqlının zəhmindən ora çatanda özünü yığışdırırdı külək ki, qabağında armudu stəkan, qara, uzun təsbehini çevirə-çevirə dayanmadam dodaqaltı zikr eləyən adam pürrəngi çayını ləzzətlə içib canındakı yorğunluğu çıxartsın, yoldan ötən maşınlara baxıb keçmişi, gələcəyi yadına salaraq başını qatsın...

Amma buxara papaqlının görkəmi aldadıcı imiş, o, maşından düşüb qapını örtəndə təsbehli başını qaldırıb gələnə baxaraq mehriban-mehriban gülümsündü və min ilin tanışı kimi dilləndi:

– Gəl, gəl, ürəyimə dammışdı ki, kimsə gələcək, ona görə çayçıya dedim iki stəkan gətirsin... – çayniki götürüb boş stəkana çay süzdü və gələnə yer göstərdi. – Otur...

O, salam-kəlamsız buxara papaqlı ilə üzbəsurət əyləşsə də, narahat-narahat ətrafa boylandı:

– Qoy çayçıya deyim, təzə çay gətirsin də... Hardadı bura baxan, camaata qulluq eləyən? – səsi boğazında ilişdi, çünki onlardan başqa kimsə yoxdu "camaat" adına.

Buxara papaqlı etiraz elədi:

– Onu çağırma, namaz qılır içəridə... Elə bu çayniki də indicə gətirib... – dediklərinə sübut kimi öz armudu stəkanını göstərdi. – Özümə də bu dəqiqə süzmüşəm... Heç içməmişəm hələ...

– Nöş əziyyət çəkirsən, ay kişi... – ağızucu mızıldanmaqdan başqa çarəsi qalmadı. – Yəqin sən məndən bir-iki bayram böyüksən, əslində, mən sənə qulluq eləməliyəm...

– Nə əziyyət, çaydı da... – buxara papaqlı rəngi qarışmış gözlərini qıydı. – Mən də oğlumun yanınnan gəlirdim, dedim kəndə girməmiş, burda bir az dincimi alım...

– Hardadı ki, oğlun?

– Əsgərlikdədi... Getmişdim dəyməyə... Şükür, yaxşıdı, sağ-salamatdı...

– Kəndiniz yaxındı deyəsən?

– Yolun o tərəfindəki qəbiristanlığı görürsən? – əlini irəli uzadanda təsbeh stəkana dəyib cingildəsə də, yaxşı ki, aşmadı cingildəyən.

O, buxara papaqlı deyən səmtə nəzər saldı, əslində, diqqətlə baxmağa ehtiyac yoxdu, bu yoldan çox keçmişdi, yolun kənarındakı böyük məzarlığı da görməmək mümkün deyildi.

– Görürəm...

– Bax, ora bizim kəndin qəbiristanlığıdı... İçəridə, ağaclıqda da bizim kənddi... "..." kəndi... Eşidərsən yəqin... – təəssüfqarışıq dalğınlıqla köksünü ötürdü. – Hayıf ki, indi seyrəlib o ağaclar... – özü öz sözlərinə qüvvət verdi. – Çox seyrəlib...

Buxara papaqlı yaşadığı kəndin adını çəkəndə bir anlığa onun başı hərləndi, önündəkini də dumanlı gördü, sanki lap uzaqlardan kimsə qulağına nə isə pıçıldadı, amma səs o qədər zəif idi ki, sözləri ayırd eləyə bilmədi, sanki deyilənlər, pıçıldananlar anlamaq, başa düşmək üçün yox, beyninə yığılıb məqamı çatanda istifadə eləyə bilməyindən ötrü idi, eşitmədiyi kəlmələr haçansa hökmən lazımı olacaqdı, dadına çatacaqdı, onu hansısa bəladan hifz eləyəcəkdi, qurtaracaqdı...

– Nə eşitməkbazlıqdı, ay kişi, sizin kənddə mənim atamın bir dostu vardı. Əlibala... Onun da atası mənim babamın dostu imiş... Beləcə, o dostluq ta qədimlərəcən gedib çıxırmış... Amma atamdan sonra zəncir qırıldı... Yadımdadı o Əlibala kişi... Hündür, kök adam idi, həmişə də şirmayi təsbehini şaqqıldadardı. Mən balaca olanda ona bir şeir də qoşmuşdum özlüyümdə: Əlibala şax-şax, bir torba... – ayıq tərpənib şeirin sonunu dilinin ucundan qaytardı. – Nə isə... Bir gün Əlibala kişi bizə gəldi, yaman arıqlamışdı, sınıxmışdı, dedi ki, halallaşmağa gəlmişəm, mədəmi aperasiya eləyiblər, vaxtıma az qalıb... Sonra atamdan eşitdim ki, Əlibala kişi rəhmətə gedib... – bir az da nəzakət xatirinə, kədərləndiyini büruzə verməkdən ötrü nümayişkaranə ah çəkdi, hər halda, söhbət buxara papaqlının həmkəndlisindən gedirdi. – Allah rəhmət eləsin...

Buxara papaqlı gülümsündü:
– Bilirəm...
– Nəyi bilirsən? – təəccüblə xəbər aldı.
– Sənin dediklərini...
– Hardan?
– Sənin atan mənim toyumda da olub... Əlibalanın oğluyam mən...
– Əlibalanın oğlu? Doğrudan?.. Təsadüfə bax!.. – Sübhəli-şübhəli dedi. – Adamın inanmağı gəlmir...
– Əstəğfürullah, bu yaşımda nəsil-nəcabətimi, dədəmi-nənəmi danacam? Vallah, Əlibalanın oğluyam!..
– Əlibala kişinin oğlu... – tərəddüdlə pıçıldayıb müsahibimə baxdı. – Adın nədi sənin?
– Əlibaba...
– Dağ dağa rast gəlməz, burda deyiblər... İndi ki tanış çıxdıq, qoy deyim, bu istidə o papağın içində başını niyə bişirirsən?
– Öyrəncəliyəm... – Əlibaba sövq-təbii əlini başına apardı. – Papaq başımda olmayanda, elə bilirəm başım yoxdu...
– Kəndin mollasısan sən?
– Hə...
– Onda işin yaxşıdı ki...
– Hardan... Hərə öz başın gücnən girləyir... Yenə kəndimizə qəsəbə statusu verilsəydi, köçümüzü birtəhər sudan çıxarardıq...
– Mollaya nə fərqi var, kənd, qəsəbə...
– Qəsəbə olsaydıq, bizim yerlərə də qaz çəkərdilər... Məxluq qışda soyuq-dan donur, həmişəyaşıl ağacları odun kimi kəsib yandırırlar, ağaclıqlar da ki, ildən-ilə seyrəlir... Belə getsə, bizim yamyaşıl kəndimiz bomboz çollüyə, qupquru səhralığa dönəcək...
– Yay vaxtı qışın dərdini çəkmə, a kisi... Bəzən arzuna çatandan sonra başa düşürsən ki, illərlə həsrətində olduğun nəinki sənə lazım deyilmiş, hətta xeyirdən çox ziyanı varmış, belə ki, hələ bilmək olmaz həsrətində olduğunuz o qaz sizin kəndə xeyirli olacaq, ya yox... – Əlibabanın üzündəki narazılığı görüb sözünü dəbbələdi. – Hələ sizin kəndinizə qaz çəkməyiblər?
– Yox... – gözləri yol çəkdi Əlibabanın. – Orasını düz buyurdun ki, xeyirlisini Allah bilir...
– Bəs, televizorda deyirlər ki, ölkənin ən ucqar yerlərinə də qaz çəkilib...
Əlibaba qımışdı:
– Özün savadlı adama oxşayırsan, televizorda göstərilənlər, qəzetdə yazılanlar hamısı hap-gopdu... – söhbəti qəfil çöndərdi. – Sənin yolun hayanadı?
– Anamı axtarmağa gedirəm...
– Hə... Yaxşı eləyirsən...
– Bir az bədgümanam, bəlkə heç tapa bilmədim...
Əlibabanın qaşları çatıldı:
– Əsas tapıb-tapmamaq deyil, axtarışın özü gözəldi... Yoxsa, hamımızın yolu eynidi. Beşikdən qəbrə...
O, borclu qalmadı:
– Əksinə, lap gözəl olardı. Qəbirdən beşiyə...
– Bəlkə elə sən deyən kimidi? Nə bilmək olar... – Əlibaba etinasızlıqla və əlacsız-əlacsız dedi. – Şərtləri, qaydaları biz qoymamışıq...
– Sən din-iman əhlisən, bəlkə hardasa nəsə oxumusan, ya məclislərdə kimdənsə eşitmisən, axır zamanlar mən qəribə, belə... ağlasığmaz yuxular görürəm, nədəndi bu, sən bilən?..

– Nə yuxular?..

– Danışa bilmərəm... – səbəbini axtarsa da, ağlına tutarlı heç nə gəlmədi, müsahibi incisə də, ən yaxşısı, sözü düzü-düzünə, bəzək-düzəksiz deməkdi. – Sirrdi... Çox məhrəm yuxulardı e, xətrinə dəyməsin... Elə sirlər var ki, heç kəsə açmaq olmur...

– Bəndənin bildiyi sirr sayılmaz ki... – Əlibaba armudu stəkandakı çaydan bir qurtum aldı. – Yenə özün bilən yaxşıdı, ürəyinə pis şey gəlirsə, sirrini heç kəsə açma... Özü də, eşitməmiş olmazsan, deyirlər, yuxunu danışmazlar... Amma hülqumsuz bəndə yasağı pozmağa meyillidi binadan...

– Kstati, bu gecə gördüyümü danışa bilərəm yəqin... Çünki birbaşa özümə aiddi... Bu gecə yuxuda gördüm ki, yağış yağır, amma qəribə yağışdı, göydən yerə yox, yerdən göyə, torpaqdan yuxarı yağır, su yerdən səmaya qalxır... Görəsən, nə mənası var bu yuxunun, yozumu nədi gördüyümün? – sualedici nəzərlərlə Əlibabaya baxdı.

O, bayaqdan əlində saxladığı yarımçıq stəkanı nəlbəkiyə qoydu:

– Nə deyim... Mən rəmmal deyiləm. Yuxular da qeyb aləminə aiddi, yuxunu düzgün yozmaq üçün oralara baş vurmaq gərəkdi... Bir də ki, gördüyün hər yuxunun başına ip atıb, özünü yormaq xəlbirlə su daşımaqdı. Onsuz da çıxış yolunu tapmayacaqsan... – sohbəti dəyişdi. – Yaxşısı budu, dur gedək bizə, qonağım ol... Necə dedin onu, zəncir qırıldı... Gedək bizə, qırılan zənciri birlikdə birləşdirək...

– Yox, sağ ol, day bir-birimizi tanıdıq da... Qalsın gələn dəfəyə... Mən gördüyümü görmüşəm, nə olur-olsun, öz yolumla getməliyəm...

– Onda yolundan qalma... Söhbət quzunu qurda verər... – Əlibaba qaşqabağını sallayıb ayağa qalxdı. – Mən də gedim, işim-gücüm var...

O, nəzakət xatirinə yerindən dursa da, tərpənmədi:

– Sənə yaxşı yol, mən də beş-on dəqiqə dincimi alıb gedəcəm... – elə bil ürəyinə nə isə damdı. – Ehtiyatlı ol yolu keçəndə... Belə enli, ikitərəfli yolu ya gərək cavanlar kimi yüyürək keçəsən, ya da səbrini basıb məqamını gözləyəsən... – yekəxana-yekəxana kişiyə məsləhət verdi, guya, özü bu yolu gündə neçə kərə o tərəf-bu tərəfə addamışdı.

– Narahat olma... – Əlibaba candərdi, çar-naçar gülümsündü. – Hələ qocalmamışam mən... Birinci dəfə deyil ki o baş-bu başa keçdiyim...

Əyləşib Əlibabanın ardınca baxdı. Yox, maşallah, qıvraq idi, papağındanmı, çal saqqalındanmı, oturanda yaşlı görünsə də, hərəkətləri, yerişi, duruşu, addımları çevik idi. Əlibaba yolun ortasına çatanda hardansa yekə bir yük maşını peyda oldu, maşın buxara papaqlının üstündən əyləci belə basmadan, sürəti azaltmadan güllə kimi keçib getdi...

Deyəsən, hövüllənib ayağa duranda oturduğu kreslonu da aşırdı, masanı da... Maşının altında qalanın papağı başından düşməmişdi, çünki Əlibabanın nə ölüsü gözə dəyirdi, nə dirisi...

...Yolun qırağında mat-məəttəl dayanmışdı, yolda şütüyən maşınlar bəs deyincədi. Şimaldan cənuba, cənubdan şimala... Heç kəsin, heç bir sürücünün tükü də tərpənməmişdi. Sanki indicə onun gördüyü hadisə, ümumiyyətlə, baş verməmişdi, Əlibabanı heç kəs maşınla vurmamışdı, o yazıq həqiqətən izsiz-tozsuz yoxa çıxmışdı. Elə bil belə bir adam binayi-qədimdən yoxmuş...

İlahi, doğrudan-doğruyamı bayaqdan hər şey onun gözünə görünüb? Yolun qırağında lal-mat dayanmaqdan bezikib kor-peşman geri dönəndə heyrətdən tamam quruyub qaldı; nə qapısı açıq balaca tikili vardı, nə söyüdün altındakı stol-stul... Tikilinin yanındakı iri samovar da yoxa çıxmışdı. Gözlərini yumub açdı, açıb yumdu. Ağac da yerində idi, maşını da... Başqa heç nə... Ağacın kölgəliyində çömbəlməkdən bir şey çıxmazdı, nə qədər fikirləşirsən, fikirləş,

yüz qəpiyin bir manat eləyəcək. “Bir qərara gəlmək lazımdı, durğunluqdan kar aşmaz, yoxsa, ağıllı düşünüb-daşınınca dəli vurub çayı keçir. Amma əsl həqiqəti kim bilir, kim bilir əslində dəli kimdi, insanı insan mühakimə eləyirsə, deməli, bütün hallarda məhkəmənin, hökmün qüsursuz olduğuna zəmanət verilə bilməz. Məhkəməni, hökmü qoyaq bir qırağa, ona hələ çox qalıb. Ən yaxşısı, yola davam eləməkdi...

BALAMƏMMƏD

Yavaş sürürdüm maşını, çünki qəflətən günəş girmişdi buludların arasına, günün qızılı şüaları qaramtıl buludları bozumtullaşdırmışdı, göyün üzü bomboz bozarıb gümüşü rəngə çalırdı, indiyəcən neçə kərə gedib-gəldiyim yol mənə tamam yad, cansıxıcı görünürdü, ürəyim sıxılırdı, sıxılmırdı, yox, özəyi naməlum bədlik, qorxu, çəkingənlik dolmuşdu qəlbimə, ürəyimə dammışdı ki, qabaqda başıma bədbəxt hadisə gələcək, o hadisə məni dərin bir quyunun dibinə salacaq, məhşərəcən o quyunun dibində çabalayıb yuxarı qalxmağa çalışsam da, əlim heç yana çatmayacaq. Özü də tək-tənha olmayacam o quyuda, tanıdıqlarım mənə dayaq verəcək, mənə dayaq verənlərin çiyninə çıxıb yuxarı dırmaşacam, başımı quyudan çıxararaq qollarımı yerə dayaq verib qurtulmağa çalışdığım dəmdə altımdakılar, bir-birinin çiyninə çıxıb mənə kömək eləmək istəyənlər aşıb, yıxılıb pərən-pərən düşəcək, mən də aşağı yumbalanacam və beləcə, qiyamətəcən dinclik bilməyəcəm...

Qabaqda, irəlidəsə kimsə maşına əl eləyirdi. Başında da panama... Yaxınlaşanda gördüm boynunda da qalstuk var, intəhası, qalstuku maykanın üstündən bağlayıb, köynək-zad geyinməyib, ağ maykanın üstündən yaxası açıq, rəngi getmiş köhnə, nazik yay pencəyini keçirmişdi əyninə, vəssalam...

Mən əlbəttə ki, maşınıma əl eləyən başı panamalı, boynu qalstuklunu tanıyırdım, amma gözlərimə inana bilmirdim, sakit, rahat olmağa çalışsam da, bədənimdən dalğavari, isti bir gizilti keçdi. Çarə yox idi, dayanmalıydım. Maşını əl eləyənin qənşərində əylədim. Əyilib iri burnunu maşının şüşəsinə dayayan panamalının nə dediyini anlamadım. Yadıma düşdü ki, maşında kondisioner işlədiyindən, pəncərəni bağlamışam. Yəqin istər-istəməz çaşmışam yolda əl yelləyəni görəndə, yoxsa, o, burnunu şüşəyə dayayanda anlamalıydım ki, pəncərə bağlıdı. Düyməni basdım, sağımdakı şüşə yavaş-yavaş aşağı meyilləndi.

Əl yelləyən başını içəri soxmaq istəyirdi, panaması mane oldi, gülümsünüb yellədiyi əlini başına apardı, ovcu ilə panamasını başına bərk sıxıb ərklə xəbər aldı:

– Əclaf, tanımadın məni? Yəni, mən çox dəyişmişəm...

– Niyə tanımadım, Petro dayı... – “dayı” desəm də, əslində, panamalı mənim atamın bibisi oğlu idi.

– Bəs, nöşün maşınnan düşüb mənnən adam kimi görüşmürsən?

“Adam kimi” kəlmələrini eşidəndə ağlım başıma gəldi, böğazımı arıtlayıb səsimin yoğun yerinə salmaq istədim:

– Düşərəm e, düşməyinə... Amma sən... öl... öl... ölmüsən axı... – kəkələyə-kəkələiə də olsa, sözün düzünü deyə bildim.

Narahatlığa səbəb yoxdu, xətrinə dəymədi dediklərim, əlini yelləyib güldü, qabaqdan üst dişləri tökülmüşdü, ha fikirləşdim onu dişləri mırıq xatırlayam, yadıma sala bilmədim.

– Ölmüsən... ölmüsən... – məni yamsılayıb təkrarladı. – Noolsun? Ölində nə olar? Ölmək qəbahətdi ki?.. Hamı öləcək də... Görmürsən burda qarpız

satıram? Qonağın gələndə gərək qaçıb gizlənəsən? Utanıb-eləmirsən?.. Düş görək... Bəsdi forslu-forslu maşında oturdun, nöşün ki, buralarda yekəxanalıq keçmir...

Bilmədim "qonaq" deyəndə kimi, nəyi nəzərdə tutur, kim kimə qonaq gəlib, sıxıla-sıxıla maşından düşdüm, pərtliyimi büruzə verməmək üçün söhbəti dəyişdim:

– Axı, sən üzümçülüklə məşğul idin, bu qarpızlar hardandı?

– Mənim malım deyil ki... Yiyəsi harasa gedirdi, bir-iki saatlıq tapşırıb mənə... Bəri gəl görək... – qaprızlar qalaqlanmış talvarın altına gedib üstünə yırtıq palaz sərilən dəmir çarpayıda oturdu, iri kötüyin üstündə də mənə yer göstərdi. – Yanını bas yerə, dərdləşək, çoxdandı görmürəm səni... Çay istəyirsənsə, samovara od salım? – Üzümə baxanda gördüm gözlərinin rəngi dəyişib, bozumtullaşıb, sanki ətrafa hakim kəsilən boz-gümüşü rəng onun göy gözlərinə də hopmuşdu, bəbəkləri isə lap balacalaşmışdı, iynənin ucu boyda idi, mənə elə gəldi ki, bir azdan onun bəbəkləri tamam yox olacaq, bozumtullaşan gözləri də get-gedə ağappaq ağaracaq...

Kötüyün üstündə oturub başımı əllərimin arasına aldım:

– Yox, istəmirəm, çayı yolda içmişəm.

Nə səbəbə, nəyə görə ona "Petro" deyirdilər, bilmirəm, amma Petronun balaca dayısının arvadının təzə gəlin gələn vaxtlarda üzə durub kişinin ayamasına, ləqəbinə acıqlanması zərb-məsələ çevrilib dillərə düşmüşdü.

– Yekə ziyalısan, o boyda müəllimsən, özü də sovet müəllimisən, məktəbdə böyük qardaşımızın dilini öyrədirsən uşaqlara... Bəs, bu Petro nə addı sənə qoyublar, hə? Uşaq-böyük, hamı səni Petro çağırır, belə də hörmətsizlik olar sovet ziyalısına, sovet müəlliminə? – təzə gəlin həqiqətən əməlli-başlı qeyzlənmişdi, önündəkini qoz qabığına salaraq bərk-bərk sıxmışdı.

– Bilmirəm... – "qoz qabığına salınan" müqavimət göstərməyib yazıq-yazıq boynunu bükmüşdü.

– Əsl adın nədi ki, sənin, hə? – təzə gəlin əl çəkməmişdi. – Ata-anan qoyan adı hər yerdə ucadan de, qoy el-oba eşitsin...

Petro təzə gəlindən utanıb gözlərini yerə dikərək yavaşca cavab vermişdi:

– Balamməd...

Təzə gəlin onun səsini yaxşı eşitmədiyindən, əlini qulağına aparıb:

– Nə? – soruşmuşdu.

– Balamməd... – Petro bu dəfə bir az uçadan təkrarlamışdı.

Təzə gəlin qəfil qəhqəhə çəkmişdi və özünə gələndən sonra çaşqın-çaşqın yerində donub qalan Balaməmmədə baxıb gülə-gülə:

– Balammədənsə, elə Petro yaxşıdı... – demişdi gülməkdən yaşaran gözlərini ovcu ilə silə-silə... – Bu nə addı veriblər sənə, ay Allah güldürsün səni...

Elə bildim yadıma düşəni sövq-təbii hadisənin qəhrəmanına danışmışam, çünki Balaməmmədin yorğun gözlərində güclə seziləcək işartı yanıb tez də söndü, qeyri-ixtiyari o vaxtkı təzə gəlindən xəbər vermək istədim atamın bibisi oğluna:

– Sənnən sonra o gəlin də rəhmətə getdi... Sənin kiçik dayının arvadını deyirəm... – dedim. – Çox qohumlar rəhmətə getdi sənnən sonra...

Balaməmməd başını tərpətdi:

– Bilirəm... Onun rəhmətə getməyini də bilirəm...

– Petro dayı, ora yaxşıdı, ya bura? – soruşdum lapdan.

Deyəsən, sualımı anlamadı:

– Necə yəni, ora-bura?

– Deyirəm, o dünya yaxşıdı, bu dünya?

Yenə söylədiklərim çatmadı ona, çiyinlərini çəkdi:

– Ora-bura, o dünya, bu dünya yoxdu... Hər yan öz sahibinindi...

Əl çəkmədim:

– Torpağın altı yaxşıdı, ya üstü?

Əvvəlcə tutulub zəndlə üzümə baxdı:

– Özünnən xəbərin yoxdu sənin... – mızıldayıb zarafata saldı. – Varlılar üçün üstü, kasıblar üçün altı... – dedi. – Sən məni çox çək-çevirə salma, nöşün ki, mən elə qəliz məsələlərdən xəbərsizəm... – yüngülcə nəfəsini dərdi. – Bircə şeyi bilirəm ki, sən adi adam deyilsən, nöşün ki, sənin iki anan var...

– Sən mənim analığımı deyirsən? Onu da yük maşını vurub öldürdü... Yazıq əzabla öldü... Deyirlər, başı kəsiləndə qəflətən əldən çıxan toyuq kimi, al qan içində çabalayıb canını tapşıranacan...

Əlini yellədi laqeydliklə, sanki kiminsə ölümündən yox, yatıb dincəlməyindən danışırdım, yəqin ölüm onun üçün adiləşmişdi, ölünü ölümlə təəccübləndirmək mənasızmış:

– Əşi, mənim sənin analığınla nə işim... mən sənin əsl ananı deyirəm... O ananı ki, sən doğulandan çox-çox qabaq ölüb...

Bədənim gizildədi, tüküm ürpəşdi:

– Deməli, sən də bu barədə nəsə bilirsən? Qurban olum, Petro dayı, mənə o qadından danış...

– O qadın bildi ki, mən bura gəlib sənnən görüşməliyəm, dedi sənə çatdırım ki, heç nədən qorxmayasan...

– Sonra?

– Nə sonra?

– Elə bircə bunu dedi?

– Hə...

– Bir az təəccüblüdü burası... Mən nədən qorxa bilərəm axı?

– Bilmirəm...

– Sən Allah, Petro dayı, bütün bildiklərini yadına sal... Təsvir elə onun sir-sifətini, üz-gözünü, qədd-qamətini... Mənim üçün çox vacibdi o qadının, anamın görüntüsü... Axı, mən o qadının üzünü görməmişəm ki, heç olmasa xəyalımda canlandırım, gözümün qabağına gətirim... Fotosuna, rəsminə, şəklinə də heç yerdə rast gəlməmişəm... – nəfəsimi dərmədən yalvardım.

– Heç mən də görməmişəm... – deyəndə dalağım sancdı, o dəm həvəsdən düşdüm.

– Nəyi görməmisən?

– O qadının, sənin ananın üzünü.

– Bəs o, indicə mənə dediyin sözləri sənə necə çatdırıb? – soruşub Petronun, e, Balaməmmədin ağzına marıtladım, guya, diqqətlə baxanda daha yaxşı eşidəcəkdim, lap yaxşı anlayacaqdım dediklərini.

– Bircə səsini-ününü eşitmişəm... Mən onu görə bilmərəm, o, hara, mən hara... Bircə onu eşitmişəm ki, sənin ananın gözlərində bir dünyalıq işıq var, bəlkə elə ona görə mənim kimilərinin gözünə görünmür... Nöşün ki, mənim kimilər tamam kor ola bilər... Axı, mənim gözlərim çox zəifləyib, yaxını güclə görürəm, uzağı da ki, alababat, birtəhər, dumanlı... – nədənsə təəssüflənirmiş kimi, əllərini dizlərinə vuranda fikir verdim ki, boz, köhnə, şalvarının dizləri ağarıb, sanki əllərini peşman-peşman dizlərinə vuran kimi zərbə dəyən yerlər ağarmışdı, ya da önümdəki dizlərini o qədər şapalaqlamışdı ki, day şalvarının dizləri cındıra dönmüşdü...

– Bəs səsi necə idi? – saman çöpündən yapışmaq istədim.

– Səsi? – fikrə getdi azacıq. – Mən nə bilim... Çox uzaqdan gəlirdi axı səsi də... – özünə haqq qazandırmağa çalışdı.

– Deməli, gözlərindəki işıqdan başqa heç bir əlamətini deyə bilmirsən? Onun görkəmindən heç nəyi yadına salıb mənə... necə deyim... – uyarlı sözlər axtardım. – Mənə yol göstərməyin də mümkün deyil?

– Mən nəkarəyəm ki, görmədiyimi yadıma sala bilim? Mənnən yol göstərən olar? Mənnən sonra qardaşlarım, bacılarım öldü göz qırpımında... Bircə kiçik qardaşım sağ idi, o da dəli oldu, başına hava gəldi, özünü asdı. Hələ də öyrənə bilməmişəm nə imiş bizim nəslin günahı, suçu... – sözlərinə azca ara verib təkrarladı dilxor-dilxor. – Mən nəkarəyəm...

Onun kefini açmaq istədim:

– Heç bu qarpızların da alıcısı yoxdu... Heç kəs gəlmir qarpız almağa...

– Gəlir gəlsin, gəlmir gəlməsin... – panamasını gözünün üstünə basıb bikef-bikef başını buladı. – Alıcı-malıcı hərləmirəm mən... – zorla gülümsündü acı-acı. – Nöşün ki, mal mənim deyil, – duruxdu birdən-birə, nə isə yadına düşdü elə bil. – Bəri bax, sən bir az otur burda, malın yiyəsini gözlə, nöşün ki, mən getməliyəm, vaxtdı... – deyib məndən cavab gözləmədən gözdən itdi.

Necə qalxdı, necə getdi, necə yox oldu, xəbər tutmadım, qarşımdakının hərəkəti haqqında "xəbər tutmadım" qənaətinə gəlmək də düzgün alınmır, sadəcə, anlamadım, karıxdım bir anlıq, gözlərimi yumub açınca – bəlkə də özümü aldadıram, heç kirpiklərimi qırpmağa da macal tapmadım – gördüm önümdə heç kəs yoxdu, yel kimi uçub gedib bayaqdan dil-dil ötən, tək-tənha oturmuşam kötüyün üstündə, Petro dayımın, e... atamın bibisi oğlu Balaməmmədin, həmişə səliqəli geyinib-kecinən, bir az əvvəl gördüyümdəsə cındırından cin ürkən kənd müəlliminin, bağ-bağatda gecə-gündüz tər tökməkdən usanmayan üzümçünün, saç-saqqalı ağarsa da – əslində, saç məsələsini açıb-ağartmağa dəyməzdi, başı cavanlıqdan dazlaşmışdı – uşaq kimi utancaq olan salxım xiridarının izi-tozu da qalmamışdı. Hər şey dəyişmişdi, hər şey kəlləmayallaq olmuşdu, üzümçüyə qarpız satmağı tapşırmışdılarsa, deməli, çörəyi çörəkçiyə verən yoxdu, indisə, yiyəsi gələnəcən qarpızlar mənə əmanətdisə, yəqin çərxi-fələk tərsinə fırlanırdı, mənim nəinki qarpızdan, üzümdən, alış-verişdən başım çıxmırdı, mən bankda işləmişdim, mənimki meyvə-tərəvəz, göy-göyərti yox, pul alıb satmaq, pul-para alış-verişi idi.

Hərçənd, heç onu da düz-əməlli bacarmadığımdan, işlədiyim bank müflis elan olunmuşdu. Mən orda sayılıb-seçilən işçi olmasam belə, humanistlik göstərib özümü də suçlu hesab eləyirdim keçmiş işimdəki uğursuzluqda. Hər nə isə, "çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu," – deyiblər. Günəş gizlənmişdi lopa-topa, bozumtul buludların arxasında, belə havada kimdi qarpız alan? Hər halda, baxaq görək mənə necə mal tapşırılıb, sahibi gələnəcən bir-iki qarpız satsam, işinə yarayaram qarpızın yiyəsinin, qoy heç olmasa evinə tikə çörək apara bilsin. Necə deyiblər onu, siçan sidiyinin dənizə xeyri var... İntəhası, alıcı-malıcı öz yerində, qiymətini bilmədiyimi necə, neçəyə satacaqdım? Neyləməli, duraq ayağa, görək başımıza nələr gəlir...

Durmağına durdum, lakin qiymət, alış-veriş barədə düşünmək halında olmadım ayağa qalxan kimi... Çünki satacağım yox olmuşdu, üst-üstə yığılmış qarpızlar yoxdu, qarpız deyildi üst-üstə qalaqlanan, rəngarəng, gürbəcür başdaşıları idi. Müxtəlif, üstü yazılı qəbir daşları... Bəzi daşların üzərindəki yazını oxuya bilmirdim, çünki ərəb əlifbası ilə yazılmışdı, xaçşəkilli başdaşılar da az deyildi, prizmavari daşlar da... Amma mənə tanış adamların, qohumlarımızın məzar daşları da var idi necə gəldi səliqəsiz yığılan, bəziləri başıaşağı tolazlanan, digərləri üzü üstə qalan daşların arasında. Atamın başdaşı vardı burda, deyimi zərb-məsələ çevrilmiş təzə gəlinin məzar daşı vardı, Petronun e... Balaməmmədinki vardı... Atamın atasınınkı vardı, bala-

caboy babamınkı vardı... Əlibalanın da başdaşı burdaydı, Vüqarınkı da... Elə adamların başdaşı vardı ki, onların ölümünə inanmırdım, dünən-srağagün görmüşdüm qəbir daşına adları yazılanları... Pərvərdigara, görəsən, bu qədər başdaşını, qəbir, məzar daşını kim, kimlər, nə səbəbə yığmışlardı bir yerə? Özü də candərdi, necə gəldi tolazlamışdılar bu işi onlara tapşıranın qarasınca söylənə-söylənə, ya da elə məzar daşlarını bir yerə tullayıb təpəcik yaratdıqca özləri-özlərini lənətləyə-lənətləyə. Deyəsən, yuxarıdan atmışdılar daşları, çünki qarpızların üstündəki, kəndirlə ətrafda basdırılan şalbanların ortasına tarım çəkilən boz bez parça da, talvarın hündür salbanları da yoxa çıxmışdı, başdaşı təpəciyi bozumtul səmanın altında idi. Burası vardı ki, tullanılan, tolazlanan, atılan daşlarda istər-istəməz çatlar əmələ gələrdi, lap sınardı, paralanardı daşlar. Qalaqlananlarsa tərtəmizdi, par-par parıldayırdı, işım-işım işıldayırdı, elə bil indicə düzəldilmişdi, indicə nəm əski ilə silinib təmizlənmişdi, üstünə ərəb əlifbası ilə yazılmış qədim, köhnə daşlar da təptəzə görünürdü. Deməli, daşlar səliqəsiz, lakin çox ehtiyatla yığılmışdı bir yerə, səbrlə, təmkinlə və böyük zəhmətlə yaranmışdı başdaşı təpəciyi. Axı qəbirlərin hamısı eyni məzarlıqda deyildi. Biri şərqdə idi, digəri qərbdə, biri dağda idi, o biri aranda, yəqin başqa ölkələrdə olanı da vardı. Bax, bu idi, işin burası idi heyrətli, təəccüblü, maraqlı... Ancaq dərindən fikirləşəndə hər şeyi başa düşmək, anlamaq mümkündü, yəqin ki, heyrətin, təəccübün, marağın da həddi-hüdudu, sərhədi gözəgörünməz halələrlə cızılıb, nə qədər özündən deyirsən, de, ha özünü yer üzünün əşrəfi say, insan ağlı müəyyən məqamacan, o cızılan halənin son həddinəcən gedə bilər, vəssalam... Ona görə də bütün gördüklərimə ürəyimdə - yəni hər şey, bütün ağlasığmaz işlər baş verə bilər, mənim, insanın baş verənləri qanıb-qanmayacağı, anlayıb-anlamayacağı, qavrayıb-qavramayacağı, ağlına sığışdırıb sığışdıra bilməyəcəyi tamam başqa məsələdi, ona görə ən azı, gördüklərimə mümkün qədər sakit yanaşmaq gərəkdi – beynimdə haqq qazandırıb mat qalmaya bilərdim, amma qəfil elə bir şey gördum ki, boğazım qurudu, nəfəsim kəsildi, havam çatmırmış kimi, ağzımı açıb-yumdum, sövq-təbii, qeyri-ixtiyari, bədənimə, əllərimə, ayaqlarıma baxdım, qəlbimə vahiməli, bir anda bütün içalatımı ağzıma gətirən qorxu dolduğundan, qaçıb maşında güzgüyə baxmaq ağlıma gəlmədi, həm də istəsəydim belə, yerimdən tərpənə bilməzdim, heyim-hərəkətim kəsilmişdi, qalmamışdı, yıxılmamışdımsa, ayaq üstə dura bilirdimsə, bu özü ən böyük qəhrəmanlıq idi, intəhası, bu qəhrəmanlığı da şişirtməyə dəyməzdi, deyəsən, mən vahiməli heyrətdən donub durduğum yerə yapışmışdım, təəccübdən yerə yapışıb başı azca hərlənən hələ də qəfil gözünə sataşana inanmırdı; o, öz qəbrini, daha doğrusu, öz başdaşını görmüşdü. Amma məntiqlə qorxudan ürəyi ağzına gələnin ağzına gələn bərk-bərk döyünməli idi, az qala çırpınıb sinəsindən çıxmalı idi, di gəl, ürəyi rahatdı, əlini sol döşünün üstünə qoymağa da dəyməzdi, sanki əlini qoyduğu yerin altında heç nə yoxdu...

Zərrəcə şəkk-şübhə ola bilməzdi. Doğum tarixi, hətta... ölüm tarixi, ad, soyad, üstəgəl yekə bir şəkil... Bu ağ köynəkli, qara pencəkli, qalstuklu şəkli nə vaxt, harda, niyə çəkdirdiyini xatırlaya bilmədi. Çox kədərli idi baxışları, sanki məxsusi başdaşına həkk olunmaq üçün çəkilmişdi və şəkli çəkdirən bundan xəbərdar, agah idi. “İlahi, görəsən indi hansı aydı, neçənci ildi? – xatırlamaq istəsə də yadına düşmədi. – Ay dadi-bidad, elə bilirdim mənim heç vaxt başdaşım olmayacaq, çünki mən heç vaxt ölməyəcəm”.

Doğrudan-doğruyamı onun tanıdığı bütün doğmaları, qohumları, yaxınları ətrafına daş şəklində yığışmışdı? Adəm-Həvva zamanından üzü bəri... Yoxsa, qədimdən qədim başdaşılarının onun tanıdıqları adamların məzar daşı ilə bir yerdə qalaqlanmağına ayrı heç bir bağlılıq tapmaq olmazdı. Bəlkə hər şey

daha dərində idi, daha qəliz idi? Axı onun öz qəbir daşı da qalaqlananların arasındaydı, deməli, o, baxdıqlarından fərqlənməməliydi, fərqlənmirdi, seçilmirdi, o özü də daş adamdı, yeriyən, hərəkət eləyən daş adam... Bəlkə qalaqlanan daşların sahibləri də yeriyirdi, danışırdı, uçurdu, intəhası, onun gözünə görünmürdü? Burda bir anlaşılmazlıq var, məzar daşı bura yığılanların arasında olan Petro e... Balaməmməd, Əlibalanın oğlu Əlibaba onun gözünə görünmüşdü axı, nəinki gözünə görünmüşdü, hələ onunla əməlli-başlı söhbət eləyib çay da içmişdi gözünə görünən. Bunun izahı insan ağlına, adamların binayi-qədimdən öyrəşdiyi məntiqə sığmır, deməli, burada adi məntiq haləsi qapanır, halədən o tərəfdə baş verənləri anlamaqdan ötrü kənar qüvvələrin – halədən o yandakı qüvvələrin – köməyi olmalıdı, o güclərin köməyi üçünsə, yəqin ki, qüvvəni, yaxud qüvvələri idarə eləyənin, qüvvə sahibinin izni, icazəsi... Yoxsa, sonsuzacan hərlən-fırlan, heç bir xeyri olmayacaq, gözünün qabağındakıları da, burnunun ucundakıları da görməyəcəksən, baxacaqsan, amma görməyəcəksən, həqiqət ovcunun içində olsa da tutub saxlaya bilməyəcəksən, çünki xəbərin olmayacaq ovcundakından. Necə ki, o, az-çox özünə gəlib – qorxu-urküsü birdən-birə azalmışdı nədənsə – ətrafa göz gəzdirdikcə hiss eləyirdi ki, bir az qabaq gördükləri aldadıcı imiş; dəmir çarpayı yoxa çıxmışdı, oturduğu kötük də yox idi, gözlərini bərəldib axtarmağa dəyməzdi, demə, bayaq üst-üstə qoyulan başdaşıların üstündə oturubmuş... Yan-yörədə heç nə qalmamışdı, bir başdaşıları idi, bir də o...

Aralıdan başdaşı təpəcəyinə bir xeyli baxandan, qəflətən içini bomboş boşaldan səbəbi naməlum laqeydliklə nəzər salandan sonra yavaş-yavaş, ağır addımlarla, ayaqlarını güclə sürüyə-sürüyə irəli yeriyib təpəciyin qənşərində dayandı, qollarını geniş açaraq təpəciyin üstünə yıxıldı, yayxandı, sanki bütün başdaşıları bütöv təpəciyi qucaqlamaq, bağrına basmaq istəyirdi. Birdən-birə vücuduna hərarət gəldi, elə bil günəş buludların arasından çıxıb yenidən gizləndi, lakin günəşin ani şəfəqləri üzərinə yox, birbaşa içinə axmışdı, içini isidirdi. Üzünü daşlara sürtdü, qəribədi ki, daşlar sanki yupyumşaq yumşalıb pərqu kimi olmuşdu, onun sir-sifətini cızmırdı, əksinə, elə bil başını sağa-sola çevirə-çevirə üzünü sürtdüyü daşlar onun burnunu, alnını, yanaqlarını, qaş-gözünü ehmalca, nəvazişlə sığallayırdı, təkcə sığallamırdı, yox, elə bil təpəcikdəkilər də onu qucaqlamaq istəyirdi, üzünü daşlara sürtənin gözünün qabagına ağappaq topa buludlar gəlirdi, o buludlar qaynaşırdı, göy üzündə sürətlə hərəkət eləyirdi, gözünün önündəkilər tez-tez, anidən-ani dəyişdiyindən o, buludların üstündə oturanların, dayananların, əl-qolunu ölçənlərin, başını yelləyənlərin üzünü aydın görüb kimliyini ayırd eləyə bilmirdi, kölgəvarı görünürdü buludlardakılar, di gəl, həmin kölgələrin adam əksi olduğunu da qətiləşdirmək, dəqiq demək çətindi, çünki bəzi kölgələr qat-qat böyük, əzəmətli idi, bir mahal, kənd-kəsək yekəliyində... Üzlərini görə bilməsə də, bir şeyə qəti əmindi, onun axtardığı hardasa buludların arasında idi. Ancaq ora, o yerlərə necə gedib çıxa bilərdi, necə qalxa bilərdi? Bəlkə elə uzaqdan-uzağa, dumanlar, buludlar içində axtardığının əksinin zərrəsini duymaq bəsiydi, bundan uzağa – bəlkə də yaxına – getmək mümkün deyildi, qadağandı? Deyəsən, günəş bir anlıq çıxdığı kimi indi də narın yağış yağırdı, intəhası, yağan onun kürəyini, başını deyil, yalnız daşlara sürtdüyü sifətini, çənəsini, kirpiklərini isladırdı. Kirpiklərini bir-birinə sıxdıqca yağış daha da şiddətlənirdi. Yağışın nə qədər yağdığını, qollarını geniş açaraq təpəciyi havaxtacan qucaqlamağa çalışdığını anlamadı, elə bildi dəqiqələr-saatlar yox, günlər, həftələr ötüşüb, çünki bir anın içində, göz qırpımında bütün kainatı dolaşa bilməzdi, gəzməyə qüdrəti çatmazdı. Yəqin elə yerlər var ki, oralara yalnız yağışda səyahət eləmək mümkündü. İlahi, buludlar ağappaq ağarıbsa, bəmbəyaz bəyazlaşıbsa,

bu narın yağış hardan, necə və niyə yağırdı? Deyəsən, kimsə yuxarıdan, buludların arasından ona əl eləyirdi, yöndəmsiz işarələrlə ona nələrisə başa salmağa çalışırdı, yol göstərmək istəyirdi, lakin hər şey elə tez dəyişirdi ki, elə sürətlə dabanbasma ötüşürdü ki, gördüklərini uc-uca qoyub nəticə çıxarmaq mümkün deyildi. Bəlkə güllə kimi bir-birini əvəz eləyən kölgələr ona işarətək görünüb nəsə anlamaq istəyəni çaşdırırdı, düz yoldan sapındırırdı, ona görə ki, məqamı gəlməmişdi, baxan anlamağa hazır deyildi, gördüklərinə uyğun cəldliklə düşünməyə kəraməti çatmırdı hələ... Amma görəsən, başa düşməyəcəyi, baxanın gördüklərindən heç nə açmayacağını bilə-bilə vaqeəyə bənzər qarışıq kölgələr niyə, nə səbəbə göstərilirdi ona?..

Sanki kimsə qəfil çiyninə toxundu, elə-belə, ehmalca toxunmadı, əməlli-başlı əlini onun sağ çiyninə qoydu, hələ desən, əl qoyduğu yeri yüngülcə sıxdı da... Çiyninə baxdı, əl-zad yox idi, qanrılıb geri boylandı, ins-cins gözünə dəymədi, dikəlib qalxdı, ovcu ilə üz-gözünün yaşını sildi, şalvarını çırpmaq, köynəyini səliqəyə salmaq istəsə də, baxdı ki, üst-başı tərtəmizdi. Geri dönüb əyildi, bayaq kötük bilib oturduğu yerdə üst-üstə yığılan üç məzar daşını, sahiblərindən, yiyələrindən üzr istəyir, üzrxahlıq eləyirmiş kimi, ehmalca sığalladı. Birinci daş deyəsən, üzü torpağa qoyulmuşdu, ortadakı daş da iki daşın arasında pərçimlənmişdi. Üstdəki daşın yazısısa ərəb əlifbasında idi. Altdakıların yazısını oxumaqdan ötrü üstdəkiləri tərpədib daş yiyələrini narahat eləmək lazım idi ki – hərçənd onsuz da daşların hərəsi bir məzarlıqdan çıxarılıb gətirilmişdi, yaxud hər necəsə çıxıb gəlmişdi – buna da saysız-hesabsız daşların yanında dayanıb neyləyəcəyini kəsdirə bilməyənin ürəyi gəlmədi. Yəqin gücü də çatmazdı buna, ən azı, üst-başını bulayardı. Yox, bu, yuxu deyildi, yuxunu, röyanı, vaqeəni yatanda görərlər, o isə təkrar-təkrar gözlərini açırdı, yumurdu, kirpiklərini bir-birinə sıxırdı, aralayanda yenə eyni mənzərəni görürdü. Amma hardansa qulağına öləzik qağayı səsi gəlirdi, qagayılar səs-səsə verirdisə, deməli, dəniz də uzaqda deyildi. Kimin, nəyin səsinin gəlməsinin elə bir əhəmiyyəti yoxdu, lakin birdən: "İndi qarpızların yiyəsi gəlib malını məndən istəsə, yaxamdan yapışsa, neyləyəcəm, hə? Əmanətə xəyanət ən böyük günahdı. Tülkü tülkülüyünü sübut eləyincə, dərisini boğazından çıxardarlar. Necə sübut eləyəcəm ki, mənim suçum yoxdu, sənin qarpızların başdaşına çevrilib? Hansı dəli inanar buna? Ən sərfəlisi üzüsulu aradan çıxmaqdı, qarpız sahibinin cavabı qaldı əsl haqq-hesab gününə..." – qəfil ağlına gələn fikirdən diksinib səksəkə içində yolun qırağında dayanan maşına sarı yüyürdü, ancaq addımlarını asta, yavaş atırdı, ayaqlarını ehmalca basırdı yerə, sanki səs-küy salıb məzar daşı yiyələrini oyatmaqdan ehtiyatlanırdı, həm də fəhmən elə bilirdi ki, ayaqlarını yerə bərk bassa, özündən xəbərsiz havaya qalxar... Ən əsasısa, məzar daşlarının yiyələri oyansa daşlar öz-özünə hərəkətə gəlib dik durar, hər tərəfdən sıxıb onu xurd-xəşil eləyər, heç tikəsi də ələ gəlməz, tapılmaz, ona elə gəldi ki, uzaqlardan qulağına gələn qağayı səsi adi ün deyil, xəbərdarlıqdı, qağayıların öləzik səsi onu nədən duyuq salmaq istəyirdi, nə demək istəyirdi? Buludların arasında gözü aldığı qarmaqarışıq, ziqzaqlı işarələr kimi pıçıltıyabənzər səsin də verdiyi xəbəri anlaya bilmədi, yəqin xəbəri göndərən heç onun başa düşməyini istəmirdi də, daha doğrusu, onun anlayıb-anlamayacağı xəbəri göndərəndən ötrü önəmli deyildi, yoxsa min bir yol, elə o qədər də üsul vardı yaddaşının labirintində karıxıb, ilişib qalanı dolanbacdan çıxarmağa, daha nə ziqzaqlı şəkillərə ehtiyac olardı, nə güclə eşidiləcək ünə...

Maşına oturanda ona elə gəldi ki, bütün içini-içalatını başdaşıların yanında qoyub, çünki quş lələyi kimi yüpyüngül idi. Bəlkə də yüpyüngül, qov kimi olduğundan, əlləri əsirdi. Buna əsmək də demək düzgün deyildi, tir-tir

titrəyirdi. Yaxşı ki maşının açarını yerindən çıxarmamışdı, yoxsa, əlləri titrəyə-titrəyə açarı çıxardığı yerə salmaq zülüm olacaqdı, özgə vaxt çox adi görünən işə görə ağlasığmaz əziyyət çəkəcəkdi, bəlkə heç gücü də çatmayacaqdı buna, sanki açarı qaldırmağa da heyi qalmamışdı. Amma titrəyənləri ram eləyib birtəhər açarı fırlatmaq da asan deyildi. Təkcə əlləri yox, ayaqları da sözünə baxmırdı; o, əl-ayağına, bədəninə deyil, sadalananlar ona hökm verirdi, bədəni maşının üstünü dağıdıb üzü yuxarı, göyə uçmaq istəyirdi, ayaqları oturduğu yerdəcə sağa-sola yuvarlanırdı. Əlacsızlıqdanmı, ya nədənsə, ağzını, gözlərini təkrar-təkrar açıb yumdu, yumub açdı, sanki ağır bir işin öhdəsindən gəlmək üçün güc toplayırdı. Nəhayət, barmaqlarını bir-birinin arasına keçirib ovuclarını bərk-bərk sıxaraq əllərini yavaş-yavaş maşının açarına yaxınlaşdıranda baxdı ki, əli ağappaq, bəmbəyazdı, elə bəmbəyazdı ki, əlinin sümükləri, damarları aydınca görsənir, heyrətdənmi, qorxudanmı damarlarından axan qan donub...

... Axmır...

3

...Gəlin, əlində sini, “Böyük ana”nın otağına girəndə, nədənsə, qapının ağzındakı köhnə sandığın yanında – sandıq elə bil qəsdən yolun ortasına qoyulmuşdu ki, nabələd adam otağa girəndə, yaxud içəridən çıxanda sandığa dəyib, ilişib yıxılsın – ayaq saxlayıb bardaş quraraq üzbəüz əyləşənlərə nəzər saldı. Ancaq ona fikir verən yox idi, sinidəki çayları süfrəyə düzüb qayıdanacan sövq-təbii – bəlkə də qəsdən – addımlarını yavaşıdaraq ləngidiyindən qulağı “Böyük ana”nın onun ərinə dediyi kəlmələri aldı:

– Şura hökuməti pul-qızılmı qoydu bizdə?.. Əmin sağalmaz xəstəlikdən cavan vaxtında getdi, dədən də ki, tuthatut dövründə qorxudan öldü, amma yenə min şükür ki, ocağımız boş qalmadı... Səbirli ol, Allah bilən məsləhətdi... Binadan belə yaradıb yaradan, gec-tez, əvvəl-axır qoluzorlunu səbirliyə möhtac eləyir... Fələyin ipi uzundu... – Qarı susanda gəlin çar-naçar ayağını sürüyə-sürüyə könülsüz-könülsüz dəhlizə çıxıb qapını ehmalca örtdü.

Amma otaqdan çıxanda yaranan öləzik maraq elə həmin gecə söndü, çünki əri gəlinlə də üzbəsurət bardaş quraraq hər şeyi yerli-yataqlı təkrar elədi təklikdə hal-əhval tutub iki körpə qızını soruşandan sonra... Heç uşaqlarını düz-əməlli qucağına da almamışdı gələndən. Macalı olmamışdı buna. İndi də balacalar mışıl-mışıl yatırdılar qonşu otaqda, ər-arvad yan otağın qapısını açıq qoymuşdular ki, uşaqlar qəfil oyanıb ağlamağa başlasa, eşitsinlər...

– Belə-belə işlər, arvad, müharibə böyük dəhşətdi, məxluq milçək kimi qırır bir-birini... Hələ də öyrəşə bilməmişəm qan-qadaya... Qan gölündə üzməyə öyrəşməkmi olar? – sözünə ara verdi. – ...Elə cəbhəyə gedəndən işim nəhs gətirdi, kamandirin gözü məni alan kimi cin atına mindi... Elə bil özümün özünə, dədəmin də murdar dədəsinə borcu vardı... Guya, mən özxoşuma-özbaşıma gəlmişdim müharibəyə, adam öldürməkdən, qan tökməkdən ötrü əldən-ayaqdan gedirdim... Mərdimazarı axtarmaqla deyil ki...

– Kamandir kimdi ki, sənə qurban? – arvadı maraqla onun sözünü kəsdi.

– Başbilən... – əri ağızucu cavab verib davam elədi. – Cin atına mindi o kamandir köpəyoğlu, ağzı köpüklənə-köpüklənə bağırdı ki, bəs, bu karliki kim göndərib cəbhəyə?..

– Karlik nə deməkdi ki, sənə qurban? – gəlin yenə dilini dinc saxlamadı. – Yəni, qulağı eşitməyən, ya kartof daşıyan?

– Yəni... – nəql eləyən udqundu. – Yəni liliput... balacaboy... – deyəndə arvadı gözlərini döyüb üstünü vurmadı, guya, söhbət tamam başqa adamdan

gedirdi, bəlkə də əri arvadının gözünə Herakldan da, amma çətin ki, arvadın Herakldan xəbəri olaydı, yekə görünürdü və kişi bu əzəmətə, bu qədd-qamətə öz hirsi, hikkəsi, qətiyyəti, amiranəliyi ilə yetişmişdi. – ...Dedi bunu döyüşə göndərmək olmaz, göndərin arxaya, qoy akop... – bu dəfə arvadının qımıldanıb nə isə soruşmasına macal vermədi, – yer qazanlara kömək eləsin, pal-paltar yuyan arvadlar üçün sudan-zaddan daşısın...

– Orda arvadlar da var? – kişi yenə arvadının sualına əngəl ola bilmədi.

– Bə nədi? Arvadsız müharibə olar? Arxada arvadlar da var... Nə isə... Məni göndərdilər yer qazmağa... Orda da yaşlı bir kişiyə isinişdim... Yaxşı adam idi, son tikəmizi bölürdük... Bir dəfə yer qazanda belimdən tər axa-axa beli yerə qoyub nəfəsimi dərdim, çömbələndə gördüm qoca başımın üstündədi ki, birdən mənə nəsə lazım olar... Altdan-yuxarı ona baxıb yorğun-arğın qayıtdım ki, bilmirəm boş yerə niyə öldürürük özümüzü, onsuz da bugün-sabah Hitler gəlib çıxacaq... Qoca əvvəlcə nə deyəcəyini bilməyib key-key gözlərini döydü, ürkək-ürkək ətrafa baxdı, sonra ürəkdən, uzun-uzadı qəhqəhə çəkdi.

Axşamsa iki avtomatlı əsgər qabağına qatdı məni, birbaş aparıb saldı başbilənin otağına. Məni otağa itələyib qapını örtdülər. İçəridə ikimiz idik: mənnən başbilən... Nə başını ağrıdım, başbilən məni görən kimi masanın arxasından qalxdı, gəlib durdu qənşərimdə. Yalan olmasın, başım onun qasığına güclə çatırdı, sövq-təbii başladım əsim-əsim əsməyə, tir-tir titrəməyə... Bir xeyli yuxarıdan-aşağı mənə baxıb lapdan hirslə:

– İt oğlu! Deyirsən bugün-sabah Hitler gəlib hamımızı qıracaq? – bağırması ilə qulağımın dibinin yanmağı bir oldu, top kimi yumbalanıb dəydim qapıya, qapı zərblə açıldı, bayırdakı əsgərlərdən biri məni havada tutub atdı içəri, qapını da arxamca bağladı. Bu elə suiçim saatda baş verdi ki, deyəsən, başbilən mənim bayıra uçmağımdan, təzədən içəri vızıldadılmağımdan xəbər tutmadı, çünki hələ də söyüb-söylənməyində idi. – Boyuna bax, çərənləməyinə bax bu satqının...

Amma düz-əməlli baş açmadım; qulağıma şillə dəydi, ya sifətimə yumruq... Ağız-burnumun qanı bir-birinə qarışmışdı... Bir-iki gündən sonra, tək-tənha yarıqaranlıq otaqda qalanda, quru çörəyi suya batırıb zorla dişləyəndə bildim ki, qabaq dişlərim yoxdu, yəqin gedib qarnıma...

Gəlin əlini dizinə vurub boğuq-boğuq inildədi:

– Ay əli qurusun o kamandir köpəyoğlunun... Mən külbaş sənin dişlərini mırıq görəndə elə bildim o anası mələr qalmış Hitlerlə tutaşmısan, əlbəyaxa olmusan o şeytannan... Sən qabağından yeyən deyilsən axı... El-aləm bilir bunu...

Əri:

– Ay qız, istəyirsən başıma gələnləri sənə yerli-yataqlı danışım, sözümü ağzımda qoyub fikrimi dağıtma, – deyəndə arvadı səsini xırp kəsdi və kişi davam elədi. – Müharibə çox mənəm-mənəm deyən oğlanları quzuya döndərib, adam qabağından da yeyir, dalından da... Nə isə, iki gün ötdü, qəfil qapı zərblə açılanda bildim ki, gələn mənə su, çörək gətirən deyil, hikkəli adamdı... Yanılmamışdım, komandir idi qapını təpiklə açan. İçəri girən kimi böğazımdan yapışıb yuxarı qaldırdı, ayaqlarım yerdən üzüldü. “Ağlın başına gəldi, it oğlu?!” – dedi boğuq, qəzəbli səslə, mən də boğula-boğula birtəhər başımı tərpədib: “Hə, gəldi,” – deyəndən sonra boğazımı buraxdı, ayaq üstə dura bilməyib yıxıldım, yaxşı ki, başım otağın az qala yarısını tutan yorğan-döşəksiz, dəmirləri paslanmış çarpayının tininə dəymədi. Elə çarpayıdan yapışıb ayağa durdum, yanıma gələn adam sakitləşib ehtinasızlıqla əlini yellədi. “Xeyri yoxdu, gecdi... – dedi. – Tribunala verəcəm səni...” – əri, bərayi-ehtiyat arvadının heç nə soruşmaması üçün özü tezbazar izahat verdi. – Tri-

bunal, yəni güllələtdirmək istəyirdi məni başbilən. Birdən-birə elə bil qeybdən mənə güc gəldi, özümü yığıb-yığmalayıb: “Məni tribunala verib nə qazanacaqsınız, - dedim, - buraxın məni evə, qayıdanda özünüz ağırlıqda qızıl gətirim sizə...” Deyəsən, hap-gopun dozasını çox eləmişdim, axı o pəzəvəng ağırlığında qızıla mənim necə gücüm çatardı? Şükür ki, önümdəki bunun fərqinə varmadı. Əlqərəz, day ucundan tutub ucuzluğa getməyəcəm, uzunçuluq eləyib baş ağrıtmağın mənası da yoxdu, çox söz-söhbət oldu aramızda, çox şillə-təpik yedim, əslində məni niyə evə buraxdılar, nə səbəbə buraxdılar, açıb-ağartmaq istəmirəm, dərin məsələlər sənlik deyil, çünki özümə də yuxu kimi gəlir hələ, elə bil hansı gözəgörünməz qüvvəsə mənə kömək eləyirdi, aramla yolumdakı düyünləri açırdı, nəhayətdə, min bir zülümlə, əzab-əziyyətlə gəlib evimizə yetişdim, ən azı, “böyük ana”mı gördüm, səni gördüm, qızlarımı gördüm, sonrasına Allah kərimdi... Minə dözən, min birə də tab gətirərsə, qayıtmağıma kömək eləyən sonrasını da düzüb qoşar. Yenə şükür olsun yerigöyü yaradana, siz pis dəymədiniz gözümə, sən də yaxşısan, elə balacalar da qıvraqdı. Amma “Böyük ana”mdan ağlım bir şey kəsmədi. ...Mənə lapdan dedi ki, elə ürəyimdən keçirdi ki, sən gələsən evimizə, gecə də mən öləm, səhər sən məni dəfn eləyəsən... Mən olmayanda ağrıyıb xəstələnirdi ki, arvad... e... “Böyük ana?” – kişi sualedici nəzərlərlə önündəkinə baxdı, o da gec cavab verdi, deyəsən, hələ də ərinin sözünü kəsməyə ürək eləmirdi.

– Yox... Maşalla, göz dəyməsin, sən gedəndən heç saçı da ağrımayıb arvadın... Həyətə də az-az çıxır ki, deyəm soyuq-zad dəyər, bütün günü öz otağındadı...

Kişi bir xeyli fikrə gedib dinmədi, sonra səsini yavaşıdıb aram-aram, ehtiyatla öləzik sükutun buzunu əritdi:

– Bir də dedi ki, müharibə qurtarannan sonra mənim oğlum olacaq... Yaxşı baxarsan o uşağa, qoymazsan tələf olsun...

Arvad ərinin sözlərindən baş açmasa da, solğun yanaqları allandı, baxışlarını yayındırsa da, marağını boğa bilmədi:

– Kimin oğlu olacaq, bizim?.. – səsi titrədi.

Kişi pıçıltıya keçib əlini yellədi:

– Əşi yox e, mən belə başa düşdüm ki, söhbət “Böyük ana”nın öz oğlundan gedir, əstəğfürüllah, deyəsən, “Böyük ana”nın oğlu olacaq e, “Böyük ana”nın... – kişi ozü də dediklərinə inanmırdı, sövq-təbii şəkk-şübhə ilə ətrafına göz gəzdirdi. – Ya mən düz qanmamışam eşitdiklərimi?

– Nə? Buy, başıma xeyir... – gözləri kəlləsinə çıxan gəlin yerində quruyub qaldı, handan-hana heyrətlə sağ əlini ağzına apardı. – Gəldiyin yollara ca-ca-canım qurban... – dili-dodağı əsə-əsə, güc-bəla ilə axır ki, sözünü tamamladı. – Heç... heç... heç... bilirsən nə danışırsan? Nə eşidirəm, xudaya?!.

Kişi sir-sifətini turşudub arvadına göz ağartdı:

– Yavaş danış... Müharibənin üzü qara olsun, həmişə özünü-sözünü bilən dağ kimi arvadın da ağlı yerindən oynayıb deyəsən... – qəhərləndi birdən-birə. – Yazıq anam...

Gəlin pıçıltıya keçdi:

– Keçən dəfə, müsəlmanın keçən dəfəsi də, üç-dörd ay bunnan əvvəl görürəm ki, arvad bizim sarışını alıb qucağına, saçlarını sığallayır qızın ki, ay mənim gözəl balam, mənim oğlumu sən gətirəcəksən dünyaya... Düzü, qulaqlarıma inanmadım, arvadın əl boyda uşağa elə deməyi mənə birtəhər gəldi, amma dinmədim, mən yazıq nəkarəyəm ki, cınqırımı çıxardıb cəddinə qurban olduğumun sözünün üstünə söz deyəm, nəsə soruşub-eləməyə cəsarətim çata?.. Sakitcə çayı arvadın qabağına qoyub otağınnan çıxdım... Düz eləməmişəm, sənə qurban? – deyib ərinə baxdı, ondan cavab cıxmadı-

ğını görüb davam elədi. – İndi, sən eşitdiyini dedin, mənim də yadıma həmən gün gördüyüm düşdü... Deyəsən arvad... – gəlin udqundu. – Qocalıb...

...Ertəsi "Böyük ana" yatağından qalxmadı...

...Ölmüşdü...

RİZVAN

...Lap iynənin ucu boyda bir ilişki, zərrəcə işıq... Bu arada öz-özümə o qədər "iynə-iynə" fikirləşdim ki, lap gerçəklədim; narahat oturmuşdum sükan arxasında, elə bil yumşaq yerimə tikan batmışdı. Onsuz da maşını yavaş sürürdüm, azca dikəlib, yerimdə qurcalanaraq sol əlimi yanıma çəkdim, yox, salamatlıq idi, altımda heç nə qalmamışdı, intəhası, elə dikələn dəmdə qeyri-ixtiyari ətrafa nəzər saldım, baxdım ki, dörd yol ayrıcına çatmışam, bu asfalt yol böyük, ucsuz-bucaqsız məzarlığı yarıya, iki yerə bölürdü, qəbiristanlığın ortasından keçirdi. Bu qəbiristanlıqda – dəqiq bilmirəm, ya sağdaydı, ya solda – mənim babamın, anamın atasının qəbri vardı, onun arvadının, yəni nənəmin qəbri vardı, ana tərəfdən tanıdığım, tanımadığım çox rəhmətə gedənin qəbri vardı... Deyilənə görə, bu qəbiristanlığın yaşı qədimlərə gedib çıxırdı. Hər halda, burdan saymazyana keçmək ən azı hörmətsizlikdi. Ancaq bilmirdim sağa gedim, yoxsa sola... Özümü çətinə salmayıb maşını yolun qırağında, elə sağ tərəfdəki iri darvazanın qabağında saxladım. Sol tərəfin də eynən sağdakı kimi iri dəmir darvazasının bir tayı açıqdı, amma bir yerə ki, asanlıqla getmək mümkündü, daha sağ qulağını sol əlinlə tutmağa, yolu keçib sola meyillənməyə nə hacət? Bəlkə bu özü də bir əlamətdi ki, hələlik müşküllüyə can atmayım? Qəbir selinin arasında hansısa yaxınımın məzarına rast gəlmək ağlıma sığmasa da, içəri girib uşaqlığımı xatırlaya-xatırlaya cürbəcür məzarlara baxmaq istədim. Onsuz da heç yana tələsmirdim, demək olar ki, mənzil başına çatmışdım. Maşından düşüb qəbiristanlığın darvazasına çatanda diksindim qəfil: "Əssəlamün-əleyküm"... – kəlməsindən. Necə olub ki, mən darvazanın qabağındakı üstü nazik döşəkçəli uzunsov kətildə əyləşib kölgələnən ağ fəsli, ağ saqqallı, yumrusifət qocanı görməmişəm? Yəqin uzaqdan qocanı darvazanın rəngi getmiş sütununa bənzətmişəm.

– Və əleyküməssalam... – ayaq saxlayıb qocanın salamını aldım.

– Otur... Bir hovur dincini al... – qoca önündəki kətildə yer göstərdi mənə. – Bayaqdan səni gözləyirəm.

– Məni? – təəccübləndim.

Qoca sözünü dəbbələdi:

– Hə. Tək-tənha darıxıram burda, deyirəm bir adam gələydi, darvazanın kölgəsində mənnən oturub kəlmə kəsəydi. Görürsən, oturacağın yer da hazırdı. Əyləş... – davam elədi. – Yoldan keçəni dindirib hal-əhval tutmaq savabdı, bəlkə nəyəsə ehtiyacı var, yəni, sən dincəl, nəfəsini dər, qoy mən yox yerdən savab yiyəsi olum, bil ki, mənə qazandırdığından sənin özünə də pay düşəcək...

Ehmalca kətildə, qoca ilə üz-üzə əyləşdim, mən məzarlığa baxırdım, qoca yola... Yox, düz demədim, çünki elə yolun o biri üzü də qəbiristanlıq idi.

Mən yol gələndə gün batmağa doğru gedirdi, havadan qaramat yağırdı, qapqara buludlar qızılıya çalan sapsarı günəş şüalarını ağuşuna alıb görünməz eləmişdi, elə bilirdim axşam düşür, tezliklə hər yanı zil-zülmət qaranlıq bürüyəcək, yolda da məni yağış, leysan haqlayacaq, lakin gəlib məzarlığa çatanacan get-gedə topa buludlar çəkildi, öz-özünə dağıldı, sanki yuxusu ərşə çəkilmiş günəş – əslində belə demək düzgün deyil, çünki yuxusu ərşə çəkilənin elə özü də yuxusu çəkilib gedən yerdəydi – "yatmağa getmək"

fikrindən daşınıb kəmali-ədəblə qayıdaraq yenidən taxtında oturdu, təzədən başladı göydən od ələməyə. Yaxşı ki, bir tayı açıq iri darvazanın kölgəsi bizi günəşdən qoruyurdu, qoymurdu gün başımızı deşsin. Amma, deyəsən, isti önümdəkinin vecinə deyildi; ağ uzunqol köynəyin üstündən nazik, oturduğu yerdə dizinə çatan qolsuz çuxa da geyinmişdi, köynəyin üstündən geyindiyinin qabağını düymələməsə də, yəqin beli-kürəyi tərin-suyun içindəydi.

– Xeyir ola buralarda, a bala? – yox, tərdən-istidən karıxana oxşamırdı, arın-arxayın oturub rahatca əllərini qoymuşdu dizlərinin üstünə, guya, bu dəqiqə dünya dağılsa da ona əsər eləməyəcəkdi.

– Qohumlarıma dəyməyə gedirəm... – uzaqdan başlamaq istəsəm də, nədənsə, birbaşa mətləb üstünə gəldim. – Deyəsən, mənim əsl anam da bu qəbiristanlıqda basdırılıb. Ancaq bilmirəm yolun o üzündəkindədi, ya bəridə... Fərqi yoxdu, onsuz da tapa bilməyəcəm, bu boyda məzarlıqda özbaşına qəbir tapmaq olar?.. – qocanı heyrətləndirmək istədim. – Özü də çoxdan burda dəfn olunub anam, mən dünyaya gəlməmiş neçə il qabaq...

Yüngülcə başını tərpətdi:

– Bilirəm...

– Nəyi?

– Sənin ananın burda basdırılmağını...

Bədənim əsdi, deyəsən, girmək istədiyim qıfıllı qapının açarı bu qocanın əlindəydi.

– Hardan bilirsən?

Dünyanın altından-üstündən agah bir təbəssümlə bic-bic gülümsündü:

– Balammməd deyib...

– Balammməd kimdi?

– Sənin Petro dayın...

– İnanmadım... Axı, Petro özü hardan bilə bilər bunu?

– Özün bil... İnanmırsan inanma... – etinasızlıqla əlini yellədi.

Gəmidə oturub gəmiçi ilə yabalaşmağa başlamaq qaşınmayan yerdən qan çıxarmaqdı, ilk dəfə gördüyüm adamın mənə borcu-filanı yoxdu, əvvəlcə müsahibimlə düz-əməlli tanış olub dil tapmaq lazımdı.

– Adın nədi sənin, ağsaqqal?

– Rizvan...

– Nəçisən, işinin-gücünün adı nədi? – deyəsən, işləri korladım, qəbiristanlığın qabağında boş-bekar oturub çənəsinin altına salmağa adam axtaran qoca bu yaşda nəçi ola bilərdi?

– Səhərdən axşamacan, axşamdan da səhərəcən bu darvazanın qabağında oturub gəlib-gedənə yol göstərirəm...

– Deməli, sən buralara bələdsən, bəlkə mənim anamın qəbrini tapa bilərik?

– Qəbri tapmaq vacibdimi? Bəlkə bu səni azdırmaq üçün qoyulan tələdi? – nəfəsini dərdi. – Özü də day bilərik niyə?.. – az aşın duzu deyilmiş, yaxasını çəkdi kənara. – O sənin işindi... Qismətində varsa, axtardığını mənsiz də tapacaqsan, yox, əgər yazılmayıbsa, mənim köməyimin də zərrəcə xeyri dəyməyəcək...

– Onda niyə boş-bekar burda otururam? Gedirəm əzizlərimin qəbrini axtarmağa, – öz aləmimdə qocaya acıq verdim. – Bəlkə bəxtim gətirdi, kiminsə, nəyinsə izinə düşdüm... – ürəyim yumşaldı, səsimi yavaşıtdım, durub getməyimə haqq qazandırmaq fikrindəydim. – Elə deyil, baba? Avara-av... – gec də olsa sözümü dilimin ucundan qaytardım. – Ee... Boş-boş oturmaqdan nə fayda, gəzən ayağa daş dəyər, deyiblər...

– Gedirsən, get... – qocanın tükü də tərpənmədi. – Nə deyirəm, amma əvvəlcə bir bu darvazadan keç...

– Nə darvaza... – qocasının sözünə ip atmayıb mızıldana-mızıldana qəbiristanlığın darvazasının qabağına gələrək içəri boylandığım dəm boğazım qurudu, nəfəsim kəsildi, gözümün qabağına qaranlıq çökdü – yox, lənət şeytana, qaranlıq çökmədi, əksinə, sarımtıl-qızılı günəş şüaları düşdü gözümə, bir anlığa ətrafı elə qızılı rəngdə gördüm, ağappaq kəfənlərin üstünə düşən qızılı rəngdə, ancaq sanki baxdığım, gördüyüm mənzərə ilə aramda gözəgörünməz, qəribə güzgü vardı, həmin güzgü baxdığımı yalnız olduğu kimi əks elətdirmirdi, həm də narın toz, bir də gur parıltı, işartı kimi göstərirdi darvazadan içərini – mən özüm də çökərdim, dizi üstə yıxılardım, iməkləyərdim, intəhası, hansı kənar qüvvəsə təpər verdi mənə, ayaq üstə qala bilməyim bir yana, sakitcə gəlib yerimdə əyləşdim, ağzımı açandasa, gördüm hələ tamam özümə gəlməmişəm, kəkələyirəm, məni yerimdə oturmağa vadar eləyən qüvvə əl-ayağıma təpər vermişdi, dil-dodağımsa təpimişdi. – Mən... mən... gö... gö... görənləri sən də görmüsən?

– Nəyi? – yüngülcə içini çəkməyindən anladım ki, hər şeyi bilir, lakin yenə də gördüklərimi yerli-yataqlı danışmağa çalışdım.

– Hər şey kəlləmayallaqdı, alt-üstdü... Başdaşılar yerin altındadı, qəbirlər yuxarıda... Özü də hamısı səliqəlidi, ağappaqdı, elə bil indicə kəfənləniblər... Amma yəqin həm məsafə uzaqdı, həm gözümə gün düşdü, günəşin şüaları kəfənlərin bəyaz rənginə qarışdı, düzünü desəm, deyəsən, özümü itirdiyimdən yaxşı görə bilmədim, – gözlərimi ovuşdura-ovuşdura özümə gəlirdim, hər halda, daha dilim topuq vurmurdu. – Bu məzarlıqdakı qəbirləri kim baş-ayaq çevirib?

– Mən sənə cavab verərəm, ancaq sən, deyəsən, bura niyə gəldiyini, nə axtardığını unutdun... Hər gördüyünə baş qoşsan, mətləbdən yayınarsan... – qoca sualımı cavabsız qoydu.

– Elədi... – mütiliklə təsdiqlədim. – Yəqin sən mənim başıma gələnlərdən, nə axtardığımdan agahsan, sənə hər şeyi yerli-yataqlı danışmağa ehtiyac yoxdu... Hərçənd heç mən özüm də düz-əməlli qanmıram ki, əslində nə axtarıram, nəyi axtarıram, bunu başa düşmək, üstəlik, sənə də anlatmaq üçün yuxularımı nəql eləməliyəm ki, bu da mümkün deyil...

– Niyə mümkün deyil, gizlindi?

– Çünki gördüyüm yuxuların çoxunu unutmuşam, yadımdan çıxıb... Bircə bunu xatırlayıram ki, mən dünyaya gələndən əvvəl rəhmətə getmiş anamın əksini görmək istəyirəm, axı o yazığın şəkli-zadı da qalmayıb... Ağızdan-ağıza kimlərdənsə nəm-nişanını eşitsəm, birtəhər beynimdə-şüurumda onun surətini yarada bilərəm, beləliklə də, yavaş-yavaş qırılan zənciri birləşdirməyə çalışaram... Hələ ki, heç bir tutacaq yer tapmamışam, hər hansı bir ilişki, dayaq nöqtəsi bir yana, ətrafımda baş verənlər də idarə olunmadan elə fırlanır ki, birbiri ilə əlaqələndirə bilmirəm, kələfin ucunu itirmişəm...

– Bəlkə sən özün özünü dolaşdırırsan? Əslində nə, nəyi harda, axtardığını bilmirsən... Surət, qəbir dediyin bu qədər önəmlidimi?

– Bilmirəm... Mənə elə gəlir ki, anamın surətini xəyalımda canlandıra bilsəm, ardınca başqa düyünlər də öz-özünə açılacaq, beləcə... beləcə... bütün ağlasığmaz olaylara cavab tapacam...

– Hansı olaylara?

– Axı belə çıxır ki, mənim anam mən dünyaya gələndən necə il qabaq ölüb, bu ağlasığmazlığı başqasına yox, lap özüm-özümə necə anladım, necə qandırım, necə başa salım? Hardadı çıxış yolu? Nə vaxtacan yuxularımın dalınca gedəcəm? O yuxular məni hara aparıb çıxaracaq? Surət əsas deyilsə, qəbri tapmaq vacib deyilsə, bəs, ən önəmli olan nədi, hardan, nədən başlayım, hə?!

– Sakitlikdən...
– Nə?..
– Səssizliyi dinlə...
– Bu yeddimərtəbəli sözlərlə Fatıya tuman olmur e, konkret sual verdim sənə... Nə sakitlik... De ki, soruşduğunun cavabı mənlik deyil, bilmirəm... Gəl ba...
– Çox-çox əzəmətli birisi də elə sənin kimi hövsələsiz idi... – müsahibim qımışa-qımışa sözümü kəsdi. – Allah mələklərə ona görə Adəmə təzim eləyin dedi ki, onu özünəbənzər yaratmışdı, həm də mələklərdən fərqli Adəmə ağıl, idrak, seçim haqqı vermişdi... İçlərindən ən qüdrətlisi, mən baş əymərəm, deyib təkəbbürlə coşdu...
– Amma sonra yaradan öz sözlərinə düzəliş eləyib: "mənim bənzərim yoxdu," – dedi. – Həm də məgər mələklərin ağlı yox idi?
– Hə?.. – Rizvan mənim dediklərimdən yox, deyəsən, nələrdənsə xəbərdar olduğumdan təəccüblənib sir-sifətini turşutdu. – Yox, demək olar ki, əksər mələklər buyruq quluydu, icraçılardı, yalnız əmr olunanı yerinə yetirirdilər... Buna görə əksər mələklər günahsızdı...
– Sən bununla nə demək istəyirsən, bunun mənə nə dəxli?
– Yəni, Allah verən ağlını işlət, yuxularının dalınca get, qabağına çıxan işarələrə diqqət yetir, heç kəsdən kömək gözləmə...
– Səndən də?
– Hə, elə məndən də... Yoxsa, hələ yol ayrıcında çox çaşıb qalacaqsan...
– Bəs neyləyim?
Qoca sol əlini yavaşca dizinə vurdu:
– Bilmirəm, qərarı sən özün verməlisən...
Məzarlığın darvazasına işarə elədim:
– İçəri girim?
– Özün bil, dedim axı, sən öz yolunu özün seçməlisən... Day heç nə sənə hazır göndərilməyəcək...
Qocaya əl verib görüşmək istədim, baxdım ki, kişinin qolları yoxa çıxıb, getgedə gözümün qabağındaca bəyazlaşaraq yavaş-yavaş "əriyirdi", qeyri-ixtiyari, sövq-təbii qışqırmaq, çığırmaq istədim, ağzımı yumub-açdım, açıb-yumdum, səsim çıxmadı. Anlamırdım ki, səsim çıxsa nə deyəcəm, nə demək istəyirəm, gücüm yalnız qocanın oturduğu səmtdəki boşluğa – qocanın əyləşdiyi üstü nazik döşəkçəli kətil də yoxa çıxmışdı – baxmağa çatırdı, boşluqdan o tərəfdəki məzarlığın divarını da görmürdüm, sezə bilmirdim...
Birdən-birə canıma qorxu doldu; bəlkə önümdəkindən sonra – artıq qarşımda deyildi – "silinmək" növbəsi mənimdi? Görəsən, hardan başlayacaqdılar məni "silməyə", hardan yox olacaqdım? Aşağıdan, ya yuxarıdan, başımdan, yoxsa ayaqlarımdan? Bəlkə, elə Rizvan kimi, əllərimdən? Qeyri-ixtiyari çəkinə-çəkinə əllərimə baxdım. Yerindəydi... Üstəlik, qollarım da çiyinlərimdən sallanırdı... Bu dəfə qalxıb tələsik maşına doğru getmədim, əməlli-başlı qaçdım, hövllə götürüldüm, qəfil duranda altımdakı kətil aşdı, döşəkçə də düşdü yerə...

4

Taygöz Əşrəfin boz eşşəyini sol arxa təkəri ləngərləyən taxta arabaya qoşdular, "Böyük ana"nı da elə həyətdəcə yuyub, kəfənləyib cənazəsini arabaya qoydular. Cəbhədən qayıdan balacaboy çox qanlar, çox yaralılar, çox çan üstə olanlar, çox ölülər görmüşdü, elə bilirdi ki, çoxları kimi elə onun özü üçün də ölüm adiləşib. Amma "Böyük ana"nın itkisi yaman yer eləmişdi ona,

boğazındakı qəhər hülqumunda düyünlənmişdi, nə aşağı yuvarlanırdı, nə göz yaşı kimi çıxırdı. Axşam "Böyük ana"nın dediklərinə fikir verib dərinə getməmişdi, indisə həmin söhbəti, əslində söhbətdən daha çox vəsiyyətə bənzəyən kəlmələri beynində-şüurunda yerli-yataqlı canlandıraraq hər bir sözü yenidən kəlməbəkəlmə eşitmək istəsə də, yadına qırıq-qırıq hissələr, sözlər, səslər, kəlmələr düşürdü:

"Sən hələ çox yaşayacaqsan, sənin ömrün qabaqdadı".

"Qorxma, səni bura göndərən özbaşına, özxoşuna göndərməyib, sən qayıdanacan, hər şey yoluna düşəcək".

"Məni bütün qohum-əqrəbadan kənarda basdırarsan, gözdən-könüldən uzaqda"...

...Məzarlıqda, bəndələrin məhşərəcən uyuduğu məkanda gözdən-könüldən uzaq yer... Axı, nə deməkdi bu? "Niyə?" – niyəsini indi öz-özündən soruşurdu, dünən danışandan xəbər almaq ağlına gəlməmişdi; "Böyük ana"nın öləcəyi haqqında dediklərini nə ciddiyə almışdı, nə də ağlına sığışdırmışdı. Nədənsə, həmişə ona elə gəlmişdi ki, "Böyük ana" hələ çox uzun yaşayacaq. Amma bu heç... Ölüm haqdı, bəndənin ölümünə heyifsilənmək, heyrətlənmək başdanmayıflıqdı, kafirlikdi... Özü də düzü-dünyanı qan-qada, ölüm-itim bürüyəndə... Bəs, qohum-əqrabadan kənarda basdırılmaq istəyi nədəndi, nəydi, hardan qaynaqlanırdı, mənbəyi hardaydı? Kimdən küsmüşdü, kimdən incimişdi "Böyük ana", kim onun xətrinə dəymişdi, kim onu incitməyə ürək eləyərdi, kimin buna cürəti çatardı? Ya başqa mətləblər gizlənirdi bu vəsiyyətin içində, arxasında?

Üzünü camaata tutub: "Mənnən heç kəs gəlməsin qəbiristanlığa, elə Əşrəf dayı ilə gedəcəm, – qabaqdangəlmişlik elədi. – Qəbirqazanlarla Molla Əhməd məni orda gözləyəcək..." – dedi, amma onsuz da arvadların dəfnə getməyi yasaqdı, qalan beş-altı qoca-ahıl, müharibədən yarımcan qayıdan axsaq, şil də pay-piyada məzarlığa gedib çıxa bilməzdi.

Onun əndişəsi həm də dedi-qoduçulardan yana idi əslində, anlamayan, qanmayan ağzıgöyçəklər qaşınmayan yerdən qan çıxarıb aləmə car çəkərdilər ki, balam, qohum-qardaşı bir yana, bu arvad nədən öz doğmaca ərinin yanında dəfn olunmaq istəməyib, ya bu işi rəhmətə gedənin iradəsindən kənar görürlər? İndi gəl, hər sözgəzdirənin yanında bir molla tut, olanı-olmazı el-aləmə anlatmaqdan ötrü qollarını çırmala. Onsuz da zəhmətin hədər gedəcək, istəyinə çatmayacaqsan; istəyirsən yüz kərə təkrarla, xeyri yoxdu, adamlar həqiqətə deyil, eşitmək istədiklərinə inanacaqlar... Burası danılmazdı ki, həqiqət deyilən bir şey vardısa, heç balacaboyun özü də həmin həqiqətdən xəbərsizdi, özünün düz-əməlli – başa düşmədiyini başqalarına necə qandıra bilərdi?

Molla Əhməd də heç, molla arif adamdı, hər şeyin yerini hamıdan yaxşı biləndi, bəlkə elə buna görə eşşəyin yüyənini yavaşca darta-darta – yüyəni əlində boş saxlamışdı, dartıb-eləmirdi, ləngərli arabaya qoşulmuş heyvan özü aramla, itaətlə onun ardınca gəlirdi, arabanın üstündə "Böyük ana"nın yuyulub kəfənlənmiş meyiti içinə qədim xalça döşənmiş mafədəydi, mafənin üstü qara kəlağayı ilə tarım örtülmüşdü, "Böyük ana" pəncərəsiz, qaranlıq "otağ"ında son mənzilinə yol almışdı, arxada da Taygöz Əşrəf ayaqlarını sürüyürdü – min bir fikir-xəyal içində əzizini basdırmağa gedənin atasının qorxudan öldüyü tut-hatut dövründə də, nədənsə, mollaya dəyib-toxunan olmamışdı. Balacaboya oxuyub-yazmağı, "Quran"ı öyrətmişdi Molla Əhməd. Balacaboya elə gəlirdi ki, bəndələrdən gizli saxladığı sirrini, gizlinini ürəklə, çəkinmədəm Molla Əhmədə aça bilər, hərçənd hələ ki, belə bir açıq-saçıqlığa, etirafa ehtiyac olmamışdı, əksinə, haçansa molla özü ona hamıdan gizli mətləblərini danışmışdı, doğrudu, bəzi gizlinlərin açılmasına, aşkarlanmasına baiskar, səbəbkar da elə

keçmiş şagirdin özü olmuşdu, müridin sorğu-sualından sonra molla inzivada başına gələni elə təklikdə də nəql eləmişdi ona. “Əhməd əmi, sən bir il xəlvətə çəkildin, onu bəlkə də başa düşdüm, üstündən bir həftə keçdi, qırx gün də bir ilin üstünə gəldi... Bax, o qırx günü anlat mənə, özün deyirdin ki, mən sənin ən gözüaçıq, ən sevimli şagirdin olmuşam, ustad-şagird yox, ata-bala olmuşuq biz, həqiqətən belədisə, adam öz balasından sirr saxlamaz”, – günlərin birində keçmiş şagirdi imkan tapıb, ustadı hamının gözündən yayındırıb divara dirəmişdi, burası vardı ki, əslində nə ustadın keçmişi olur, nə də şagirdin, ustad həmişə ustaddı, şagird də ömürlük öyrənən, gözü, fikri daima müəlliminin ağzında olan... Yəni, əsl ustalıq, ustadlıq anadangəlmədi, oxumaqla, öyrənməklə nə Molla Pənah olmaq mümkündü, nə də Molla Əhməd... Cünki öyrənməkdən ötrü oxuduqlarını da hansısa ikiayaqlı bəndələr qələmə alıb, bəndələrin yazdığı, ərsəyə gətirdiyi, yaratdığısa, qüsurdan xali ola bilməz, belə çıxır ki, əsl ustadlığın yolu təkcə kitablardan keçmir...

“Yaman bicsən, – Molla Əhməd qımışıb müqavimətsiz təslim olmuşdu. – Fəqət, hiylə işlətməyinə gərək yoxdu, sakitcə, düzü-düzünə soruşsaydın da hər şeyi sənə danışacaqdım, sənə özüm kimi inanıram, ay cırtdan, – bu dəfə molla həlim təbəssümlə onun üzünə baxaraq məzələnmişdi, – forslanma, sənə ondan ötrü inanıram ki, elə bir sirr-mirr yoxdu arada, deməli... – molla sözlərinə azca ara vermişdi, ya söyləcəklərini qiymətə mindirirdi, ya da şagirdinin səbrini yoxlayırdı. Sözünün ardını dəyişib kəsə yola üz tutmuşdu. – Qısası, mən çiynimə qoyulan yükü qaldıra bilmədim. Yalvar-yaxar aldığımı, qazandığımı elə yalvar-yaxar da geri qaytardım”.

“Xırdala, Əhməd əmi, bir şey qanmadım”.

“Mən hələ mətləbi açmamışam ki, sən nəsə qanasan... Məsələ belədi, mən bir il xəlvətə çəkildim, bəlkə də heç bir bəndənin yüksəlmədiyi bir kəramət sahibi olmağı dilədim Allahdan. Yəqin bu mənim ən böyük səhvim idi”, – molla köksünü ötürdü, sanki zarafata salsa da, sirrini şagirdinə deməyə tərəddüd eləyirdi, önündəkinə inanıb-inanmadığına görə yox, bilmirdi müridi onun dediklərini anlamağa hazırdı, ya eşitdiklərindən çaş-baş qalıb gic-gicələk olacaq...

“Allah sənin diləyini yerinə yetirmədi?” – şagirdsə onun uzun-uzadı susmağına imkan vermədi.

“Yetirdi, amma mən o kəramətlə yer üzündə yaşaya bilməyəcəyimi bir həftəyə başa düşüb təzədən inzivaya çəkildim, qırx gün gecə-gündüz tanrıya yalvardım ki, alsın mənə verdiyini...”.

“Sənə nə verilmişdi ki, molla əmi?”

“Mən adamların içindəki xisləti görürdüm”.

“Necə yəni, Əhməd əmi, nə təhər olur o?”

“Yəni, adamların xisləti üzünə çıxırdı, adamları canavar sifətində, ayı, dəvə, at, eşşək, lap böcək, milcək, qarışqa, daş, ağac sifətində görürdüm...”

“Milcəyin, qarışqanın, daşın, ağacın da sifəti olur?” – mollanın dediyindən çox cücülərin, daşın-ağacın haqqında eşitdiyinə heyrətlənmişdi balacaboy.

“Yer üzündə hamının, hər şeyin sifəti olur, ay cırtdanbala, əsil sifəti görüb - görməməksə, başqa məsələdi...”

“Allah sənə bəxş elədiyini sənnən aldı?”

“Hə, aldı, cünki mən o yükü çəkə bilmədim... Nəyə gülürsən, ay cüvəllağı, yoxsa inanmırsan dediklərimə?”

“Yox, əstəğfürüllah, inanıram, molla əmi, amma...”.

“Əmması nədədi?”

“Deyirəm, görəsən, o kəramətini itirməsəydin, indi məni hansı sifətdə, hansı heyvan cildində görərdin, hə?”

"Yəqin ki, tülkü sifətində, əmma görüb-eşidib-öyrəşdiyimiz tülkü yox, qeyri-adi, qəzəbli tülkü sifətində, qaplanabənzər tülkü sifətində... Yaxşı, qaşqabağını sallama, zarafat eləyirəm..."

Hardan yadına düşdü Molla Əhmədin nəql elədiyi xislətin sifətdə, üzdə, çöhrədə görünmə məsələsi? Özünə də aydın deyildi, burası vardı ki, binadan beynə, ürəyə hökm vermək olmur: filan əhvalatları, filankəsləri düşünmə!.. Düşünməməyə, fikirləşməməyə çalışsan, bütün güc-qüvvəni toplayıb ha cəhd göstərsən, yenə özünlə bacarmayacaqsan, meymun qəsdən yadına düşəcək... Deyəsən, elə indi onu məzarlıqda gözləyən Molla Əhməd özü də az aşın duzu deyildi, əsl meymunoynadan idi.

Heyif ki, o vaxt əsl sual balacaboyun yadından çıxmışdı; molla qeyri-adi kəramət sahibi olanda özünü hansı cilddə görmüşdü? Yəqin hazırcavab mollanın bu dolaşıq sorğuya da cavabı hazırdı: Mənim yolumu qəsdən daşlığa salma, ay cırtdan, bilirsən axı, adam özünü, öz sifətini görə bilmir. Bu yerdə balacaboyun "sarsıdıcı zərbəsi" mollanı səntirlətməli idi; bəs güzgüyə baxanda?..

Kölgəsinə göz yetirə-yetirə ahəstəcə addımlayan balacaboya elə gəlirdi ki, Molla Əhməd təkcə sonluqda deyil, həmin söhbətin əvvəlindən axırınacan onunla məzələnib, ümumiyyətlə, mollanın ona öyrətdiklərinin, danışdıqlarının içində həmişə yekə bir zarafat, məzəli bir oyun vardı, o qədər yekə ki, həmin zatafatı, məsxərəni, lağlağını çıxsan, yerində, yerdə heç nə qalmazdı. Mollanın haçan ciddi danışdığını, nə vaxt zarafata saldığını ayırd eləmək müşküldü. Doğru deyiblər ki, elə dünyanın işi də oyundu, məsxərədi, belə olmasaydı, Taygöz Əşrəf aranı xəlvət görüb tülkü bəylik eləyərək arabanın qırağında, mafənin yanında oturaraq bikef-bikef ayaqlarını sallamazdı, lakin burda zarafatlıq bir şey də yoxdu, yazıq yorulmuşdu yəqin. Qəbiristanlığa xeyli vardı, bayaqdan dalda ayaqlarını sürüyənin elə bir can-cəsədi də yox idi, taqətdən düşüb arabada oturmağı da qəbahət sayılmamalıydı, elə qəfil çönüb arxaya baxan adamın da ürəyindən Taygöz Əşrəfin yanında oturmaq keçdi, di gəl, ən azı, arabanı, mafəni aparana, arabaya bağlanana yol göstərmək gərəkdi. Həm də araba amanabənddi, ikisinin – Əşrəflə onun – üstəlik, "Böyük ana"nın – ağırlığına tab gətirməyə bilərdi. Bir də ki, balacaboy canını dişinə sıxıb yorğunluğun, əzginliyin öhdəsindən gələrək bu dünyada "Böyük ana"ya son borcunu layiqincə verməli idi. Üzü bəridə isə "Böyük ana"nın təxminən min arşınlıq yolu, haqq-hesabı qalmışdı...

BÖYÜKXANIM

Böyüyüb rayon mərkəzinə bitişmiş qəsəbədə beşmərtəbəli binalar yan-yana idi. Rayon, kənd yerində çoxmərtəbəli binalar görəndə məni qaşınma tuturdu, qəsəbəninki, kəndinki bağ-bağatlı həyət evləridi; mən balaca olanda bu evlərin yanında yekə bir zavod vardı ki, rayonun, yalan olmasın, yarısı həmin zavodda işləyirdi, bu evləri də zavodun işçiləri üçün tikmişdilər, zavod çoxdan bağlanıb tar-mar olmuşdu, daşı daş üstə qalmamışdı, doğrudan-doğruya lələ köçmüşdü, yurdusa hələ ki, yerindəydi; evlər, binalar öz sakinlərinə xidmətdəydi, bu binalardakı mənzillərin birində mənim balaca xalam olurdu, onun ərinə də burda mənzil vermişdilər, cəmi bircə dəfə olmuşdum kiçik xalamgildə, heç mənzilin mərtəbəsini də xatırlamırdım, lakin həmin mənzili tapmaq şəhərdəkindən, böyük xalamgilin mənzilini tapmaqdan – hərçənd o mənzili uzaqdan-uzağa təxminən tapsam da, ayaq basa bilməmişdim – asan olmalıydı, birincisi, ərazi kiçikdi, yeddi-səkkiz beşmərtəbəli bina idi, ikincisi, çoxdandı görməsəm də – yəqin ki, görsəydim də tanımazdım – nəinki xalamın, onun ərinin, oğlanlarının da adı yadımdadı...

Day yerə-göyə etibarım qalmasa da bu gün neçənci dəfəydi ki, hava qaralırdı. Lapdan ağlıma gəldi ki, işdi-şayəd, kiçik xalamgilin mənzilini tapmasam, yaxud eşitsəm ki, balaca xalamgil burdan köçüblər, onda neyləyəcəm? Belə olsa, rayon mərkəzinə gedəydim gərək, orda dayım yaşayırdı. Rəhmətlik babamın evində... Amma ora getməyə həvəsim yoxdu, – bu "həvəs" sözünün içində çox mətləblər gizlənmişdi ki, onları açıb-ağartmaq istəmirəm, – mən böyük xalamı görməliydim, Vəfa da dedi ki, anası kiçik xalamgildədi. Ancaq hər nə baş verir-versin, nə olur -olsun, mən özxoşuna, özbaşıma heç yerə getməyəcəkdim, hara lazımdısa, yol özü məni aparacaqdı. Əgər yol aparacaqdısa, deməli, mənim bələdçiyə-filana ehtiyacım yoxdu, kiçik xalamın da evini özüm tapa bilərdim...

Sınayaq... Əvvəlcə binaları sayaq... Yeddi beşmərtəbəli bina idi, qarmaqarışıq, səliqəsiz tikilmişdi binalar, biri düz, biri köndələn, biri üzü qibləyə... Yeddi binadan hansında idi xalamgilin mənzili? Hap-gop öz yerində, əlbəttə ki, mən boyumdan yuxarı tulanmaq fikrinə düşmüşdüm, tərs kimi, bayırda bir kişi xeylağı – lap qadın olsun – gözə dəymirdi. Biz görmüşük yay axşamlarında hay-haray küçələri bürüyər, ağız deyəni qulaq eşitməz; bəs, bu ölüm sükutu nəydi? Böyüklər cəhənnəm, bəs, bu məhəllənin yeniyetmələri, uşaqları, balacaları hardadı? Yay tətilidi, məktəb vaxtı da deyil ki, fikirləşəsən, uşaqlar öz xudmani mənzilinə, xarabasına çəkilib dərslərini hazırlayırlar. Yeri gəlmişkən, böyükləri xatırladım, kiçik xalamın adı gəldi dilimin ucuna, qeyri-ixtiyari yaxınlaşdığım üzü qibləyə olan binanın qabağında yuxarıdan sallanan naqilə deyəsən, necə gəldi pərçimlənən elektrik lampasının öləziyən işığına sığınıb – yarıqaranlıq olduğundan o naqilin hara bərkidildiyini ayırd eləyə bilmədim, mənə elə gəldi ki, közərən lampanın naqili birbaşa göyün yeddinci qatından üzüaşağı gəlir, bir ucu lap yuxarı qata bağlanıb, bəlkə elə ona görə bəri ucdakı lampanın naqilə necə birləşdiyinin əhəmiyyəti yoxdu, lampa naqilə qara-göy yapışdırıcı lentlə pərcimlənməyib əslində, binayi-qədimdən bitişikdi – orta blokun önündə ayaq saxlayıb bağırdım:

– Böyükxanım xala!.. – mən xalamı səsləmirdim, haraylamırdım, səsimi başıma atıb qışqırırdım, bağırdıqca, səsim əks-səda verdikcə vahimələnirdim, birdən-birə hardansa canıma yayılan qorxudan qurtulmaqdan ötrü səsimə güc verirdim. – Böyükxanım xala!!!

Qaranlıq blokdan orta boylu, arıq bir qadın çıxıb lampanın altında mənimlə üz-üzə dayandı:

– Nə var, nolub, kimdi qıy-qışqırıq salıb məni çağıran?

Baxdım ki, qənşərimdəki yaşıl xalatlı, sifəti qırışmış, bənizi solğun qadın mənim xalamdı.

– Mənəm e, ay xala... – adımı demək istədim, dilim dolaşdı, topuq çaldı... öz adım yadımdan çıxdı. Xalamı o saat tanımağıma isə mat-məəttəl qaldım.

Önümdəki bir anlığa məni diqqətlə süzüb boynuma atılandı:

– Ay mənim bədbəxt balam! Bədbəxt bacımın bədbəxt balası!.. Sən də yazıq oldun, mənim balam... Bəxtiqara bacımın goru od tutub yanır yəqin... – boğula-boğula deyən dəmdə sinəm nəmləndi, xalamın, kiçik xalamın, Böyükxanım xalamın göz yaşları sel kimi axırdı.

Ola bilər sözgəlişi deyirdi, yoxsa "yazıq" sözünü heç özümə yaraşdırmadım, ata-anası ölənlər yazıqdısa, deməli, cəmi məxluqat fağırlığa məhkumdu, di gəl, ellə gələn qada-bəla toy-bayramdısa, bunu ayrı-ayrı fərdlərə şamil eləmək ən azı insafsızlıqdı. Anamın, rəhmətlik anamın – niyə atamın yox, məhz anamın – qəbri nə səbəbə od tutub yanmalıdı, anlamadım. Nə isə, zənən xeylağına baş qoşub yeddimərtəbəli kəlamlarının başına ip atmaq xərifləməkdi. Yaxşısı budu, əlimdən bərk-bərk yapışıb – guya onu qoyub

qaçacaqdım – geri qayıdanın, pillələri ehmal-ehmal, səssiz addımlarla çıxanın könlünə dəyməyim.

– Darıxdım evdə, qonşuya gedirdim, –pilləkəni qalxa-qalxa dönüb izahat verdi, – gördüm blokun qabağında yekə bir kişi qışqırıb məni çağırır... Ağlıma gəlmədi ki, sənsən, qorxutdun məni, ay saqqalın ağarsın sənin... – xalam geçikmişdi, üzüm təraş olunmasaydı, saqqalımda ağ tüklər bəs deyincəydi.

– Neçənci mərtəbədədi mənziliniz? – soruşdum.

– Nə tez yadından çıxıb?.. – elə heyrətləndi ki, guya, günüm bunlarda keçmişdi. – Lap yuxarıda... Beşdə...

Açarı qıfıla salanda dalağım sancdı:

– Evdə heç kəs yoxdu?

Qapını geniş açıb məni irəli buraxdı:

– Yoxdu... Keç... Xoş gəlmisən... – əl atıb düyməni basaraq işığı yandırdı. – Həmişə sən gələsən... Sənə qurban olum... – pıçıltıya keçdi nədənsə.

Mən əyilib çəkmələrimi çıxartdım, qapının ağzındakı üstü qotazlı başmaqları geyindim. Dikələndə bir də qucaqladı məni, amma bu dəfə ağlamadı...

...Çay süfrəsi arxasında söhbətə uzaqdan başladım, xalamı bəri başdan ürkütmək düzgün olmazdı. Yazıq çox dil-ağız elədi ki, xörək gətirim, hazır dolmam var, yarpaq dolması, istəmədim, qəribədi ki, bu gün dilimə yemək dəyməsə də, aç deyildim, ümumiyyətlə, aclıq nə olduğunu bilmirdim demək azdı, əstəğfürülah, yemək adı gələndə qeyri-ixtiyari çimkinirdim.

– Rabil kişi hardadı? – ərini soruşdum nəzakət xatirinə.

– Şəhər yolunun qırağında qarpız satır... Bəlkə də yol gələndə fikir versəydin, görərdin... Amma görsəydin də çətin tanıyardın. Çox dəyişib... Gecə-gündüz bilmir o yetim də.... Bir parça çörəyin girincidi. Neçə gündü ki, evə gəlmirdi, bu gün bir-iki saatlığa gəldi, tez-tələsik çimdi, əynini dəyişdi, bir qismət çörək yeyib qaçdı işinin başına... – ah çəkdi yüngülcə. – Neynəsin, malı yiyəsiz qoya bilməz axı... İstəyirsən mobil telefonuna zəng vurum gəlsin? – burasını ürkək-ürkək, ürəksiz dedi, sanki mənim razılaşacağımdan çəkinirdi.

– Yox, ehtiyac yoxdu... Qoy işinnən-gücünnən ayrılmasın... Bəs, uşaqlar hardadı, oğlanlarını deyirəm...

– Eh... Onlar uşaqdı bəyəm, evləniblər, ev-eşik olublar... Biz ildə, əyyamda bir kərə yadlarına düşsək, şükürlüdü... Onları da qınamalı deyil, bu zəmanədə ailə dolandırmaq xəlbirlə su gətirməkdən çətindi... Neynək...

– Bəs... bəs, xalam hanı? O gün Vəfanı gördüm, dedi ki, anası sizdədi...

– Bizdəydi, getdi dayıngilə...

– Niyə, aranız dəyib, nədi?

– Nə danışırsan, Allah eləməsin... Kim qıyar o dilsiz-ağızsız bacıma? Nər kimi cavan balasın itirib e, o... Day bu dünya ilə alış-verişi qalmayıb, dindirməsən, danışmaz... Qurban olum ona... İntəhası, dayından sonra dayının arvadı gəldi bizə ki, bəs, tək-tənha qalmışam, üşənirəm, qoy bacın beş-altı gün bizdə qalsın... Fağırlaşmağına baxma, yenə kölgədi, hənirdi, həyandı...

– Dayımdan sonra? – boğazımı arıtladım. – Da... dayım da... ölüb?

– Sən də kəkələyirsən həyəcan keçirəndə... Arvadlı-kişili, bizimkilərdə nəsilikcə adətdi, xəstəlikdi bu... – sanki elə məni həyəcanlandırmaqdan ötrü sualıma gec cavab verdi. – Yox, iraq olsun, qulaqlara qurğuşun... – söhbət Böyükxanım xalamın özündən gedirmiş kimi, tez-tələsik əllərini qulaqlarına aparıb kədərlə gülümsündü. – Tutublar sənin dayını...

Hər halda, yəqin ki, türmədə olmaq ölməkdən yaxşıymış, yoxsa xalamın sifətindəki “qara buludu” sarımtıla bənzər nur üstələməzdi.

– Tutublar?.. Niyə?.. Fağırın biri idi axı o... Yadındadı, babam həmişə acıqlanardı dayıma ki, ay mənnən olub mənə oxşamayan, evdə xoruzsan, bayırda fərə...

– Guya, o zəhrimardan satırmış, qaradan...

– Qara nədi?

– Mən nə bilim... Nəşədi, tiryəkdi, nə zəhrimardı...

– Ooo!.. Sağ ol, dayday... – sövq-təbii dedim. – Hardan ağlına gəlib belə şeylər, dayım hara, tiryək satmaq hara?..

– Sənin dayının bir tamahkar arvadı var ki, iki dünyanı qoyasan qabağına, yenə gözü doymaz... İndi də qulyabanı kimi tək qalıb, gecə-gündüz başına döyür... Amma nə faydası...

– Axı, mən biləni, onların bir oğlu da vardı...

– Hə... Mənim xalamın nəvəsini oğulluğa götürmüşdülər... Elə uşaq götürərlər? Yekə kişi idi o gədə dayıngil onu götürəndə... Əsl ata-anasını da tanıyırdı... Uşağın neçə kərə gecələr zülüm-zülüm ağlamağını özüm eşitmişəm ki, bəs, əsl papamı istiyirəm, əsl mamamı istiyirəm...

– Bəs, necə oldu o yekə kişi?

– Necə olacaq, böyüdü, getdi Rusyətə. Çörək dalınca... Deyəsən, orda da bir matışkeynən evlənib...

– İndi dayım o yaşda türmədə yatır?

– Hə... Məhkəməsi olmuyub hələ... Vəkil öyrədir ki, denən mən narkotk alverçisi deyiləm, özüm istifadə eləyirəm, onda cəzan yüngülləşər... Ancaq paqonlular da çörəyi qulağına yemir ki... Yenə təvəkkül Allaha, görək nə olur... Mən bilirdim axırı pis olacaq... Dayına da açıq demişdim...

– Yəni, sən bilirdin ki, dayım narkotik alveri eləyir?

– Yox, ətövbə!.. – xalam oturduğu yerdəcə səntirlədi. – Mən onu demirəm... Dayın gərək babanın evini dağıtmayaydı...

– Anlamadım, nə baş verib?

– Heç nə, dayın babanın evini sökdü ki, yerində onnan da yekəsini tikəcək... Mən ona dedim bizim ata evinə əl vurmaq olmaz, qulaq asmadı mənə... Hələ də başladığı evi tikib qurtarmıyıb... Allah qapısını açsın, o evin sökülməyi ilə getdi hamımızın ruzu-bərəkəti... Adama deyərlər, bir ərsiz, bir arvad, bir də özgənin belinnən gələn yetimçə, neynirsiz toyxana boyda yekə evi, hə? – xalam gözlərini üzümə dikib məndən cavab gözləsə də, dinmədim, araya sükut çökdü, mən baxışlarımı yayındıranda özü söhbəti dəyişdi. – Sənin işlərin nə təhərdi?

– Babat...

– Saçların ağarıb...

– Qocalıram... – gülümsündüm.

– Yox, – razılaşmadı, – sənin qocalmağına hələ bir igidin ömrüycə qalıb... – dedi və yaxşı ki, ucundan tutub ucuzluğa getmədi.

– Ay xala... – sözümü yarıda kəsəndə hay verib diqqət kəsildi.

– Nədi, başına dönüm?

– Axı babamın bir əmisi arvadı da vardı, seyid arvad...

– O hardan yadına düşdü?

– Elə-belə... Lapdan xatırladım...

– Mən o arvadı görməmişəm. Mən doğulanda ölmüşdü o arvad... Amma deyirlər, mənim adımı o arvadın şərəfinə qoyublar... Görmürsən o arvadın adına oxşardı mənim adım ...

– Bəs, o arvadın əsl adını niyə verməyiblər sənə?

– Nə bilim... – çiyinlərini çəkdi. – Yəqin qorxublar...

– Nədən qorxublar?

– Bilmirəm, sözgəlişi dedim...
– O arvad haqqında başqa nə bilirsən?
– Heç nə... Mən doğulanda o, neçə il qabaq ölmüşdü... – təkrarladı.
– Qəbri hardadı?
– Nə bilim... Yəqin rayon qəbiristanlığında olar...
– Tapa bilərsən?
– Ay rəhmətliyin nəvəsi, bu saat mən heç öz dədəmin qəbrini axtarıb tapa bilmərəm... – əlini əlimin üstünə qoydu. – Dayın babanı nənənin yanında basdırmağa qoymadı axı... Kişi ikinci kərə evləndiyinə görə... Bir evin içində yaşasalar da, baban ikinci kərə evlənənnən sonra ölənəcən danışdırmadı babanı dayın... Hikkəsinnən baban öləndə də hardasa lap kənarda, gözdən-könüldən uzaqda, məzarlığın qırağında dəfn elətdirdi kişini... Bir yannan baxanda, babanı da qınamaq olmazdı, elə qoca vaxtında lazımdı kişiyə arvad, arvadın elədiyini gəlin, qız eləyə bilməz, heç vədə eləyə bilməz... – özü öz sözünə qüvvət verdi. – Əslində, dayın düz iş görmədi, elə baban basdırılan günün ertəsi kişinin evləndiyi arvadı qovdu evdən ki, rədd ol, bir də gözüm səni görməsin, o yazıq da dinməz-söyləməz, sakitcə yığışıb getdi öz qızıgilə ki, neynək, siz sağ, mən salamat... Pis arvad deyildi rəhmətlik... – əlini əlimdən çəkərək çənəsinin altına dirədi. – Bura bax, sənin ölülərlə nə alış-verişin? Bu saat dirilər canını qoymağa yer tapmır...
Xalamın sualını qulaqardına vurub davam elədim:
– Şəkli-zadı var görəsən babamın əmisi arvadının? Bəlkə hardasa fotosu-filanı qalıb?
– Ağlım kəsmir... Hər halda, şəkli qalsaydı, mən görərdim...
– Bəs, kimdənsə onun haqqında nələrsə eşitmisən?
– Belə... – anicə fikrə getdi. – Dumanlı... İndi yadıma sala bilmirəm. Nədənsə, bizim evdə o arvaddan az danışıblar...
– Niyə? Babam keçmişdən danışmağı xoşlayardı axı...
Çiyinlərini çəkdi:
– Mən nə bilim... – duruxdu qəfilcə. – Sənə nə olub? Məni nə sorğu-suala tutmusan? – yenə diqqətlə sifətimə baxdı. Bu dəfə şübhəli-şübhəli... – Rəng-ruhun da ağappaqdı e... Naxoşlamamısan ki?
– Əşi, xəstə-zad deyiləm mən, elə-belə soruşdum... – zarafata saldım. – Olmaz ki, ildə, əyyamda bir kərə öz xalamnan dərdləşim?
– Olar, olar... – gülümsündü. – Orasını düz deyirsən... Amma sorğu-sualların birtəhərdi e, a bala... – səsini yavaşıtdı.
Müsahibimi çətinə saldım:
– Elə bildim həqiqətən öz evimdi, ağlıma gələni danışa bilərəm, nə istəsəm, xəbər ala bilərəm...
Yazıq dik atıldı:
– Həlbət ki, öz evindi, mən o mənada demədim...
– Bilirəm, xala, bilirəm... – onun sözünü kəsib mızıldadım. – Dur gedək, mən bir böyük xalamı da görüm...
– İndi ora getmək olmaz, səhər gedərik...
– Niyə? Gec deyil axı...
– Yox, elə demə, sənin üçün gec deyil, bala, zənən xeylağlarıdı, qorxub-eləyərlər, yox yerdən bir işə də düşərik, onsuz da başımız cəncəldədi... – səsini yavaşıtdı. – Sənin böyük xalannan səksəkəliyəm, nigaranam onsuz da, ürəyimnən daş asılıb elə bil... Gecə gözü gedib, darvazanı-filanı danqıldadıb o yazığı lap ürkütməyək... Özü də babangildə qalmağa yer də yoxdu, dayın evin cəmi bircə otağın tikib qurtarıb, qalanlar yarımçıqdı... Ev-eşiyinin bütün dürriyi neçə ildi ağzı bağlı, qonum-qonşuda, tanış-bilişdədi, hələ bizdə də xeyli

qazan-quzanı var. Həm də ki... – ağlamsındı qəfil. – Bu gecə bizdə qalmasan, qarabəxt bacımın ruhu mənnən inciyər... – sağ əlini yüngülcə sinəsinə vurdu. – Bacıma görə neçə ildi yaralıdı ürəyim... O, ölüb canını qurtardı, ancaq mənim sinəmə dağ çəkilib, dağ... – qəfil zilə çıxdığı kimi gözlənilmədən bəmə düşdü. – Tez getdi o bədbəxt... Onnan sonra ürəkdən gülə də bilmirəm, inan, mənim balam, öz anam qədər istəyirdim sənin ananı... – hərləyib-fırlayıb qeybətindən də qalmadı. – Amma anannan sonra atan tez-tələsik evlənib cavan arvad almaqda düz iş görmədi...

– Nolar, sabah olsun... – son kəlmələrini eşitməməzliyə vurub onunla razılaşmaqdan başqa çarəm qalmadı, yerimdən qalxıb pəncərədən aşağı boylandım. – Sizin həyətdə maşına dəyib-toxunan olmaz ki? – pərdənin arasından yarıqaranlığa baxa-baxa soruşdum.

– Yox... Narahat olma... Şükür, oğurluq-filan yoxdu hələ bizim yerlərdə... Amma olacaq, o da olacaq, az qalıb... Ac qılınca çapar...

5

"Böyük ana" basdırılan gün bütün gecəni bir yağış yağdı ki, tut ucundan göyə çıx... Yeri-göyü sel-su bürüdüyündən hərənin başı özünə, öz dirriyinə qarışdı, küçə-bacadan əl-ayaq elə səhər açılandan kəsildi...

Kişilərdən gözə dəyən yox idi hələ ki... Başıpapaqlı qalmışdı bəyəm? Qonşu arvadların bir-ikisi "Böyük ana"nın otağına yığışıb xısınlaşırdı. Yaxşı ki, ağlaşıb-eləmirdilər, ağı deyən də yox idi. Bəlkə elə belə məsləhət idi. Nə "Böyük ana"nın xoşuna gələrdi ağlayıb-sızlamaq, nə də artırmada taxta məhəccərə söykənib dalğın-dalğın həyətə baxan balacaboy əsgərin. Yağış kəssə də ağacların budaqlarından, yarpaqlarından yerə, yerdəki gölməçələrə su damcılamaqda idi. Günəş arabir ağımtıl buludların arasından görünüb çəkilirdi. Sərçələr ürkək-ürkək yaş budaqlara qonurdu. "Böyük ana" da belə getdi... Heç kəsə əzab-əziyyət vermədi, səssiz-səmirsiz yuxudaca canını tapşırdı".

Arvadı artırmaya çıxdı.

– Burda nöşün durmusan, qurbanın olum?

O, çönüb arvadına baxdı:

– Mənim sapoqlarım hanı?

Arvadı çaşdı:

– Sapoq nədi ki, başına dönüm?

– Ayağıma geyindiklərim... Botularım...

– Yumuşam...

– Nə?.. Sabaha sapoqlarımı quruda biləcəksən? Mən vaxtında qayıtmaqdan ötrü sabah mütləq yola düşməliyəm axı...

Arvadın çöhrəsi kölgələndi:

– Bəs deyirdin ki, beş-on günlüyə buraxıblar səni?

– Ay qız, o uzaqlıqda yolu mələklərin çiynində göz qırpımındamı qayıdacam? Yoxsa, elə bilirsən, gözümü yumub-açınca çatacam mənzil başına? Bura-ora deyil e, dünyanın o başıdı... Bircə gün geciksəm, fərari kimi güllələyərlər məni... – "güllələyərlər" kəlməsini deyəndə qəfil balacaboyun kürəyindən dalğavari bir istilik keçdi. "İlahi, görəsən qayıdanda məni nələr gözləyir?"

Arvadının da rəngi avazıdı, qorxa-qorxa əlini üzünə apardı:

– Uy, irağ olsun... Nigaran olma, peçi qalayaram, qoyaram botularını peçin yanına, gözünü açıb-yumunca quruyar...

– İndi, bir şey tap, ver ayağıma geyinim. Gedirəm...

– Hara?

– Qəbiristanlığa... Arvadnan vidalaşmağa...

– Tək?

– Hə... Elə tək getsəm yaxşıdı. Gəlib-eləyən olsa, hələlik birtəhər özün yola ver... Tez qayıdacam, darıxma...

Qadın çəkinə-çəkinə dedi:

– Üşənmirsənsə, elə rəhmətliyin qaloşunu geyin... Yer-göy sudu, yəqin yolriz də zığın-palçığın içindədi...

Üşənməyinə üşənmədi, amma böyük ananın qaloşunu ayağına keçirəndə utanantəhər oldu; rəhmətliyin par-par parıldayan, tərtəmiz qaloşu balacaboyun ayağına böyük idi. Arvadı içəridən qaloşun uclarına yumşaq əski tıxamalı oldu. Balacaboy da evdən çıxıb o səkidən bu səkiyə, o cığırdan bu cığıra yeriyə-hoppana yenə yol aldı üzü məzarlığa...

..."Deyirlər, varlı bir tacir qonşu ölkənin bazarında malların qiymətinə göz qoya-qoya, özlüyündə nəyin ucuz, nəyin baha olduğunu götür-qoy eləyə-eləyə qullar satılan yerə gəlib çıxır. Qullara baxa-baxa, nədənsə, tacir fikrə gedir, gözləri yol çəkir. Bu dəm iri dəmir qəfəsdəki qullardan biri onu səsləyir. "Ay ağa, məni al, qoy burdakı zülmdən, zillətdən canım qurtarsın, ömrüm boyu sənə sədaqətlə qulluq eləyərəm, amma məni ala bilməsən də, darıxıb-eləmə, ağa, belə də qalmaz". Tacir bir yerə baxır, bir göyə baxır, bir qula baxır, ürəyinə nə damırsa, sövdələşib qulu alır, əvvəlcə qulu hamama aparır, əyin-baş alır cır-cındır içində olan qula, yaxşıca yedirib-içirdir neçə gün. Qul ətə-cana gəlir, tacir baxır ki, aldığı gözəgəlimli cavan bir oğlandı, savadı-biliyi də bəd deyil, hesab-kitabdan başı çıxır. Tacirin oğlana ürəyi yanır, bir kisə pul verib qula deyir: "Götür bu pulu, Allah rizası üçün sənə azadlıq verirəm, çıx get vətəninə, elinə-obana, qohum-əqrabanın yanına". Qul pulu almır: "Mən azad olmaq istəmirəm, ağa, məni özünlə apar, çünki bu dünyada mənim heç kəsim yoxdu, həm də sənə olan borcumu ödəmək istəyirəm ki, o dünyaya kiməsə borclu köçmək suçundan qurtulum". Tacir fikirləşir ki, qul pulu götürmədisə, üstəlik, azadlıq istəmədisə, yəqin burda bir hikmət var, qismətdi bu, mən bu cavanı taleyin ümidinə buraxa bilmərəm, özümlə aparmalıyam. Beləcə, tacir qulu evinə aparır. İnsafən, cavan da işgüzar olur, dadına çatır tacirin. Ağasının ticarəti, alveri yaxşı getməyəndə ona təskinlik də verir: "Ağa, darıxma, belə də qalmaz". Bu kəlmələr ağanı ovundururdu. Tacir bir yerə baxırdı, bir göyə baxırdı, yüngülcə köks ötürüb: "Allaha təvəkkül," – deyirdi. Aylar dolanır, illər ötüşür, tacir mehrini oğlana salır, onu öz balası kimi istəyir, gözünün ağı-qarası yeganə qızını da oğlana verir. Şad-xürrəm ömür sürürlər, amma sən saydığını say, fələyin haqq-hesabı başqadı. Qəfil iş bəd gətirmir, yox, bədlik yumşaq sözdü, fəlakət döyür tacirin qapısını; uşaq dünyaya gətirərkən qızı da, körpəsi də tələf olur. Bir müddət keçir, kürəkəni yanlayır taciri ki, ağa, heç qəm yemə, belə də qalmaz. Mən sənnən çox razıyam, Allah da sənnən razı olsun, amma arvadım öldü, körpəm öldü, belə görünür ki, sizin yerlər mənə düşmədi, incimə, haqqını halal elə, izn ver, mən çıxım gedim. Tacir etiraz eləmir: "Gedirsən get, oğul, sözüm yoxdu, amma varımdan-dövlətimdən nə qədər kefindi götür ki, qərib yerə düşəndə quru yurdda qalıb korluq çəkməyəsən, heç kəsə möhtac olmayasan". Kürəkən razılaşmır: "Yox, ağa, mən bura necə gəlmişəm elə də gedəcəm, ancaq sən darıxıb-eləmə, belə də qalmaz". Beləcə, kürəkən qayınatası ilə halallaşıb düşür yolun ağına. O ölkədə üç gün, bu şəhərdə beş gün, bir gün tox, üç gün ac, başı çox işlər çəkir kürəkənin, nəhayət, günlərin bir günü gəlib çıxır tanımadığı bir vilayətə. Görür bazar meydanı adamla doludu, soruşur ki, burda nə baş verib, deyirlər, bizim ölkənin şahı ölüb, vərəsəsi də yoxdu, indi şahlıq quşunu uçuracaqlar, quş kimin başına qonsa,

o da padşahımız olacaq. Şahlıq quşu gəlib qonur tacirin kürəkəninin başına. Camaat hay-küy salır ki, bəs, bu adam qəribdi, biz bu adamı tanımırıq, şahlıq tacını bu qəribə necə etibar eləyək? Əlacsız qalıb quşu təkrarən uçururlar, quş yenə həmin yerə qonur. Ağsaqqallar məsləhətləşib qərara gəlirlər ki, nə olacağa çarə var, nə yazıya pozu, göylərin məsləhətidi ki, bu adam bizim padşahımız olsun. Toy-bayram içində, şadyanalıqla tacirin kürəkənini taxta çıxarırlar. Kürəkən də haqqı nahaqqa vermədən, ədalətlə şahlıq eləməyə başlayır. Beləcə, yenə ay ötür, il dolanır, günlərin birində dostları tacirə xəbər gətirir ki, ay evi tikilmiş, bəs, filan vilayətə alış-verişə getmişdik, mallarımızdan həmin vilayətin padşahına hədiyyə aparanda gördük ki, vilayətin şahı sənin kürəkənindi. İnsafən, o da bizi tanıdı, bizə hörmət, ehtiram göstərdi, səni də xəbər aldı, sənə xoş gün-güzəran dilədi.

Tacir özlüyündə deyir ki, mən qızımı, arvadımı itirib tamam tək qalmışam, bundan sonra nə xoş-gün güzəran? Burda nəsə var, gərək özüm gedib kürəkənimi görəm.

Qərəz, tacir həmin vilayətə yola düşür. Sarayın keşikçilərinə deyir, şahınıza xəbər verin ki, ağası gəlib. Keşikçilər qəzəblənir ki, bu kişi nə danışır, padşahın da ağası olar, şahın ağası yeri-göyü yaradan gözəgörünməzdi ki, qiyamət günü nəinki təbəələrə, həmin vilayətdə yaşayan heyvanlara, hətta ağaclara, bitkilərə olunan ədalətsizliyin, haqsızlıgın günahı, yükü, ağırlığı da o hökmdarın boynundadı, hər şeyə görə ən əvvəl o hökmdar sorğu-suala çəkiləcək, o hökmdar cavab verəcək...

Ədalətli şahın deyimlərini yadına salan eşikağası gələni cəzalandırmaqdan vaz keçib onu birbaş hökmdarın hüzuruna aparır, padşah gələni böyük hörmət-izzətlə qarşılayıb yanında yer göstərir. Yeyib-içib süfrədən əl götürəndən sonra tacir deyir ki, oğul, səni şad-xürrəm görüb sevinirəm ki, bu boyda məmləkətin başçısısan. Kürəkən qayıdır ki, bu dünyada, hər şey su kimi axıcıdı, ona görə nə ürəkdən sevinməyə, nə də qəm yeməyə dəyməz, ağa, darıxma, belə də qalmaz... Bu dəfə ağa çaş-baş qalsa da, üstünü vurmur, özlüyündəsə deyir ki, ay naşükür kürəkən, bu boyda məmləkətin başçısısan, day dediyin belə də qalmaz nədi? Nə isə, tacir beş-on gün qonaq qalıb qayıdır evinə. Günlərin birində tacirin dostları kürəkəninin ölüm xəbərini verirlər ona. Demə, yemək vaxtı boğazında sümük qalıb kürəkənin, təbiblər əl-ayağa düşüb özlərini yetirincə padşah dünyasını dəyişib. Tacir yasa batır, deyir, heç olmasa gedib kürəkənimin qəbrini ziyarət eləyim, son borcumu verim rəhmətliyə, o, mənə təkcə kürəkən olmadı, əsl oğulluq elədi, sədaqətlə qulluq elədi mənə. Tacir yır-yığış eləyib gəlir keçmiş kürəkəninin qəbrinə baş çəkməyə, görür ki, rəhmətliyin qəbrinin üstündə yazılıb: “Ağa, darıxma, belə də qalmaz”. Ağa bu dəfə cin atına minir ki, ay binəva, day sənə olan olub, ölmüsən, mən də bütün əzizlərimi itirmişəm, bunnan belə lap dünya tarmar olsun, sənə-mənə nə dəxli? Acıya-acıya, deyinə-deyinə qayıdır evinə. İllər ötür, tacir tamam qocalır, fikirləşir ki, bu dünyaya etibar yoxdu, bu gün-sabah Əzrayıl qılıncını siyirəcək, nə qədər bədənimdə təpər, əl-ayağımda, dizimdə taqət var, qoy gedib son dəfə kürəkənimlə vidalaşım, o qəbrinin üstündə dua oxuyum ki, ruhu şad olsun. Amma bu dəfə qəbir üstünə gedəndə tacir görür ki, qəbir-filan nə gəzir, hər yanı, bütün məzarlığı sel-su basıb, qəbirlər də qalıb suyun altında...

“İlahi, görəsən, din-iman əhli saydığımız Molla Əhməd əslində kimdi ki, hər dəfə məzarlığa yolum düşəndə onun haçansa söylədiklərini, danışdıqlarını xatırlayıram? Görəsən, Molla Əhməd kəramətini itirməsəydi, özü-özünü hansı heyvanın sifətində, hansı cilddə görərdi?”

Ustadı öncəgörən deyildisə, niyə balacaboy əsgərin getdiyi məzarlıq mollanın illər qabaq söylədiyi əhvalatdakı qəbiristana bənzəyirdi? Fərq yalnız

bundaydı ki, balacaboy əsgərin kənardan baxdığı məzarlıqdakı başdaşılardan bir-iki lap yekələrinin, azacıq dikdirdə olanların ucları bapbalaca adalara bənzəyirdi suyun üzündə, sərçələr o "adalara" qonub dincəlirdi. Təkcə Noğul xanım türbəsinin gümbəzi aralıdan yarısı suya batmış yumurtaya oxşayırdı...

...Məzarlıq yoldan aşağıda, çökəkdə idi, bütün yağış suyu qəbiristanlığın ərazisinə axdığından ölülərin " evini" su basmışdı.

"İlahi, görəsən, su çəkiləndən sonra Molla Əhmədlə Taygöz Əşrəf başdaşı əvəzinə hələlik üstünə taxta parçası sancılmış Böyük ananın qəbrini, qəbir yerini tapa biləcəkdilərmi? – dalağı sancdı balacaboyun. – Gərək bu gün onlara bir də tapşırım ki, arvada layiqli, gözəgəlimli bir başdaşı düzəltdirsinlər".

Balacaboy əsgər baxdı ki, qaloşu palçığın içindədi, ayaqları da topuğacan yaşdı, ayağında sapoq da olsaydı, məzarlığa girə bilməyəcəkdi, ona görə də hündürdə, zığlı-palçıqlı yolun qırağında dayanıb bir xeyli qəbiristanlığa baxdı, baxdı və nəhayət, üz qoydu geriyə...

ƏSMƏT

– Sola sürüm? –yanımda əyləşən kiçik xalama qıyğacı baxdım.

– Həlbət ki, sola... Ədə, ay saqqalı ağarmış, öz babanın evini tanımırsan?

– Mən neyniyim e, buralar elə dəyişib ki...

– Hə, dəyişib dəyişməyinə... Hara gedirsən, burda saxla...

Maşını iri, rəngsiz dəmir darvazanın qabağında əylədim, babamgilin ensiz, alçaq, taxta həyət qapısı da dəyişmişdi. Kiçik xalam maşından düşdü. Mən maşından çıxıb ona çatınca dəmir darvazanın bala qapısını açıb içəri elə tez girdi ki, açıq qapını tutmağa macal tapmadım, qapı önümdəcə zərblə darvazanın dəmir çərçivəsinə dəyib tükürpədici səs çıxartdı, qulaqlarım da bir xeyli uğuldadı həmin səsin əks-sədasından... Kiçik xalama ümid olmağa dəyməzmiş, yaxşı ki, barmağım-zadım qalmadı qapının arasında. Hərdənbir harasa gecikməyin də xeyri dəyə bilərmiş, hər halda, xeyri dəyməsə də, ziyandan qoruya bilərmiş adamı...

İçəri girəndə gözümə inanmadım, kirpiklərimi bir-birinə sıxıb gözlərimi yenidən açanda da gördüklərim dəyişmədi, keçmişdən qalma heç nə görmədim. Bu həyətin tən ortasında iri xartut ağacı vardı, onun yanında fındıq kolu, üzüm tənəyi, bir sözlə, həyət başdan-başa yaşıllıq, bağ-bağat idi, ev də həmin yaşıllığın içində itib-batmışdı. İndisə quru nar çubuğu da qalmamışdı həyətdə, bütün ağaclar kəsilmişdi, əvəzində az qala elə həyət boyda ikimərtəbəli nəhəng ev tikilmişdi kəsilən ağacların, kolların yerində. Amma kiçik xalam düz deyirdi, bu evdə hələ bir igidin ömrüycə iş vardı. Qapısız-pəncərəsiz evdən həyat əlaməti gəlmirdi, eləcə daşlar üst-üstə pərçimlənmişdi, vəssalam, divarları da hələ bayırdan hörülməmişdi evin. Bircə üzü həyətə baxan sarı pərdəli otaqdan işıq, hənir gəlirdi, elə deyəsən təkcə o otağın qapı-pəncərəsi vardı, yəqin buna görə məndən qabaqda dayanan kiçik xalam üzünü qapısı aralı otağa tutub ucadan səsləndi:

– Ay qızlar, çıxın bayıra, görün kimi gətirmişəm!.. –burasını dəqiq demirdi, o, məni yox, mən onu gətirmişdim maşınla, "qızlar" bayıra çıxana qədər verməli oldu ağlamsına-ağlamsına. – Rəhmətlik bacımın yeganə yadigarını... Allah yerini behişt eləsin bədbəxt, qaragün bacımın...

Nədənsə, narahat-nigaran yan-yörəmə baxdım, haçansa Molla Əhmədə verdiyim sual düşdü yadıma: "Molla əmi, görəsən, bu dünyada özünü bədbəxt sayan adam o dünyada xoşbəxt ola bilər?"

Heyf ki, mollanın cavabını xatırlamadım, çünki "qız"lardan biri, dayım arvadı içəridən çıxıb mənə fikir vermədən baldızını qucaqladı:

– O yetim, beli qırılmış dayısını görməyə gəlib! Dayısını!.. – mənə “o” deməsindən də bir şey qanmadım, ən azınnan, “o” yox, “bu” deməliydi.

Elə bil yanlarında deyildim, mən yaddan çıxdım, gəlinlə baldız qucaqlaşıb hönkürdülər. Ancaq hər nəydisə, dayım arvadı Əsmətin guya, yana-yana mənə: “yetim” – deməsi də xoşuma gəlmədi. Anladım ki, tez aradan çıxmalıyam, bu həyətdə çox duruş gətirə bilməyəcəm.

Nəhayət, Əsmət mənə əl uzadıb yanağımdan öpəndə saymazyana soruşdum:

– Beli qırılmış dayım dedin, nolub ki, dayıma?

Əsmət Böyükxanıma baxıb təəccüblə xəbər aldı:

– Deməmisən? – qaşlarını oynadıb gözlərini mənalı-mənalı süzdürdü.

Böyükxanım yüngülcə başını tərpətdi, yəni ki, demişəm, xəbəri var...

Buna baxmayaraq Əsmət yerli-yataqlı izahat vermək üçün soruşdu:

– Bilmirsən ki, sənin yaşlı-başlı, ağsaqqal dayını tutublar?

– Niyə? – ilk dəfə eşidirəmmiş kimi, heyrətlə xəbər aldım.

Əsmət çaşsa da ayağını geri qoymadı, pıçıltıya keçib dedi:

– Şərə düşüb... Deyirlər, guya, narkotik satırmış...

Əl çəkmədim:

– Guya nədi, satırmış, ya yox?

Bu dəfə dayım arvadı özündən çıxıb səsini qaldırdı:

– Bəs, neyləyəydi dayın yazıq, hə?! Zavod yox, fabrik yox, harda işləyəydi, necə dolanaydıq, nəylə dolanaydıq?.. Bir ovuc adam bütün məmləkətin malını talayanda yazıq kasıb neyləsin, hə?! Bu ölkədə dolanıb baş girləmək üçün babat vəzifəyə dırmaşmalısan ki, o da bizim bəxtimizdə yoxdu... Ya gərək yekə bir adamın qohumu olub süfrənin qırağınnan yeyəsən, ya da acından gəbərəsən... Mən qırx ilin müəllimiyəm, nə verirlər mənə, hə?! Neçə ildi dayın əlacsızlıqdan bu işlə çörək qazananda niyə göz yumurdu silisçilər? İndi ayılıblar, indi bilirlər? Yox, yox, min kərə yox!.. Dərinə gedəndə xoruzun quyruğu görünür... – Əsmət danışdıqca qızışırdı, kiçik xalam onun çiynini ehmalca sığallaya-sığallaya mənə göz ağardırdı ki, müsahibimə baş qoşub dərinə getməyim, amma gec idi, oxu atmışdım. – Sevinirdik saqqalımız çıxır, vay olandaymış... – mat-məəttəl qaldım Əsmət belə deyəndə, mən balaca olanda bu kəlmələri Petronun atası Ağəli kişidən eşitmişdim, ancaq, deyəsən, Ağəli kişi “olanda”nın əvəzinə “yolanda” deyərdi, yəni, “sevinirdik saqqalımız çıxır, vay yolandaymış”, dayım arvadının bığ-saqqaldan məsəl çəkməyi mənə həm qəribə, həm də bir az məzəli gəldi. – Bu gün-güzərandımı məxluq yaşayır?.. Bax, sən o boyda yolda maşın sürüb dayını görməyə gəlmisən. Hanı, hardadı, bədbəxt dayın, hə?..

Sövq-təbii lapdan nöqtəni qoydum:

– Düzünə qalsa, mən dayımı yox, böyük xalamı görməyə gəlmişəm... – deyib tez də sözümü dəbbələdim. – Dayım kişi xeylağıdı, hər yerdə baş çıxardar...

Elə bil qurbağa gölünə daş atdılar, Böyükxanım yerində donub qaldı, Əsmət səsini xırp kəsdi. Əslində, mən özüm də peşman oldum dilimdən çıxanlara görə, üzlərindən gördüm ki, dediklərimi malalayıb dayımı tərifləməyimin xeyri olmayıb... Amma bəlkə belə yaxşı idi, yanlış da bir naxışdı, mənim arvad bazarında nə işim vardı, gərək tez-tələsik böyük xalamı görüb qayıdaydım geriyə...

Sanki ürəyimi oxudular, aralanıb mənə yol verdilər, Əsmət əlini uzadıb sarı pərdəli otağı göstərdi:

– Buyur, get gör, o sən, o xalan... içəridədi xalan... – otağı göstərməyə də bilərdi, başqa otaqlarda lələ köçüb yurdu qaldığı kənardan bəlliydi, intəhası, dayım arvadı yəqin ki, gərək olmayanı eləməyə öyrəncəliydi. – Onsuz da bircə

ayaqyoluna gedəndən-gedənə həyətə çıxır sənin əziz-girami xalan... – səsindəki kinayə hirs-hikkəni üstələmişdi.

Əsmətlə Böyükxanımın arasından keçib otağa girdim. Elədi, içəri girməyinə girdim, amma dəmir çarpayıda oturub ayaqlarını sallayan, saçları qar kimi ağappaq ağarmış, heç nə ifadə eləməyən gözləri, ölgün baxışları candərdi, çar-naçar üzümə dikilən çəlimsiz, arıq qarının mənim böyük xalam olduğuna inanmadım. Ha yaddaşımı eşələdim, köməyi olmadı, bu qarının keçmişi ilə indisi arasındakı gözlə görünən zəncir qırılmışdı. Onun qırışmış sifətində, avazımış çöhrəsində, xəstəlik, naxoşluq, zəiflik yağan simasında elə bir tanış cizgi qalmamışdı ki, mənə keçmişi xatırlatsın...

Bəxtim gətirdi ki, ya hikkələrindən, ya bizi təkbətək qoymaq istədiklərindən, ya da saymazlıqlarından arxamca gələn olmadı. Bəlkə də içəridə oturmağa yer olmadığından həyətdə durdular. Otağın döşəməsi də yox idi, döşəmə əvəzinə nimdaş, rəngi getmiş palazlar sərmişdilər yerə...

Oturdum üzbəüzdəki dəmir çarpayıda, dinməz-söyləməz böyük xalama baxdım, o da mənə baxırdı, lakin hiss eləyirdim ki, fikri-xəyalı uzaqlardadı. Mən ona yaxınlaşmağa, toxunmağa qorxurdum, guya, önümdəki hələ tam quruyub-bərkiməmiş gildən-torpaqdan idi, əl vursaydım, ovulub töküləcəkdi, yerə tökülənlər də lap Rizvan kimi öz-özünə yox olacaqdı, beləcə, böyük xalamın izi-tozu da qalmayacaqdı...

– Necəsən? – lapdan dilə gəlib halımı xəbər alanda əməlli-başlı sevindim, elə bilirdim danışmağa da taqəti qalmayıb.

– Yaxşıyam... Sən necəsən? – onun səsinin ahənginə uyğun pıçıldadım.

– Babatam... Vüqarı görüb-eləyirsən?

– Yox... Görməmişəm hələ... Orda adam tapmaq çətindi... Qarmaqarışıqlıqdı orda... Hərə öz hayındadı... Amma qayıdan kimi yenə axtaracam... Sən arxayın ol, mütləq tapacam onu...

– Tapsan yaxşıdı... Bir-birinizə həyan olarsız...

– Yaxşı, sən nigaran qalma... – mətləb üstünə gəlməyə çalışdım. – Mən təkcə Vüqarı yox, o seyid arvadı da axtarıram...

– Hansı seyid arvadı?

– Babamın əmisi arvadını... – nədənsə, ətrafa boylana-boylana, çəkingən-çəkingən dedim. – Yadındadı o arvad sənin?

– Yadımdadı, lap indiki kimi xatırlayıram...

– Nələri xatırlayırsan? –titrək səslə soruşdum.

– O cəddinə qurban olduğumun toyunda Vüqarı da yanıma salıb əldən düşənəcən oynamışdım...

– Nə toy, hansı toy?.. – çaşqın-çaşqın xəbər alıb kor-peşman da tez-tələsik susdum.

Cavab vermədi, gözlərini yumub yanındakı ağ, balaca yastığa dirsəklənərək mürgülədi, sanki nələrisə gözünün qabağına gətirirdi, araya heç vaxt pozulmayacaq ağır bir sükut çökdü və o sükut, o səssizlik həqiqətən də pozulmadı.

...Nəhayət, mən böyük xalamı narahat eləməmək üçün ehmalca qalxıb əvvəlcə otaqdan, sonra da Əsmətlə Böyükxanımın yanından keçib həyətdən çıxdım. Dəmir qapını da yavaşca örtdüm ki, səsi çıxmasın. Deyəsən, məndən ötrü gözü atan-zad yox idi; arxamca gəlib məni yola salan olmadı...

6

Balacaboy əsgər müharibə qurtarandan iki il sonra qayıtdı evinə. Tanış-biliş, qonum-qonşu axışıb gözaydınlığına gəldi. Amma balacaboyun arvadı hiss eləyirdi ki, ərinin kefi yoxdu, alt dodağı yer, üst dodağı göy süpürür,

çırtma vursan, qanı damar, görüşməyə gələnlərlə candərdi hal-əhval tutur. Doğmaca qızlarını, əkizlərini də dizlərinin üstündə narahat-nigaran otuzdurub, saçlarını qeyri-ixtiyari sığallayır, fikri-xəyalı isə ayrı yerdədi. Yaxşı, davanın, uzaq yolun yorğunluğunu anlamaq mümkündü, bəs, gözlərindəki əzabı, iztirabı, nisgili, üstəgəl hirs-hikkəni hara yozasan? Çoxları əlini üzmüşdü balacaboy əsgərdən ki, gəlib çıxmadısa, yəqin düşmən gülləsinə hədəf olub. Şükür, Allah səni o qan-qadanın içində salamat saxlayıbsa, bu qaşqabaq, narahatlıq nədəndi?

Balacaboyun arvadı barmağını dişlədi, gecə evlərindən əl-ayaq kəsiləndən, balacaboy əsgərin içindəki səssiz fırtına zəifləyəndən, qızlar da yatandan sonra söhbətə uzaqdan başladı:

– Ağrıyırsanmı, sənə qurban?

– Yox...

– Yorğunsan yəqin...

– Belə... Keçib gedər... Yorgunluq nədi ki, lap atam yanıb mənim, başımı çiyinlərimin üstündə zornan gəzdirirəm... – deyəsən, balacaboy sandığı açıb pambığı tökməyə meyilli idi.

– Şükür ki, salamat qayıtmısan... Qızların da çox sevinir, sənə qurban olum... Bunnan sonra nə dərd-sərimiz var ki, bizim...

– Elədi... – balacaboy köksünü ötürdü.

– Nolub, qurbanın olum, nəyin var sənin?

– Bu gün evə gələndə qəbiristanlığa getdim...

– Hə...

– İstəyirdim “Böyük ana”nın qəbrini ziyarət eləyəm...

– Hə... Yaxşı eləmisən...

– Ancaq məzarlığı ələk-vələk eləsəm də, arvadın qəbrini tapmadım...

– Nə?

– Hə... Yoxdu arvadın qəbri... – içindəkilər aşıb-daşdı, balacaboyun göz yaşları sel kimi axdı. – O arvad mənə analıq elədi, amma mən ona oğulluq eləyə bilmədim... Sən bu neçə ildə məzarlığa getməmisən?

– Getməmişəm... Düzü, neçə kərə istədim gedəm, imkan eləyə bilmədim... Uşaqları kimin yanında qoyacaqdım? Balacalarla da ora gedib çıxmaq mənim işim deyildi... Yol uzaqdı... Qonum-qonşuya da özüm qəsdən ağız açmadım ki, bir-birimizə qoşulub yoldaşlı gedək. Hərənin bir dərdi var, nöşün camaata əziyyət verim? Sonra özlüyümdə əhd elədim ki, inşallah, sən sağ-salamat gələrsən, bir yerdə gedərik. Tək-tənha ora getməyim həm düz alınmazdı, həm də qorxub-eləyərdim, üşənərdim orda... Sonra əkizlərə kim baxacaqdı, ağrın ürəyimə? – balacaboyun arvadı suçlu-suçlu gözlərini süfrəyə dikdi. – Həm də qabaqlara xəyalın getməsin, bu aclığın, yoxsulluğun, səfalətin içində ölülərmi yada düşürdü? Dirilər köçlərini sudan gücnən çıxardırdı, – gəlin özünə haqq qazandırdı. – Ev-eşik dərdi, iki balaca uşağın zır-zırı bütün dünyanı adamın gözündə dar eləyir... Səhər durursan, gözünü yumub-açınca, görürsən axşam düşdü, bütün işlərin də qalıb yarımçıq... Əlinin papağını Vəlinin, Vəlininkini Əlinin başına qoyursan ki, çay-çörək istəyən uşaqların başını birtəhər aldadıb ovundurasan... Ailənin, ev-eşiyin yükün çəkmək zənən işidi ki?.. Bu ağır zillətə mən yazıq necə dözmüşəm, necə tab gətirmişəm, bir tək o qurbanolduğum bilir... – arvadı şəhadət barmağı ilə tavanı göstərdi. – Yəqin özün də annıyırsan ki, çox çətin olub mənə... Bəlkə elə deyil, dərdin ürəyimə?..

– Bilirəm... Elə olmağına elədi... – balacaboy razılaşdı, ovcu ilə gözünün yaşını sildi. – Amma mən Molla Əhmədnən Taygöz Əşrəfə tapşırmışdım axı bizim arvada layiqli bir başdaşı düzəltdirsinlər... Haqqını da vermişdim...

– Taygöz Əşrəf bizim arvad ölennən üçcə gün sonra başını qoydu yerə... Molla Əhmədin də halı xarabdı deyirlər. Evdən eşiyə çıxmır... Ancaq allahtərəfi,

haqqüçünə danışsaq, molla haçan küçədə-bacada məni görürdü, səni xəbər alırdı, mənə ürək-dirək verirdi ki, darıxma, oxuduğum Quran haqqı, ərin sağ-salamat qayıdacaq. Qorxma, ona heç zad olmaz... Bir də deyirdi ki, guya, hər cümə axşamı "Böyük ana"ya "Yasin" oxuyur. Amma, ay sənə qurban olum, düzü, mən inanmıram onun hər cümə axşamı bizim arvad üçün "Yasin" oxumağına...

– Niyə inanmırsan? – balacaboy diqqət kəsildi.

– Belə... Allaha acıq getməsin, ikimizin arasında deyirəm... – qısaca ara verdi. – Belə... Sürüşkən adama oxşayır e, sənin Molla Əhmədin... – arvadı çəkinə-çəkinə olsa da, sözünü dedi. – Deyirlər, bir ara təzə hökumətə xoş gəlməkdən ötrü qabağına beşguşəli ulduz tikilən urus papağı da qoyurmuş başına xəlvət-xəlvət...

Balacaboyu gülmək tutdu:

– Sən hər dedi-qoduya inanma. Neynəyir eləsin, molla elmli adamdı, aqil adamdı, işini biləndi. İntəhası, qocalıb da yəqin... – dedi qımışa-qımışa. – Yaxşı, ay arvad, sən ki belə ağıllı, uzaqgörən, adamtanıyan, tədbirlisən, de görüm, bu məsələni necə həll eləyək? – zarafata salıb arvadına təriflər yağdırdı.

– Hansı məsələni? – arvad ərinin sözlərindən qürrələnib düşüncəli görkəm aldı.

– "Böyük ana"nın qəbrinin yerini, başdaşı məsələsini... – balacaboyun yenə kefi pozuldu. – Hardadı axı bu qəbir?.. Ya mən özüm yaxşı axtarmamışam, gözümdən qaçıb? – özü özündən də şübhələndi.

– Taygöz Əşrəf ölüb, o, heç... Molla Əhməd ki, sağ-salamatdı... Get evində soruş ki, ay molla əmi, bu daş, bu tərəzi, bizim arvadın qəbri hardadı, başdaşını hara qoymusuz? – arvadının qaşları çatıldı. – Day qanını nöşün qaraldırsan, qurbanın olum, get mollanın özüynən üzbəsurət otur, danış... Ağa durur, Ağacan durur...

– Axı deyirsən, mollanın halı xarabdı...

– Orası elədi, qızı deyir ki, molla evdən eşiyə çıxmır... Amma ağlı-başı ki, yerindədi... Get, öyrən, gör iş nə yerdədi, əgər başdaşı-zad qoydurmayıbsa, qoy verdiyin pulu qaytarsın, kasıbçılıqdı, beş-on gün əlimizdən tutar o pul... Sonra dolanışığımız düzələr, arvada özün başdaşı düzəltdirərsən... – ərinə xüsusi bir biclik də öyrətdi. – Həm də guya ki, yoluxmağa gedirsən naxoşu... Səbirli ol, salam-əleyk eləyən kimi üstünə cumub hürkütmə mollanı, yavaş-yavaş öyrən, çalış məsələni özü açıb-ağartsın...

– Elədi, gərək tez gedəm... – balacaboy başını tərpətdi. – Ölüm-itim dünyasıdı, bu işi ləngitmək olmaz...

– Ancaq tələsmə... – arvadı ağlına güvənib lap dərinə getdi, qoy əri görsün ki, papaq, əstəğfürüllah, kəlağayı altında necə zənənlər yatıb. – Sabah gedərsən... Gecənin xeyrindən gündüzün şəri yaxşıdı... Get gir yerinə, yat, dincəl... – bunu deyəndə yanaqları allandı, baxışlarını bardaş quran ərindən yayındırıb armudu stəkandakı soyumuş çayla dodaqlarını islatdı, utansa da, dediyindən dönmədi. – Gecdi, canım qurban, dur get, yat...

Bayaqdan ovqatı qalxıb-enən balacaboyun kefi duruldu:

– Ay arvad, sən arxayın ol ki, mən hələ ağlımı tamam itirməmişəm, gecə gözü gedib Molla Əhmədin qapısını döyən deyiləm... – səsini yavaşıdıb pıçıltıya keçdi, önündəkinin onu eşidə bilməyəcəyinin fərqinə varmadı. – Amma heç ağlım kəsmir ki, molladan pul ala bilim... Neynək, sınamağın ziyanı yoxdu, yeməkdən ümid yaxşıdı...

Pul qoparmaqdan ağlı bir şey kəsməsə də, molla ilə görüşə can atırdı balacaboy, ürəyinə nə isə damdığından, səhərin tez açılmağını gözləyirdi. Deyəsən, pul-paradan daha qiymətli şeylər gözləyirdi bu görüşdən... Nolar, həm ziyarət, həm ticarət...

NURALI

– Ooo!.. Gör mən kimi görürəm, köhnə dost...

Küçəyə çıxan kimi qollarını geniş açıb üstümə gələnin üzünə baxdım. Sarısuruluğundan, gömgöy gözlərindən, bir də dor ağacı kimi uzun boyundan o saat tanıdım qollarını geniş açanı. Nuralı idi, Mələyin kiçik qardaşı... Babamgillə qonşu idilər, üzbəüz evdə yaşayırdılar. O vaxtlar, uşaqlıqda Vüqar, mən, Nuralı çox ağacların kəlləsinə dırmaşmışdıq... Amma düzünə qalsa, sonralar Mələyin yanında olanda tez-tez Nuralının şəklini gördüyümdən, mən uşaqlıq dostumu tanımaqda çətinlik çəkmədim, yoxsa dazlaşmış başı, axsamağı məni çaşdıra da bilərdi.

Qucaqlaşdıq, kürəyimi sappıldatdı. Nuralıdan birtəhər iy gəlirdi, bilmədim tər iyidi, kir iyidi, bəlkə də hər ikisinin qarışığı...

– Necəsən? – aralanıb diqqətlə sifətimə baxdı. – Hamamdan indicə çıxmısan nədi, rəngin nöşün ağappaqdı?.. – özü öz dediklərinə inanmadı. – Amma yox, hamamdan çıxan qızarar, pörtər, sən ağappaqsan...

– Belə... – dəqiq cavab vermədim. – Sən necəsən?

– Sükür deyə bilmərəm... – yenə gözlərini üzümə zillədi.

– Özün bil... – yaxamı çəkdim kənara. – Buralarda nə var, nə yox?..

– Heç nə... Elə hər yerdəki kimi... Atın qabağında ətdi, itin qabağında ot...

– Filosof kimi danışırsan...

– Düz deyirsən, pis gün adamı alim eləyir... – qımışıb soruşdu. – Dayına görə gəlmisən?

– Hə...

– Yazıq kişinin işi yaşdı...

– Elədi, yaman ilişib... – maşının yanına gələndə dilimi dinc saxlamadım. – Mələydən nə xəbər var, bacın neynəyir?

Əlini yellədi laqeydliklə:

– Mələydi də... Türkiyədədi... Türkə ərə gedib... İndi yekə uşaqları, əri, topdağıtmaz ev-eşiyi var orda...

– Nə yaxşı... Görüb-eləsən salam deyərsən...

– Tez-tez zəng eləyir...

– Nolar, zəng vuranda salam söylə...

– Bilirsən də... – dili dolaşdı. – V... Vüqar da rəhmətə gedib...

– Bilirsən nədi... Mənim yanımda canını tapşırdı rəhmətlik... – bilmirəm nə səbəbə yalan dedim.

– Hayıf Vüqardan...

– Hayıf niyə, hamı öləcək...

– Hə... Hamı öləcək... – yəqin söz tapa bilmədiyindən mənim dediklərimi təkrarlayıb mızıldandı. – Şəhərə gedirsən?

– Hə, necə ki?

– Məni qəbiristanlığın yanında atarsan?

Əlimi onun çiyninə qoyub gülümsündüm:

– Day atmaq niyə, apararam səni qəbiristanlığa... Xeyirdimi orda?

Daz başını qaşıdı:

– Orda, nə xeyir... – tutuldu. – Cümə axşamıdı, oğlumla arvadımın qəbrinə baş çəkmək istəyirəm...

– Allah rəhmət eləsin... – deyib uyarlı sözlər axtardım. – Nədən rəhmətə getdilər, qəzaya düşüblər? – soruşub dərinə getməzdim, filirləşdim ki, xəbər almasam, saymazyanalıq, gönüqalınlıq sayar...

– Onu narkaman öldürdü.

– Kim? – qorxmuş kimi əlimi çiynindən çəkdim.

– Həkim olmaq istəyirdi bədbəxt, di gəl, universitetə girə bilmədi, qayıtdı evə, qoydum mağazada satıcı işləməyə... – uzaqdan başladı. – Nə isə, bir gün narkamanın biri gəlib ki, çörək ver... Bu da deyib ki, mənim dədəmin dükanı deyil bura, çörəyin pulunu ver, sonra götür... O deyir ver, bu deyir vermirəm... axırda narkaman çıxardır bıçağı, soxur uşağın düz ürəyinə... Heç xəstəxanaya da çatdıra bilmədik... – ağlamsındı. – İki dənə çörəyə görə balam əldən getdi... Gözümün ağı-qarası bircə oğlum vardı... Arvadım da bala dərdinə dözmədi, sirkə içdi, – yenə qucaqlaşdıq. – Tamam tək qalmışam mən... – burnunu çəkə-çəkə mızıldandı. – Sənin oğul-uşaqdan nəyin var? – ciblərini eşələyə-eşələyə soruşdu, yəqin dəsmal axtarırdı, tapa bilmədi.

– Deyəsən, bir oğlum var...

Üzümə baxdı təəccüblə:

– Bu nə sözdü, ay xətəkar... – gülümsündü zorla. – Day deyəsən nədi?

– Arvadlara etibar var bəyəm?.. – baxışlarımı yayındırıb söhbəti dəyişdim. – Sizin uşağı vuranı tutdular?

– Hə, indi türmədədi... – başını tərpətdi. – Ancaq bunun mənə nə isti-soyuğu?.. Mənə olan oldu...

– Elə demə, yenə də təsəllidi qatilin cəzalanmağı...

Ah çəkdi:

– Eh... Mənimki təsəllidən keçib... Mələy yalvarır ki, nə var orda, tək-tənha qalmısan, ev-eşiyi sat, köç gəl bura...

– Bəs, niyə köçmürsən?

– Hara köçüm, arvad-uşağın qəbri burda... Özümün də beş-on gün ömrüm qalıb. Bu yaşımda gedib yeznə qoltuğuna sığınım?

– Dolanışığın necədi, Mələkgil kömək eləyir?

– Hələ ki, köməyə ehtiyacım yoxdu, müharibədə yaralandığıma görə pensiya alıram axı... Amma mən gərək öləydim orda... Bilsəydim başıma belə müsibət gələcək, heç erməni gülləsini gözləməzdim, elə ordaca özümü öldürərdim...

– Yaxşı, bəd-bəd danışma, otur maşına, yolçu yolda gərək... – uzunçuluğuna imkan vermədim.

Nuralı yanımda əyləşdi, mən mühərriki işə salıb maşını yerindən tərpətdim.

7

Molla Əhmədin evi məscidin yanında idi. Dini mərasimlərdə “Böyük ana” balacaboyun əlindən tutub özü ilə məscidə apararDı. Yol boyu qara çarşablı arvadlar ayaq saxlayıb “Böyük ana” ilə hal-əhval tutardılar. “Necəsən, ay filankəs?” “Yaxşıyam, sən nə təhərsən, balalarun nə təhərdi?” “Sağ ol, canuva dua eliyillər”. Heç kəsin də ağlına gəlmirdi ki – bəlkə də ağıllarına gələni dillərinə gətirmirdilər – əslində, “Böyük ana”nın balası yoxdu axı... Yaxşı, balacaboy əsgəri – onda hələ əsgər deyildi, böyüyəndə balacaboy olacağını da qabaqcadan heç kəs bilə bilməzdi – “Böyük ana”nın övladı saysalar da, yenə düzgün alınmırdı, balacaboy, olsa-olsa, böyük anaya “bala” sayıla bilərdi, bəs, “balalar” hardan çıxdı? Nə isə, balacaboy gözünü açandan, ağlı kəsəndən belə görmüşdü, belə eşitmişdi, heç kəs də bunun fərqinə varmırdı.

Məsciddə Molla Əhməd, başında əmmamə, minbərə çıxıb moizələr oxuyardı, dini rəvayətlər danışardı, hərdənbir qorxa-qorxa, çəkinə-çəkinə aşağıdan qımıldanıb sual verən kişilərin sorğusunu cavablandırardı. Molla danışanda heç kəs cınqırını çıxarmazdı, başqa səs-ün eşidilməzdi. Quş uçsaydı, qulaq cingildəyərdi. Zənənlər bardaş quran tərəfdə, qara tül pərdənin

arxasında, “Böyük ana”nın dizlərinin üstündə oturan balacaboyun çox vaxt yuxusu gələrdi, arabir elə başını “Böyük ana”nın sinəsinə sıxıb yatardı. Mollanın zəhmli səsinə qulaq asa-asa zəhri yarılmaqdan min pay yaxşı idi. Molla qorxulu adam olmasaydı, arvadlı-kişili, ona qulaq asanlar gözünün yaşını sel kimi axıtmazdı. Təkcə “Böyük ana” heç vaxt ağlamazdı məsciddə, fikirli-fikirli gözlərini məchul bir nöqtəyə dikərdi, daha doğrusu, deyilənlərə qulaq asardı, düz qabağa baxardı, amma elə bil nə deyilənləri eşidərdi, nə də baxdığını görərdi. Əslində, çox uzaqda olardı “Böyük ana”... Hərdənbir qucağındakının başına ehmalca sığal çəkəndə yaxınlaşardı yerə, baxdıqlarını görərdi, deyilənləri eşidərdi. Balacaboy hələ də çətinə düşəndə o sirli-sehirli sığalın istiliyini hiss eləyirdi saçlarında, o istilik bütün bədənini bürüyürdü bir andaca. Mollanın təklikdə ona danışdığı rəvayətlər, bir də “Böyük ana”nın məsciddə onun başına çəkdiyi sığal hələ də balacaboyla birgə sakitcə, dinməz-söyləməz yanaşı addımlayaraq pusquda dayanmış kimi, bəzən çətin, bəzən də uyarsız məqamlarda üzə çıxardı, yadına düşərdi...

Sonralar balacaboy molladan dərs aldıqca başa düşürdü ki, müəllimi bəlkə də doğrudan-doğruya qorxulu adamdı, amma o zəhmin-vahimənin içində yekə bir istehza gizlənib. Yəqin molla da balacaboyun cırtdan kimi tükü tükdən seçdiyini anladığından, onu bütün şagirdlərindən fərqləndirirdi. Xətrini çox istəyirdi cırtdanın, araları da açıq idi.

“Günlərin birində sənin kimi çoxbilmiş bir şagird gedib Bağdadda elm öyrənir... Qayıdandan sonra öz ustadına kəm baxır ki, bəs, sən kimsən, mən o boyda məktəbdə oxuyub sayılıb-seçilən müdriklərdən dərs almışam, indi məscidimizin baş mollası özüm olacam, sabah minbərə özüm çıxıb özüm moizə oxuyacam camaata. Ustad yalvarır ki, a bala, gəl məni el içində xar eləmə, elm öyrənmisən, lap yaxşı, gəl sənə helm də öyrədim. Cavan iki ayağını dirəyir bir başmağa ki, xeyri yoxdu, sabah minbərə özüm çıxacam, razılaşmasan, sənə yerdən bir sual verəcəm, cavabını tapmayıb camaat arasında, el içində rüsvayi-cahan olacaqsan, millət yığışıb özü səni məsciddən qovacaq... Nə isə, ustad çox deyir, şagird az eşidir, daşı ətəyindən tökmür ki, tökmür... Axırda çarəsi kəsilən ustad deyir, onda icazə ver sabah sən moizə oxuyandan sonra mən də məscidə gələnlərə bir kəlmə söz deyim... Razılaşırlar... Ertəsi gün elmli cavan məsciddə elə moizə oxuyur ki, hamının əli üzündə qalır, bəs, ay dadi-bidad, bu adam ucsuz-bucaqsız dərya imiş, biz indiyə qədər qoca mollanın nağıllarına qulaq asırmışıq, gələnlər elə ordaca qoca mollaya yuxarıdan-aşağı, lağlağı ilə baxanda qoca molla kəmali-ədəblə cavandan izn alıb üzünü məsciddəkilərə tutur: “Bu cavan Allahın lütfüdür ki, bizə bağışlanıb... Həzərat, mən bu gecə yuxuda qurbanolduqlarımı gördüm. Qurbanolduqlarım röyada mənə dedi ki, kim bu cavanın əbasından, paltarından, tükündən bir parça əldə eləsə, o dünyada cənnətməkan olacağına zərrəcə şəkk-şübhə yoxdu... Camaat bunu eşidib sel kimi cumur minbərə, cavanın üstünə, minbəri aşırıb cavanı salırlar yerə, bir anın içində cavanın əbasını, pal-paltarını cırırlar, saç-saqqalını yolub qanına qəltan eləyirlər cavanı, cavanın bağırtısı aləmə yayılır, amma bağırtıya fikir verən hardaydı... Nəhayət, tamam didilib-parçalanmış cavanı az qala yarımcan, lüt anadangəlmə, al qan içərisində görəndə qoca molla gülür ki, ay binəva, sənə demədimmi oxuduğuna çox güvənmə, əsas elm deyil, helmdi?..” Molla Əhməd bu cür könülaçan, dərsdən sonra adamın yorğunluğunu çıxaran rəvayətləri təklikdə nəql eləyərdi balacaboya – bəlkə özlüyündə fikirləşirdi ki, sısqa cüssəsinə görə o biri şagirdlərdən çətindi balacaboyun işi – sonra da əlini çəkərdi onun başına: “Hə, cırtdan bala, dünyanın gərdişi belədi, helmli elmlini hər zaman üstələyir”.

İndisə “cırtdan” mollanı, öz xəstə, naxoş müəllimini yoluxmağa gedirdi, düzünə qalsa, daha getmirdi. Gəlib durmuşdu mollanın həyət qapısının önündə. Tərs kimi, günün günorta çağı qapı arxadan bağlı idi. Bayırdan qışqırıb mollanı çağırmaqdan başqa çarə yoxdu.

– Molla əmi! Ay molla əmi! – səs-səmir gəlmədi, harayına hay verən tapılmadı, boyu da çatmırdı ki, kip vurulmuş hündür – “cırtdan”ın qəddqamətinə görə hündür – taxta hasarın üstündən boylanıb içəri baxsın.

– Molla əmi!.. – bu dəfə səsinin lap zil yerinə saldı. – Molla əmi!!!

Nəhayət, həyətdən hənir də gəldi, ayaq səsləri də... Qapını yaşmaqlı bir qadın açdı, ya mollanın gəlini idi, ya da qızı...

– Salamün-əleyküm... Molla əmi evdədi?

– Naxoşdu molla...

– Bilirəm, mən də elə onu yoluxmağa gəlmişəm...

– Gəl... – qadın qabağa düşüb balacaboya yol göstərsə də, tikanını batırmaqdan da qalmadı. – Molla naxoşdu, amma qulağı yaxşı eşidir, çığırıb-bağırmağa nə hacət? – yavaşca deyindi.

– Mən cəbhədən dünən gəlmişəm... – balacaboy özünə haqq qazandırmaqdan ötrü başqa sözlər tapmayıb mızıldandı.

– Xoş gəlmisən... – öndəki geri dönmədən yeriyə-yeriyə saymazyana cavab verdi. – Həmişə evində-eşiyində... – cığırla evə sarı gedə-gedə qabaqlarına yüyürən iri qazları da qovdu. – Kiş...kiş... Çər dəymişlər adamın üstünə cumullar... – acıqlı-acıqlı deyib pilləkənin yanında ayaq saxladı. – Keç içəri, keç, içəridədi molla...

... Balacaboy çarpayıdakı ilə hal-əhval tutmağa macal tapmamış, xəstə inildədi:

– Lampanın piltəsini qaldır sənin üzünü yaxşı görüm... Qoymuram evdə qapı-pəncərəni açmağa, gün işığına həsrət qalmışam...

Tavandan sallanan lampaya əli çatmayan balacaboy pərt oldu. Tərs kimi, ayağının altına qoyub dırmaşmağa da heç nə tapmadı.

Molla dəmir çarpayısında qurcalanıb gözlərini qıydı:

– Sənsən, cırtdan bala? – əmin olduğunu bəlkə də qəsdən xəbər alıb davam elədi. – Yaman qışqırırdın, səsinnən tanıdım səni... Bu otaqdan oturulası hər şeyi götüzdürmüşəm ki, yanıma gələnlər çox zəhləmi tökməsin... Amma sən özümüzünküsən, sənə yasaq-filan yoxdu...

– Hə... – balacaboy utana-utana dodaqaltı mızıldandı, irəli yeriyib mollanın damarları çıxmış, qaxaca dönmüş bumbuz əlini ehmalca sıxdı, xəstənin ayaq tərəfində yer eləyib büzüşdü.

Molla zəif səslə:

– Hamı sənnən əlin üzmüşdü, fəqət mən bilirdim ki, sən sağ-salamat qayıdacaqsan, çünki sənin üzündə şeytan tükü var... – deyib soruşdu. – Haçan gəlmisən?

– Dünən... – balacaboy cavab verib mollaya baxdı, mollanı heç vaxt indiki kimi başıaçıq görməmişdi, başında ya ağ fəs olardı, ya buxara papaq, hərdənbir də əmmamə... İndisə başında gözə güclə görünən ağappaq, napnazik pərqu kimi beş-üç tükü qalan mollanın çil basmış dərisi nazilib çəhrayıya çalan daz kəlləsi yarıqaranlıqda az qala işım-işım işıldayıb bərq vururdu. Saqqalı da qar tək ağappaqdı, arıqlamışdı molla, balacalaşıb yumağa dönmüşdü, gözləri çuxura düşmüşdü, elə cuxura düşənlər də balacalaşmışdı sanki. – Necəsən, molla əmi?

– Adam özü ayaqyoluna gedəndə yaxşı olur... – molla zarafatından qalmadı. – Yox, ayaqyolu adama sarı gəlirsə, demək, işlər fırıqdı...

– Baş açmadım, ay əmi, ayaqyolu adama tərəf gəlirsə nədi? – hələ bir şey anlamasa da, balacaboyun dodaqları qaçdı.

– Qravatımın altına baxsan, başa düşərsən, – qoca balacaboya göz vurdu. – Ləyən qravatın altındadı... Dur, pəncərənin pərdəsin çək, qoy sənin gəlməyin şərəfinə içəri gün düşsün...

Balacaboy qalxıb yaşıl pərdəni araladı, içəri işıqlandı.

– Pəncərəni də açım, molla əmi? Bayırda hava yaxşıdı e...

– Çox açma, bir az aralı saxla, bəsdi... Bu istidə canım qızmır ki, qızmır...

– Dərdin nədi ki, molla əmi? – balacaboy gəlib yerində otura-otura soruşdu.

– Qocalıq... – xəstə ağır-ağır nəfəs aldı.

– Görərsən, hər şey yaxşı olacaq... – balacaboy ürək-dirək verdi.

Molla qurcalanıb uzandığı yerdəcə dikəldi, kürəyini çarpayının dəmirinə dayadı, qarnının üstünə sürüşən ağ üzlüklü yorğanı sinəsinə çəkdi:

– Yaxşı, ya pis, fərq eləməz, balaca, mən gedirəm...

Balacaboy elə kövrəldi ki, bir anlığa nə deyəcəyini bilməyib boğazını arıtlayaraq susdu. Sükut balacaboyu özünə gətirdi, gəlişinin əsl səbəbini xatırladı, intəhası, söhbətə hardan, necə başlayacağını kəsdirə bilmədiyindən udqundu, hülqumu qalxıb-endi.

Molla da az aşın duzu deyildi, üzü üzlər görmüşdü, bir baxışdan anladı ki, ayaq tərəfində büzüşmüş bu adamın köksündə bir boxça sorğu-sual var:

– Xeyir ola, ay cırtdan, sözlü adama oxşayırsan?..

Balacaboy bir yanını qaçaraq qoyub nala-mıxa vurmaq istədi:

– Elə bir sözüm yoxdu, molla əmi, birincisi, yastığın yüngül olsun, naxoşladığını eşidən kimi gəldim sənə dəyməyə... Gecə ikən gələcəydim, qıymadım səni narahat eləməyə... Axı biz ata-bala...

– İkincisi?.. – molla onun sözünü kəsdi. – Uzatma, bala, müxtəsər elə...

– İkincisi... İkincisi... xırda söhbətdi... Anamın qəbrinin yerini öyrənmək istəyirdim ki, ziyarət eləyim... Dünən getdim qəbiristanlığa, amma qəbri tapa bilmədim...

– Tapa da bilməzsən...

– Niyə? – balacaboy duruxdu.

– Arvad ölənnən sonra neçə gün yağış yağdı, qəbirisranlıq da çokəkdə, mahalın, el-aləmin bütün suyu axdı ora, qəbirlər qaldı suyun altında...

– Onu bilirəm, dediklərin haqdı, öz gözümün şahidiyəm, bütün qəbirlər suyun altında idi, bircə Noğul xanım türbəsinin gümbəzi görünürdü.

– Elədi, bala, o vaxt taygöz də qəfil öldü, üç gün basdıra bilmədik yazığı, dəfn olunanda iydən yaxına getmək olmurdu, kəfəninə qurd da düşmüşdü Əşrəfin... – molla yenə ağır-ağır nəfəs aldı, sinəsi xırıldadı. – Sənin özündə də suç vardı, sənin təkidinlə arvadı aparıb qəbiristanlığın lap ucqar yerində, köhnə, adsız qəbirlərin arasında dəfn elədik...

– Anam özü belə vəsiyyət eləmişdi...

– Elədi, bilirəm, – molla razılaşdı. – Vəsiyyət dirilərə ziyan vurmursa, ona əməl eləmək vacibdi... Buna qarşı çıxmağımız düzgün olmazdı... Bu öz yerində... Əşrəfi basdırannan sonra mən də ha axtardım, arvadın qəbrini tapmadım, su, yağış təzə qəbrin torpağını sayalayıb yapıxdırmışdı, ətrafdan sezilmirdi, heç bir nişanə də qalmamışdı arvadın qəbir yerinnən...

– Axı yadımdadı ki, basdıranda yekə bir ağac sancmışdıq anamın qəbrinin üstünə. Beş-üç günlük... Başdaşı əvəzi... Bəlkə sənin də xatirində olar, molla əmi? İndiyəcən gözümün qabağındadı, adi taxta parçası-zad da deyildi, yekə, yoğun, uzunsov, şalbanabənzər, amma qollu-budaqlı ağacdı... – balacaboy bilə-bilə xatırladığını şişirdib müsahibinin yaddaşını yoxlamaq istədi. – Rəhmətlik Əşrəf gücnən qaldırıb dikəltdi o ağacı, deyəsən, qəbirqazanlar da kömək elədi taygözə...

– Onlar sənin gözünə yekə görünür, ay cırtdan... Nə canı-cəsədi vardı ki taygözün? Çırtma vursaydın, canı çıxardı... – molla burnunu çəkdi. – Ağaca-

mağaca da çox güvənmə... Ağac... – molla rişxəndlə təkrarladı. – Ay rəhmətliyin nəvəsi, o selin-suyun gücünə ağac davam gətirər? Neçə ilin qəbirləri, başdaşıları selin-suyun altında pərən-pərən oldu. Elə bil belə məzarlar binayi-qədimdən yoxmuş... Hələ mən sənin ananın qəbrini qazanları da axtardım. İkisi də yağlı əppək olub çıxmışdı göyə, kimnən soruşdum, tanıyan olmadı, demə, yerli adam deyilmişlər, fəqət kim idilər, ananı basdıranda qəbiristanlıqda nə gəzirdilər, hələ də baş açmıram... – nəfəsini dərdi. – İş düz gətirməyəndə quymaq da diş sındırar. Sən gedənnən sonra da təzədən neçə gün yağış yağdı, su qalxıb çıxdı boğaza... Biz nəkarəyik, qurban olduğum belə yazıbmış... Yazıya da ki, pozu yoxdu...

Balacaboy, nədənsə, çəkinə-çəkinə pıçıldayıb:

– Bəs, neyləyəcəyik, molla əmi? – bəri başdan taleyi ilə barışıbmış kimi, fağır-fağır soruşdu. – Belə çıxır ki, anamın dəfn olunduğu yeri dəqiq tapmaq müşküldü, hər yeri qazıb qəbiristanlığın altını üstünə çevirə bilmərik ki...

– Ay bərəkallah! – deyəsən, şagirdinin sözləri ustada xoş gəldi.

– Day başqa çarə yoxdusa, bəlkə elə qohum-əqrabanın qəbirlərinin arasında bir başdaşı da anama qoydurum, hə? Nə deyirsən, molla əmi, belə şey eləmək olar, olmaz?..

– Mən nə deyə bilərəm?.. Dinimizdə belə şey yoxdu, mən belə şeyə rast gəlməmişəm... – molla fikrə getdi. – Yaxşısı budu, qoy sənə Noğul xanım türbəsinin əhvalatını danışım, nəticəni özün çıxart, sonra qərarı da özün ver, necə istəyirsən, elə...

– Yox, molla əmi, – balacaboy razılaşmadı, – sənin danışdığın rəvayətlər, nədənsə, həmişə çətin, dar da yox e, belə... uyarsız məqamlarda yadıma düşür, mənə düzgün yol göstərmək əvəzinə yayındırır, çaş-baş salır...

Molla balacaboyun dediklərindən zərrəcə inciməyib davam elədi:

– Əvvəla, bu rəvayət deyil, olmuş əhvalatdı, türbə də gözümüzün qabağında, qəbiristanlığın düz ortasındadı, ikincisi, uzun-uzadı danışmağa halım da yoxdu, qısa eləyəcəm, üçüncüsü, day gedirəm də, belə görükür ki, day mənim üzübəri yolum yoxdu, bu bizim son söhbətimizdi, xətrinə dəymə molla əminin... – qımışdı. – Onsuz da yəqin o tərəfdə möhkəm qulaqburması verəcəklər mənə...

– Allah eləməsin, molla əmi, sən sağalacaqsan! – balacaboy ürəkdən dedi. – Buyur, əmi, buyur, sözünü danış...

– Mən də qulaq günahkarıyam, özümdən yaşlılardan eşitmişəm, belə danışırdılar ki, varlı bir kişinin Noğul adında dindar bir arvadı olur, neçə il bir yerdə ömür sürürlər, fəqət tanrı bunlardan övlad payını əsirgəyir. Mahalın o başında da bir Noğul arvad yaşayırmış ki, camaat arasında ləğəbi Ayağısürüşkən Noğul imiş... Nədən ki, allahsaxlamış dinc oturan arvad deyilmiş... – mollanın dodaqları qaçdı. – Nə başını ağrıdım, ay ötür, il dolanır, Noğulların hər ikisi rəhmətə gedir. Qəbirləri də düşür yan-yana... Dindar Noğulun əri naxoşdayıb mənim kimi ölüm yatağına düşəndə arvadını görür yuxuda. Ayılanda nökərbaşını çağırıb tapşırır ki, yaxşı bir sənətkar tap, nə qədər pul-qızıl istəyir, ver, qoy rəhmətlik arvadımın qəbrinin üstündə gözəgəlimli bir türbə tiksin. Nə isə, işə başlayırlar, iş tamam olanda nökərbaşı gəlib görür ki, ay dadi-bidad, ustalar, səhv salıb, məqbərə dindar Noğulun yox, Ayağısürüşkən Noğulun qəbrinin üstündə ucaldılıb... Yaxşı ki, ağa neçə aydı öz canı ilə əlləşdiyindən, ölənəcən bunnan xəbər tutmur, nökərbaşı da üstünü vurmur... İllər, qərinələr ötüşür, ağa ilə dindar Noğulun qəbri də itib gedir, Ayağısürüşkən Noğulun məqbərəsini isə, məzarlığa gələnlər hələ də ziyarət eləyirlər... Belə, cırtdan bala... Mən dediyimi dedim... İndi qərarı özün çıxart...

– Day mən gedim, molla əmi... – balacaboy çarəsiz-çarəsiz yerində qurcalandı. – Yormayım səni...

– Tələsmə bir... Xatirimdədi ki, deyəsən, sən mənim yanımda Əşrəfə pul da vermişdin qəbir daşınnan ötrü... – molla gözlərini qıyıb əsl mətləb üstünə gələndə balacaboyun gözləri parıldadı, day danışanı hürküdüb demədi ki, ay molla əmi, indiki kimi yadımdadı, mən pulu Taygözə yox, sənə vermişdim...

– Elədi, molla əmi... – utana-utana mızıldadı balacaboy.

– O pulun bir qismi elə Taygözün öz dəfninə xərcləndi... Gördüm arvadın basdırıldığı yeri tapa bilmirik, çarəmiz kəsildi, pulun bir qismi də fəqir-füqaraya, əlsiz-ayaqsıza, yetim-yesirə verildi... Müharibə idi, balaca, məxluq yeməyə çörək tapmırdı, belə məqamda evdə pul-para saxlamaq böyük günahdı... Üçüncü, lap kiçicik bir qismi də qalmışdı pulun ki... Ona da rəhmətlik arvada "Yasin" oxudum hər cümə axşamı... – molla son nöqtəni qoydu. – Belə ki, daştərəziyə qoysaq, yenə də sən mənə borclu qalarsan, cırtdan bala, mən də həmin borcu sənə halal eləyirəm...

"Halallıq" söhbətini eşidən balacaboy suyu süzülə-süzülə ayağa qalxdı:

– Sağ ol, molla əmi... Mən pul-paraya görə yox, elə səni yoluxmağa gəlmişdim... Bağışla ki, tələsiyə düşdü, əliboş gəldim... Day mən gedim... – təkrarladı. – Molla əmi, tez sağal, dur ayağa, naxoşduq sənə yaraşmır...

– Sən də sağ ol, bala, çıxanda zəhmət çək, pəncərəni bağla... – molla yenə deyindi. – Binəva canım, azarlı canım, qızmır ki qızmır...

BALABABA

Nuralı qəbiristanlığın yanında sağollaşıb maşından düşəndən sonra qəribə bir şey gəldi başıma; maşın sözümə baxmadı. Yox, xarab olub məni yolda qoymadı, intəhası, sanki mən onu deyil, o məni idarə eləməyə başladı. Yoxsa, ömrümdə az qala təyyarə sürəti ilə maşın sürməmişdim, hərdən mənə elə gəlirdi ki, göylə gedirəm, avtomobilin təkərləri asfaltdan aralanıb. Sükan sola-sağa da öz-özünə, qeyri-ixtiyari burulurdu, yolu, hara gedəcəyimizi də maşın özü seçmişdi. Mən sakitcə şəhərə qayıtmaq fikrindəydim, maşınsa qəfil sağa, enli asfaltdan torpaq yola döndü. Sürət də kəlləçarxda. Ayağımı qazdan çəkirəm, sürət azalmır, təəccüblə aşağı baxıram; bu nədi, deyəsən, ayaqlarım yoxdu mənim?.. Lakin qəribədi ki, zərrəcə qorxub-eləmirdim, guya, elə belə də olmalıymış, anadan ayaqsız doğulmuşammış... Bəs, görəsən, mən indiyəcən maşını necə sürürdüm? "İlahi, mən bu maşını necə saxlayacam, necə əyləyəcəm? Özüm heç, gedib adam-zad vuraram maşınla, kimisə bədbəxt eləyərəm". Ümid əl əyləcinə qalırdı. Sövq-təbii pəncərədən bayıra baxsam da, ətrafdan ərşi-əlaya ucalan toz dumanından başqa heç nə görə bilmədim. Əl əyləcini çəkmək istəyəndə maşın lapdan dayandı, özü də çox pis dayandı, yerində bir dövrə də vurdu dayananda...

Bir az gözlədim, toz-torpaq çəkiləndən sonra pəncərədən ətrafa baxıb çəkinə-çəkinə qapını açanda hiss elədim ki, oturacaqdan yapışıb təkanla bayıra tullanmağa, qorxmağa lüzum yoxdu, ayaqlarım yerindədi. Yəqin bayaqdan məni qara basırmış. Amma gəldiyim yer haraydı, niyə məhz bura gəlib çıxmışdım? Burasını anlamaqda çətinlik çəkirdim. Maşından düşəndə bir şeyi yəqinləşdirdim; mən heç vaxt buralarda olmamışam. Ancaq yenə də nə isə mənə tanış gəlirdi, nə isə məhrəmdi, yaxındı, haçansa, hardasa görmüşdüm. Hə, başa düşdüm, bu hündür, həmişəyaşıl ağacları dünən görmüşdüm. Uzaqdan, yolun o tərəfindən... Əlibalanın oğlu Əlibaba ilə oturub çay içəndə... Belə çıxır ki, mən həmin kəndə gəlmişəm? Əlibalanın, Əlibabanın kəndinə... Burası

var ki, yol boyu həm getdiyim, həm də elə qayıtdığım yerlərdə mən hay-haraya, el-camaata rast gəlmirdim. Hər yer -- rayon mərkəzi, qəsəbə, kənd bomboşdu. Ya mən adamları görmürdüm, ya onlar məni... Tək-tük adamlarla rastlaşırdım, danışırdım, söhbətləşirdim, ətrafdasa ins-cins gözümə dəymirdi. Gördüyüm təkdənbir adamlarsa hökmən axtardıqlarımla təkbətək qoyurdu məni. Həmişə bir toyxanalıq adama rast gəldiyim babamgilin məhəlləsində də ölgün səssizlik, sakitlik hökm sürürdü, sanki Nuralıdan başqa hamı kölgə kimi gözlənə-gizlənə, qorxa-qorxa, nəfəsini belə dərmədən gəzirdi, heç kəs başqasının gözünə görünmək istəmirdi....

Gəldiyim kənddə də "qu" deməydin, qulaq tutulardı, sağa-sola, yan-yörəmə baxa-baxa, bir Allah bəndəsinə ürcah olacağımdan əlimi üzüb, uzaqlara baxdım sağ əlimi alnımda "günlük" eləyə-eləyə. Ordan, magistral yoldan dal-badal iri yük maşınları kino lenti kimi yavaş-yavaş, astaca keçib gedirdi.

Uzaqdakı maşınlara başım qarışdı, yaxına baxanda duruxdum. Önümdə cavan bir kişi dayanıb dinməzcə mənə tamaşa eləyirdi, deyəsən, sağ qolu o birindən bir-iki qarış gödək idi, yəqin elə buna görə sol çiyni azca aşağı əyilmişdi.

– Salam...

– Əleykim... – önümdəki istiqanlılıqla salamımı alıb irəli yeridi, amma əl verib görüşmədi, üzündən gördüm ki, tərəddüd eləyir. İndi diqqətlə fikir verdim ki, önümdəkinin təkcə sağ qolu gödək deyil, sağ əli də, sağ əlinin barmaqları da bapbalacadı, kövrəkdi, sıxsan, sümükləri qırılar. Deyəsən, düz-əməlli gün də dəyməmişdi sağ əlinə; bəmbəyaz, ağappaqdı sağ əlinin dərisi...

– Bura Əlibala kişinin kəndidi? – soruşdum.

Önümdəkinin qaşları çatıldı, maraq və təəccüb bürümüş saqqallı sifəti əyildi.

– Hansı Əlibala kişinin?

– Əlibabanın atası...

Qoluqısa boğazını arıtladı:

– Mən Əlibala kişinin nəvəsiyəm, Əlibabanın da oğlu...

– Ürəyimə dammışdı ki, sizin kəndin də camaatı yoxa çıxacaq... – bu dəfə qətiyyən heyrətlənmədim. – Məni bircə nəfər qarşılayacaq... Hanı bu kəndin adamları? – bilmirəm, nədənsə, elə dedim ki, guya, bütün kənd yığışıb mənim pişvazıma çıxmalı imiş. – Adın nədi sənin?

– Balababa... – qımışdı. – Kənddə beş-üç adam qalıb, olar da qaçıb girib evlərinə, eşiyə çıxmıllar...

– Niyə? – bir şey anlamayıb çiyinlərimi çəkdim.

– Evdən çıxmaq rasxoddu, rasxod... Burda nöş dayanmışıq, gəl gedək evə... – sol əli ilə itələyib rəngi getmiş ensiz taxta həyət qapını açdı. – Atamın, babamın adını çəkmisənsə, day qapıda durma...

– Gəl deyirsən, gəlim... – Balababanın arxasınca həyətə girdim.

Deyəsən, bu dəfə ürəyimə damanlar düz çıxmamışdı, ən azı, Balababanın evindəkiləri görəcəkdim, atası ilə söhbətləşəcəkdim. Bura özbaşına, özxoşuna gəlməmişdimsə, deməli, bu görüşdə də hansısa bir ipucu tapa bilərdim, amma həmin ipucunun əsl anama, mənim yuxularıma aid olduğuna inanmırdım, əsas mənbədən, xalamgil tərəfdən əli ətəyindən uzun qayıtmışdımsa, burdan, yad, uzaq adamların evindən nəsə tapa bilməyim ağlıma batmırdı.

Baxımsız, səliqəsiz həyətdən hənir, səs-səmir gəlmədiyindən, balaca, yarıqaranlıq otaqda kiminsə yaşadığına inanmaq olmurdu. Əslində bu, ev deyildi, divarlarının əhəngi getmiş, döşəməsi deşik, alçaq bir daxma idi.

Balababa kibrit çəkib otağın ortasındakı kətilin üstünə qoyulmuş lampanı yandıranda soruşdum:

– İşığınız yanmır? – barmağımı yuxarı tuşlayıb tavandan sallanan elektrik lampasını göstərdim.

Etinasızlıqla əlini yelləyib başını buladı:

– Əşi, o çoxdan sönüb... Borcum var idi işıq idarəsinə, gəlib işığı kəsdilər, elə o kəsilən də kəsildi... Elə yaxşı ki, işıq kəsildi. İşıq mənim nəyimə lazımdı? Boş-boşuna niyə pul verim işığa? Artıq xərcdi də... Tilvizirə baxanmıram, xaladennikim yox... Otur... – divarın yanındakı üstü yırtıq döşəkçədə yer göstərdi.

Mən güc-bəla ilə bardaş qurub oturdum, kürəyimi ehmalca divara söykədim ki, köynəyim əhəngə bulaşmasım.

Balababa mənimlə üzbəsurət əyləşdi döşəkçədə, önümüzdə də yanan lampa. Açıq qapıdan işıq düşürdü pəncərəsiz otağa. Lapdan ağlıma gəldi ki, görəsən Balababa, onun arvad-uşağı harda yatır?

Ağlıma gələni rəndələyib xəbər aldım:

– Evdəkilər gözə dəymir?

Əllərini dizinin üstünə qoyub:

– Övladımız olmurdu bizim... – bəzək-düzəksiz, sakitcə dedi. – Arvadım da qonşu kənddən bir kişiyə qoşulub qaçdı.

– Hə... – nə deyəcəyimi bilməyib mızıldadım. – Atan hardadı?

– Atam iki ildi rəhmətə gedib...

– Ola bilməz!.. – təəccübləndim. – Mən onu dünən görmüşəm axı...

Balababa pırpız saqqalını qaşıdı sağ əlinin xırda barmaqları ilə:

– Yəqin səni də qara basıb... Onu görənlər çox olub. Ölümünnən sonra...

– Maşın vurmuşdu onu?

– Hə... Yük maşını vurmuşdu yolu keçəndə...

– Əsgərlikdə qardaşın var sənin?

– Yox... Mənim yerli-dibli qardaşım yoxdu... Bir bacım var, o da şəhərdə ərdədi...

– Tək qalırsan burda?

– Hə...

– Bəs, necə dolanırsan? – bilmirəm nədəndi, yol boyu kimi görürdümsə, nəzakət xatirinə olsa da, bu sualı verirdim.

– Pensiya alıram... – Balababa sağ əlini irəli uzatdı. – Bu qolum anadangəlmə o birinnən balacadı axı... Əlimə görə məktəb də qurtarmamışam mən, düzdü, sol əlimlə yazmağı öyrənmişəm, o da ki, ilan-qurbağa... – üzümə diqqətlə baxdı. – Sən kimsən, kimlərdənsən, birdən-birə bura necə gəlib çıxmısan, mənim atamı, babamı hardan tanıyırsan?.. – sualları yağış kimi yağdırdı.

– Bura sən gördüyün maşınla gəlmişəm... – zarafata salmağa çalışsam da, demədim ki, məni maşın özü, öz-özünə gətirib. – Sənin atanı, babanı tanımağımsa, uzun söhbətdi, – dedim, yaxşı ki susub dərinə getmədi.

– Çay içirsən? – sanki nəsə yadına düşdüyündən, yerində qurcalandı...

– Yox, yox, zəhmət çəkmə... İçmirəm, çox sağ ol... – qəflətən gözüm divardakı mıxdan sallanan uzun, qara təsbehə sataşdı. – Olar o təsbehə baxım?

Qalxıb təsbehi götürərək mənə uzatdı, təzədən önümdəki döşəkçədə əyləşdi.

– Atamın təsbehidi...

– Bilirəm, dünən onun əlində görmüşdüm, – deyib təsbehin iri qara dənələrini çevirdim.

Birinci dənə, ikinci, üçüncü... və birdən-birə təsbeh öz-özünə qırıldı. Sanki dartıb qırdılar əlimdəkini, əlimin üstündəki əl qırdı təsbehi. Dənələr döşəməyə

dağılanda mən əl-ayağa düşüb, əlimi yerə dayaq verərək dikəlib dağılanları yığmaq istədim.

Balababanın səsi bu dəfə gözlənilmədən amiranə gəldi:

– Sən narahat olma, rahat otur, sonra mən bütün dənələri yığıb təzədən bağlayaram təsbehi... Səndə günah yoxdu... İpi çürüyüb təsbehin... Əl vuran kimi qırılır... Heç dənələri yığıb bir yerə bağlamaq lazım deyil bəlkə? Mənim əlim belə... –acı-acı gülümsünüb yenə sağ əlini əşyayi-dəlil kimi azca irəli uzatdı. – Day kim çevirəcək o təsbehi? Sınamışam yüz kərə, solaxay təsbeh çevirib zikr eləyə bilmirəm... Belə baxanda, elə qırılıb dağılmağı yaxşıdı... Boş-boşuna nə vaxtacan mıxdan sallanmaq olar? – qalxmaqdan vaz keçib yerimdən durmasam da, onun dedikləri inanılası deyildi; təsbehin ipinin sanki məndən, mənim əlimdən, barmaqlarımdan xəbərsiz gözəgörünməz bir güc-qüvvə ilə dartılıb qırıldığını əməlli-başlı hiss eləmişdim.

Əlimdə yalnız təsbehin qırıq ipi qalmışdı, bir də başı, yumru, qotazlı-düyünlü tərəfi... Yarıqaranlıq otaqda yerə düşənləri görmək müşkül olsa da, döşəməyə dəyən zərif, lakin yeknəsəq taqqıltı dağılanların – dənələrin hərəsinin bir tərəfə səpələndiyindən xəbər verirdi. Bəlkə döşəmədən sıçrayıb divara çırpılan dənələr də olmuşdu. Var qüvvə ilə bilyard daşlarının topasına vurulan zərbə kimi... Fərq burasındaydı ki, bilyard taxtasındakı daşların hərəsi bir tərəfə diyirlənsə də, göz qabağında olur. Mənim əlimdə qırılan qara təsbeh dənələrinin hamısını yarıqaranlıq otaqda bir yerə yığmaq, toplayıb ipə keçirmək daha qəlizdi, daha çətindi, daha müşküldü. Ola bilsin ki, dənələrin beş-altısı döşəmənin deşiyinə düşmüşdü, ordan da aşağı...

...Qalxıb dinməz-söyləməz otağı tərk elədim, həyətdəki ot basmış cığırla asta-asta, aram-aram addımlayaraq yorğun-yorğun, süst-süst bayıra çıxdım, ətrafıma, yan-yörəmə baxmadan – onsuz da dövrəmdə yenə kimsə gözə dəyməyəcəkdi, deyəsən, mən indiyəcən gözlə görünənləri deyil, yalnız mənə lazım olanları görürdüm – maşına sarı getdim. Bilmədim Balababa arxamca gəlir, ya yox...

FİDAN

Vəfa masanın arxasından qalxıb göyərtənin dəmir hasarına yaxınlaşdı, ətrafa boylanıb sahilə baxdı. “Bu nədi, xudaya, qulağım səsə düşüb, kimdi burda məni tanıyan, kimdi məni çağıran? Dünyanın axırına da getsəm, xeyri yoxdu, mən ki siqaret çəkmək istədim, hökmən kimsə qəmiş olmalıdı”. Adını bir də eşidəndə tamam diqqət kəsildi. Qırmızı çətirli kafedən on-on beş addım aralıda, kimsə qayanın üstündə atılıb-düşərək ona əl yelləyirdi, əl elədikcə də dizdən yuxarı olan ağ, nazık tumanı az qala belinəcən qalxırdı. Ətrafdakıları da əl yelləyənin səsi, çığırtısı, qıy-qışqırığından çox, görməli, gözəgəlimli yerləri cəlb eləyirdi. Çığıran kəs sahilə yan almış gəminin göyərtəsində səs gələn səmti axtaran adamın onu tez görməsi üçün sağ ayağındakı ağ, üstüaçıq, yüngül yay çəkməsini çıxardaraq əlinə götürüb yelləməyə başladı.

– Vəfa!.. Vəfa!..

Nəhayət, gəmidəki hay verdi:

– Cenifer?!. – bir anlığa gözlərinə inana bilmədi. – Aaz, sən orda neynirsən?

Cenifer rahat nəfəs alıb əlindəkini ayağına keçirdi:

– Bəs, sən orda neynirsən? Sən gəmiyə minənnən kafedə oturub əl eləyirəm, çağırıram səni, axırda gördüm yox e, yaman fikir-xəyal aparıb səni, öz aləmindəsən. Əlacım kəsildi, sənə görə gəmi qayıdanda qayanın üstünə çıxdım... Düş o şoğərib gəmidən, gəl kafeyə, gözləyirəm səni... – göyərtədəkinin onu yaxşı eşitdiyini anlayıb səsini yavaşıtdı.

– Otur orda, gözlə, indi gəlirəm... – Vəfa da sevincək əlini yelləyib qayanın üstündəki ilə məzələndi. – Aaz, çox tullanıb-düşmə, abrımız getdi, dalınqabağın qalır çöldə...

Cenifer qəhqəhə çəkdi.

...Onlar üz-üzə əyləşmişdilər, biri qəhvə içirdi, digəri bədəvi çayı...

– Səni burda görəndə gözlərimə inanmadım...

– Mən də... Sən hara, bura hara?

– Qızım ərəbə ərə getdi. Ona dəyməyə gəlmişəm... Hərdənbir bura gəlib gəmi ilə Nildə gəzirəm... Siqaret tüstülədib çaya baxıram, rahatlanıram, əsəblərim sakitləşir...

– Eh, bu çayda da baxmalı bir şey yoxdu, Nil elə bizim Kürə oxşayır...

– Hə, elədi, Nil də Kür kimi çirklidi...

– Amma Nildə timsahlar var deyirlər, ona görə bu çayda çimmək qorxuludu... Timsahlar hücum çəkir adama... Ujas... Elə yaxşı ki, bu çayın suyu bulanıqdı, yoxsa, timsahlara yem olanların sayı çoxalardı...

– Az, timsah səni yeyib-qurtarmamış, qoy bir xəbər alım... Bəs, sən buralarda nə gəzirsən, xeyirdimi?

– Yolüstü dayanmışıq... Ərimin işi vardı burda... Nə isə, kontrakt məsələsi ilə bağlıdı... Sabah da Bəhreynə yola düşürük... Şükür ki, burda az qaldıq...

– Nolub, az, bura, gül kimi yerdi?

– Gül kimiliyini deyə bilmərəm, amma ağır şəhərdi bura, zəhmli, qaraqabaq şəhərdi. Elə bil hər yanda ruhlar dolaşır. Qədim heykəllər girib gecə yuxuma, qorxudan səhərəcən yata bilməmişəm. Sağ-salamat çıxıb gedək burdan, görək başımıza nə gəlir, gəzmək bir yerdə oturub qalmaqdan yaxşıdı...

– Kefdəsən ki... Maşallah, tfu, tfu, ful görünürsən... ay... zad.... Az, əsl adın nədi sənin, a yanmış?

– Cenifer...

– Az, onu bilirəm e, əsl adını soruşuram sənin, anadan olanda dədənnənən sənin adını nə qoyublar?

– Fira...

– Fira nədi, az?

– Fidan...

– Ərün fransızdı, ya holland?

– Yox, fransız, holland hardan ağlına gəldi? Xalis ingilisdi...

– Nəçidi?

– Düzü, mən düz-əməlli maraqlanmıram, neft işindədi deyəsən...

– Denən doşab almışam, bal çıxıb də...

– Doşab nədi?.. Mən heç nə almamışam e, məni alıblar...

– Düz deyirsən, arvadlığımnan mənim sənə tamahım düşürsə, gör yazıq kişilər nə çəkir...

– Utandırma məni, sən canın... Yenə həmişəki kimi dilli-dilavərsən... Səni gördüm, şəhərimiz yadıma düşdü...

– Gedib-eləyirsən vətənə?

– Yox. İngilis vətəndaşı olandan sonra gedəcəm. O da ki, uzanır. Ərim deyir ki, doğsan, uşağımız o saat İngiltərə vətəndaşı sayılacaq, sənin də vətəndaş olmağın asanlaşacaq...

– Bəs, nə durmusan, doğ deyir, doğ da...

– Ey, başın hardadı sənin, gec-tez vətəndaş olacam da, hara tələsirəm?.. Bir pasporta görə tez-tələsik uşaq doğub, bu cür kukla bədənimi korlaya bilmərəm ki...

– Hə, orası elədi, fiqurana söz ola bilməz...

– Göz dəyməsin, sən də pis deyilsən...

– Yox... Görmürsən necə şişmişəm? Arıqlaya bilmirəm mən... On-on beş kilo arıqlasaydım, dərdim olmazdı...

– İdmanla məşğul ol, arıqlayarsan... Olarsan bomba... Bir də ki, xəmir xörəklər yemə, şirniyyata yaxın durma... Bax, mən özüm neçə ildi çörək yemirəm. Bəs nə, gözəllik qurban tələb eləyir...

– Yox, mənlik deyil, gödənimi saxlayıb nəfsimə güc gələ bilmirəm mən... Ac qalan kimi başım hərlənir...

– Sən bir sına... Əvvəl-əvvəl həmişə çətin olur. Sonra öyrəşirsən... Arıqlasan, kişilər sənin dərdünnən Məcnuna dönüb səhraya düşəllər... Bir də görərsən ki, bu şəhərin ətrafı sənin elçilərinlə doludu...

– Az, Məcnun dedin, yadıma düşdü. Eşitdim, mənim rəhmətlik xalam oğlu ilə də Leyli-Məcnun olmusuz?..

– ...

– Day nə qızarıb forsnan qaşqabağını sallıyırsan, az, asıb-kəsmədik ki səni, ikilikdə söhbətdi eləyirik...

– ...Mənə padruqam zəng vurub xəbər verdi. O da təsadüfən televizorda görübmüş... Dəqiq bilən oldu nədən baş verib o partlayış?

– Yox, elə qaranlıq, üstüörtülü qaldı... Bilinmədi ki, adicə qaz sızmasıdı, yoxsa intihar...

– Yəni, necə?..

– Yəni, bilinmədi ki, özünü öldürmək üçün qazı qəsdən açıq qoyub, ya bədbəxt hadisənin qurbanı olub...

– Heyf... Yazıq... Dəhşətli ölümdü... Allah rəhmət eləsin...

– Az, qulağını bəri gətir... Sənə bir söz deyəcəm, amma sən Allah, öz aramızda qalsın... Çünki kimə desəm, inanmaz... Üstəlik, adama da birtəhər baxar... Nə isə... O gün... Türkün məsəli, müsəlmanın o günü də... Onda hələ qızım ərə getməmişdi... Hə, o gün yuxuda görmüşdüm rəhmətliyi, eşidirsən... Görmüşdüm ki, gəlib bizim binanın qabağına, anamı axtarır... Hə, o, anamı axtaranda mənnən rastlaşır... Məhəlləmizdəki bağın içində yaxşı bir kafe var e... tanıyırsan da... hə, ora gedib xeyli otururuq orda... Yuxu deməyimnən çaşma a, Həzrət Abbas haqqı, indi səni gördüyüm kimi canlı, diri görmüşəm rəhmətliyi... Oyanannan sonra günortayacan özümə gələ bilmədim... Sənin fransıza, ya hollanda ərə getməyini də o, elə həmin yuxudaca xəbər verdi mənə... Day nələrdən danışmadıq, az... Qohum-əqrabadan elə adamları soruşdu, elə adamlardan danışdı ki, mən onların adlarını birinci kərəydi eşidirdim, çoxunu tanıya da bilmədim... Az, day nöş ağlıyırsan, yuxudu da... Sil gözünün yaşın, camaat baxır, bizi biabır eləmə burda...

– Əvvəllər mən də tez-tez yuxuda görürdüm onu. Ölüm xəbərini eşidənnən sonra yuxuma girmir...

– Yəqin orda yeri narahatdı... Bir molla tapıb “Yasin” oxutdurmaq lazımdı onun üçün...

– Hərdən özümü günahkar sayıram, elə bilirəm ki, o, mənim ucbatımdan ölüb... Məni çox istəyirdi axı...

– İndi istəməsin, o, elə məni də çox istəyirdi, mənə şeir də yazmışdı rəhmətlik... Hayıf ki, itirmişəm mənə şeir yazdığı vərəqi...

– Vərəq nədi e, sən vərəq hayındasan, mən başımı itirmişəm...

– Aaz, çalış, heç nəyini itirmə, yoxsa, bütün ömrünü axtarmaqla keçirəcəksən...

2016-2019

Qi Or El (Əyyub QİYAS)

***

Mən – arzulardan sonra
yaranan boşluğam,
sevdadan əvvəl çırpınan könül...

Mən – kimsəsizliyin şah əsəriyəm,
tənhalığın son səhifəsi...

Mən – Adəmdən əvvəl yaranmışların ilkiyəm,
ondan sonra yaşayanların axırıncısı...

Mən – İbrahimə göndərilən qoçam,
İsmailin boğazına dirənən bıçaq...

Mən – yaşamaqdan yorulan Adamam,
yaşaya bilən Qoçaq...

Mən – son gülləsini
sevgilisinə sıxan əsgərəm,
ilk gülləsini havaya atan düşmən...

Mən – yalın ayaqları ilə
tikanlıqda gəzmək istəyən şikəstəm,
ovulmuş gözlərini Günəşə qıyan kor...

Mən – sevməkdən yorulan ürəyəm,
Səndən doymayan Bəndə!

Məni Səni sevdiyim qədər sev, Allahım,
sevmək istəyəndə...

* * *

Hər gecə yatmazdan əvvəl –
bir qaşıq zəhər.
Hər gecə yuxuda
ölümlə bərabər.
Hər gecə qəbirdə
oyanmaq əzabı.
Hər gecə zülmətdən
sıyrılmaq qorxusu...
Hər gecə daha bir
ölüm yuxusu...

* * *

ehh...
məni dünyaya gətirən qadın,
bilsəydin bu dünya necə zalımdır
ana olmağına nifrət edərdin...

* * *

Çernobılda ölmədi,
Qarabağda şəhid olmadı,
Gəldi, metro qatarının altına atdı özünü...
Sevdiyi qıza göz dağı vermək üçün.

* * *

Bir gün qapını açıb
Yerimi boş görərsən.
Tez baxarsan güzgüyə,
Gözündə yaş görərsən.

Görərsən pəncərəmdən
Sənə baxır kitablar.
Elə bilərsən yenə
Otağımda kimsə var.

Masamı toz basacaq,
Silməyə əlin gəlməz.
Bəsdir zəhəri çəkdin
Deməyə dilin gəlməz.

Otağımda bir sükut
Başlayacaq o gündən.
Axtaracaqsan məni
O sükutun içində.

Üstünə yeriyəcək
Divardakı şəkillər.
Baxıb köks ötürərsən:
"Harda qaldı o illər?"

Yazdığın son işmarış
Yenilənər əlində:
"İki çörək, bir sabun,
Bir də ət al gələndə."

O gündən xatirələr
Həmdəm olar sənlə.
Yoxluğumla barışıb
Yaşayacaqsan belə.

Hər şeyi belə qoyub
Çəkiləcəm gözündən.
Qayğıların bitəcək...
Muğayat ol özündən.

* * *

Bu qədər adam içində
bu adam tənha yaşayır.
Yalandan alır nəfəsin,
alır, bir daha yaşayır.

Gözlərində qəm gəzdirir,
ovucunda dən gəzdirir,
əynində kəfən gəzdirir,
ağzında dua yaşayır.

Yaşayır yalquzaq kimi,
adamlıqdan uzaq kimi.
yaşayır, lap uşaq kimi
yaşayır, guya yaşayır.

* * *

Mən kövrək adamam, Qarışqa,
baxa bilmirəm çiynindəki
dağdan ağır yükə.
Belə zülüm eləməzlər adama…
Səni görəndə qul bazarlarında qaynaşan
qardaşlarım düşür yadıma.

Mən kövrək, adamam, Qarışqa,
belə zülüm eləməzlər adama.
O gün metronun girəcəyində
bir dilənçi qadın gördüm,
anam düşdü yadıma…

Mən kövrək adamam, Qarışqa,
belə zülüm eləməzlər adama.
Belim donqarlaşıb
sənin kimi özümdən ağır yük daşımaqdan…
səni bilmirəm, Qardaş,
amma mən yoruldum sənin kimi yaşamaqdan,
sənin kimi tapdanmaqdan yoruldum!
Əzilməkdən yoruldum, Qarışqa!…

* * *

Sabahların biri
mənsiz açılacaq səninçün...
və sonra yeni sabahlar gələcək mənsiz.
Darıxacaqsan məndən gələn
(ürəyini bulandıran)
tütün qoxusundan ötrü.
Məni qəlbində dəfn edəcəksən.
Masam üstə qalan külqabıda
sonuncu siqaret kötüyünü
dəsmalına büküb
yastığının altına qoyacaqsan,
alışacaqsan
bir vaxtlar sevmədiyin qoxuya...
Hər gecə
o qoxuyla gedəcəksən yuxuya...

* * *

Yaşamaq –
hər gecə bir az ölməkdir,

hər sabah bir az doğulmaqdır.
Yaşamaq –
yaşadıqca sevdiklərini itirməkdir,
itirdiklərini anmaqdır.
Yaşamaq –
boşalan qədəhlərin çığırtısıdır,
sərxoş olub ağlaya bilməkdir.
Yaşamaq –
sevdiyin qadının
həsrətini çəkməkdir,
həsrətə aşiq olmaqdır.
Yaşamaq –
ayrılıqdır,
ayrılıqlara alışmaqdır,
ayrıldıqca hər dəfə ümidə yenidən aldanmaqdır.
Yaşamaq –
həyatı sevə bilmədinsə boş şeydir,
sevdinsə ona kölə olmaqdır.

* * *

Elə gecələr olur
sabah açılmır ki, açılmır...
Günəşi qarşılamaq istəyir
adam sahildə.
Elə gecələr olur
sabah açılmır ki, açılmır.
Görürsən gecə var...
sabah var...
günəş var...
amma bunları yaşamağa
bir adam yoxdur, adam.
Elə gecələr olur
sabah açılmır ki, açılmır...
Yatağın buz bağlayır,
yastığın daşa dönür,
yorğanın beton plitə kimi çökür üstünə.
Elə gecələr olur,
sabah açılmır ki, açılmır...
hər an saat diliylə
çıqqıldayır adamın ruhunda.
Sutkalar saata,
saatlar dəqiqəyə,
dəqiqələr saniyəyə dönür,
zaman geri saymağa başlayır
və adam bitir...

Mən elə gecələrdə
yaşamaqdan qorxuram,
Mən elə gecələrdə
ölməkdən qorxuram!
Elə gecələr olur,
adam unudur bütün sabahları,
olumla ölümün sərhədində
bir telefon zəngi qaytarır adamı həyata...
...Elə bu sabah
məni ölümün sərhəddindən qaytaran
telefon zəngi kimi...
P.S. Sabahları oyanmaq istəyən varsa
telefonları səssizə qoymasın.

* * *

Məni aldatmağa nə var ki...
Aldanışlı oluram sevəndə...
Anlayışlı olmağa çalışsam belə
Sevgi tutur gözlərimi.
Məni aldatmağa nə var ki...
Göy üzü qədər uzaq deyil arzum.
Bir kəlmə sözə ehtiyacım olur elə anlarda
"Sevirəm" – deyib məni aldadanların aşiqi oluram...
Şirin yalanları sevirəm mən də...
Məni aldatmağa nə var ki...

SƏNİ KÜLƏK APARACAQ

Əsir dəli-dəli külək,
Təklikdən üşüyür ürək,
Ay qız, ver əlini görək –
Səni külək aparacaq!

Qoparacaq çiçəkləri,
Qurudacaq ləçəkləri,
Əlindəki əlcəkləri...
Səni külək aparacaq.

Öpəcək qara telindən,
Qucacaq incə belindən,
Çətrini alıb əlindən
Səni külək aparacaq.

Bir himə bənddi, bir himə,
Hər şeyi salıb tilsimə,

Gəl bürünək pencəyimə
Səni külək aparacaq.

Dağıdıb bəndi-bərəni,
Eləyəcək öz yerini.
Qatıb qabağına məni
Səni külək aparacaq.

QARABAĞ

Sən Vətən söylədiyim bağda çiçəksən, Qarabağ!
Sən dünənsən və bugünsən – gələcəksən, Qarabağ!
Daha bəsdir yaranı göynədib ağrıtdı yağı,
Daha bəsdir Vətənində belə təksən Qarabağ!
Daha bu ayrılığa qalmayıb heç kəsdə təpər,
Az qalıb, gün gələcək ki, güləcəksən, Qarabağ!
Onu bil ki, bu Vətən sənlə alır hər nəfəsin,
Sən əzəldən bu Vətənçün bir ürəksən Qarabağ!
Yetişibdir sinənə sancıla üçrəngli hilal.
O günü tezlik ilə, bil, görəcəksən, Qarabağ!

* * *

Gedək, ver əlini, gəl çıxıb gedək,
Qoy qalsın bu sahil, bu qum, bu dəniz.
Onsuz da sirr qalır çox şey ömürdə,
Üç-beş adam bilir nə çəkirik biz.

Zülmətlə baş-başa qalsın qoy gecə,
Ayın bənizinə qonsun buludlar.
Biz də çıxıb gedək, səssiz, sakitcə
Qarşıda bir uzun dayanacaq var.

Gedək, gəl aparaq xatirələri,
Kimin nə vecinə kim harda qalır.
Adam var ürəkdə yaşayıb gedir,
Adam var eləcə yollarda qalır.

Bəzən uzun gəlir bu qısa həyat,
Bəzən qısa olur uzunca ömür.
Nə qədər istəsən yaşa, onsuz da
Adam yaşamaqdan doyunca ölür.

Elə sevgilər də ömür kimidir,
Ən tanış yolda da aza bilirsən.
Bu tanış yollarda son azanların
Qoy biri mən olum, o birisi sən..

SAAT

Sən üzümə baxa-baxa
Ömrümü yeyib gedirsən.
Pıçıldayıb səhər, axşam...
Sözünü deyib gedirsən.
Sən heç də mənim ömrümə
Yiyəlik eləmə, yeri.
Lap bezdim sənin səsindən,
Başımı ağrıtma, kiri!
A balam, xərçəngsən, nəsən?
Cibimdə...
evdə...
qolumda...
Əqrəblərin tikan kimi,
Dayanıb ömür yolumda.
Gəl sən mənim əvəzimə
Yaşama olan ömrümü.
Durum söndürüm işığı,
Görməyim qalan ömrümü.

* * *

Xırda balıqları
böyük balıqlar
yedilər, atam, yedilər.
Yedilər doymadılar...
Yedilər, adam yedilər.
Bir gün xırda balıqları
qurtardı suların.
Böyük balıqlar
böyük balıqlar
başladı yeməyə.
Biz də oturub
başladıq gözləməyə
böyük balıqları
böyük balıqlar
havaxt yeyib qurtarar.
Yedilər, atam, yedilər...
Yedilər doymadılar.
Yedilər, adam yedilər...

ANAR

QANLI İLLƏRİN ŞƏHADƏTİ

Azərbaycanın iki böyük ziyalısı Mir Möhsün Nəvvab (1833-1918) və Məmməd Səid Ordubadi (1872-1950) Qafqaza erməni-müsəlman davası haqqında iki çox mühüm kitab yazmışlar. Nəvvabın kitabı elə belə də adlanır: «1905-1906-cu illərdə erməni-müsəlman davası». Ordubadinin kitabının adı isə belədir: «Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda erməni-müsəlman davasının tarixi».

Mir Möhsün Nəvvab Qarabağı ensiklopedik şəxsiyyət, şair, rəsam, «Vizuhil Ərqəm» adlı qiymətli musiqi risaləsinin müəllifi, musiqişunas alimdir.

Məmməd Səid Ordubadi «Qılınc və qələm», «Dumanlı Təbriz» kimi məşhur tarixi romanların müəllifidir.

Bu iki görkəmli şəxsiyyəti, o vaxt 73 yaşında olan Nəvvabı və 39 yaşlı Məmməd Səidi XX əsrin əvvəllərində baş vermiş müdhiş hadisələr haqqında şəhadətnamə yazmağa nə vadar etmişdir? Mənim fikrimcə iki amil: şəxsən şahid olduqdarı və başqalarından eşitdikləri, yazılı şəkildə oxuduqları məlumatları qoruyub saxlamaq və gələcəyə ötürmək ehtiyacı, bir də gələcəkdə bu sayaq hadisələrin təkrar olunmaması üçün vacib xəbərdarlıq.

M.S.Ordubadinin bu kitabı mənə hardasa böyük rus yazıçısı İvan Buninin «Lənətə gəlmiş günlər» sənədli əsərini xatırlatdı. Hə iki müəllif yaşadığı dövrdə şahidi olduqları dəhşətli tarixi hadisələrdən sarsılmış və gördüklərini, eşitdiklərini insanlara ismarıc, xəbərdarlıq kimi qələmə almışlar.

Şuşada, Qarabağda gözü qarşısında baş verən hadisələrin canlı şahidi olan Nəvvabın da Qafqazın başqa yerlərində – Bakıda, Naxçıvanda, İrəvanda, hətta Təbrizdə və Xorasanda cərəyan edən qanlı olaylardan da xəbəri vardı.

Ordubadi isə qəzet vasitəsiylə müraciət edərək bu hadisələr haqqında şahidlərin yazılı xatirələrini ona göndərmələrini xahiş etmişdi. Naxçıvanda, Ordubadda özü gördüyü dəhşətlərlə yanaşı, müxbirlərin ona göndərdikləri faktlardan da gen-bol istifadə edərək Bakıda, Gəncədə, İrəvanda, Eçmiədzində, Cəbrayılda, Qaryagində, Tiflisdə, Qazaxda, Zəngəzurda baş verən toqquşmalar haqqında ürək parçalayan məlumatlar verir. İlk adı «Qanlı sənələr» olan «Qanlı illər» kitabı da Nəvvabın əsəri kimi qanamış bir qəlblə qələmə alınmışdır.

Mənimçün əlamətdar olan fakt bir də odur ki, Ordubadi kitabı üzərində işləyərkən, özü qeyd etdiyi kimi, ulu babam, maarifçi və el ağsaqqalı Ələkbər Rəfibəylinin verdiyi məlumatlardan da geniş istifadə edib. Ordubadi Ələkbər bəyin əsirlərin dəyişdirilməsində iştirakından da yazır.

Hər iki əsəri elə onlar Bakıda çap olunduğu illərdə, yəni 1991 (Ordubadinin kitabını) və 1993-cü illərdə (Nəvvabın kitabını) oxumuşdum. İndi üstündən 28 il keçəndən sonra yenidən bu mətnləri tamam başqa gözlə oxudum və təəssüratımı oxucularla bölüşmək istədim.

Hər iki sənədli əsər 1990-cı illərdən bu günə qədər baş verən hadisələr, özəlliklə Qarabağ münaqişəsi haqqında çox vacib və acı nəticələr çıxarmağa əsas verir. Psixiatriyada belə bir istilah var: «Deja vyu». İnsanda ilk dəfə gördüyü hadisəni, səhnəni, guya ki haçansa daha qabaqlarda da görmüş kimi təəssüratın yaranması.

Nəvvabın və Ordubadinin qələmə aldığı hadisələrlə, davranışlarla, gedişatlarla, münasibətlərlə tanış olduqca sanki az qala yüz il bundan qabaq olmuş hadisələrin XX əsrin sonunda güzgüdəki kimi əks edildiyinə mat qalırsan. Ermənilər həmin ermənilərdir və mübarizə metodları da həminki üsullardır: əsassız iddialar, riyakarlıq, yalan, görünməmiş qəddarlıq, əzazillik, rəhmsizlik. Əlbəttə, mən bu keyfiyyətləri sadalayarkən «erməni» sözünü işlətmək istəməzdim, çünki hər xalqın içində pis, xəyanətkar, amansız və iftiraçı şəxslərlə yanaşı, layiqli insanlar da olmaya bilməz. Odur ki ayrı-ayrı yaramazlara görə bütün xalqı damğalamaq düz deyil. Ermənilərin başqa xalqlara nifrəti, qisasçılığı, qəddarlğı təbliğ etməyən yazıçıları da var, dəqiq elmlər sahəsində ciddi alimləri, istedadlı bəstəkarları, rəssamları, rejissor və aktyorları da… Çirkin siyasi oyunların girovu olmuş sadə ermənilər – əkinçilər, bənnalar, çobanlar, adi peşə sahibləri türklərə, müsəlmanlara düşmən kəsilməyə öz xoşlarıyla can atmırlar. Kimi yalan təbliğatın uydurma miflərinə uyduğundan, kimi hədə-qorxu qarşısında çəkilib bu axına qoşulur. Cocuqluqlarından qulaqlarına pıçıldanılan fikirlər: «tarixi müsibətlər» və onların qisasını almaq hissi çoxlarının dünyagörüşünü zəhərləyir. Siyasətçilər, Raffi, Sero Xanzadyan kimi yazıçılar, Zori Balayan kimi cızmaqaraçılar öz şəxsi məqsədlərini, şöhrət, hakimiyyət, sərvət hərisliyini güdərək beyinləri zəhərləməsəydilər, ermənilər də bütün başqa xalqlar kimi qonşularla dava-dalaşsız, özgə malına (ərazisinə, tarixinə, mədəni abidələrinə, musiqisinə, mətbəxinə) tamah salmadan öz normal həyatlarını yaşayardılar və belə həyat tərzindən daha çox xeyir görərdilər. Heyhat!

Mir Möhsün Nəvvab bu gün belə aktual səslənən «Erməni tayfasına nəsihətlər» yazısında bu xalqa müraciət edir:

«Əvvəla bu tayfadan (erməni) sual edirəm ki, bu qədər mərdimazarlıq və nahaq qanlar tökməklə, mülkləri və malları talan və tarac edilməsində və yanıb xarabazarlığa çevrilməsində səbəb və mətləbiniz nədən ibarətdir? Əgər məqsədiniz padşahlıq və kral olmaqdırsa, sizin bu təbiətinizlə, insafsızlığınızla heyhat ağlasığan şey deyil. Allah-təala zalıma iqtidar və ixtiyar verməz. Bir mötəbər ziyalı mənə danışırdı ki, Almaniyanın dövlət xadimi ona deyib: ermənilər ki bu cür yol tutub, çox tezliklə dünyanın üzündən yox olub gedəcəklər, onlardan bir əsər-əlamət qalmayacaqdır.

Siz xalqınız içərisində əkdiyiniz qəddarlıq toxumunun tezliklə barını görəcəksiniz. Məgər bunların içərisində idraklı, gələcəyi görən və Allahdan qorxanları yoxmudur ki, uzaqgörənlik edib bu fitnə-fəsadlara bais olan və özlərinin xeyrindən ötrü aləmi xəsarətə düçar edənlərə öyüd-nəsihət verib onları düzgün yola qaytaralar? Bircə bunlardan sual edən yoxdur ki, ay ermənilər, vilayətdə alış-verişlə məşğul olduğunuz, zavod və karxanalar

işlətdiyiniz, pul və malınız əlinizdə, çoxunuz milyonçu olduğunuz halda və bir kimsənin sizə gözünüz üstündə qaşınız var demədiyi bir vaxtda Qafqaz vilayətinə saldığınız bu fitnə-fəsad nə üçündür?»

Sanki Nəvvab yüz neçə ildən sonra bu sualı «miatsum» təhrikçilərinə verir və hələ də məntiqli cavab ala bilmir.

Günümüzün acı reallığı budur ki, indi özlərinin «müstəqil» dövlətləri saydıqları əslində Rusiyanın forpostu, vassalı olan ərazidən bütün başqa millətləri, xüsusi qəddarlıqla da müsəlmanları qovaraq monomilli bir ölkə yaratmışlar. Buna baxmayaraq, bütün əsassız iddialarından və qəddar hərəkətlərindən danışarkən bir millət olaraq bütünlüklə ermənilər yox, onları bu uğursuz yola çəkən «azğın millətçiləri», başını itirmiş kütlədən öz məqsədləri üçün istifadə edən siyasətbazları, daşnakları, qnçakları, terrorçuları nəzərdə tuturam. Bir də «qımdat» kəlməsindən istifadə edirəm. Bu sözü Nəvvabın kitabından bildim. Onun kitabına Ön sözdə bu kəlmə belə izah olunur:

«M.M.Nəvvab yazır ki, erməni millətçiləri: əvvəl Osmanlı dövlətində, sonra isə Rusiya şəhərlərində xüsusi qımdatxanalar (müasir saqqallı erməni quldurlarının əcdadlarını), türklərə qarşı birləşdirmiş mərkəzlər yaratmışdılar. Ora ziyalılar, cavanlar, sənətkarlar və erməni icmasının başqa nümayəndələri cəlb olunurmuş. Osmanlı və Azərbaycan türklərinə qarşı təbliğatda, təxribatda, sui-qəsddə, eləcə də silahlı toqquşmalarda istifadə etmək üçün lazımi hərbi sursatın, çar məmur və zabitlərinin rüşvətlə ələ keçirilməsi məqsədiylə varlı erməni təbəqələrindən pul toplamaq qımdatların əsas vəzifələrindən biri idi».

Tanış mənzərədir, deyilmi? Bizim günlərdə «Krunk»u ya «Asala»nı xatırlatmırmı? Çağdaş Qarabağ məsələsiylə analogiya göz qabağındadır.

Yaxud başqa analogiya: Rüşvət verərək məhkum olunmuş azərbaycanlı gənci həbsxanaya erməni əsgərlərinin aparmasına razılıq alırlar. Nəvvab yazır:

«Oğlan məmura yalvarıb xahiş edir ki, erməni əsgərlərlə göndərməsin. Çünki onlar yolda məni öldürəcəklər. Məmur ona qulaq asmayıb zindana aparmağı əmr edir. Erməni əsgərlər oğlanı çəkə-çəkə aparıb yerə yıxdılar və süngü ilə dəlik-deşib edib öldürdülər. Sonra isə məlumat verdilər ki, qaçmaq istəyirdi, biz öldürdük».

Sovet vaxtında Stepanakertdə üç məhkum azərbaycanlı qapalı dustaq maşınında aparılarkən ermənilərin maşına od vurub hər üçünü öldürməsi yada düşür.

Tək Dağlıq Qarabağı deyil, ətraf rayonları də işğal etmiş ermənilər bunu Ermənistanla birbaşa əlaqə yaratmaq və təhlükəsizlik səbəbləriylə izah edirlər. Eynilə 1905-ci ildə də Azərbaycan kəndlərini ələ keçirərək İrəvan, Şuşa, Zəngəzur və Gəncə arasında erməni zolağı yaratmağa çalışırdılar.

Bu analogiyaları sonsuza qədər davam etdirmək olar.

1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı amansız mübarizəsi hansı tarixi şəraitə təsadüf edir? Rus-yapon müharibəsində Çar imperiyasının məğlubiyyəti nəticəsində ölkədə yaranmış hərc-mərclik, Birinci rus inqilibı və hakimiyyətin zəifləməsi. Elə bu zaman ermənilər baş qaldırıb avtonomiya iddiasıyla və bu avtonomiyanın tərkibinə Türkiyə torpaqlarının da daxil edilməsi tələbiylə çıxış edirlər. Ordubadi yazır:

«Böyük Rusiya inqilabının ən tələtümlü vaxtına təsadüf etdiyindən hökumətdə o qədər güc yox idi ki, ermənilərin islah və cəzasına girişsin».

Eynilə Qorbaçov islahatları nəticəsində dövlət strukturlarının süstlüyündən istifadə edərək, az sonra SSRİ-nin dağılması ərəfəsində ermənilər yenə fürsəti fövtə vermirlər.

1990-cı illərdə Qorbaçov iqtidarının iradəsizliyi, qətiyyətsizliyi şəraitində erməni millətçiləri Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsini qaldırdılar. (Rus-yapon müharibəsini xatırladıqca bu da maraqlı faktdır ki, həmin müharibə vaxtı «sadiq rus təbəələrindən» bir erməni milyoneri yaponlara hərbi gəmi peşkəş edibmiş).

M.S.Ordubadi yazır ki, onun çağırışıyla aldığı 245 məktub və Daşnaksutyun partiyasının fəaliyyətinə aid yüzdən artıq məlumat əsasında çıxardığı nəticələri dörd bəndlə ifadə edir: Dörd bənd, daha doğrusu, dörd səbəbdən birincisi:

«1905-ci il 18 noyabrda Gəncədə baş vermiş hadisələrdən əvvəl noyabrın 8-də daşnakların müsəlmanları müharibəyə çağırmaq üçün Bəhmənli sakinlərini təqsirsiz və günahsız öldürmələridir».

Bu sətirləri oxuyarkən Qarabağ münaqişəsinin başlanğıcında Əsgəranda iki təqsirsiz və günahsız azərbaycanlı gəncin ermənilər tərəfindən öldürülməsi yada düşür.

Ordubadiyə görə ikinci səbəb məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır.

«Şiddətli atəş vaxtı prisitavın yanında olan Cəlil adlı bir ləzgi strajniki «cənab pristav, sizdə heç rəhm-mürüvvət yoxdurmu? Siz baxırsınız islamları gülləbaran edirlər. Olmazmı ki, kəndin kənarlarında olan kazaklara buyurasan, islamları mühafizə etsinlər» – dedikdə «mən müsəlmanları mühafizə elə bilmərəm, görmürsən ermənilər necə canalıcı güllə atırlar» – cavabını vermişdi». («Qanlı illər»)

Bu hadisələrdə kazakların rolu haqqında irəlidə yazacam.

Göründüyü kimi, bizim günlərdə Mərkəzə tabe olan qoşunların qanlı hadisələrə seyrçi qalması Ordubadinin təsvir etdiyi dialoqa tam uyğun gəlir. Bircə onu əlavə etmək olar ki, özümüzdən olan yerli məmurlar, yəni o vaxtkı Azərbaycan partiya rəhbərləri də baş verənlərə eyni etinasızlıqla yanaşırdılar.

Ordubadinin qeyd etdiyi üçüncü səbəbə gəldikdə, müəllif bunu müsəlmanların elmsizliyində və müasir işlərdən bixəbər olmalarında görür. Bizim dövrdə Qarabağ məsələsi ortalığa atılanda azərbaycanlıları elmsiz və müasir işlərdən xəbərsiz adlandırmaq olmazdı. Kifayət dərəcədə elmliydik və dünyanın işlərindən də xəbərdar idik. Amma sadəlövhlüyümüz, «qardaş olub Hayastan, Azərbaycan» mahnısını sidq-ürəklə oxumağımız və oxuduğumuza inanmağımız, xalqımızın cəlladları – şaumyanlarla fəxr etməyimiz və s. və i.a. da həqiqətdir. Sadaladıqca sadalamaq olar – biz qarşıdakı mübarizəyə nəinki hazır deyildik, heç bu mübarizənin çətinliyini də dərk etmirdik. Qarşımızdakı düşmənin məkrindən başqa, gücündən də xəbərsiz idik.

«Əşşi, erməni qorxaq bir millətdir» fikri bizə baha başa gəldi. Yadımdadır, hadisələr təzə başlananda Yazıçılar Birliyinə mötəbər ziyalıları dəvət etmişdim. Toplaşanlar ürək ağrısıyla danışırdılar ki, sovet hökuməti azərbaycanlıların ov tüfənglərini belə müsadirə etdikləri halda, ermənilər silahlanırlar. Eyni zamanda, Sovet ordusunu Azərbaycandan çıxarmaq tələbi irəli sürülürdü. Çox hörmət etdiyim bir ağsaqqal akademikə müraciətlə dedim: Deyirsiz ki, ermənilər silahlanır, bizimkilər silahsızdır, arada sovet ordusu olmasa və bizə hücum etsələr, nəylə müdafiə olunacağıq? Hörmətli akademik: «Ermənileri dəyənəklə Stepanakertə qədər qovacağıq» cavabını verdi.

Nəticə məlum!

İndi də yenə retro analogiyaya üz tutub 1905-ci il hadisələrinə qayıdım. Nəvvabın kitabından bir sitat:

«Bir neçə vaxt bu iki xalq arasında sakitlik yarandığına baxmayaraq, ermənilər öz fitnə-fəsadlarından əl çəkmirdilər. Sadədövh müsəlmanlar isə onların bu hiylələrinə inanıb heç bir tədbir görmürdülər. Amma bu hiyləgər tayfa gizlincə tədarük görürdü, müsəlmanlarda olan silahları ələ keçirmək üçün belə bir hiylə işlətdilər. Əgər tüfəng bazarda 20 manata satılırdısa, onlar 100 manata, tapança 6 manata olduğu halda, 30 manata alırdılar. Sadəlövh müsəlmanlar silahlarının ermənilər tərəfindən belə baha qiymətə alındığını görüb evlərində nə qədər silah və sursat var idisə, tamamən ermənilərə satdılar».

Şərhə ehtiyac varmıdır?

Ordubadiyə görə dördüncü səbəb ermənilərin Türkiyə ərazisində avtonomiya yaratmaq məqsədilə gah Qərbə – Londona, Parisə, Amerikaya, gah da Rusiyaya üz tutmalarıdır.

Bu da çox tanış məsələdir, sanki elə bizim günlərin reallığıdır. Paşinyanın gah Qərb, gah Rusiya qarşısında quyruq bulaması eyni siyasi oyunların yüz on beş il sonra davamı deyilmi?

Nəvvabın və Ordubadinin kitablarında diqqəti çəkən məqamlardan biri də ermənilərin ruslara və onların silahlı «qoçularına» – kazaklara münasibətidir. Bu münasibət saxta erməni-rus «məhəbbətinin» iç üzünü açır.

Erməni millətçilərinin ruslarla və özəlliklə kazaklarla münasibətlərini «qoğal və qırmanc» siyasəti adlandırmaq olar, gah rusları şantaj edib müsəlman (bizim günlərdə türk, pantürkizm, Turan) xofuyla qorxudur, gah guya ki, onlardan kömək görməyib üz döndərir, gah da ayrı dayaqları olmadığı üçün yenidən ruslara yalmanırlar. Bu münasibətlərin açıq təxribat məqamları da var.

İlk əvvəldə ermənilər silahlarını müsəlmanlara qarşı yox, ruslara qarşı işlətmək istədiklərini, beləliklə, avtonomiya tələblərinin həyata keçirilməsinə çalışdıqlarını iddia edirdilər.

Ordubadi, azərbaycanlıların da iştirak etdiyi mitinqdə erməni natiqlərin çıxışlarından örnəklər gətirir:

«Biz erməni milləti neçə vaxtdan bəri milli hüququmuzu və idarə istiqlaliyyətimizi tələb etmək təmənnasındayıq. Nəhayət, bizim düşmənimiz olan Rusiya böyük cüssəli bir fil mənziləsindədir. Bizlər və sizlər, daha doğrusu, rus olmayan başqa xalqlar aciz olub həmişə zalım hökumətin o qəvicümmə filin qorxusundan küncə qısılıb ac-yalavac sızıldamaqda idik. Amma şükür olsun ki, Yaponiya milçəkləri bu zalım filə o qədər zərbə vurdu ki, bizim arzumuz sona yetişdi. Həmin milçək zalım fili o qədər o yan-bu yana qovaladı ki, axırı arxası üstdə dərin bir xəndəyə – kanala yıxıldı. İndi haydı qardaşlar, gəlin əl-ələ verib həmin filin ətini parça-parça edib məhv eləyək».

Başqa bir natiqin çıxışından:

«Ey min illər ilə mehriban qonşuluq edən nəcib müsəlmanlar! Aya, eşidibsinizmi nə qədər hərbi sursatımız hökumət tərəfindən ələ keçirilib. Şuşada bizim nə qədər silahlarımız qəbiristanda və sairə yerlərdə tutulub (müsəlmanlardan: Bəli, bəli). Əgər sizlərdə hümmət və qeyrət olsa, nə qədər silah və pul lazım olsa bizdə hazırdır».

Natiq müsəlmanları ermənilərlə bir yerdə hökumətə qarşı çıxmağa çağırır. Azərbaycanlılar buna razılıq vermir: «Biz yatmışıq ki, bizə azuqə verib padşahımızın üzünə ağ edəsiniz».

Onda başqa erməni natiqləri hədə-qorxuya keçir, müsəlmanlara müraciətlə:

– Bilin və xəbərdar olun, – deyirlər. – Əgər yığıncaqda danışılan sözləri müsəlmanlar qəbul etməsə, Daşnaksutyunun cəza qoşunu tərəfindən artıq təhlükələrə tuş olmalıdırlar. (Müsəlmanlardan: Eyb etməz, eyb etməz)

Başqa natiq – yüz əziyyətlə cəm etdiyimiz sursatı, hərbi ləvazimatı sizlə bərabər məsrəf edərik – sözlərindən sonra hədələyir: «Yoxsa ki əksinə, haman hərbi silahlar sizə qarşı işlənib bəlaların hamısı sizə toxunacaqdır. Deyilən işlərdə sizdən yardım olmasa, bəla ildırımları sizi odlayıb əziz vətəninizi xarabazarlığa döndərəcəkdir. Doğma evləriniz də məzarlığa çevriləcəkdir». Bundan sonra islamlar tərəfindən etiraz edilib məclis sona yetdi.

Çox əlamətdar səhnədir, bir tərəfdən təxribat vasitəsiylə azərbaycanlıları ruslara qarşı qaldırmaq, ikinci tərəfdən rus kazaklarının yardımıyla müsəlmanları qırmaq.

Nəvvabın yazdığına görə, qımdatlar rus xadimlərini öldürüb pulu çamadanla götürüb qaçmışlar. Bir hakimin dediklərindən:

«Görərsən ki dörd saat ərzində bütün müsəlmanları qırıb məhlələrini tarmar etdikdən və Qalanı aldıqdan sonra rusların başına nə gətirəcəyik».

Ara-sıra obyektiv hökumət məmurlarının göstərişiylə kazaklar hərbi səriştəsi olmayan azərbaycanlıların imdatına çatanda ermənilər tərəfindən atəşə tutulurdular.

Rus-müsəlman münasibətlərini istədikləri məcraya yönəltməkçün ermənilər ən müxtəlif vasitələrə əl atırdılar.

«Bir erməni kazaklar tərəfindən öldürülübsə də günahkar müsəlmanlardır» – deyirdilər.

Amma erməni-müsəlman toqquşmalarını uzaqdan-uzağa seyr edib ləzzət alan məmurlar da vardı: Saxarov familiyalı bir pristav qanlı savaşa uca bir təpədən durbinlə baxaraq: «Pəh-pəh, ermənilər nə gözəl yürüşlər edirlər» deyirmiş («Qanlı illər»).

Amma bu döyüşlərə başqa qiymət verən rus məmurları da olub. Nəvvab belə bir fakt gətirir:

«Bu dəstələrin igidləri ermənilərin üzərinə yürüş edərkən cənab qubernator durbinlə vuruşa baxırmış. Müsəlmanlar əllərində tüfəng əyilə-əyilə gedib ermənilərin səngərlərinə daxil olaraq onları gülləbaran etdiyini görən qubernator əl-ələ vurub təəccüblə demişdi: «Bu hünər heç yaponda da olmayıb. Heç bir hərbi təlim görməyən bir millətin belə hünər göstərərək səngəri tutması çox qəribədir».

Ümumiyyətlə, bu qanlı vuruşlarda hərbi təcrübəsi, çox vaxt yetərincə silahi olmayan azərbaycanlıların bir çox hallarda ermənilər məğlubiyyətə uğradıb qaçmağa məcbur etməsi faktları da az deyil. Ordubadi yazır ki, ermənilər qaçmağa üz tutanda azərbaycanlılar onları təqib etmirdi. Ordubadi onu da qeyd edir ki, qorxub qaçan ermənilər ölülərini belə aparmağa cəhd etmirlər, «meyitlərini payız yarpaqları kimi müsəlmanların ayaqları altına səpirdilər. »

Azərbaycanlılara qarşı xüsusi qəddarlıq göstərən kazaklardan birinin erməni olması aşkar edilir. Bu da 1990-cı ilin Qara Yanvarında dinc əhalini qıran rezervistlər arasında ermənilərin olmasını yada salır.

Kazaklarla bağlı yarıfaciəvi, yarıməzəli bir hadisə də var.

Erməni evini yandırmaq istəməyən müsəlman cavanları yalnız bu evin zirzəmisində yerləşən şərab çəlləklərinə atəş açırlar. Nəvvabın yazdığı kimi, güllələrlə dəlik-deşiş olmuş çəlləklərdən şərab sel kimi axmağa başlayır. Rus kazakları bunu eşidən kimi şərabları vedrələrə doldurub aparmağa başlayırlar. Bir müddət üfunət iyindən oranın qabağından keçmək mümkün olmur.

Erməni terrorçularının müsəlmanlara qarşı az-çox obyektiv mövqedə duran rus məmurlarının – qubernatorun, zabitlərin qətlə yetirməsinin bizim günlərdə analoqu – Polyaniçko və general Roxlinə qarşı sui-qəsdlərdir. Bizim günlərdə Kazimirov, Zatulin və bu kimi ermənidən artıq ermənipərəstlərin

«haylara məhəbbətinin» səbəblərini yenə də Nəvvabın və Ordubadinin kitablarında tapırıq.

Aydın olur ki, kazakları və ümumiyyətlə, rus məmurlarını içkiylə ələ almaq da ermənilərin ənənəvi mübarizə üsullarından biridir.

Nəvvab yazır:

«Şuşaya göndərilmiş Qalaşakov (Kalaşakov) adlı bir rus generalı var imiş. Ermənilərin məşvərətindən sonra Duma qlavası Kiki Kələntərov onu yaxşı öyrənmiş, onunla söhbət edib, ermənilərə qarşı rəğbətini bildikdən sonra generalın Şuşa şəhərində üsuli-idarəsinin rəhbəri təyin olunması üçün onun razılığını almışdı. Hər gecə Kiki Kələntərovun başçılığı ilə erməni tayfasının hesabına general Qalaşakovun məclisi və generalın qulluğuna təyin etdiyi 2-3 nəfər erməni övrətləri gecə-gündüz ona xidmət edirdilər. Kələntərov gecə məclisləri əsnasında Qalaşakova və onun kazaklarına neçə min manat rüşvət verdirərək, Qalaşakova öz məqsədini izhar etdi».

Məqsəd isə kazaklardan azərbaycanlıları qırmaq üçün istifadə etmək idi. Xocalı qətliamının əsas törədicisi 366-cı motoatıcı alay yada düşmürmü? Nəvvab yazır:

«Rusların istədiyi bu idi ki, iki millət bir-biri ilə dava edib – bir-birinə məşğul olsunlar, taki dövlət farağat olsun, çünki millətin zəif və kasıb olması dövlətin silahıdır».

Nəvvabın yazdığına görə, Qalaşakov söz verir ki, «rus əsgərləri müsəlmanların evlərini, dükan və bazarlarını tamamilə yandırıb özlərini də qıracaq, qalanını isə qovacaqlar. Bundan sonra vuruşun davam etdirilməsini və yaxud müsəlmanlarla barışmamalarını ermənilərin öz öhdəsinə buraxmışıq».

Kiki Kələntərov bu planı həyata keçirməkçün Qalaşakova 10000 manat rüşvət verib.

«General Kələntərovla əvvəlcədən tökdükləri tədbirə əsasən rus əsgərləri erməni keşikçilərindən birini öldürərək meyitini müsəlmanlar səmtə atırlar və sonra səs qaldırdılar ki, müsəlmanlar erməni keşikçisini öldürərək başını kəsmişlər».

İstər Nəvvab, istərsə də Ordubadi qımdatların Bakıda, Şuşada, Gəncədə, Naxçıvanda və başqa şəhərlərdə ermənilərin öz əlləriylə öz soydaşlarını öldürməsi və sonra bunu azərbaycanlıların üstünə atması faktlarını gətirərkən istər-istəməz bizim günlərin Sumqayıt hadisələri yada düşür. Cinayətkar Edik Qriqoryanın başçılıq etdiyi narkomanlar dəstəsi Sumqayıtdakı erməni evlərinə basqın edib günahsız insanları vəhşicəsinə öldürməsi gələcək təbliğat savaşı üçün hazırlıq idi. «Bu vəhşi müsəlmanlarla biz necə bir yerdə yaşaya bilərik» fikrini SSRİ və dünya ictimaiyyətinin beyninə yeritmək üçün neçə-neçə millətdaşlarını qurban verməyə hazır idilər. Sumqayıtda günahsız insanlara qarşı törədilən əlahiddə qəddarlıq qımdatların müsəlmanlara qarşı əzazilliyinin davamıdır. Qımdatların terrorçu təşkilatlara pul ödəməyənlərin hətta ölümlə cəzalandırılması Sumqayıtda da belə ödənişlərdən imtina edən ermənilərin başına gəlib.

90-cı illərdə Qarabağ hadisələri başlananda İrəvan meydanlarında «Biz əsgərləri (yəni sovet ordusunu) bizə atəş açmağa məcbur edəcəyik. Rusları, türkləri erməni qanına bələyəcəyik» kimi şüarlar mazoxistcəsinə səslənirdi. Mazoxizmin, yəni çəkdiyin iztirablardan ləzzət almağın bir üzü də sadizmdir. Yəni kiməsə işgəncə verməkdən zövq almaq. Təsadüfi deyil ki, sado-mazoxist anlayışı çox vaxt qoşa çəkilir. Belə mazoxist şüarlarla haçansa qımdatların, indi də asalaçıların törətdikləri qəddarlıq – məhz sado-mazoxizmin əlamətidir. Zülmdən zövq almaqla bərabər, özünə verilən işgəncədən

də ləzzət çəkmək bəzi seksual cəhətdən sapıq insanlara xasdır. O da qəribə insan xislətidir ki, bəzən çox sentimental, hər şeydən təsirlənib gözləri yaşaran, ağlağan və daima qəmgin adam eyni zamanda son dərəcə qəddar, əzazil, rəhmsiz və qansız ola bilir. Bu iki əks cəhət vahid varlıqda birləşib qovuşur. Bu bir çox ermənilərə xas olan cəhətdir. Daima məzlumluqlarından şikayət, tarixi talelərindən giley, ağlamsınmaq və eyni dərəcə də görünməmiş qəddarlıq, inanılmaz amansızlıq.

Yaxşı, tutalım, nə səbəbdənsə başqa millətə düşmən kəsilirsən, müharibə aparırsan onunla, müharibədə məqsəd rəqibi məhv etməkdir. Bəs onda dinc əhaliyə, qadınlara, uşaqlara qarşı bu ağlasığmaz əzazillik nədəndir? Bu, sanki insanın insana yox, bir yırtıcı heyvanın, canavarın yaxud akulanın insan qanına susamasına bənzəyir. Əsrlərlə sənlə dinc yanaşı, bəzən hətta mehriban yaşayan xalqa qarşı bu qədər əndazəsiz nifrətin, hikkənin, qəddarlığın səbəbi nədir? Səbəbi sosial yox, bioloji sahədə axtarmalıyıq yəqin, yoxsa bunun ayrı izahı mümkün deyil.

Nəvvabın və Ordubadinin gətirdikləri dəhşətli qəddarıq faktları oxucunun qanını dondurur.

«Ermənilər oğlanı öldürdükdən sonra oradakı aftafalardan bir neçəsini götürüb oğlana vuraraq başını əzdilər və bütün bədən üzvlərini kəsdilər». (Nəvvabın kitabından).

Nəvvabdan başqa bir sitat: «O biçarəni öldürəndən sonra qarnını yırtıb başını daşla əzib, qulağını kəsib aparmışdılar».

Ordubadidən sitat: «Sırzavənd sakinləri – Abbasqulu və İman Həsənxan oğlu meşəyə getdikləri zaman ermənilər tərəfindən qətl olunub, sonra yandırılmışlar. Cinayət yerində yalnız kəsilmiş başları qoca atalarına müsibət əmanəti kimi qoyulmuşdur».

Hamazasp adlı erməni komandirinin atlıları bütün kəndi darmadağın edirlər. Qubada da belə amansız cinayətlər törətmiş həmin bu Hamazaspa Daşnaksutyun Komitəsi general rütbəsi verib. Hamazaspın dinc əhaliyə etdiyi zülmlərdən yazan Ordubadi belə bir faktı da gətirir ki, bu general-quldurun döyüşçüləri körpə uşaqları beşikdəcə yandırır, yaxud başlarını divara vurub əzir, ya da analarının əllərindən alıb süngüyə keçirirdilər. Hamilə qadınların qarınlarını süngüylə yarır, bətnlərindən doğulmamış körpələri çıxarıb oda atırlar. Diri insan kəlləsinə mismar ya nal çaxmaq, şişlə göz çıxartmaq – vəhşilik fantaziyaları hüdudsuz imiş. On beş südəmər uşağın kəsilmiş başlarını meşədə bir palazın altında tapmışlar.

Tifil körpələrə qarşı bu canavar qəddarlığını (heç canavar da bu qədər qəddar olmaz) Nəvvab da qələmə alıb. Evin kişisini güllə ilə öldürdükdən sonra «qucağında dörd aylıq uşaq olan qadına yaxınlaşdılar, övrət dedi ki, Allah xatirinə məni öldürün, ancaq uşağa əl vurmayın. Dedilər ki qorxma, uşağı öldürməyəcəyik. Onlar uşağı qadından alıb bələyini açdılar, ermənilərin hərəsi bir tərəfdən çəkdilər. Uşaq ikipara oldu, iki yerə bölünmüş uşağın parçalarını anasının üstünə atdılar. Bu vəhşiliyə dözməyib qadın huşunu itirdi. Bu qadını da bir neçə güllə ilə qətlə yetirəndən sonra dəyirmanda olan taxılı və unu, eləcə də malı qarət edib apardılar».

Bu tükürpərdən faktlardan sonra Xocalı qətliamını, Ermənistanın sabiq prezidenti, müharibə canisi Serj Sarqsyanın «Azərbaycanlılar elə bilirdilər ki, biz zarafat edirik, dinc əhaliyə toxunmayacağıq. Xocalı onlara dərs olsun» sözlərinin də daşnak tarixinə arxalandığını görürsən. Ümumiyyətlə, bəzi qəddar ermənilərin uşaqlara münasibəti xüsusi tədqiqat mövzusudur. İtalyan yazıçısı Umberto Ekonun məşhur «Qızılgülün adı» romanında Orta əsrlərdə erməni keşişlərinin körpələri hansısa dini mərasim naminə necə işgəncələrlə

öldürdükləri barədə tarixi şəhadətlər gətirilir. Ekonun yazdığına görə, çox əsrlər bundan qadaq bir erməni dini təriqətinə mənsub olanlar belə bir ayin icra edirmişlər: «Gecələr zirzəmiyə düşür, təzə doğulmuş uşağı götürüb bir-birinə atırmışlar. Ta o vaxta qədər ki körpə zədələrdən ya ayrı səbəbdən canını tapşırırmış. Uşağın son nəfəsi kimin qucağında çıxırdısa, onu sektanın rəhbəri seçirmişlər. Körpənin bədənini parçalayıb xəmirə qatır və bundan «müqəddəs xörək» hazırlayarmışlar». Qədim din tarixlərinin bu faktlarıyla «iftixar» edə bilərlər.

Bir də təkrar edirəm, bütün bu dəhşətli şəhadətlərə baxmayaraq, mən belə ağlasığmaz cinayətləri bütün erməni xalqının adına yazmıram. Amma Şərqdə ilk xristian xalqı olmalarıyla fəxr edən, xristian əxlaq dəyərlərinə sadiqliyiylə öyünən, özlərini dünyanın ən qədim mədəni milləti sayan ermənilər gərək tarixlərinin bu mənfur faktlarını da unutmasınlar, tövbə edib bir daha belə cinayətləri etməyəcəklərinə qərar versinlər. Türkləri, müsəlmanları qaniçən, başkəsən, qəddar adlandıranlar güzgü qarşısında dayanıb özlərinə tamaşa etsinlər, boylanıb öz keçmişlərinə və hazırkı əməllərinə baxsınlar.

Günahsız insanları sadəcə, öldürməklə ürəkləri soyumur, mütləq başlarını kəsib qətl edirlərmiş. Bu da bizim günlərdə bütün dünyanı sarsıdan İraq Şam İslam Dövləti adıyla çıxış edənlərin kinokameralar qarşısında baş kəsmələrinin tarixdə qalmış ilk örnəkləridir. Fərq ondadır ki, o vaxt kinokameralar və televiziya yox idi.

Bəzi kəndlərə elə od vururmuşlar ki, Nəvvabın obrazlı şəkildə yazdığı kimi, «yanan evlərin işığında neçə mil məsafədə kağız yazıb-oxumaq mümkün idi».

Ordubadi yerlə-yeksan olunmuş, bütün əhalisi qırılmış belə kəndlərdən biri haqqında bəhs edərək yazır: «Umudlu kəndi camaatına ermənilərdən olunan əziyyətlər indiyə qədər bir xalqa, bir millətə edilməmişdir. Heç bir tarixdə, insanın insana bir belə zülm-sitəmin rəva göründüyü yazılmamışdır zənnindəyik».

XX əsrdə bütün əhalisi məhv edilmiş, evləri dağıdılıb yandırılmış, yer üzündən silinmiş kəndlər – Xatın, Liditse, Sonqmi, Xocalı aqibətinin ilkini daşnak vəşhətinə məruz qalmış Umudlu kəndi yaşamışdır.

Xüsusi vurğulamaq istəyirəm ki, bu qəddarlıqlar 1905-ci ildə, yəni Osmanlıda 1915-ci il hadisələrindən, ermənilərin soyqırım kimi qələmə vermək istədikləri olaylardan on il əvvəl baş verib. Yəni ermənilərin «biz soyqırımının qisasını alırıq» arqumenti də kara gəlmir.

Ordubadi də, Nəvvab da müsəlmanların yağıya qarşı daha rəhmli, daha insaflı olduğunu dönə-dönə faktlarla isbat edirlər.

Ordubadi qeyd edir ki, azərbaycanlı komandan əsgərlərinə döyüş əmri verərkən: – Körpə uşaqlara, erməni hərəmlərinə təhqirlə əl uzadıb, əzab-əziyyəti rəva görməyəsiniz, – deyir.

Əllərinə keçən hər məqamda Quranı yandıran, məscidlərə od vuran qımdatlardan fərqli olaraq, müsəlmanlar tam əksinə hərəkət ediblər.

«Kilsələr məbədgah olduğuna görə onlara toxunmayıb od vurmadılar, bir neçə tərəkəmə darvazaya od qoyub kilsəni yandırmaq istəyərkən şuşalılar odu söndürüb demişlər: Kilsə və məscidlərə hörmət eləmək lazımdır» (Nəvvab).

«Kəndə basqın zamanı müsəlman atlıları övrətlərə və uşaqlara toxunmazdılar» (Nəvvab).

Ordubadi də, Nəvvab da konkret faktlarla xatırladırlar ki, qarışıqlıq zamanı azərbaycanlılar neçə erməni ailəsinə öz evində sığınacaq verib qorumuşlar. Bunun müqabilində sənələrlə mehribanlıqla yanaşı yaşamış ermənilər

qonşularına xain çıxmış, hətta onlara sığınacaq verib qorumuş müsəlmanları belə ələ vermiş, bəzilərini şəxsən özləri öldürmüşlər.

Bununla belə, hər iki müəllif bizim xalqa xas olan bəzi naqis cəhətlərin də üstündən keçmirlər. Xalqımızın ürəkaçıqlığından doğan sadəlövhlüyünü, Nəvvabın yazdığı kimi, erməni təhlükəsinə barmaqarası baxması, son dərəcə biveclik göstərərək öz silahlarını ucuz qiymətə ermənilərə satdıqlarını əvvəllərdə qeyd etmişdim. Ordubadi də bir sıra başqa milli nöqsanlarımızı vurğulayır. Bu – bir çox xan-bəylərimizdə, mülkədarlarımızda, varlılarımızda, ziyalılarımızda milli hissin zəifliyidir. Bəzi erməni pulluları və rus generallarıyla yeyib-içən, kef məclislərində iştirak edən azərbaycanlı bəylərin xalqın taleyinə biganəliyindən ürək ağrısıyla yazan Ordubadi xatırladır ki, Qalaşakov qədər müsəlman düşməni olan başqa bir rus məmuru daşnaklarla dostluq edən Pivovarov bütün iğtişaşlarda ermənilərin tərəfini tuturmuş. Şuşa kəndliləri və tacirləri general-qubernatora müraciətlə Pivovarovun işdən azad edilməsini tələb edəndə, onunla əhli-kef olan bəzi bəylərimiz bu müsəlman düşmənini müdafiə etmiş və o, yerində qalmışdı.

Doqquz gün ərzində sayca qat-qat üstün qımdatlardan qorunan Qatar kəndinin camaatı bir parça kağız yazıb qonşu kəndlərin nücaba və bəylərindən yardım istədikdə «Bizdən sizə kömək olmaz, başınıza çarə qılınız» cavabını alırlar («Qanlı günlər»).

Başqa bir milli bəlanı Ordubadi xalqın siyasi cəhətdən parçalanmasında, müxtəlif partiyaların bir-biriylə didişməsində, hər siyasətçinin rəhbərlik iddiasında görür. Bu da 1991-93-cu illərdə Bakıda baş verən hakimiyyət davalarını yada salmırmı?

Ermənilər bu məqamlardan da öz məqsədləri üçün istifadə edirlər. Vaxtilə Moskvaya ermənilərin siyasi danoslarına məruz qalmış böyük şəxsiyyətlərimiz Şah İsmayıl Xətai, Koroğlu, Qaçaq Nəbi, Mirzə Cəlil Məmmədquluzadə bu gün «sapı özümüzdən olan baltalar» tərəfindən aşağılanır. Azərbaycan yazıçısı ermənilərin azərbaycanlılara etdikləri zülm haqqında biri kəlmə kəsmədən, azərbaycanlıların ermənileri incitməsi haqqında roman yazıb tələsik məhz rus dilində Moskvada nəşr etdirir ki, istədiyi ünvana tez çatsın.

1905-ci ildə daşnaklar Azərbaycanda sünni-şiə münasibətlərindən də təxribat kimi istifadə etməyə çalışıblar. Ordubadi əsir qadınların ayaqlarını kəsən bir qımdatın sözlərini gətirir:

“Bizim Qafqazda müsəlmanlarla müharibəmiz vardır. Fəqət, bu müharibə sünni camaatıyla olmayıb, şiələr ilədir”.

Və nəhayət, Nəvvabın və Ordubadinin kitablarının bizimçün bu gün dərs olacaq bir son məqamına da diqqəti çəkmək istəyirəm:

Ordubadi daşnak Sarkisyana anası tərəfindən göndərilmiş məktubu gətirir. Məktubdan bir parça:

«Sevgili oğlum! Məhəmmədəli Mirzənin şah tərəfindən aldığı hökm üzrə ermənilərə etdiyi məhəbbəti gözəlcə nağıl eləyir. Nersesin deməyinə görə, İran müsəlmanları Qafqaz işlərində bitərəfdir. Belə məlum olur ki, bu tərəfdə olan xanların da qədim xəyalı qalmamışdır. Varvara.» Vəssalam. Şərhə ehtiyac yoxdur.

Mir Möhsün Nəvvabın da, Məmməd Səid Ordubadinin də kitabları nifrət yox, ibrət dərslikləridir.

Mən də bu yazımda eyni məqsədi güdürəm:

Bilmək, unutmamaq və nəticə çıxarmaq.

Oktyabr 2019

ŞEYX ŞAMİLİN «QURBANI» HEYDƏR HÜSEYNOV

Görkəmli Azərbaycan alimi, marksist filosof Heydər Hüseynov iri həcmli kitabında Şeyx Şamil haqqında xoş sözlər yazdığı üçün amansız təqib edilərək intihar həddinə çatdırıldı. Heydər Hüseynovu, əlbəttə, ancaq şərti olaraq «Şeyx Şamilin qurbanı» adlandırmaq olar. Cəmi 42 il yaşamış alimin ömrünün son dövründə pisikdirilməsinin, alçaldılmasının, hər növ təzyiqlərə, təhqirlərə məruz qalmasının başqa səbəbləri də vardı ki, az sonra onlara da toxunacam.

1908-ci il aprelin 3-də İrəvanda dünyaya gələn Heydər on yaşında ikən azərbaycanlılara qarşı talanlardan qurtulmaq üçün anası və üç qardaşıyla doğma şəhərindən qaçır. Orta və ali təhsilini Bakıda alan Heydər Hüseynov ölkənin ən savadlı, geniş dünyagörüşünə malik olan alimi kimi yetişir. Professor, elmlər doktoru H.Hüseynov SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının (AZFAN-ın) rəhbəri, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yarananda isə onun ilk həqiqi üzvlərindən biri və vitse- prezidenti olur.

Azərbaycanın partiya rəhbəri Mir Cəfər Bağırov gənc alimin bir çıxışından sonra onun parlaq istedadını yüksək dəyərləndirərək: – Bu ki MK-nın ideologiya üzrə hazır katibidir, – deyir. Bu sözlər sonralar Heydər Hüseynova baha başa gəlir. Onu rəqib kimi görən partiya funksionerləri Mir Cəfər Bağırovun fikrini dəyişdirə bildilər. An içində Heydər rəhbərin ərköyünündən qatı düşməninə, hökmən məhv edilməyə məhkum olan insana çevrilir.

Bizim günlərdə, sovet dövrünün bütün ictimai-siyasi anlayışları kökündən dəyişdiyi bir zamanda bəzən Heydər Hüseynovu az qala antikommunist kimi qələmə verməyə çalışırlar. Bu, kökündən yanlışdır. Heydər Hüseynov əqidəli kommunist və həqiqi marksist alim idi. İndiki zamanda bunu ona irad tutmaq olmaz. Heydər Hüseynov marksizm təliminin təməl nəzəri əsaslarına sadiq bir filosof idi, buna görə də əsl patriot kimi marksist-leninçi siyasi ədəbiyyatı tərcümə və təbliğ edərək öz xalqına çatdırmaq istəyirdi. Stalin dövründə (elə qismən Lenin dövründə də) Marks təlimi nə qədər təhrif olunsa da, çox vaxt əsl məqsədlərinə tamam tərs şəkildə yozulsa da, bu təlim öz-özlüyündə dünya icitimai-siyasi və fəlsəfi fikir tarixinin mühüm mərhələlərindən biridir. Təsadüfi deyil ki, Qərb dünyasında böyük nüfuz sahibi olan fransız yazıçısı və filosofu Jan Pol Sartr deyirdi:

«Mən belə düşünürəm ki, hər əsrdə ədəbiyyatın bir əsas mövzusu olur. XVI əsrdə «Don Kixot», XIX əsrdə «Hərb və sülh» belə romanlar olduğu kimi, bizim əsrdə də belə bir romanın mövzusu sosializmin həyata keçmə təcrübəsi ola bilər. 1917-ci ildən bizim günlərə qədər – Stalin dövrünün təhrifləri də daxil olmaqla – sosializm mövzusu».

Doğrudur, 1963-cü ildə Praqada söylədiyi bu nitqində Sartr sosializmin nəzəri prinsiplərinin həyata keçirilməsi təcrübəsində təhriflərindən (ad çəkməsə də Sovet İttifaqında), bu prinsiplərin aşınmasından da söz açır:

«Bir anlığa təsəvvür edək ki, dünyanı xilas etmək üçün mütəmadi olaraq yalana və mistifikasiyaya əl atmaq lazım gələydi. Bu üsulla yaranmış cəmiyyət bizim təsəvvür etdiyimiz cəmiyyətdən tamam başqa bir cəmiyyət olardı. Bu,

həyat təcrübəsi yalana və mistifikasiyaya alışmış insanların cəmiyyəti olardı. Tamamilə yabançılaşmış insanların yığnağı. İnqilabi intellektualın borcu məhz ondadır ki, məqsədə çatmaq üçün işlənən vasitələrin məqsədin özünə zidd olduğunu görəndə bu barədə desinlər».

Heydər Hüseynov marksist əsərləri mənimsəyəndə, tərcümə və təbliğ edəndə, yəqin ki, başqa intellektual müasirləri kimi o da heç fərqinə varmırdı ki, marksizmin həqiqi mahiyyəti Stalin diktaturası şəraitində necə də təhrif olunub.

Bu deformasiyanı Heydər Hüseynovdan çox illər əvvəl dərk edən Nəriman Nərimanov da marksist ədəbiyyatın türkcə də olmasının gərəkliyinə şübhə etmirdi. Əgər Marksın, Leninin əsərləri bütün mədəni xalqların dillərinə çevrilibsə, onlar mütləq Azərbaycan türkcəsinə də tərcümə olunmalıdır.

Repressiya qurbanı Ruhulla Axundovun müsibətli qətlindən sonra bu iş Heydər Hüseynovun öhdəsinə düşdü. Marksın, Leninin, Stalinin əsərləri Heydər Hüseynovun tərcüməsində ya da onun redaktəsi ilə çapdan çıxdıqda alim böyük fərəh hissi yaşayırmış. Bu barədə mənə dostum, akademik Məmməd Arifin oğlu, mərhum Araz Dadaşzadə danışırdı. Belə kitablar çıxan kimi Heydər Hüseynov yaxın dostu Məmməd Arifə bu barədə xəbər verir və sevincini onunla bölüşürmüş.

Alimin ən mühüm və monumental əsəri «XIX əsr Azərbaycanın ictimai və fəlsəfi fikir tarixindən» kitabı da (M.C.Bağırov bunu qəzəblə inkar etsə belə) marksist metodologiyası əsasında yazılıb.

Əlbəttə, alovlu vətənpərvər olan Heydər Hüseynov marksist idelogiyası qəlibləri içində də Azərbaycan maarifçilərinin – Mirzə Kazım bəyin, A.Bakıxanovun, M.Ş.Vazehin, M.F.Axundovun, H.Zərdabinin böyük xidmətlərini yüksək elmi dəlillərlə qiymətləndirə bilib.

H.Hüseynovun gözdən düşməsinin səbəbi M.C.Bağırovun iddia etdiyi kimi əsərinin «antimarksist, antikommunist ruhu» deyildi, respublika «sahibinin» şəxsi qisasçılığı idi. Ən son vaxtlara qədər rəğbət bəslədiyi H.Hüseynovdan Bağırov nəyin qisasını alırdı?

Belə görünür ki, Heydər Hüseynov Bağırovla SSRİ Yazıçılar İttifaqının sədri Aleksandr Fadeyev arasında gərgin münasibətin günahsız «müqəssiri» olub. Bağırovla Fadeyevin pis münasibətlərinin əsl səbəblərini bilmirəm. Böyüklərimin söhbətlərindən o yadımda qalıb ki, 1948-ci ildə, Nizaminin 800 illik yubileyi münasibətiylə Fadeyev Bakıya gələndə Bağırov çox maraqlanırmış ki, içkiyə ifrat aludəçliyi yaxşı məlum olan yazıçı nəyə görə burda dilinə alkoqol vurmur. Görünür, elə o vaxt Azərbaycan rəhbərinin bununla maraqlanması Fadeyevi duyuq salıbmış və o, təxribatdan qorxaraq içmirmiş. Mirzə İbrahimov mənim valideylərimə danışırmış ki, bir ziyafətdə Bağırov özünü Fadeyevin qarşısında çox miskin vəziyyətə salıb. Mirzə müəllimin danışdığına görə, Bağırov Fadeyevə: – Siz rus olduğunuz üçün mən sizin ayağınızdan öpməyə hazıram, – deyirmiş.

Banket köhnə İnturistdə imiş. Fadeyev arada eyvana çıxanda Səməd Vurğunla Mirzə İbrahimov da onunla çıxıblar. Fadeyev köynəyinin yaxasını açaraq: «Kak vı terpite etoqo satrapa?» (Bu satrapa necə dözürsuz?) deyib. Bu barədə yazmaq istəmirdim, amma yəqin ki, indi mən bu söhbət haqqında məlumatı olan yeganə insanam. Ona görə də o dövrün əxlaq davranışlarını bilmək üçün bu cür faktların unutdurulması düz deyil. Bağırovun Azərbaycan xalqı qarşısında həm bağışlanmaz cinayətləri, həm də taleyüklü xidmətləri haqqında «Yaşamaq haqqı» traktatında ətraflı yazmışam. Onun üzdə də olsa ruslara bu «məhəbbətini» müxtəlif şəkillərdə izhar etməsinin səbəbləri də o traktatda açılır. Bu epizodda isə, əlbəttə, o vaxt Mirzə İbrahimovun və Səməd

Vurğunun verə bilməyəcəkləri cavabı bu gün biz verə bilərik. – Bəs, siz Fadeyev Moskvadakı daha böyük diktatorun şıltaqlıqlarına necə dözürsüz?

Bağırov Fadeyevə bu biabırçı sözləri deyibsə (Mirzə müəllimin şəhadətinə şübhəm yoxdur), yeri gələndə yazıçıdan hayıfını da çıxıb.

Sov.İKP-nin XIX Qurultayında Malenkov məruzəsində Fadeyevi tənqid edir. Bundan sonra Bağırov da çıxışında Fadeyev haqqında tənqidi fikirlər söyləyir. Ertəsi gün səhər toplantısında çıxış edən Fadeyev Malenkov yoldaşın haqlı tənqidini qəbul edir, Bağırovun iradlarını isə düz saymır. Amma elə həmin gün axşam iclasında Fadeyev arayış üçün söz alıb səhərki çıxışı üçün Bağırovdan üzr istəyir. Bu iki iclasın arasında nə baş verdiyini və kimin kimə necə təsir etdiyini təsəvvür etmək çətin deyil.

Söhbətlərini dinləməyə müyəssər olduğum çağdaşları Bağırovun uzun zaman Heydər Hüseynova çox xoş münasibət bəslədiyini təsdiq edirlər. Ənvər Məmmədxanlı danışırdı ki, Bağırovun iş otağında yazıçılardan hansısa yeni əsərini oxuyarkən (belə vaxtlar da varmış) Mir Cəfərin yanında Heydər oturardı və bəzi çətin sözləri ona tərcümə edərdi. Çox gənc yaşında Heydər Hüseynov Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdi.

Tarixçi Nəsiman Yaqublu Heydər Hüseynova həsr olunmuş yazısında qeyd edir ki, 1947-ci il fevralın 5-də «Ədəbiyyat qəzeti»ndə Rəsul Rzanın Heydər Hüseynovun deputatlığa namizəd verilməsiylə əlaqədar «Böyük alim, gözəl insan» adlı məqaləsi çıxmışdır. N.Yaqublunun yazdığına görə, məqalədə gurultulu, pafoslu cümlələr yoxdur. Şair öz dostu haqqında ən adi sözlərlə danışır, onu tək görkəmli filosof kimi deyil, həm də ədəbiyyatın dərin bilicisi kimi səciyyələndirir.

Atamın arxivində onun Heydər Hüseynova yazdığı məktubun surəti qalır.

«Heydər, salam! Mən Moskvanın yaxınlığındakı Staro Ruza Yazıçılar evində işləməyə gəlmişəm. Özümlə Nizaminin «Xosrov və Şirin»ini gətirmişəm ki, arxayın vaxtlarda, telefon, iclas olmayan bir zamanda yavaş-yavaş tərcümə edim, getsin. Mayakovskini də tərcümə edirəm. Sənin lüğətini gətirmişəm. Baxdım, sən yadıma düşdün, oturub bu kağızı yazdım. Bu tərcümələr, Heydər, məni lap təngə gətirib. Özümün beş-altı tərcüməm ("şeirim" olmalıdır – A.) var, yazmaq üçün ölürəm, ancaq bu zalım oğlu Nizamidə insaf yoxdur ki, yazıb yaza bildikcə. A kişi, 14 min misra da poema olar? Cəfər Xəndan Cəfər Xəndanlığı ilə bu uzunda yazmır… Nə isə, şərəfli işdir. Ancaq, təəssüf ki, gec başlamışıq. Belə bir poemanı bir ilə, on aya yox, beş ilə səliqə ilə, təmkinlə tərcümə etmək lazımdır. Lüğətin mənə çox kömək edir, çox sağ ol. Ancaq bəzi sözləri tapmayanda cinlənirəm. Hələlik bu qədər. Sağ ol! R.Rza. 20 fevral 40».

Bu məktub ona görə maraqlıdır ki, əvvəla, şairlə alimin yaxın dostluq əlaqələrini göstərir. Heydər Hüseynov atama bağışladığı kitablarında nədənsə ona Rəsul dadaş deyə müraciət edir. Məktubun başqa bir önəmi ondadır ki, Rəsul Rza taleyinin ağır bir dövründə yazılıb. Latın əlifbasından kirilə keçmək məsələsiylə bağlı günahlandırılan Rəsul Rza (bu barədə başqa yazılarımda geniş məlumat var) Yazıçılar İttifaqının sədri vəzifəsindən çıxarılır, Bağırovun qəzəbinə keçir, adı qara siyahılara düşür, amma məktubdan göründüyü kimi, bədbinliyə qapılmır, nikbinliyini və yumor hissini itirmir. Ümümiyyətlə, ömrünün çətin məqamlarında, o cümlədən on il zəhmətini çəkdiyi ilk Azərbaycan ensiklopediyasının rəhbərliyindən uzaqlaşdırılanda, yaxud «Rənglər» silsiləsinə qarşı cahil hücumlar səngiməyəndə, atam nicatı yaradıcılıqda, yeni əsərlər yazmaqda ya tərcümə etməkdə tapırdı.

1950-ci il iyulun 14-də Bakıda fəallar yığıncağında Bağırov Heydər Hüseynovu kəskin tənqid edərək deyirdi ki, müəllif öz kitabında Azərbaycan

mütəfəkkirlərinin mürtəce, idealist fikirlərini gətirərkən onları marksist-leninçi mövqeyindən tənqid etmir, onların fikirlərinə şərik çıxır və bu fikirləri təbliğ edir.

Bağırov məruzəsində deyir ki, Bakıxanov şübhəsiz böyük tarixçi olmaqla yanaşı, həm də idealist idi, ömrünün sonuna qədər mömin müsəlman olaraq qalmışdı. Hüseynov isə, Bağırova görə, onu materialist sayır. Hüseynovun tərifləyiyi Mirzə Kazım bəy qatı monarxist idi. Amma Heydər Hüseynovun əsas günahını Bağırov Şeyx Şamilə müsbət münasibətində görür.

Qeyd etmək lazımdır ki, ona qədər sovet tarixçilərinin əsərlərində Şeyx Şamilin rolu mənfi səciyyələndirilmirdi. Tam tərsinə. Yadımdadır, orta məktəbdə bizim tarix dərsliyimizdə Şeyx Şamilin şəkli verilirdi və onun haqqında qəhrəman kimi bəhs olunurdu. Sovet yazıçısı Petr Pavlenko Şamil haqqında roman yazmışdı. Mehdi Hüseynin «Şeyx Şamil» adlı pyesi var. Yeri gəlmişkən, bu pyes haqqında da M.C.Bağırovu qocaman yazıçı M.S.Ordubadi xəbərdar etmişdi. Bağırovun yanında növbəti yazıçılar toplantısında Ordubadi rəhbərə müraciətlə: – Mir Cəfər, bizim səhnəmizdə rusun başını kəsmək olar? – deyə sual vermişdi. – Necə? – Bağırov özündən çıxanda izah olunmuşdu ki, söhbət Mehdi Hüseynin pyesindən gedir. Pyes dərhal qadağan olunur. Bəlkə elə Şamil haqqında mənfi fikrin ilk qığılcımı Bağırovun beynində bu vaxt alışır.

Şeyx Şamilə müsbət münasibətinə görə Heydər Hüseynovun üstünə alov püskürəndə, Şamili türk casusu çıxaranda Bağırov bir neçə məqsəd güdürdü. 20 il ərzində çar ordusuyla vuruşan dağlı qəhrəmanı «ifşa edəndə» Stalinə qulluq göstərirdi. Axı Stalin artıq böyük rus şovinizminin carçısına çevrilmişdi. Digər tərəfdən, Bağırov Rusiyanın, sonra da SSRİ-nin əzəli düşməni Türkiyəyə mənfi münasibətini bir daha nümayiş etdirirdi. Və nəhayət, üçüncü məqsəd onun itaətkarlığını qəbul etməyən Fadeyevi yerində oturtmaq idi. Məsələ ondaydı ki, bu hadisələrdən qabaq Heydər Hüseynov kitabını Fadeyevə göndərmişdi, o da kitabı çox bəyənmiş və Mükafat Komitəsinin sədri kimi əsərin Stalin mükafatına təqdim edilməsinin təşəbbüskarı olmuşdu. Bu da Bağırovu cin atına mindirmişdi. Onun razılığı, icazəsi, hətta xəbəri olmadan kimin nə həddi vardı ki, Azərbaycan müəllifini Stalin mükafatına təqdim etsin. Hələ üstəlik, bu mükafatı alsın da. Mərəkə bundan sonra başlandı. Sovet tarixində ilk dəfə olaraq Stalinin özünün imzaladığı qərar qüvvədən düşdü, yeni qərara əsasən, mükafat geri alındı. Amma iş bununla da bitmədi. Bağırov dağıstanlılara etiraf edirmiş ki, mənim Şamillə işim yoxdur, mənim işim Heydər Hüseynovladır. Heydərin özünə isə deyibmiş ki, səni milçək kimi əzəcəm, heç tozun da qalmayacaq. Bir yandan da Heydər Hüseynovu rəqibləri kimi görən, yerlərini itirmələrindən qorxan partiya məmurları məsələni bir az da şişirdirdilər. İş ondaydı ki, kinli və qisasçı M.C.Bağırovun özü də Moskvaya, Fadeyevə arxalana biləcək Heydər Hüseynovu onun, Mir Cəfərin yerinə göz dikmiş adam saya bilərdi. Bir sözlə, akademik İ.Kraçkovskinin də yüksək qiymətləndirdiyi Heydər Hüseynovun – parlaq gələcəyi ola biləcək gənc alimin – taleyi birdəfəlik qırılır. Heydər Hüseynov nəinki Akademiyadakı vəzifəsindən, hətta Akademiyanın həqiqi üzvlüyündən də çıxarılır, partiya sıralarından xaric edilir. Bağırova yazdığı məktublara – «səhvlərinin» etirafı, tövbə, üzrxahlıq və xahiş məktublarına da məhəl qoyan olmur. Üstəlik, Heydər Hüseynovun kitabına müsbət rəylər vermiş Məmməd Arif, Mirzə İbrahimov, akademik Makovelski, Mehdi Hüseyn də kəskin tənqidlərə məruz qalırlar.

Məmməd Arifi isə Bağırov həmin elə o fəallar yığıncağının kürsüsündən Türkiyə casusu adlandırıb.

Araz danışırdı ki, o günlər Arif əminin pal-paltarını bir çemodana yığıb həbsini gözləyirmişlər. Mənzillərində də axtarış ehtimalı olduğuna görə türkologiyaya aid olan bütün kitabları, o cümlədən rus şərqşünasları Bartoldun, Qordlevskinin və başqalarının kitablarını yandırıblar. Axı bu kitabları görsəydilər, Məmməd Arifin, yoldaş Bağırovun dediyi kimi, türk casusu olmasına şübhə qalmazdı. Heydər Hüseynov son günlərinə qədər Məmməd Arifə telefon edir, dostunun səsini eşidib həbs olunmadığını bilərək dəstəyi asırmış. Axı telefonlar dinlənilirmiş. Təqiblər alimin ailəsindən də yan keçməyib. Aspirant tələbələrini də elmdən uzaqlaşdırıblar, həvəslə yaratdığı Fəlsəfə institutunu bağlayıblar, Universitetdə Tarix fakültəsinin fəlsəfə bölməsini qapayıblar. Absurd teatrı deyilmi?

Heydər Hüseynovun qızı mərhum Sara xanım yazırdı ki, 4 iyulda Filarmoniyada Heydər Hüseynovun «bolşevik edamı» baş verəndən sonra, onun həbsi və güllələnməsi qaçılmaz idi. Amma Heydər Hüseynov cəlladlarını qabaqladı, avqustun 15-də canına qəsd edərək ailəsini totalitar rejimin sürgün düşərgələrindən qurtardı.

Məhkum filosofun kitabına müsbət rəy vermiş müəlliflər öz günahlarını boyunlarına alıb tövbə etdilər.

Özü də Stalin QULAQ-ının buzlu cəhənnəmindən keçmiş qocaman alim Cəfər Rəmzi Yüzbaşov vətənə dönəndən sonra Rəsul Rzaya bir neçə məktub göndərmişdi. (Bir məktubu da mənə ünvanlamışdı. Televiziyada doğma dilimizi müdafiə etdiyim çıxışıma görə mənə xoş sözlər yazmışdı). Cəfər Rəmzinin Rəsul Rzaya göndərdiyi və atamın arxivində saxlanan məktublarından biri bütünlüklə Heydər Hüseynovun son günlərinə həsr olunub. Məktubda deyilir ki, 1950-ci ilin isti yay günlərinin birində şəhərə səs yayıldı ki, məşhur alim iş otağında damarlarını kəsib, amma sağ qalıb. Poluxin küçəsi, 4 nömrəli ev ünvanını bilib üçüncü mərtəbəyə qalxdım, qapının zəngini basdım. Qapı açıldı. Qapıda orta boylu, gözləri qızarmış və çox həyəcanlı bir adam dayanmışdı. Evdə heç kəs yox idi. Ailəsini bağa yollamışdı.

– Mən Şamili tərifləməmişəm, – deyirdi, sanki özünə bəraət qazandırmağa çalışırdı, – sadəcə olaraq epiqrafda Kazım bəyin onun haqqında sözlərini gətirmişəm, bütün günahım bundan ibarətdir.

Otaqda küncdən-küncə aramsız var-gəl edirdi.

– Görəsən, kəndə gedib, orda dərs deməyimə izn verərlərmi? Orda inək, qoyun saxlayardım.

Biçarə filosof, gör nə barədə fikirləşirmiş. Yüzlərlə insana çörək verib, kasıb aspirantları öz hesabına saxlayıb, bütün qonorarlarını uşaq evlərinə paylayıb… İndi bilmirdi ki, ailəsini hansı vəsaitlə təmin edə bilər.

Mən köhnə dostumun bu pəjmürdə halından narazı qaldım. – Məmməd Arifin vəziyyəti daha da pisdir – dedim. – Bağırov onu türk casusu adlandırdı.

Heydər: – Haqlısan – dedi, – mən həddən artıq həyəcan keçirirəm. Səbəb odur ki, 8 ildi dincəlmirəm. Yay aylarında da şəhərdə qalır, işləyirdim. Odur ki, fiziki gücüm qalmayıb, özümü ələ ala bilmirəm. Arifə gəlincə, onun Zümrüdü var. (Zümrüd xanım; M.Arifin həyat yoldaşı – A).

Heydər haqlı idi. Zümrüd xanımı xatırlaması da təsadüfi deyildi. Məmməd Arifin həyat yoldaşı o vaxt çox müdrik hərəkət etdi, ərini Kislovodska getməyə razı saldı. Beləliklə, onu Bakının zəhərli mühitindən uzaqlaşdırdı. Şəhərdə qalan Heydərə hər gün radio və qəzetlərdən təhqir selləri axıdılırdı. O günlərdə məşhur şair Süleyman Rüstəm də Ali Sovetdə onun ünvanına bir-iki kəlmə tutuzdurmuşdu.

İki gün sonra yenə filosofu ziyarət etdim. Qapını uzun zaman açmadılar, bunun səbəbini soruşanda Heydər dedi: – İstiqrazları yoxlayırdım, bəlkə uduş

var. – Sonra əlavə etdi: – Mən fanatik idim. İnanırdım ki çətin günlərim olmayacaq, həmişə hər şey yaxşı olacaq. Heç vaxt evə çoxlu pul gətirmirdim ki, çox pul adamların əxlaqını pozur. Mənə qarşı bu kampaniya başlananda Azərnəşr tələb göndərdi ki, nəşriyyata pul ödəyim. Niyə? Mən partiya məktəbi üçün qonorarsız, havayı 20 çap vərəqində kitab yazmışam. Mətbəədə mətnin yarısını yığmışdılar ki, başıma bu hadisə gəldi. Azərnəşr tələb edirdi ki, mətbəədə görülən işlərin xərcini ödəyim. Arvadımın üzüyünü satmalı oldum ki, Azərnəşrin pulunu qaytarım...

Mən dedim: – Hansı əsasla məhkəmə nəşriyyatın xeyrinə qərar çıxara bilərdi. Sən ki heç kitabın qonorarını da almamısan.

– Hansı məhkəmədən danışırsan? – dedi. – Onlarçün qanun raykomdan bir zəngdir.

Telefonun zəngi çalındı. Raykomun katibi idi, onu iclasa çağırırdı.

Heydər: – Mən xəstəyəm, – dedi, – bu halda iclasa gələ bilmərəm.

Elə bu vaxt Heydər əlində telefonun dəstəyi yerə yıxıldı. Özündən getmişdi. Mən ikinci poliklinikaya zəng etdim, həkim çağırdım.

Səhərisi gün yenə gəldim. Arvadı bağdan qayıtmışdı. Heydər otaqda əsəbi gəzişirdi. Sonra qarşımda dayandı, dedi: – Rəmzi, deyərsən ki, Heydər 42 il yaşadı.

Mən ona təsəlli verməyə çalışırdım.

İki gündən sonra eşitdim ki, Heydər bağda özünü asıb».

Nəsiman Yaqublu Heydər Hüseynov haqqında yazı üzərində işləyərkən, alimin həyat yoldaşı Tale xanımla görüşüb və ərinin son günləri haqqında onun söhbətini qələmə alıb.

«Düz bir ay ölümlə mübarizə apardı. Çarpayıda səssiz uzanıb, tavana baxırdı. Son günlərini xüsusən ağır yaşadı, deyirdi ki, mən olmasam, sizi daha incitməzlər. Onda mən bu sözlərin mənasını dərk etməmişdim. Onların mənasını yalnız o müdhiş hadisədən sonra başa düşdüm. Öz xoşuyla dünyadan getdi ki, ailəsini, uşaqlarını xilas etsin. Axı otuzuncu illərdə repressiya olunanların ailələri barədə məlumatı vardı».

Ali məktəbə qəbul imtahanlarını əla verməsinə baxmayaraq, Saranı instituta qəbul etmirlər. Həyasızcasına ona: – Sənə, xalq düşmənininin, burjua aliminin qızına sovet ali məktəbində yer yoxdur, – deyirlər.

Çox sonralar ali filoloji təhsil alan Sara atasının elmi irsiylə məşğul olurdu. Bu son dərəcə ziyalı, savadlı qızla bir il müddətində Nizami muzeyində bərabər çalışmışıq (1961-ci ildə).

Yazıçılar təşkilatının rəhbəri seçiləndən sonra mən Sara Hüseynovanı İttifaqa üzv qəbul etdim. O vaxt üzvü olduğu İttifaqdan çıxarılan Heydər Hüseynovun da Yazıçılar İttifaqına üzvlüyünü bərpa etdik.

Heydər Hüseynov haqqında dəyərli kitab yazmış Fəridə Səfiyeva Sarayla da, alimin o biri qızlarıyla da görüşmüş, onların xatirələrini, söhbətlərini qələmə almışdır. Mən bilmirdim ki, alimin qızı Leyla atasının faciəsində Bağırovdan çox, Moskvanı günahlandırır. Təxmin olunur ki, Heydər Hüseynovun kitabı tək Bağırovu yox, Mərkəzi Komitənin ideoloji işlər üzrə katibi Mixail Suslovu da qəzəbləndirib. Əlbəttə, ruslara qarşı vuruşan Şeyx Şamilin türk casusu kimi «ifşa» olunması Suslovun da, Beriyanın da, Stalinin özünün də ürəyindən idi. Amma kütləvi repressiyalar dövrü keçəndən sonra bir Azərbaycan alimini intihar həddinə çatdırmağa onların ehtiyacı yox idi. Şübhəsiz, burda həlledici amil Mir Cəfər Bağırovun hikkəsi, qəddarlığı və amansızlığı idi.

Ümumiyyətlə, bu məsələ insanı başqa, daha universal münasibətlər haqqında düşünməyə vadar edir. Məlumdur ki, bir çox Azərbaycan

ziyalılarından Moskvaya danoslar elə respublikanın özündən, çox vaxt onların öz paxıl həmkarlarından gedirdi və cavab olaraq respublika rəhbərlərinə verilən tapşırıqları yerli məmurlar Moskvanın yox, guya ki, öz adlarından yerinə yetirməli olurdular. Bu praktika, yəni Moskvanın bu sayaq göstərişlərinə əməl etmək məcburiyyəti Nərimanovdan Bağırova qədər bütün Azərbaycan rəhbərlərinin qarşısına çıxırdı və onlar imkanları daxilində bunları həll etməyə çalışırdılar. Az-çox insaflı və öz ziyalılarının qədrini bilən rəhbərlər bu göstərişlərdən çıxan nəticələri mümkün qədər yumşaltmağa çalışırdılar. Bağırov kimi əzazil rəhbər isə şəxsi hisslərini çilovlamayaraq qərar verirdi. «Müqəssir» saydığı insanın nəinki özünü, ailəsini cəzalandırır, ölüsündən belə hayıf çıxırdı.

Buna görə də Heydər Hüseynovun çekist nəzarəti altında olan dəfnində yalnız mərhumun ailə üzvləri iştirak edib. Heç molla da gəlməyib. Mollalar da o vaxt Allahdan çox, Bağırovdan qorxurmuşlar.

Mənim də tanıdığım bir nəfər çox illər sonra, sular durulanda qürrələnirdi ki, dəfndə iştirak edib. Təhlükəsizlik təşkilatıyla bağlılığı hamıya bəlli olan bu adam dəfndə də tapşırıqla iştirak edirmiş ki, kimin gəlib-gəlmədiyini lazımi yerlərə çatdırsın. Sara xanım da onu tanıyır və «osvedomitel» (xəbərçi, çuğul) adlandırırdı. Köhnə dostlarından heç biri Heydər Hüseynovun dəfnində iştirak etməyib. – Nə Məmməd Arif, nə Mirzə İbrahimov, nə Səməd Vurğun, nə Mehdi Hüseyn, bunu yazmaq mənə nə qədər ağır olsa da, əfsus ki, nə də Rəsul Rza.

Heydər Hüseynovun intihar xəbərini Altıağacda eşitdik. O yay ata nənəm Məryəm xanımla və bibim Surəylə orda dincəlirdik. On iki yaşındaydım, amma çox şeyi artıq başa düşürdüm. Surə bibim bu xəbəri eşidəndə hönkürüb ağladı. Nənəm: – Adam içində ağlama, – dedi, – qardaşına xətər gələr.

Bəli, belə zamanlar vardı və bu barədə yazarkən sözlərimin neçə tərəfə yozulacağını da bilirəm. Amma yazmaya də bilmərəm. Və nənəmi qınamıram. Gözləri qarşısında neçə talelərin tələf olmasını görmüşdü və gözü qorxmuşdu. Bircə oğlu üçün qorxurdu.

Payızda dərslərimiz başlananda elə birinci dərsdəcə tarix müəllimimiz dedi ki, kitablarımızda şəkli olan Şeyx Şamil, demə, çox pis adam imiş. Müəllim məhz məndən xəbər aldı ki, bəs, Azərbaycanda bu türk casusunu kim təbliğ edirdi? Dedim ki, bilmirəm.

Müəllimin Heydər Hüseynovu nəzərdə tutduğunu bilirdim. Heydər Hüseynovu şəxsən tanıyırdım, dəfələrlə atamgildə görmüşdüm. Yadımdadır, bir dəfə müharibə vaxtı bizdə ikən gecə vaxtı təhlükə siqnalı eşidildi, dərhal o da, atam da iş yerinə getdilər. Atam kinostudiyaya, Heydər Hüseynov AZFAN-a.

Kinostudiyanın müdiri olarkən hardansa atamın ağlına düşmüşdü ki, mənə general libası tikdirsin. Bəzən bu libasda anamla gəzməyə də çıxırdıq. Bir dəfə o vaxt Krivoy adlanan küçədə Heydər Hüseynova rast gəldik, dayanıb bizimlə görüşdü və mənim general libasıma sataşdı. Ondan sonra məni görəndə zarafatla «şalvarı düşük general» deyərdi.

O dərsdə isə müəllim mənə:

– Şamilin Azərbaycanda kimin təbliğ etdiyini sən bilirsən və deyəcəksən, – dedi.

Bəlkə də ailəmizdəki ovqatı bilmək üçün bu cavabı məhz məndən almaq tapşırılmışdı ona.

– Bilmirəm və demirəm, – dedim.

– Deməsən, sənə “iki” yazacam.

– Yazın, – dedim.

Doğrudan da, o gün cavab vermədiyimə görə mənə “iki” yazdı. Bu mənim həyatda ilk vətəndaşlıq addımım və tarixdən aldığım ilk “iki” idi. Ona qədər bu dərsdən həmişə “beş” alardım.

Bakıda küçələrin adlarının dəyişdirilməsi və yeni adlar verilməsi üzrə kormissiya vardı və mən də onun üzvü idim. Təklif etdim ki, dağıstanlı inqilabçı Buynakskinin adını daşıyan küçəyə Şeyx Şamilin adı verilsin. Təklifim qəbul olundu. İndi bu küçəyə yolum düşəndə həm Qafqaz xalqlarının azadlığı uğrunda mübarizə aparan cəsur qəhrəman Şeyxi Şamili anır, həm də «Şeyx Şamil qurbanı» Heydər Hüseynovun acı taleyinə yanıb- yaxılıram.

Atam da Heydər Hüseynovu ömrü böyü ağrıyla xatırlayırdı və təəssüf edirdi ki, bir az səbr edə bilməyib, axı çox qısa müddətdən sonra hər şey kökündən dəyişdi: Stalin öldü, Bağırov həbs olundu.

Müəyyən hadisələr baş verəndə bəzən bizə elə gəlir ki, Allahın bunlardan xəbəri olmur, yoxsa belə haqsızlığa yol verməzdi. Amma müəyyən vaxt keçir və Tarix hər şeyi yerbəyer edir. Hər kəs layiq olduğunu alır. Şeyx Şamil Allaha inanırdı. Tarix Allahın səbridir. Heydər Hüseynov ateist idi. Amma səbrli Allahın iradəsi onun da təmiz adını xalqımıza qaytardı.

Avqust 2012

* * *

GÜNEYDƏN GƏLƏN SƏSLƏR

İki yüz ildən artıqdır ki, Araz çayı İran tərkibindəki Cənubi Azərbaycanı bu gün müstəqil dövlət olan Şimali Azərbaycandan ayırıb. Amma şeirimizin iftixarı olan sənətkarların adlarını çəkmək yetərlidir ki, vahid ədəbiyyatımızın bölünməz olduğu bilinsin: Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nişat Şirvani, Ağa Məsih Şirvani, Nəvvab Qarabaği, Qətran Təbrizi, Qövsi Təbrizi, Saib Təbrizi, Əbdülqədir Marağayi, Arif Ərdəbili… Gəncə, Şirvan, Qarabağ – Qüzey; Təbriz, Ərdəbil, Marağa – Güney Azərbaycan…

Uzun illər boyu Güney Azərbaycanda ana dilində şeir yazmaq böyük çətinliklərlə üzləşir.

Cənubi Azərbaycanın böyük şairi, «Molla Nəsrəddin» ədəbi məktəbinin təsiriylə yetişən Mirzə Əli Möcüz Şəbüstəri (1873-1934) «Anan təlim edən dildə» adlı şeirində yazırdı:

Dilim türki, sözüm sadə, özüm səhbaye-dildadə,
Mənimtək şairin əlbəttə, olar kasad bazarı.
Dünən şeir ilə namə apardım şahi İranə,
Dedi: Torki nəmidanəm, məra to beççə pəndari?
Özü türk oğlu türk, amma deyir türki cəhalətdir,
Xudaya, müzhəmil qıl taxtdan bu ali Qacarı…

Ümidin kəsmə Möcüz, yaz anan təlim edən dildə,
Gəzər bir ərmağantək dəftərin Çinü-tatarı…

XX əsrdə Cənubi Azərbaycan xalqı üç dəfə öz azadlığı, doğma dildə yazıb-oxumaq haqqı uğrunda mübarizəyə qalxıb – keçən əsrin əvvəllərində, iyirminci və qırxıncı illərində. Hər dəfə də xalqın azad olmaq əzmi qan içində boğulub. Amma nisbətən «dinc» illərdə də milli köləliklə, doğma dilə qoyulmuş yasaqlarla barışmayanların aqibəti – edamlar, dar ağacları, sifarişli qətllər, zindanlar və sürgünlər olub. Gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, fədai dostlarıyla bir yerdə məhbəslərə atılmış şairə Mərziyə Üsküyünü (1945-1973) şah polisi 27 yaşında qətl etmişdir.

Gecələrim aysızdır
Gündüzlərim günəşsiz.
Ömrüm illərdən bəri
Bu cür sovuşur – səssiz.
Nifrət, soyuq aldanış
Yurdumuzu qaplamış.
Kökü dildən quruyub
səadətin, şadlığın.
Qaranlıq yığın-yığın,
nə sonu var, nə dibi.
Ah bu zülmət, kor zülmət
gəmirməkdə qəlbimi.

Bu həzin şeirin müəllifi Mərziyə Üsküyü (Dalğa) haqqında Şimali Azərbaycan oxucularına məlumatı ilk dəfə yazıçı-alim Əzizə xanım Cəfərzadə vermişdir. Bəxtiyar Vahabzadə Mərziyəyə poema həsr etmişdir.

İstedadlı gənc nasir, hekayələri İranda və İrandan uzaqlarda da geniş şöhrət qazanmış Səməd Bəhrəngini Araz çayında boğdurmuşlar.

Güney Azərbaycanın qocaman şairi Həbib Sahir Səməd Behrənginin ölümünə şeir həsr edib:

Yayın isti bir günündə
Dağdan qəmgin günəş doğdu.
Hələ o gün gün batmadan
Bəhrəngini Araz boğdu.



Rafiq YUSİFOĞLU

SƏN MƏNİM ÖMRÜMÜ UZAT, ALLAHIM!

Güman sənə qalıb, bizə et kömək,
Görüm doğma yurdu azad, Allahım!
Gözümdə qalmasın bir arzu, dilək,
Sən mənim ömrümü uzat, Allahım!

Necə kam almamış dünyadan köçək?
Ömür kitabımız hələ ağ qalıb.
Hələ dərmədiyim nə qədər çiçək,
Hələ çıxmadığım neçə dağ qalıb…

Viranə yurd yeri könül dağlayır,
İgidlər, bağlanan yolları açın!
Həkəri, Bərgüşad mənsiz çağlayır,
Yolumu gözləyir Kəlbəcər, Laçın.

Cəbrayıl, Füzuli tənha darıxır,
Zəngilan ilanlar yuvası olub.
Hər gecə başımda şimşəklər çaxır,
Tənha bulaqların gözləri dolub.

Ocağı soyuyub bizim ellərin,
Nə qədər yarımçıq tikili qalıb.

Hər il Çardaxlıda açan güllərin
Gözləri yoluma dikili qalıb.

Tar-kaman gələcək dilə Şuşada,
Qəmli könülləri güldürəcəyəm.
Nə qədər işim var hələ Şuşada,
Hələ Qubadlıdan gül dərəcəyəm.

Araz sahilinin tər bənövşəsi
Mənim həsrətimdən solub, İlahi!
Torpağa gömülüb çinar meşəsi,
Kötüklər baş daşı olub, İlahi!

Gözümün önünü tutsa da duman,
Yaşamaq həvəsim sönməyib hələ.
Doğma bulaqlardan su içən zaman
Gözlərim bulağa dönməyib hələ.

Çağlayan çayların kefi çağ deyil,
Dağlar doğma hənir eşitsin gərək.
Üşüyən kəndləri od-ocaq deyil,
Bizim nəfəsimiz isitsin gərək.

Güman sənə qalıb, bizə et kömək,
Görüm doğma yurdu azad, Allahım!
Gözümdə qalmasın bir arzu, dilək,
Sən mənim ömrümü uzat, Allahım!

SINAQ MEYDANIDIR BU QOCA DÜNYA

Sınaq meydanıdır bu qoca dünya,
Həyatda hər dərdin bir əlacı var.
Bəzən var-dövlət də köməyə gəlmir,
İnsanın insana ehtiyacı var…

Adamın içindən qara zülməti
Bircə təbəssüm də əridə bilər…
Yalnız bir fədakar ömür yoldaşı
Hönkürən üpəyi kiridə bilər…

Qəlbində eşq varsa, çiyinlərində
Ən ağır yükü də daşımaq olar.

Bir könül sirdaşı dayağın olsa,
Əlsiz, ayaqsız da yaşamaq olar…

ADAM YOXDU

Kaman ustası Habil Əliyevin xatirəsinə

Uca dağlardan enmişəm,
Zirvələrdə odam yoxdu.
Qartal kimi qıy vurardım,
İndi səsim, sədam yoxdu…

Uçdu əlimdən su sonam,
Lazım gələndə susanam,
Bilirəm adi insanam,
Bircə damcı ədam yoxdu…

Ömür qandı, zaman zəli,
Az qalıram olum dəli,
Dəyməyib anamın əli,
Yeməyimdə o tam yoxdu…

Özümə deyiləm hakim,
De, nə qədər xiffət çəkim?
Sığallasın başımı kim? –
Anam yoxdu, atam yoxdu…

Eşq selləri axıb gedib,
Doğmaları yığıb, gedib,
Yaşıdlarım çıxıb gedib,
Dərdləşməyə adam yoxdu…

YAZIĞIM GƏLİR

Hamını oyuna salan bir çıxılmaz oyundadı,
Özünə qənim kəsilən bəşərə yazığım gəlir...
Kaftarkoslar arasında öz canının hayındadı,
Qaçmağa məqam axtaran bu şirə yazığım gəlir...

Günəşin gözəl üzünü nə qədər gizlətsin duman?
Qoynuna çaylar axıtsan, gölməçədən olmaz ümman,
Zər qədrini zərgər bilər, çəkməçidən papaq umma,
Nadanların dodağında şeirə yazıgım gəlir!

Hər işdə qazanc axtaran gedib baqqal olmalıdı,
Sözün yerini bilməyən yüngülsaqqal olmalıdı,

İstedadı haqdan gələn üzü haqqa olmalıdı,
Kimdənsə sədəqə uman şairə yazığım gəlir...

BAŞIN SAĞ OLSUN, VƏTƏN

Haqsızlığa göz yuma bilməyən,
Haqq yolunda şəhid olub, gözlərini yumdu…
O, sənin əsl balandı, Vətən,
Kim ki, sənin uğrunda şəhidlik zirvəsi umdu…
Övladı şəhid olmağa hazır olmayan xalqın
Özü şəhid olmağa məhkumdu…
Başın sağ olsun, şəhidlər anası Vətən!
Başını uca tut,
Ömrümüzün mənası Vətən!

BİR QOCAMAN DAĞAM MƏN

Hərdən qəlbimdən keçir
Şimşək olub çaxam mən!
Sevgisiz könülləri
Yandıram mən, yaxam mən!

Ürəyim min həvəsdə,
Sevəydim son nəfəsdə.
Solan güllərin üstə
Yağış kimi yağam mən!

Biçənəkdə qaya var,
Yanında bir taya var.
Harda hiylə, riya var,
Bil ki, orda yoxam mən…

Aylar, illər yorğunu,
Tanrı sanır doğrunu!
Zülmətlərin bağrını
Dəlib keçən oxam mən!

Eşqdir başımın tacı,
Dərdlərimin əlacı,
Olsam da sevgi acı
Könlü-gözü toxam mən!

Nifrət tunc, sevgi zərdi,
Gülümü sevgi dərdi,

Azmandı sevgi dərdi,
Gücüm çatmır yıxam mən!

Bir ürəyi saf gələ,
Qəlbində insaf gələ,
Sevinib gülə-gülə
Pişvazına çıxam mən!

Bülbül kimi ötürəm,
Vaxtım var köks ötürəm?
Təzə güllər bitirən
Bir qocaman dağam mən!

AĞ ATLI OĞLANIN OLA BİLMƏDİM

Solan çiçəklərin üzü gülmədi,
Heç kəs zorla yağış yağdıra bilməz.
"Əlvida" bircə söz, bircə kəlmədi,
Amma qarşısında dağ dura bilməz!

Eşq çəkər hər qəlbin haqq-hesabını,
Hərə özünə yar seçər, – bilirsən!
Tapa bilməyirsə bablı babını
Günü ah-vay ilə keçər, – bilirsən!

Məndən umduğunu ala bilmədin,
Budur ürəyini yoxsa üşüdən?
Ağ atlı oğlanın ola bilmədim,
Axı nə umurdun ağsaç kişidən?!

Qış ilə dostluğu tutmaz baharın,
Sevdalı ürəyin qaynar ocaqdır...
Gələcək nə vaxtsa sevgi qatarın
Səni çəmənlərə aparacaqdır...

Ürək məhəbbətsiz çətin keçinə!
Nur olub ömrünə töküləcəyəm.
Sonra da qoşulub qışın köçünə
Uca zirvələrə çəkiləcəyəm...

SEVGİ QATARINA GECİKSƏN ƏGƏR

Yazırsan ki, məndən sevgi istəmə,
Ürəyim köksümdə fəğan qoparır…

Həsrətin sel kimi axır üstümə,
Ötən sevdaları yuyub aparır…

Geymisən əyninə qısqanclıq donu,
Nələr düşünürsən baxıb güzgüyə?
Məbədlər boş qalmır, bilirsən bunu,
Öz tale payını vermə özgəyə….

Çətin ki, kiməsə əyiləm, ay qız,
Niyə həvəslisən könül qırmağa?
Mən yuva dağıdan deyiləm, ay qız,
Vaxtım var heç təzə yuva qurmağa?!

Sevginin önünü kəsmək çətindi,
Yığılıb, yığılıb, gölə dönəcək.
Nə vaxtsa uçurub bərəni, bəndi
Bir qorxunc, amansız selə dönəcək…

Göz açıb yumunca ömür qurtarır,
Günlərin ah-vayla ötüşüb sənin.
Min il gözlədiyn qismət qatarı,
Axır ki, yanına yetişib sənin…

Zamanın hökmünü bilmirsən məgər?
Onsuz da bu dünya deyil özündə.
Sevgi qatarına geciksən əgər,
Tənha qalacaqsan bu yer üzündə…

Hörmətli Rafiq müəllim!

Sizi – tanınmış şair, ədəbiyyatşünas-alim, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisini 70 illik yubileyiniz münasibəti ilə "Azərbaycan" jurnalında çalışan həmkarlarınız ürəkdən təbrik edir. Siz keçən əsrin 70-ci illərində ədəbiyyata gəldiniz və elə ilk gəlişinizlə diqqəti cəlb etdiniz. Sizin bir alim kimi yazdığınız "Azərbaycan poeması: axtarışlar, perspektivlər", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" və başqa əsərlərinizin ədəbiyyatşünaslıq elmimizdə öz yeri və çəkisi var. Rafiq müəllim, Siz uşaqlarımızın ədəbi zövqünün formalaşmasında və ümumiyyətlə, tərbiyəsində çox gərəkli işlər görürsünüz. Sizi yubileyiniz münasibəti ilə bir daha təbrik edir, Sizə möhkəm can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.

Hörmətlə,
İntiqam QASIMZADƏ

Mənsurə QAÇAYQIZI

AY İŞIĞI

Deyəsən, bu gecə ömrümə düşən,
Sən, Ay işığı da, işıq deyilsən.
Bəlkə də sən məni aldatmaq üçün
Sabah gəlməliydin, bu gün gəlmisən?!

Niyə baxışların belə dumanlı?!
Gəl bu pərdəni at, sən ay üzündən.
De görüm, sən məndən nə gizlədirsən,
Nələr oxumuram sənin gözündən?!

Görürsən... nədənsə heç sevinmirəm,
Səbəbi? Sən məni tərk edəcəksən.
Bir anlıq sevincə öyrəncəliyəm,
Mən hardan bilim ki, sabah gələssən?!.

GÜNÜN BİRİNDƏ

Bu şeiri yazmışdım günün birində,
Yadımda deyil ki qışıydı, yazdı.
Bu şeiri yazmışdım günün birində,
Bir onu bilirəm qəlbim payızdı.

Bu şeiri yazmışdım günün birində,
Yadımda deyil ki saat neçəydi.
Ya səhər mehinin əsən vaxtıydı,
Ya da ki qaranlıq zülmət gecəydi.

Bu şeiri yazmışdım günün birində,
Hansı məkanıydı, harda, bilmirəm...
Ruhum uzaqlarda, ya yaxındaydı,
Yadıma hələ də sala bilmirəm.

Bu şeiri yazmışdım günün birində,
Yox idi yanımda nə dost, nə tanış.
Bircə qələm idi, tutub əlimdən
Demişdi bir az da mənimlə danış.

YADIMDASAN

Bulud ötdü göy üzündə
əlçim-əlçim, topa-topa.
İstədim ki o ağ bulud
Məni göylərə apara.
Səni andım...
Yadımdasan...

Yağış yagdı narın-narın,
Cilvələndi arzularım.
İstədim ki,
o yağışın altındaca
qaçım, qaçım,
qaçım dünyanı dolanım,
səni andım
yadımdasan...

günəş doğdu, dövrə vurdu
göy üzündə göy qurşagı
rənglərinə əl uzatdım
səni andım
yadımdasan...

BİR AZ...

Lap elə bu payız havası kimi,
Bir az dəli olaq, bir az da dolu.
Dolaşaq dünyanı dəlilər kimi,
Alaq əlimizə cığırı, yolu...

Bir az nağıl olaq, bir az da şirin,
Qarışaq dünyanın yalan ətrinə...

Kəpənək ömrünü yaşasaq belə,
Bir çələng hörərik ömrün sətrinə.

Lap elə unudaq adımızı da,
Hərflər qarışsın biri-birinə.
Bir adla dagılır dünya, dagılsın,
Niyə dəyməliyik adın xətrinə.

Bir az agac olaq, bir az daş olaq,
Bir az səpələnək lap elə qumtək.
Saatın əqrəbi heç işləməsin,
Uçan saniyələr de nəyə gərək...

O NƏ GÖZƏL YUXU İDİ

Ağ-ağ cicəkləri vardı,
Gözəl ləçəkləri vardı,
Ətri saçlarımda qaldı,
O nə gözəl yuxu idi.

Uçan xalçası da gözəl.
Bağı-bağçası da gözəl,
Sözdən xonçası da gözəl,
O nə gözəl yuxu idi.

Bir həzincə musiqiydi
Şipşirin layla deyirdi.
Nə sirriydi, nə səsiydi,
O nə gözəl yuxu idi.

Aldı məni də apardı,
Ruhumu məndən qopardı.
İstəmirəm qaytaraydı,
O nə gözəl yuxu idi.

Çıxıb uzaqlara getdi,
Bir qırpımda gözdən itdi.
Kaş ki özu də biləydi
O bir gözəl yuxu idi...

♦ Esse

UZUN SÜRƏN CAVANLIQ

Qısa arayış: *Nizaməddin Şəmsizadə – 1954-cü il dekabrın 30-da Quba bölgəsinin qədim türk obası – İspik kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini 1977-ci ildə bitirib. 1978-1990-cı illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda baş laborant (1978), kiçik elmi işçi (1981), baş elmi işçi (1986) kimi elmi fəaliyyət göstərib. 1982-ci ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyaları müdafiə edib. 1985-ci ildən SSRİ Yazıçılar İttifaqının (indiki AYB) üzvüdür. 1990-cı ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirib: müsabiqə yolu ilə baş müəllim (1990), dosent (1991), professor (1992) seçilib. 1901-ci ildən 2006-cı ilin sentyabr ayınadək "Ədəbiyyat və dillər", "Ədəbiyyat və Azərbaycan dili" və "Ədəbi yaradıcılıq" kafedralarının müdiri vəzifəsində işləyib. 2002-ci ildə Tiflisdə Qafqaz Xalqları Elmlər Akademiyasının həqiqi üzvü seçilib. Elmi xidmətlərinə görə akademik Y.Məmmədəliyev mükafatının (2003) laureatıdır. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı (müştərək) kitabına görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb (2010). BDU-nun nəzdində Dissertasiya Şurasının və Bakı Xoreoqrafiya Akademiyasının Elmi Şurasının üzvü olmuşdur. 2007-2012-ci illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin müdiri vəzifəsində işləyib. Hal-hazırda Bakı Dövlət Universitetinin professorudur.*

Dekabr ayı ailəmiz üçün ilin sonu, Dünya Azərbaycanlılarının Həmrəylik Günü, təqvimin yeniləndiyi gündən əlavə, atamın doğulduğu ay kimi bayramdı. Şəxsiyyət vəsiqəsində 1 iyul yazıldığından həmişə nənəmlə söhbətlərimdə bu məsələyə aydınlıq gətirməyə çalışırdım (ötən əsrdə rayon yerlərində "yaş kağızını" gec aldıqları üçün uşaqların çoxuna eyni tarix yazılırdı): Nəticədə anladım ki, sabah bayram olacaqdı, bu gün Nizaməddin doğulub. 60 yaşına yaxın atam müsahibələrinin birində – "Əhməd bəy Ağaoğlu öz tərcümeyi-halında yazmışdı: "64 senenin içindeyim. İlahi, nə böyük tarix!", özü haqqında isə atam: "60 yaşın içindəyəm, insan bu qədər yaşayarmı?!"" – demişdi.

Övlad üçün valideyn yüz il yaşasa da, azdır.

Dekabr ayının ilk günlərindən atam dostları ilə (ad günü münasibətilə) məclislərdə olub. Bu il isə, 65 yaşının astanasında, dekabr ayı girməmiş, atam xəstəxanadadır. Bu yaşının ən böyük sevinci "Əməkdar elm xadimi" fəxri adı alması oldu.

Bakı Dövlət Universitetinin 100 illiyi münasibəti ilə, Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə ölkə başçısı İlham Əliyev Universitetin

müəllimlərini Azərbaycan Respublikasının fəxri adları ilə təltif etmişdir. "Əməkdar elm xadimi" adı atamı çox sevindirdi. Səhhəti mane olsa da, məktub yazdı. Möhtərəm Prezidentimiz İlham Əliyevə, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə və filologiya fakültəsinin dekanı Elçin Məmmədova öz təşəkkürünü bildirdi. Qəzetə göndərməyimizi istədi. Çox sevinirdi. Yaxşı danışa bilmirdi. Əllərini göyə tutaraq, Allaha şükür etdi.

Bu yazını yazdığım zaman kəsiyində atam reanimasiyadadır.

"Mən əzab soyudub, dərd əridirəm,
Bu da başqa cürə yazıdı bəlkə" *(Musa Yaqub).*

Ötən il reanimasiyada ayılanda xəstəxanada ikən yazmışdı.

Özüm
Reanimasiyada – ömürlə ölüm arasında
Son dayanacaq...
Kimi gedəcək, kimi qalacaq.
Biri meyitxanada, biri toyxanada.
Yuxusuz həkimin kal səsi – kəsilir xəstənin nəfəsi:
Nəfəs verin,
sistem vurun.
Daha gecdir,
qanı donub.
Xəstə yaşamaqdan yorulub.

İlk dəfəydi onu bu qədər yatan və iştahsız görürdüm.Taqəti tükənib, rahatlanmaq istəyir. Hər gözlərini açanda dünyadan küskün kimi baxışlarını bir nöqtəyə zilləyərək, öz həyatına sanki kənardan baxırdı; seyrçi kimi. (Dikib gözlərini şah zirvəsinə, bəhrəli bağların aynası Quba). Yatmaq, yeməmək və danışmamaq atama aid deyil. Bu xüsusiyyətləri görəndə qorxuram. Bir saat yuxudan gec ayılanda "sanki cinayət eləmişəm" deyən insan artıq yeddi gündür yatır. Bütün sualları "şirin yuxum gəlir" deyə cavablandırır.

İki gün öncə yanında olarkən həkimlərin "nə istəsə, nə yeyə bilsə, yesin"-sözlərinə qımışdı. Təzyiqi normallaşandan sonra çətinliklə də olsa dedi: "Fidan, görürsən, yeyib-içməyəndə insan nə hala düşür?". Tez-tez anasını xatırlayırdı:

Başım üstə layla çalan,
Səni torpaqlara verib
Bu dünyada tənha qalan
Oğlundan xəbərin varmı?!

Musiqiçi öz səsi ilə insanların diqqətini öz şərqisinə cəlb etdiyi kimi, yazıçı-alim də milyonların qəlbini öz sözünün sehrinə bələyir. İlahi vergi olan istedad hər kəsdə bir şəkildə təzahür edir. Atamın fenomenal hafizəsi və sözə məhəbbəti var. O, hər şeyi sözdən umur. Söz insan cismini yaşadan ruhun görünən formasıdır.

Məni ədəbiyyata məhəbbətim qoruyub – deyir atam.

Abdulla Abbasov haqqında məqaləsində "ədəbiyyata məhəbbət insanı uzun yaşadır" yazmışdı. O, uzun sürən cavanlıq keçirmişdir, amma sürətlə qocalır, bəlkə sözdən inciyib, ya ədəbiyyatdan... əsəbiləşəndə Sabirin şeirləri, darıxanda Füzulinin qəzəlləri ilə ovunan insan ruhdan düşməməlidir. Kişi əgər xatirə danışırsa, gözəlliyə biganədirsə, o artıq qocalır - deyir.

Qolum sınıq, ayağım kəsik.
Nə gəzə bilirəm, nə də gözəlliyi görürəm.
Özüm üçün xəyaldan
Yeni ömür hörürəm.
Xoşbəxtlik sarayı tikirəm
Qara-qura fikirlərdən.
Özüm özümə gülürəm.

"Duman" şeirlər kitabının avtoqraf yerinə qeyd etdiyi kimi, şairlik iddiasında deyil, sadəcə, könlü dünya ilə savaşda qəzaya uğrayıb. Beləcə, şeirləri yaranıb...

Müsahibələrinin birində deyir: “Allah sevən qəlblərdə gecələyir”. Atam bu ana qədər sevərək yaşayır. Xəstəxanalarda həyatı sevdiyindən necə mübarizə apardığının şahidiyəm. Atamın yanında kövrəlməyi sevmirəm, o, məni möhkəm iradəli görmək istəyir, “mənim oğlumsan”- deyib həmişə mənə. Noyabr ayının son günlərində xəstəxanada dializdə həmişəki kimi yanında idim. Saçımı sığalladı, ovuclarını üzümdə gəzdirdi, gözlərində bir həsrət vardı, gözlərinin rəngi daha da göyərdi, sanki mavi sulardan bir neçə damcı istədi, ağladı...

Mən darıxanda Vaqif Səmədoğlunun şeirləri ilə Allaha sığınıram, “Mən burdayam, İlahi...” deyirəm.

Gözmü dəydi izlərimə
Yerə vurdun sözlərimi
Dindi yerin sarı simi
Yaz göndərim gözlərimi
Harda ağlamaq istəsən *(V.Səmədoğlu).*

Mənim üçün ən əziyyətli məqam atamdan nə isə istəməkdir. Bir dəfə ona hekayələr yazdığımı və onu nəşr etdirmək istədiyimi demək əvəzinə, qırıb tökdüyüm cümlələrimi qısa kəsib “yaman yoruluram” dedi. Sonralar anladım ki, İnsanların demədiklərini duymaq onu daha çox yorur. Fikirləşdim ki yəqin məni nə dinlədi, nə də anladı. Növbəti ay mənim bir tədbirdən olan şəklim və oxuması üçün aylardı yazılarının üstünə qoyduğum hekayəm “Azərbaycan” jurnalında dərc olunmuşdu. Sevincimi biruzə verə bilmirdim. Hekayəm – yaşlı professorun atasını itirərək, bu dərdin işığında ötənləri xatırlamasından bəhs edirdi və “Qəm işığ”ı adlanırdı. Ən qəribəsi isə hekayəmin babam rəhmətə getdiyi zaman nəşr olunmasıdır. Atam çox sonralar etiraf etdi ki, hekayədə olanları yenidən xatırladım, sənin hisslərin qeyri-adidir, çalışsan, yazıçı ola bilərsən.

Atam qarlı qış günündə dünyaya göz açıb. Şeirində bu barədə vurğuladığı kimi....

Dekabrın 30-da
Bu dünyaya gəldiyim gün
Mən mənimdən ayrılmışam,
Mənsizliyə qatılmışam.
Bilirəm ki, lap bu günlər
Qanad açıb uçacağam.
Qonub tanrı dərgahına,
O görünməz ilahinin
ayağını qucacağam.

Ədəbiyyat gözəllikləri təcəssüm etdirən bədii fikir sahəsidir. Atamın mənsub olduğu ədəbi nəsil ədəbi tənqiddə ənənələrin, nəsillər arasında tarixi bağların qorunub saxlanılmasına nail olmuşdur. 20-30-cu illərə aid çıxışlarına və tədqiqatlarına görə Qulu Xəlilov atamı üsyankar zadəgan kimi “dekabrist” adlandırmışdı. “...o sözün həqiqi, böyük mənasında tənqidimizin dekabristi idi” (Asif Rüstəmli).

“Ən etibarlı yaddaş qan yaddaşıdır. Yaddaşımızın qan izi biz özümüzük. Qanla birgə damarda axmayan yaddaş, xalqı özünə tanıtdıra bilməz” (N.Şəmsizadə).

“Türkün qalxanı tarix boyu yalnız bir şeyə, yaddaşa enən qılınca qarşı bu qədər zəif və biganə olmuşdur” (Y.Qarayev). Bir xalqın torpaqları bölünürsə, onun həm də düşüncə tərzi, yaddaşı da işğal olunur. Ədəbiyyat – mədəniyyət tariximizi, tarixi şəxsiyyətləri və ümumiyyətlə bütün prosesləri yaşadan böyük bir abidədir. Akademik Bəkir Nəbiyevin 80 illik yubileyi münasibəti ilə “Elmin və ömrün zirvəsinə qalxan alim” məqaləsində yazdığı fikirlər atamın özünə də aiddir: “Müqəddəslərin müqəddəsi, Allahdan sonra yaranmış sözlə ünsiyyətdə olmaq, onu sevmək, dilə gətirmək, ərşdən gəlmiş sözü qəlb evində sakin etmək, yaradanın həmd-sənası olan sözün nazını çəkmək, kəmali-hüsnünə təriflər söyləmək – tənqidçi olmaq çox böyük səadətdir”. Çox xoşbəxtəm ki, atam Nizaməddin Şəmsizadə tənqidçi, ədəbiyyatşünas kimi tarix yarada bilib.

Yazı öz oxucusu ilə yaddaşlara hopur, tarixə çevirilir. Ədəbiyyat gələcəyə ən böyük ismarıcdır. “Tənqidin ədəbi prosesdə rolu” kitabında ədəbi prosesdə üç oxucu tipi – adi oxucu, tənqidçi-oxucu və sənətkar – oxucu haqqında zəngin elmi-nəzəri fikirləri vardır. Yaradıcılıqla məşğul olan insanlar təbiət və cəmiyyət arasında mənəvi körpü yaradaraq, əsərləri vasitəsilə insanda ən dəruni hissləri yaşada bilirlər. Biz – anlaşılmaz rəsm əsərində, gözəl bir musiqidə, yaxud köksün dar qəfəsindən çıxan sözlərdə yaşaya bilərik. Eyni zamanda, təbiət və insan arasındakı bu mənəvi gözəllikləri yaşadaraq, gələcək nəsillərə ötürə bilərik.

Bu yaxınlarda atam böyük həvəslə Musa Yaqubun şeirlərini oxuyurdu. Mədəniyyət Nazirliyi tərəfindən şairin gənc yaşlarından indiyədək qələmə aldığı, dillər əzbərinə çevrilmiş çoxsaylı şeir və poemalarından ibarət “Gərək bu sözümü daşlara yazam” yeni şeirlər kitabı hazırlanırdı. Ata kitaba “Daşlara yazılan söz” adlı ön sözü yazırdı. Şairin onun haqqında yazdığı şeirini xatırladı:

Nizaməddin, qəm eləmə,
Bu dərdləri yığıb-yığıb
ürəyində cəm eləmə
Gəl bu yerdən varıb gedək,
Sən o üzdən, mən bu üzdən,
Üz tutaq dağlara sarı...
Sən “İspik”dən çıx yuxarı,
Mən də tutum bu axarı -
o tay sənin, bu tay mənim
Qaya daşı sırasına
qatar məni,
Əlçim bulud qucağımda
yatar mənim –
Gəl çıx, gedək Baba dağa.

Ötən il Qubada olarkən atamın kitablarının arasından köhnə qeyd dəftərçəsi tapdım. Ümid haqqında maraqlı fikirlərlə rastlaşdım və əslində, çox sarsıldım. İllərlə işıq kimi ətrafına ümid saçan insan, sən demə, ümidin varlığına inanmırdı: “Ümid heç vaxt olmayanı vəd edən xeyirxah ana, kasıb atadır. Ümid insana şirin yuxudan başqa heç nə vermir. Ümid ay kimidir, səhər batır, axşam çıxır”.

Bu fikirlərin ardı kimi mən də ümidə olan güvənimdən yazdım: “Ümid – Allahın yer üzündəki adıdır. Ümid – yenidən Qubaya atamla gəlməkdir... ”

Nə qədər yol getdim fikirlər ilə,
Hələ mənzilimin uzağı qalıb.
Üfüqlər dalında nə qədər hələ
Arzumun əlləri uzalı qalıb. *(Məmməd Araz).*

Atamın özü haqqında yazdığı “Mən kiməm” kitabı belə yekunlaşır: “Bütün çətinliklərə baxmayaraq, həyat davam edir – içində qururum çiçək açır, təbəssümüm günəşlə bərabər gülümsəyir, idrakım meydan oxuyur, qəlbim ilahi nuru ilə süslənir və mən yaşayıram”. Fərid Hüseynin – “Söz sözə çevrilməyəndə” essesindəki bu fikirlə tam razıyam: “Sözlər ürəyimizdə dünya boydadı, vərəqdə hərf boyda”.

65 yaşın mübarək olsun, Ata! Sənə bu həyatda yalnız can sağlığı arzulayıram. Nəfəsin hələ uzun illər gəlsin. Mən bu həyat yoluna sənlə başlamışam, bu həyatı sənlə dərk etmişəm. Həyatım sənin nuruna boyanıb, işıq saçır. Uca Yaradan bu işığı çox görməsin mənə – bizə...

65 yaşın nurunda səni sevənlərin duasını istərəm, sənin üçün... Amin!

P.S. Kaş ki, “Azərbaycan” jurnalının bu sayı nəşr olunanda atam sağalardı...oxuyub məni tənqid edərdi...

Fidan Nizaməddin qızı Abdurəhmanova

"BİZ TÜRKÜK, AZƏRBAYCAN İSƏ BİZİM YURDUMUZDUR"

Vintsas Kreve-Mitskəviçyus

Vintsas Kreve-Mitskəviçyus (1882-1954) XX əsr Litva ədəbiyyatının ən məşhur klassik yazıçılarından biridir. Eyni zamanda, görkəmli ədəbiyyatşünas alim, ictimai-siyasi və mədəni xadim olaraq tanınıb. O, Kaunas və Vilnüs universitetlərinin professoru (1922-1943), həm də Litva SSR EA-nın ilk prezidenti olub. Kreve onun ədəbi təxəllüsüdür, əsl familiyası isə Mitskəviçyusdur.

Vintsas Krevenin ədəbi irsi Litva ədəbiyyatı qızıl fondunun mühüm bir hissəsini təşkil edir. Bu irsin böyük qismi indiyədək Litvanın orta və ali məktəblərinin tədris proqramlarına daxil edilərək müntəxəbati əsərlər kimi tədris olunur. Litvalı ədəbiyyatşünas və tənqidçi, professor Vitautas Kubilyus (1926-2004) yazır ki, "V.Kreve öz yaradıcılığında Avropa universallığını və janr müxtəlifliyini çoxvektorlu və polifonik şəkildə ustalıqla əks etdirən, milli idealizm yönlü ədəbiyyata dramatik əhatəlilik və klassik dolğunluq gətirən ilk Litva yazıçısı olaraq, ən məşhur milli psixoloji surətlərin və milli ədəbi üslubun yaradıcısıdır..."[1]

V.Kreve həm sağlığında, həm də vəfatından sonra, bir çox Litva yazıçılarının taleyində, ədəbi axtarış və yaradıcılıq yollarında xüsusi rol oynayıb. Onun istedadı, erudisiyası, çoxşaxəli fəaliyyəti və böyük dühası, adi adamlardan tutmuş tanınmış şəxsiyyətlərə qədər ən müxtəlif məslək və əqidəli insanları vəcdə gətirib, həmin illərdə mövcud olmuş ədəbi iqlimin gerçəkləşməsində müstəsna rol oynayıb, milli mədəniyyətin inkişafına güclü təkan verib və indiyədək Litva mədəniyyəti və ədəbiyyatında öz təsir qüvvəsini itirməyib...

V. Kreve 1882-ci il oktyabrın 19-da Litvanın Varena rayonu Merkine bələdiyyəsinin Subartonis kəndində dünyaya gəlib. İlk təhsilini 1898-1900-cü illərdə Vilnüs katolik ruhani seminariyasında alıb. Sonralar öz üzərində müstəqil çalışaraq 1904-cü ildə 1-ci Kazan şəhər gimnaziyasında ekstern yolu ilə imtahan verib kamal attestatı alıb. 1904-1908-ci illərdə Kiyev universitetinin Tarix-filologiya fakültəsində rus dili və ədəbiyyatı ixtisası üzrə təhsilini davam etdirib, müqayisəli dilçilik sahəsində diplom işini müdafiə edərək filologiya magistri dərəcəsinə layiq görülüb.

* * *

[1] – Vytautas Kubilius. "XX amžiaus literatūra". Vilnius, "Alma Littera", 1995, psl. 83

V. Krevenin həyat və yaradıcılığının, elmi-pedaqoji, mədəni-maarif və ictimai-siyasi fəaliyyətinin on bir ilə yaxın dövrü Azərbaycanla sıx bağlı olub. Belə ki, o, 1908-ci ildə müqəddəs Vladimir adına Kiyev İmperator Universitetini bitirdikdən sonra - 1909-1920-ci illərdə 1-ci Bakı realnı məktəbində[2] rus dili və ədəbiyyatı müəllimi işləyib. Eyni zamanda burada ictimai-siyasi və mədəni xadim kimi fəaliyyət göstərib. 1911-ci ildən başlayaraq V.Kreve eyni zamanda bir müddət Bakı Mariya qızlar məktəbində (Mariinskaya qadın gimnaziyasında) dərs deyib. O, 1912-ci ildə 1-ci Bakı realnı məktəbindəki əsaslı kitabxananın müdiri təyin olunub, 1914-1916-cı illərdə bu məktəbin Pedaqoji şurasının katibi, 1917-1920-ci illərdə isə Şuranın sədri seçilib.

Həmin illərdə 1-ci Bakı realnı məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyən böyük pedaqoq və yazıçı Abdulla Şaiqlə (1881-1959) Krevenin yaxın dostluq və yaradıcılıq əlaqələri yaranıb. A.Şaiq 1957-ci ildə V.Kreve haqqında yazdığı xatirələrində minnətdarlıq hissi ilə qeyd edir ki, Litva yazıçısı onun "...ədəbi görüş dairəsinin genişləndirilməsində və dünya ədəbiyyatı xəzinəsini öyrənməsində böyük əmək sərf etmiş və mühüm rol oynamışdır".[3]

V. Kreve 1-ci Bakı realnı məktəbinin nəzdində fəaliyyət göstərən şagird ədəbi dərnəyinə rəhbərlik edib. Bu dərnəyin ən istedadlı üzvlərinin, həmçinin azərbaycanlı şagirdlərin ədəbi yazılarının "İlk cücərtilər" ("Первые всходы") adlı rusca almanaxda çap olunaraq yayılmasında bilavasitə iştirak edib. Dərnəkdə araşdırılan mövzuların çoxunun rus və Qərb ədəbiyyatı ilə bağlı olmasına baxmayaraq, o, apardığı məşğələlərdə türk mədəniyyətinin də öyrədilməsinə yer verib. Dərnəyin keçmiş üzvü, V. Krevenin şagirdi, sonralar Bakı Dövlət Universitetinin dosenti olmuş coğrafiyaşünas alim Hadı Əliyev öz müəllimi haqqında 1957-ci ilin dekabrında yazdığı xatirələrində göstərir ki, "...Mitskəviçyus Şərq ədəbiyyatının bütün yeniliklərini izləyirdi... Məsələn, şagirdlərdən biri onun rəhbərliyi ilə "Müasir türk ədəbiyyatı" mövzusunda referat yazmışdı".[4]

V. Kreve Azərbaycan folkloru, etnoqrafiyası və məişəti ilə çox yaxından maraqlanar, şagirdlərindən tez-tez xalq əfsanələri, nağıllar və adət-ənənələr haqqında soruşardı. O vaxtlar Qori müəllimlər seminariyası şagirdlərinin toplayıb buraxdıqları "Qafqaz xalqlarının atalar sözləri və zərb-məsəlləri" dəftərlərini acgözlüklə oxuyub toplayardı. Bunlar V. Kreve üçün həmişə əsl bayram və qiymətli söz xəzinəsi idi...

Bakıda kamil pedaqoq kimi ad qazanmış V.Kreve azərbaycanlı şagirdlərinin mütərəqqi dünyagörüşlərinin formalaşması, ədəbi-estetik və elmi-nəzəri baxışlarının rasional istiqamətdə inkişaf etməsi və beləliklə də Azərbaycan türklərindən oluşan yüksək səviyyəli ziyalı dəstəsinin yetişdirilməsi işinə mühüm töhfələr verib. Onun yetişdirmələri sırasında sonralar Azərbaycanda yazıçı, jurnalist, həkim, iqtisadçı, pedaqoq və ictimai-mədəni xadim kimi tanınmış Tağı Şahbazi Simurğ, Ruhulla Axundov, Abdulla Şıxlinski, Abdulla Şahbazov, Həbib Talışinski, Qulaməli Həsənov, Hadı Əliyev, Səməndər Axundov və bir sıra digər şəxslər vardı...

Yazıçı və dövlət xadimi Tağı Şahbazi (1892-1938) 1935-ci ildə Bakıda çapdan çıxmış "Əsərləri"nin birinci cildinə yazdığı ön sözdə Litva yazıçısının adını böyük məhəbbət və minnətdarlıqla çəkib.[5] O, ədəbi yaradıcılığına V.Krevenin göstərdiyi təsirdən danışaraq onu öz əsərlərinin ilk tənqidçisi

---

[2] – O vaxtlar Nikolayevskaya - indiki İstiqlaliyyət küçəsində yerləşən həmin məktəbin keçmiş binasında hazırda Azərbaycan Dövlət İqtisad Universiteti fəaliyyət göstərir.

[3] – Abdulla Şaiq. "Xatirələrim". Bakı, "Gənclik", 1973-cü il, səh. 347-348

[4] – Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 349

[5] – Tağı Şahbazi Simurğ. "Əsərləri", I cild, Bakı, "Azərnəşr", 1935, 289 səh., 3000 nüsxə.

adlandırıb. Amma nəşriyyat o zaman V.Krevenin mühacirətdə - Litvada yaşadığını əsas tutaraq, T.Şahbazini bu fikrindən döndərə bilib və məhz buna görə də V.Krevenin adı həmin kitaba salınmayıb (bu haqda T.Şahbazinin qardaşı Abdulla Şahbazov xatirələrində yazıb).

İstedadlı şagirdi, sonralar Azərbaycanda ictimai-siyasi xadim, tərcüməçi, ədib və publisist kimi tanınmış Ruhulla Axundova da (1897-1938) Kreve himayədarlıq edib. Belə ki, dəfələrlə R.Axundovun təhsil pulunu ödəyə bilmədiyi üçün məktəbdən xaric olunmasının qarşısını alıb, pedaqoji şura iclaslarında və direktorluğun qarşısında onu haqlı olaraq müdafiə edib. Nəticədə yaxın gələcəyin fəal ictimai xadimi məktəbi uğurla bitirə bilib.

* * *

"Dil millətin ucaltdığı əzəmətli abidədir...". Bu aforizm V.Krevenin müasiri, Litva ədəbi dilinin "atası" sayılan Yonas Yablonskis (1860-1930) adlı məşhur dilçi alimə məxsusdur. V.Kreve bütün həyatı və yaradıcılığı boyu bu əzəmətli abidəni daha da cilalayıb və var gücü ilə qorumağa çalışıb. Onun ana dilinə həm həyatda, həm də əsərlərində sədaqətli övlad sevgisi ilə yanaşmasını digər böyük mütəfəkkir və humanist xadim - Litva yazı dilinin banilərindən biri kimi tanınmış Mikaloyus Daukşanın (1527-1613) 400 il bundan öncə söylədiyi və artıq aforizmə çevrilən bu fikri ilə ifadə etmək olar: "Dil - məhəbbət əlaqəsi, birliyin anası, vətəndaşlığın atası və dövlətin keşikçisidir".

Odur ki, Litva danışıq dili V.Krevenin yaradıcılığında ən yüksək linqvistik keyfiyyət və üslub mədəniyyəti süzgəcindən keçirilib qiymətli daş-qaşlar kimi qarışıqlardan təmizlənir, emal edilib qızıl külçələr şəklinə salınır və "məhəbbət əlaqəsi, birliyin anası" olduğunu təsdiqləyən ritmik quruluşlu poeziya misraları kimi səslənən cümlələrə çevrilirdi...

Ana dilini – o cümlədən Azərbaycan dilini millətin varlığını təsdiq edən birinci amil olaraq qorumaq və sevə-sevə yaşatmaq qayğısı V.Kreveni Bakıdakı pedaqoji fəaliyyətində narahat edən başlıca məqamlardan biri idi. O, bu məsələyə ələlxüsus Baltik xalqları ziyalılarına xas olan mütərəqqi mühafizəkarlıq və böyük həssaslıqla yanaşırdı. Azərbaycan dilinin 1-ci Bakı realnı məktəbində tədris edilmə problemləri ilə bağlı V.Krevenin ictimai-siyasi və edukoloji görüşləri Məmməd Əmin Rəsulzadənin o zaman həmin məktəbdə hökm sürən vəziyyətə aid 1908-ci ildə dərc etdirdiyi "Realnı məktəbində müsəlman əlifba sinfi" adlı araşdırma məqaləsində[6] yer almış tənqidi mülahizələrlə və irəli sürülmüş milli-maarifpərvər müddəalarla tamamilə uzlaşırdı.

Beləliklə, V.Kreve azərbaycanlı şagirdlərinə milli şüur və özünüdərketmə amillərinin təlqin edilməsi, vətənpərvərlik hisslərinin, milli duyğuların oyadılması, Azərbaycan dili və ədəbiyyatının, həmçinin qədim tariximizin təbliğ olunması, maarif və mədəniyyətin milli ruha istiqamətlənməsi, eyni zamanda, digər milli-mənəvi dəyərlərimizn yayımlanması, ümumiyyətlə, Azərbaycan və azərbaycançılıqla bağlı bütün sahələrdə xeyirxah işlər görərək müstəsna xidmətlər göstərib. V.Krevenin keçmiş şagirdi Səməndər Axundov müəllimi haqqında 1957-ci ilin martında yazıb:

"...Bir kərə şagirdlərdən biri Mitskəviçyusdan soruşdu ki, doğrudanmı biz tatarıq? O dedi ki, yox, biz türkük və Azərbaycan (bu sözü o zaman ilk dəfə biz ondan eşitdik) isə bizim yurdumuzdur. Sonra isə o, Azərbaycan dilinin mənşəyi və qədim Azərbaycan mədəniyyəti barədə danışdı, Nizami, Xaqani və Füzulinin yaradıcılığından söhbət

[6] – Bakı, "Tərəqqi" qəzeti, 23 sentyabr 1908-ci il, № 59.

açdı. Mitskəviçyus öz fikirlərini çox cəsarətlə söyləyirdi və xüsusilə qeyd edirdi ki, bizim dilimiz heç bir "tuzemnı" dil yox, Azərbaycan dilidir və bu dili öz adi ilə adlandırmaq lazımdır".[7]

Qeyd etdiyimiz kimi, ana dilinə sevgi və hörmət, öz dilinə sahib olmaq, onu millətin varlığını təsdiq edən ən ilkin həyatverici amillərdən biri olaraq göz bəbəyi kimi qorumaq V.Kreveni Bakıda narahat edən başlıca məsələlərdən biri idi. Bu baxımdan yazıçı Abdulla Şaiqin V.Kreve haqqında 1957-ci ildə yazdığı "Litvalı həmkarım" adlı xatirələrində qeyd olunmuş çoxsaylı faktlardan birini səciyyəvi örnək kimi göstərmək olar. A.Şaiq qeyd edir ki, V.Kreve o vaxtlar öz uşaqlarının "yerli dil" dərslərində iştirak etmələrini həqarət sayan və buna icazə verməyən, "Qafqaz tatarları" və ya "tatarva" sözləri əvəzinə azərbaycanlılar, "tuzemnı yazık" ifadəsi yerinə "Azərbaycan dili" sözlərini işlətmək istəməyən bəzi üzdəniraq azərbaycanlı valideynlərə elə yerindəcə, müəllimlər otağında narazılığını bildirərək deyərdi: "O adam ki, doğma ana dilini öyrənməkdən utanır, onu adam adlandırmaq olmaz". **Ədib vurğulayır ki, V.Kreve "...adamın milli qürurunu tapdalayanlara qarşı, xüsusən o vaxt azərbaycanlılara olan pis münasibətə, onları "tuzemnı" hesab edənlərə qarşı çox amansız idi. O, bütün bunları alçaq hərəkət kimi qəbul edir, belə münasibətlərlə barışmırdı..."**[8]

Rusiya İmperiyasının Azərbaycanda milli xüsusiyyətləri və xəlqi dəyərləri məhv etmək, milli kimliyi unutdurmaq üçün yeritdiyi assimilyasiya siyasətinə tam zidd olan belə mərd hərəkətlər və nəcib misallar V.Krevenin Azərbaycanla bağlı fəaliyyətində çoxdur. Bunu Litva yazıçısının Bakıda onunla birgə işləmiş həmkarları, həm azərbaycanlı, həm də digər millətlərdən olan şagirdləri, eləcə də litvalı müasirləri öz xatirələrində dönə-dönə qeyd ediblər. A.Şaiqin və 1-ci Bakı realnı məktəbi şagirdlərinin V.Kreve haqqında yazdığı həmin xatirələr 1981-ci ildə Litva SSR Elmlər Akademiyasının Litva Ədəbiyyatı və Dili İnstitutu tərəfindən Vilnüsdə buraxılmış "Ədəbiyyat və Dil" elmi-kütləvi seriyasının 17-ci cildində çap olunub. Litvalı ədəbiyyatşünas Yokubas Sklyutauskasın 1957-1959-cu illərdə Bakıda topladığı bu xatirələr və avtobioqrafik mətnlər hazırda göstərilən institutun Əlyazmalar fondunda saxlanılır...

* * *

V.Kreve ömür-gün yoldaşı, Bakı yəhudisi – Rebekka Karak (1889-1966) ilə də Azərbaycanda rastlaşıb, çox sevdiyi bu xanımla 1913-cü ilin avqust ayında ailə həyatı qurub. Nikah mərasimi Vilnüsdə müqəddəs Mikoloyus adına katolik kilsəsində keçirilib və dini kəbindən qabaq katolikliyi, eləcə də Mariya-Ona adını qəbul edən Karakla Krevenin nikahı məhz burada qeydə alınıb. 1914-cü il iyulun 7-də isə bu nikahdan Ona-Aldona adlı qızları dünyaya gəlib.

Azərbaycanda özünə yeni dostlar tapan V.Kreve Bakının qaynar mühitinə qaynayıb-qarışıb, şəhərin ictimai-mədəni və ədəbi həyatında yaxından iştirak edib. O, 1911-1912-ci illərdə Bakı Xalq Universitetinin təsisçilərindən biri olub. Bu universitetin və bir sıra xeyriyyə cəmiyyətlərinin xətti ilə müxtəlif auditoriyalarda ədəbiyyat, dil, tarix, fəlsəfə və din mövzularında mühazirələr oxuyub, dərin məzmunlu çıxışlar edib. O vaxtkı Bakı qradonaçalniki - şəhər rəisi polkovnik Pyotr İvanoviç Martınov (1867-?) bu ictimai-mədəni ocağı "üsyankar natiqlərin tribunası" kimi öz nəzarəti altında saxlamağa çalışsa da,

[7] – Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 346-347

[8] – Abdulla Şaiq. "Xatirələrim". Bakı, "Gənclik", 1973-cü il, səh. 344-345.

hətta bir neçə dəfə onun fəaliyyətini dayandırmağa nail olmasına baxmayaraq, sonradan şəhər ictimaiyyətinin tələbi ilə universitetin fəaliyyəti yenidən bərpa edilib. Litva SSR EA-nın akademiki, ədəbiyyatşünas alim Kostas Korsakas (1909-1986) V.Krevenin yazıçılıq fəaliyyətinin 20 illiyinə həsr etdiyi məqalədə[9] bu barədə ətraflı yazıb. Əlbəttə, Martınov pedaqoq V.Kreveni tanımaya bilməzdi, şübhəsiz ki, onun "millətçi çıxışları" barədə də eşitmişdi. Belə ki, Martınovun oğlu 1-ci Bakı realnı məktəbinin şagirdi idi və çox pis oxuduğuna görə atası onu bu məktəbdən çıxartmağa məcbur olmuşdu. Sözsüz ki, V.Krevenin öz şagirdlərinə Azərbaycanla bağlı ötürdüyü mütərəqqi bilgilər irticaçı şəhər başçısının xoşuna gələ bilməzdi.

V.Kreve Bakının siyasi həyatında da iştirak edir, 1917-ci ilin oktyabrında Bakı şəhər Dumasına qlasnı (deputat) seçilir və həmin il dekabrın 12-dən etibarən, bir müddət Dumanın katibi olaraq fəaliyyət göstərir. O, 1921-ci ildə tərcümeyi-halında yazdığına görə, o zaman Eserlər partiyası Bakı şəhər komitəsinin orqanı olan “Znamya truda“ qəzetini redaktə etməyə başlayır.



1. V.Krevenin həyat yoldaşı, bakılı xanım Rebekka Karak. Bakı, 1913-cü il.
2. V.Kreve azyaşlı qızı Onute ilə birgə. Bakı, 1915-ci il.
3. Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi katolik kilsəsi.

V.Kreve 1917-1920-ci illərdə Bakı litvalılarının lideri olaraq Azərbaycanda yaşayan litvalıların təşkilatlanması, hüquqlarının qorunması, habelə onların bir çoxunun tarixi vətənlərinə qayıtmasını təşkil etmək sahəsində bir sıra əhəmiyyətli işlər görüb. 1917-ci ilin dekabrında V.Krevenin rəhbərlik etdiyi Bakı litvalıları digər Qafqaz litvalıları qurumları ilə birgə Tiflisdə Qafqaz Litvalıları Şurasını yaradıblar. Bu Şura o zaman Azərbaycan, Ermənistan və Gürcüstanda yaşayan litvalıların təmsilçisi kimi, Litva dövlətini bərpa etmək istiqamətində aparılan milli-azadlıq hərəkatına əməli işdə dəstək verib və 16 fevral 1918-ci ildə Litva dövlətinin bərpası haqqında Aktın Qafqaz litvalıları adından da elan olunmasını təmin etmək üçün mühüm ictimai-siyasi fəaliyyət göstərib.

1918-ci ildə Azərbaycan və Litva dövlət müstəqilliklərini bəyan etdikdən sonra, V.Kreve fəaliyyətini əsasən Litva-Azərbaycan dövlətlərarası münasibətlərin təşəkkül tapmasına yönəldib, Litvanın Azərbaycanda rəsmi nümayəndəliyinin təsis olunmasında bilavasitə iştirak edib. 1918-ci il iyulun 23-də Litva Dövlət Şurasının qərarı ilə Qafqaz Litvalıları Şurasının bazası əsasında Tiflisdə Litvanın Azərbaycan, Ermənistan və Gürcüstan dövlətlərindəki ortaq nümayəndəliyi təsis edilib və Qafqaz Litvalıları

[9] – “Kultura“ jurnalı, Kaunas,1926-cı il,№ 11 (Litva dilində).

Şurasının sədri, o zaman IV Tiflis oğlanlar gimnaziyasında riyaziyyat müəllimi işləmiş litvalı xadim Pranas Daylide (1888-1965) bu dövlətlərdə diplomatik nümayəndə təyin olunub.

Litvanın Qafqaz dövlətlərindəki nümayəndəliyinin yerləşdiyi bina. Nümayəndəlik 1918-1921-ci illərdə Tiflisdə keçmiş Kiroçnaya - indiki Kote Mardjanişvili küçəsi № 45 ünvanında yerləşən binada fəaliyyət göstərib.

Beləliklə, Litva dövlətinin Cümhuriyyətlə diplomatik əlaqələrinin əsası qoyulub və müstəqil Azərbaycan-Litva dövlətlərarası münasibətlərinin tarixi məhz həmin vaxtdan başlanıb.[10]

1919-cu il martın 22-də Litvanın Zaqafqaziya respublikaları hökumətləri yanındakı diplomatik nümayəndəsi Pranas Daylide Litva Respublikasının Bakıda konsulluq səviyyəsində diplomatik agentliyinin açılması ilə bağlı olaraq 142 saylı Nota ilə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə müraciət edib. Həmin Notada göstərilirdi ki,"... qaldırılan bu məsələ üzrə razılıq əldə olunarsa, konsul səlahiyyəti Litva vətəndaşı Vikenti Mitskeviçə (Vintsas Kreve-Mitskəviçyusa - M.H.) veriləcəkdir". Onda Xarici işlər naziri olmuş Məmməd Yusif Cəfərov (1885-1938) bu Nota ilə əlaqədar Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabinetinə məruzə edərək müvafiq təqdimat verir.[11] Bu təqdimat əsasında Milli Hökumət müsbət qərar qəbul edir və beləliklə, Bakı litvalılarının bilavasitə iştirakı ilə konsulluq açılır, V.Kreve isə burada Litvanın Azərbaycanda ilk konsulu təyin olunur.

İlkin dövrdə Litva konsulluğu Bakıda Pozenovskaya küçəsindəki 15 saylı binada işə başlayıb (1929-cu il aprelin 20-də Bakı Şəhər Soveti Rəyasət heyətinin 9 saylı qərarı ilə həmin küçənin adı dəyişdirilib və Fridrix Engelsin adı verilib. 1992-ci ildən həmin küçə "Cəfərov qardaşları" adlanır).

Konsul V.Kreve yenicə müstəqillik əldə etmiş Litva dövlətinin beynəlxalq aləmdə de fakto tanınması üçün mühüm işlər görür. Litva diplomatının bu fəaliyyətinin, eyni zamanda, Azərbaycan Respublikasının da beynəlxalq aləmdə tanınması ilə bağlılığı vardı. Bunu deyərkən, biz ilk növbədə M.Y.Cəfərovun göstərilən məruzəsində ehtiva olunmuş çox mühüm bir tezisi əsas kimi götürürük. Nazir AXC hökümətinə yönəlik təqdimatında yazır:

[10] – Lietuvių Enciklopedija. IV tomas. Leidėjas Lietuvių enciklopedijos leidykla, Bostonas, 1954, psl. 231; Lietuvių Enciklopedija. XII tomas. Leidėjas Lietuvių enciklopedijos leidykla, Bostonas, 1957, psl. 94.

[11] – Azərbaycan Respublikasının Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARSPİHDA), fond. 277, siy.2, iş 33, s.1-2.

"...Zənn edirəm ki, müqəddəratını təyin etmiş xalqların beynəlxalq əlaqələrinin inkişafına dəstək verməklə, biz eyni zamanda respublikamızın da beynəlxalq münasibətlər sahəsində nüfuzunun artmasına şərait yaratmış oluruq".

V.Krevenin konsul təyin olunmasından sonra, Azərbaycan və Litva respublikalarının Paris sülh konfransındakı nümayəndə heyəti üzvlərinin, müstəqilliyin tanınması ilə bağlı 1919-cu ilin oktyabrın 8-də və 1920-ci ilin martın 16-da birgə imzalayıb Fransanın Baş naziri, Versal sülh konfransının sədri J.B.Klemansoya, eləcə də İtaliya Parlamentinə ünvanladıqları deklarasiyalar və kollektiv müraciətlər, sözügedən tezisi əyani misallarla təsdiq edən vacib tarixi faktlardır.[12]

Qeyd edək ki, həmin tarixi faktları təsdiq edən Azərbaycan mənbələrində Litva nümayəndə heyəti üzvlərinin ad və soyadları bir qədər təhrif olunmuş şəkildə göstərildiyi üçün bu yazımızda o yanlışları da təshih etmək yerinə düşərdi. Belə ki, Azərbaycan Respublikası adından həmin sənədləri Ə.M.Topçubaşov və R.Xanbudaqov, Litva Dövləti tərəfindən isə mühəndis, diplomat Tomas Norus Naruşyaviçyus (1871-1927) və Litva yepiskopluğunun 1919-1922-ci illərdə Vatikandakı təmsilçisi, katolik keşişi Yurgis Naryauskas (1876-1943) imzalayıblar.

V.Kreve1922-ci ildə Kaunasda yazdığı tərcümeyi-halında göstərib ki, o, 1919-cu ildə Azərbaycan Parlamentinin qərarı ilə açılan Bakı Universitetinin müəllimi (bəzi mənbələrdə dosent kimi göstərilib – M.H.) olaraq burada qədim bulqar dili üzrə bir semestr ərzində mühazirələr oxuyub.[13] Demək o, Azərbaycanda ali təhsilli kadrların hazırlanmasında da bilavasitə iştirak edib.

1918-1920-ci illərdə onun Bakıdan Litvadakı dost və tanışlarına yazdığı məktublarda o dövrdəki Azərbaycan reallıqları ilə bağlı bəzi bilgilər yer alıb və dramatik olaylar təsvir olunub. Məsələn, 1918-ci ilin payızında Bakıda baş verən qanlı hadisələr, türk hərbi hissələrinin Bakını azad etməsi və s.

* * *

V.Kreve ədəbi yaradıcılığında nə qədər yüksək humanist olub, əsərlərində nə qədər ümumbəşəri və dərin fəlsəfi ideyalar daşıyıcısı, yaddaqalan romantik surətlər yaradıcısı idisə, həyatda da bir o qədər həssas, qayğıkeş və xeyirxah bir insan idi. İnsan həyatı böyük təhlükə qarşısında qalarkən, V.Kreve onu xilas etmək naminə, hətta ona verilmiş konsul səlahiyyətlərindən, qayda-qanun çərçivəsindən kənara çıxsa belə, istifadə etməkdən çəkinməzdi. Bununla əlaqədar onun həyatının Bakı dövrü ilə bağlı dramatik tarixi bir faktı təqdim etmək istərdik. 1920-ci il aprelin 28-də Sovet Rusiyasının birbaşa hərbi təcavüzü nəticəsində müstəqil Azərbaycan Respublikası süqut etdikdən sonra, V.Kreve Litva "burjuaziya" dövlətinin rəsmi elçisi kimi daha Bakıda qala bilməyərək həmin il iyun ayının axırları, iyulun əvvəllərində öz Vətəninə qayıdarkən, Mixail Floroviç Podşibyakin (1883-1963) adlı bir rus həmkarının çətin vəziyyətə düşdüyünü görüb. O Podşibyakin ki, V.Kreve ilə birgə Bakı Dumasında fəaliyyət göstərib, eyni zamanda, Bakı Rus Milli Şurasının sədri kimi paytaxtın ictimai-siyasi həyatında və şəhərin idarə olunmasında yaxından iştirak edib, Rusiya Kadetlər partiyasının Bakı şəhər komitəsinin rəhbərlərindən biri olub. Şəhər Dumasına bu partiyadan qlasnı seçilib, Rusiyada 1917-ci il oktyabr bolşevik çevrilişindən sonra "Rusiya inqilabının taleyi" mövzusunda Bakı məktəblərində əksinqilabi mühazirələr

[12] – Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. Баку, издательство "Азербайджан", 1998, стр.369-372, 566-567.

[13] – Vinco Krėvės-Mickevičiaus CURRICULUM VITAE. Literatūra ir kalba, t.XVII. Vilnius, "Vaga", 1981, psl.248-250

oxuyub. O, 1918-ci ildə Bakı kommunasının yaradılmasının və şəhərdə hakimiyyətin bolşeviklərə verilməsinin qəti əleyhdarlarından biri idi. Sonralar, Bakı şəhər bələdiyyəsinin "demokratik Duma heyətindən" seçib təqdim etdiyi 34 nəfərdən ibarət siyahıya M.F.Podşibyakinin adı da daxil edilib və bu təqdimat əsasında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 22 sentyabr 1918-ci il tarixli qətnaməsi ilə, Bakı şəhər Dumasının bir sıra digər üzvlərilə bərabər, onun da səlahiyyətləri təsdiq olunub.[14] Azərbaycanda bolşevik işğalından sonra, M.F.Podşibyakinin siyasi repressiyaya məruz qalacağını aydın başa düşən V.Kreve həmkarına lazımi sənədləri düzəldib, onu "Litva vətəndaşı Mikolas Banyaviçyus kimi" Azərbaycandan çıxarıb özü ilə Kaunasa apararaq ölümdən xilas edib.

1920-ci ilin iyununda konsul V.Kreve ailəsi ilə bərabər, Azərbaycanı həmişəlik tərk edərkən şəxsi kitabxanasının bir hissəsini həmkarı və dostu, yazıçı Abdulla Şaiqə bağışlayıb. A.Şaiqin vəfatından sonra onun oğlu, ədəbiyyatşünas alim, professor Kamal Talıbzadə (1923-2006) həmin kitabları Azərbaycan SSR EA Pespublika Əlyazmaları Fonduna təhvil verib.[15]

V.Kreve gənclik şəhəri Bakıya olan məhəbbətini və Azərbaycana bəslədiyi hörmət duyğularını qəlbində Litvaya aparıb və bütün ömrü boyu yaddaşında yaşadıb. Sonralar Bakı realnı məktəbi şagirdlərinin ona ötürdükləri hədiyyələri - üzərində V.Krevenin adı və soyadı monoqram üslubunda həkk edilmiş portsiqarı və üstündə rusca "Baku" sözü yazılmış kibrit qutusunu da bu məhəbbətin kiçik bir nişanəsi, ən əziz xatirə kimi həyatının sonunadək saxlayıb. Həmin hədiyyələr sonralar onun həyat yoldaşının Bakıdan apardığı Azərbaycan xalçaları ilə birgə, hazırda yazıçının Vilnüsdəki memorial mənzil-muzeyində orijinal eksponatlar kimi nümayiş olunur.

* * *

V.Kreve Vətənə qayıtdıqdan sonra Litvanın bir sıra dövlət və hökumət idarələrində çalışır, ictimai-siyasi təşkilatlara rəhbərlik edir, "Litva millətçilər birliyi" ("Lietuvių tautininkų sąjunga") partiyasının və "Litva atıcılar ittifaqı" ("Lietuvos šaulių sąjunga") hərbi-vətənpərvər təşkilatın rəhbərlərindən biri olur, ədəbi jurnallar, məcmuə və dərsliklər redaktə edərək çap etdirir, şifahi xalq ədəbiyyatı nümunələrinin toplanılması, sistemləşdirilib təbliğ olunması sahəsində böyük işlər görür.

O, 1922-1939-cu illərdə Kaunas, 1939-1943-cü illərdə isə Vilnüs universitetlərində slavyan dilləri və dünya ədəbiyyatı üzrə professor vəzifəsində çalışıb, burada Humanitar elmlər fakültəsinin dekanı seçilib. Eyni zamanda, elmi təşkilatçılıq sahəsində fəaliyyət göstərib, 1941-ci ilin yanvar ayında Litva SSR Elmlər Akademiyasının yaradılmasında iştirak edib və həmin ilin aprelində bu Akademiyanın ilk prezidenti seçilib. Sonradan elm sahəsindəki xidmətlərinə görə Riqa Universitetinin fəxri doktoru və Roma Elmlər Akademiyasının müxbir üzvü adına layiq görülüb.

II Dünya müharibəsi illərində V.Kreve və ailəsi bir yandan bolşeviklərin, digər tərəfdən isə alman faşistlərinin təqiblərinə məruz qalıb və həyatı üçün real təhlükələr yaranıb. Həyat yoldaşı yəhudi əsilli olduğuna görə, V.Kreve ilə xanımı 1941-ci ildə donos əsasında gestapo tərəfindən Vilnüsdə həbs edilib, istintaq olunaraq şəhər gettosuna aparılmaq üçün 4 gün həbsxanada saxlanılıb. Sonralar Vilnüs Universitetində alman dili müəllimi işləmiş filoloq

---

[14] – Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов). Баку, издательство "Азербайджан", 1998, стр.360-361.

[15] – Vaqif Arzumanov. "Azərbaycan-Litva ədəbi əlaqələri". Bakı, "Yazıçı", 1979, səh. 35

İrina Reyngardayte-Vladimirovene (1914-1996) V.Kreve haqqında 1975-ci ildə qələmə aldığı xatirələrində həmin həbslə əlaqədar yazır ki, "...yazıçının arvadının Azərbaycandan olması əsas kimi göstərilərək, guya onun yəhudi olmadığını təsdiq edən sənədləri çox böyük bir çətinliklə əldə etmək mümkün olur və onları həbsxanadan buraxırlar".[16]

Amma bu, repressiya təhlükəsinin sovuşması demək deyildi. Bir müddət sonra Vilnüs Universiteti tələbələrini Vermaxt ordusuna səfərbər etməyə yardım göstərməkdən boyun qaçırdığına görə günahlandırılan professor V.Kreve faşistlərin qəzəbinə tuş gəlib və 1943-cü ilin ilk aylarında gestapo onu PolşadakıŞtuthof alman həbs düşərgəsinə aparmaq üçün çox axtarıb. Lakin o, Kaunasətrafı məntəqələrdə, eləcə də digər gözdənuzaq yerlərdə yaşayan qohum və tanışlarının yanında birtəhər gizlənərək xilas ola bilib.

V.Kreve həm müharibədən bir il öncə, həm də qarmaqarışıq müharibə illərində müasir Litva ictimaiyyəti tərəfindən indiyədək birmənalı qəbul olunmayan bir sıra təzadlı siyasi addımlar atıb. Belə ki, o, 1940-cı il iyunun 15-də Litvanın Sovetlər İttifaqı tərəfindən işğalından sonra, Stalin emissarlarının səyləri sayəsində həmin il iyunun 16-dan iyulun 21-nə kimi qondarma Litva SSR Xalq hökumətində Baş nazirin müavini və eyni zamanda, xarici işlər naziri vəzifələrini yerinə yetirib. İyulun 1-də SSRİ xarici işlər naziri Vyaçeslav Molotovla (1890-1986) Moskvada olmuş gecə danışıqlarından sonra isə Litvanın müstəqilliyini tam itirdiyini və bolşeviklərin ssenarisi əsasında Litvada "Xalq Seyminin" yaradıldığını görən V.Kreve bir az sonra bir aylıq "məzuniyyət" götürüb və bu yolla ölkənin "sovetləşmə prosesində" iştirak etməkdən boyun qaçırıb. Bununla belə, nə qədər təəccüblü görünsə də, o, 1940-cı ilin sonunda SSRİ Parlamentinə Litva SSR üzrə keçirilmiş qondarma seçkilərdə iştirak edib və 12 yanvar 1941-ci ildə SSRİ Ali Soveti Millətlər palatasına deputat "seçilib".

V.Kreve Litvanın Hitler Almaniyası tərəfindən işğalı dövründə də ziddiyyətli hərəkətlər edib. Belə ki, 30 avqust 1942-ci ildə Kaunasda baş tutmuş məşhur mitinq zamanı özünün 1940-cı ildə "Litva Xalq hökuməti"ndəki fəaliyyəti ilə bağlı açıqlamalar verərək SSRİ rəhbərliyinə və onun Baltik dövlətlərində II Dünya müharibəsi ərəfəsində yeritdiyi işğalçı imperializm siyasətinə qarşı mətbu bəyanatlar verib, 14-15 iyul 1940-cı ildə marionet Litva Xalq Seyminə keçirilmiş saxta seçkilərin iç üzünü açan sərt siyasi çıxışlar edib.[17] O, həm də buna görə, Qırmızı ordu 1944-cü ilin iyul ayında Kaunasa yaxınlaşanda bu dəfə Sovet həbs düşərgəsinə düşməmək üçün ailəsi ilə birgə Qərbə - Avstriyaya mühacirət etməyə məcbur olub.

Professor V.Krevenin göstərilən ictimai-siyasi fəaliyyəti ilə bağlı dramatik məqamlardan birini də xüsusilə vurğulamaq istərdik ki, Litva SSR Xalq Komissarları Sovetinin 1946-cı il yanvarın 18-də qəbul etdiyi 31a saylı qərar əsasında onun adı Litva SSR Elmlər Akademiyasının həqiqi üzvlüyündən çıxardılıb, kitabları kitabxanalardan yığışdırılıb və əsərləri tədris proqramlarından kənar edilib, özü isə SSRİ-də "Vətən xaini" elan olunub.

Yazıçı Avstriyadakı müharibə qaçqınları düşərgəsi Glasenbaxdan başlanan və iki aydan çox davam edən çətin, uzun və yorucu bir səfərdən sonra, Almaniya üzərindən keçərək, nəhayət, 1947-ci il aprelin 18-də Amerika Birləşmiş Ştatlarına gəlib və ömrünün sonuna qədər Pensilvaniya Universitetində slavyan dilləri və dünya ədəbiyyatı üzrə professor kimi mühazirələr oxuyub. V.Kreve 1954-cü ilin iyulun 7-də ABŞ-ın Pensilvaniya ştatının Sprinqfild (Filadelfiya yaxınlığında) şəhərində ürək tutmasından vəfat edib.

---

[16] – Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 478

[17] – Buv. Liaudies Vyriausybės ir Liaudies Seimo narių vieši pareiškimai. Kaunas, „Į Laisvę", 1942.VIII.31. Nr.202 (363)

Bir qədər dissonans kimi səslənsə də, onun bu dünyadakı yürüşü ölümüylə sona çatmayıb, o böyük insanı və gözəl yazıçını son mənzilə aparan əbədiyyət yolu uzaq və qürbət eldə bitməyib. Ədib 1948-ci ildə Amerikadan Litvaya yolladığı məktubların birində yazıb: "...hələ də inanmaq istəyirəm ki, o xoşbəxt zaman gəlib yetişəcək və onda Litvaya qayıda biləcəyəm, orada - Subartonis kənd qəbiristanlığında, ata-anamın və əcdadlarımın yanında uzanıb əbədi dinclik tapacağam..."[18]



1. V.Kreve Avstriyadakı Glasenbax müharibə qaçqınları düşərgəsindən yük vaqonunda Münhen üzərindən ABŞ-a yola düşərkən (o, arxa sırada qapının ağzında durub). Zalsburq şəhər vağzalı, 12 fevral 1947-ci il.
2. V.Kreve həyat yoldaşı Mariya Ona-Rebekka Mitskəviçene ilə birgə. ABŞ, 1952-ci il.

Belə ümid, nisgil və həsrət dolu istəklərini V.Kreve dost-tanışları ilə yazışmalarında dəfələrlə təkrar edib. Təəssüf ki, tale ona qarşı amansız olub, Litvanın dövlət müstəqilliyinin bərpa olunması çox gecikib və V.Kreve həmin günü görə bilməyib... Amma çox-çox sonralar olsa belə, onun nəşi həmişə bütün qəlbiylə can atdığı Vətəninə gətirilib...

* * *

V.Krevenin həyat və fəaliyyətinin Bakı dövrü bir yazıçı və dramaturq kimi onun yaradıcılığında ən məhsuldar illər hesab olunur. Belə ki, o, Litva ədəbiyyatının qızıl fonduna daxil olmuş bir sıra ünlü əsərlərini – "Şarunas" dramını, "Skirgayla" və "Kürəkən" pyeslərini, "Daynava diyarı qocalarının rəvayətləri" kitabını, "Küləşlə örtülmüş dam altında" adlı toplunu təşkil edən hekayələrin əksəriyyətini, "Səma və Yer oğulları" roman-epopeyasının böyük hissəsini və digər klassik əsərlərini məhz Bakıda yaradıb. V əsr hind şairi və dramaturqu Kalidasanın sanskrit dilindəki "Şakuntala" dramından rus dilinə tərcümələri də Kreve Bakıda ərsəyə gətirib. Hind-Avropa dilləri ailəsinə aid olan xalqların təşəkkül tarixi və etnik köklərilə bağlı araşdırmaları da burada davam etdirib, sonralar nəticə olaraq Kaunasda "Hind-Avropalıların ilk vətəni" adlı sanballı elmi əsəri çap olunub.[19]

Xüsusilə qeyd etmək lazımdır ki, V.Krevenin Şərq mövzusundakı əsərləri onun ədəbi irsində müstəsna yer tutur və kreveşünas alimlərin fikrincə, sənətkarın bütün yaradıcılıq xəzinəsinin ideya-fəlsəfi açarı hesab olunur. O əsərlərin bir qismi ədibin məşhur "Şərq hekayətləri" adlı kitabını təşkil edir.[20]

[18] – Albertas Zalatorius. "Vincas Krėvė: nebaigta monografija". Vilnius, Lietuvių literatūros ir tautosakos institutas, 2003, psl. 515.

[19] – V.Krėvė-Mickevičius. "Indoeuropiečių protėvynė". Kaunas, Humanitarinių mokslų fakulteto leidinys, 1927, 146 psl.

[20] – V Krėvės raštai. X tomas. "Rytų pasakos". Kaunas, 1930.

Bu topluya beş əsər daxildir. “Azəristan ölkəsi” hekayəti topluya daxul olan əsərlərdən biridir.

* * *

“Azəristan ölkəsi” hekayəti V.Krevenin Azərbaycan tarixi, milli-mənəvi dəyərləri, dini ayinləri, məişəti və təbiəti mövzusunda yaratdığı mühüm əsərlərdən biridir. Yüksək ədəbi məziyyətləri ilə fərqlənən bu hekayətdə dərin dini-fəlsəfi müddəalar yer alıb, milli varlığın təşəkkül tapması, etnik köklərin qorunub saxlanılması və kimliyin yaşadılması ilə bağlı bir sıra vacib həyati şərtləri ehtiva edən müddəalar ön plana şəkilib. Əsərlə bağlı bəzi mülahizələrimizi açıqlamaq istərdik.

Tədqiqatçıların fikrincə, “Azəristan ölkəsi” 1920-ci ilin aprelində müstəqil Azərbaycan Respublikasının süqutundan sonra yazılmış əsərdir. İlk dəfə 1921-ci ildə Kaunasda Litva Maarif Nazirliyinin nəşri olaraq buraxılan “Skaitymai” (“Qiraət”) adlı aylıq ədəbi-tənqidi jurnalın 3-cü sayında[21] dərc edilib və povest kimi təqdim olunub (V.Kreve uzun müddət həmin jurnalın redaktoru olub). Daha sonra isə “Azəristan ölkəsi” V.Krevenin 1930-cu ildə Kaunasda çapdan çıxmış seçilmiş əsərlərinin 10-cu cildində nəşr olunub.

Əsər yazıçının bir çox digər əsərlərindən fərqli olaraq 1930-cu ildən sonra uzun bir zaman ərzində Litvada bir daha çap edilməyib. Yalnız ilk nəşrindən təxminən 90 il ötdükdən sonra - 2008-ci ildə ədibin Vilnüsdə buraxılmış “Pratyekabudda” kitabında “Azəristan ölkəsi” müstəqil Litvada təkrarən işıq üzü görüb.[22] Sovet Litvasında isə bu əsər V.Krevenin “Dumanda” romanı, “Tovlama” povesti, “Qadın” hekayəti, “Bolşeviklər” siyasi oçerki və daha bir neçə başqa kitabı ilə bərabər qadağan olunmuş əsərlər siyahısına salınıb. Ümumiyyətlə, Sovet dövründə V.Kreve başqa dillərə olduqca az tərcümə edilib və heç “Şərq hekayətləri” də digər dillərdə nəşr olunmayıb.

“Azəristan ölkəsi” Sovet Litvasından fərqli olaraq XX əsrdə xaricdə iki dəfə - 1954-cü ildə Çikaqoda “Terra” nəşriyyatında,[23] 1958-1964-cü illərdə isə V.Krevenin “Litva ensiklopediyası” nəşriyyatı tərəfindən Bostonda buraxılmış əsərlərinin V cildində litvaca çap olunub (səh.119-131).

Azərbaycan dilinə əsər 2005-ci ildə tərcümə olunub və “Ulduz” jurnalında dərc edilib (2006-cı il, №1). Yeri gəlmişkən, göstərmək istərdik ki, “Azəristan ölkəsi” V.Krevenin digər Şərq hekayətləri ilə birgə ilk dəfə ingilis dilinə də tərcümə edilib və 2018-ci ildə ABŞ-ın İndiana ştatının mərkəzi Indianapolis şəhərində çap olunub (tərcümə edəni – Rimas Çernyus).[24]

V.Kreve bu əsərində Azərbaycanı təbii şəraitinə görə fərqlənən, inzibati baxımdan sərhədləri təyin olunmuş və müstəqil coğrafi məkanı əhatə edən bir ölkə kimi təqdim edir, beləliklə, Azərbaycan dövlətçilik tarixinin köklərinə toxunur. Bu, təkcə Litva-Azərbaycan ədəbi əlaqələrində yox, həm də Azərbaycan-Baltik mədəni ilişgilərində mühüm əhəmiyyət kəsb edən məqamlardan biridir. Çünki, V.Kreve Baltik xalqlarının ədibləri arasında öz yaradıcılığında "Azəristan" sözünü yalnız sadə coğrafi yer adı (toponim) kimi yox, həm də məhz Azərbaycan türklərinin məskunlaşdıqları ərazi mənasında,

---

[21] – “Skaitymai“. Mėnesinis literatūros žurnalas. Kaunas, Švetimo ministerijos leidinys, 1921 m., Nr. 3, psl. 102-115

[22] – V.Krėvė. “Pratjekabuda“. Rytų pasakos. Vilnius, UAB “Petro ofsetas“, 2008, psl.125-145; ISBN 978-9955-815-58-7

[23] – Vincas Krėvė. “Rytų pasakos“. Chicago, “Terra“, 1954 m. 216psl.

[24] – Vincas Krėvė. “Tales from the East“. Translated by Rimas Černius; illustrated by Agnė Juškaitė. Indianapolis, Indiana. IBJ Book Publishing, 2018, page 160. ISBN 978-1-939550-78-1

milli-mənəvi dəyərlərini və dini adət-ənənələrini yaşatdıqları məkan anlamında, azərlərə məxsus ölkə adı kimi işlədən ilk Baltik yazıçısıdır.

Əsərin adından da görünür ki, müəllif onu yazmazdan öncə Azərbaycan dilinin fonetikası və morfologiyası ilə tanış olub, əsas nitq hissələrindən biri olan İsim və onun növlərini öyrənib, düzəltmə isimlərin əmələgəlmə və yazılış qaydalarını nəzərdən keçirib. Məhz bunun nəticəsidir ki, V.Kreve azərlərin (azərilərin yox!) yaşadığı özünəməxsus ərazinin coğrafi adını dəqiq göstərmək məqsədi ilə milli mənsubiyyət bildirən və samitlə bitən Azər sözünə yer bildirən - stan sözdüzəldici şəkilçisi artırıb, bu etnonim əsasında məkan əlaməti bildirən yeni düzəltmə xüsusi isim - "Azərstan" sözünün yaradılmasının morfoloji qaydalarına riayət edərək bu kəlməni əsərində ölkə adı olaraq işlədib. O, orijinalda əsərin adını Litva dilinin qrammatikasına uyğun şəkildə – as sonluğu artıraraq "Azerstanas" (Azerstan + as) şəklində yazıb. Bütün bunlar V.Krevenin ölkəmizin adına və mövzuya həm də bir dilçi alim kimi nə qədər böyük məsuliyyətlə yanaşdığını göstərir.

Əsərin adının Azərbaycan dilində səslənməsi ilə bağlı vacib linqvistik bir məqamı xüsusi qeyd etməyi zəruri sayırıq. Litva dilində hekayətin "Azerstano šalis" –"Azərstan ölkəsi" adlanmasına baxmayaraq, biz onu dilimizə "Azəristan ölkəsi" şəklində tərcümə etməyi daha düzgün saydıq. Çünki, Azərbaycan dilində düzəltmə isim şəkilçilərinin yazılış qaydalarına uyğun olaraq məkan mənalı isim düzəldən –stan çəkilçisi samitlə bitən sözlərə artırıldıqda, sözlərin son saitindən asılı olaraq, onun əvvəlinə ı, i, u, ü saitlərindən biri əlavə edilir (məsələn, dağ – Dağıstan, özbək - Özbəkistan, monqol – Monqolustan, kürd – Kürdüstan və s.).

"Azəristan ölkəsi" ilk növbədə, Azərbaycan tarixinə həsr olunmuş bədii əsər kimi maraq doğurur. Baxmayaraq ki, bu hekayətdə biz konkret və dəqiq tarixi faktlarla üzləşmirik və tarix burada, hətta qismən rəvayət halını alır, cərəyan edən hadisələrə isə yalnız milli-mənəvi dəyərləri yaşatmaq, dini və milli-etnik identikliyi qoruyub saxlamaq tələblərindən yanaşılıb qiymət verilir.

Əsərdə ümumi cizgilər çərçivəsində olsa da, Azərbaycanın İslamdan sonrakı tarixinin bir neçə mərhələsi aydın görünür. Yadelli işğalçılara qarşı zaman-zaman aparılan mübarizə, doğma torpaqların müxtəlif dövrlərdə işğal edilməsi, nəticədə xalqın verdiyi maddi və mənəvi itkilər, çəkdiyi əzab-əziyyət, qəsbkarların Azərbaycanda törətdikləri vəhşiliklər hekayətdə koloritli şəkildə təsvir olunur və çox inandırıcı bir dillə təqdim edilir.

"Azəristan ölkəsi"ndə ermənilərin Azərbaycana köçürülməsi ilə bağlı inandırıcı bədii boyalarla işlənmiş səhnələr də yer alıb. Həmin səhnələr rəvayət janrında yaradılmasına baxmayaraq real hadisələrin bədii inikası olaraq bir sıra Rusiya müəlliflərinin XIX əsrdə və XX əsrin əvvəllərində çap-dan çıxmış və Qarabağın tarixinə bu və ya başqa şəkildə aidiyyəti olan əsərləri ilə müəyyən mövzu yaxınlığı təşkil edir.

XIX əsrdə ermənilərin Azərbaycana hansı ictimai-siyasi şəraitdə köçürülməsi və gəlmə xalq olaraq burada məskunlaşdırılması ilə bağlı olayları təsdiq edən tarixi mənbələr, faktlar çoxdur. Bu barədə o dövrdə əsasən, rus müəllifləri - A.S.Qriboyedov, S.Qlinka, İ.K.Kanadpev, A.Frenkel, M.S.Mayevski, V.L.Veliçko, N.N.Şavrov və başqaları rəsmi raportlar, analitik hesabatlar, tarixi icmallar və müxtəlif səpkili qeydlər yazıblar. Beləliklə, Qafqazda etnik münasibətlərə aid bəzi araşdırmalar aparılıb və tarixi-publi-sistik əsərlər yaranıb. Ancaq XX əsrin əvvəllərinə qədərki Qərb ədəbiyyatında bu mövzulu bədii əsərlər yoxdur. Odur ki, V.Kreve sözügedən mövzunu Baltik xalqları ədəbiyyatında ilk dəfə işləmiş Litva yazıçısı kimi Avropa ədəbiyyatı tarixinə daxil olub. Həm də buna görə onun "Azəristan ölkəsi" hekayəti

göstərilən mövzunu qismən ehtiva edən nadir əsər olaraq müstəsna əhəmiyyət daşıyır.

"Azəristan ölkəsi" sırf erməni-azərbaycanlı münasibətlərinə həsr olunmuş əsər deyil. Lakin əsərdə bir çox qəsbkar xalqların çiçəklənən məmləkəti necə soyub-talan etmələrini sərgiləyən səhnələrlə yanaşı, ermənilərin Azərbaycan torpaqlarına gəlməsi və onların burada törətdikləri fitnəkar əməlləri göstərən hadisələr çox canlı və yaddaqalan bədii təsvir vasitələri ilə, ürək ağrısı və yüksək sənətkarlıqla əks olunub. V.Kreve bu əsərində böyük bir ustalıqla ermənilərin ümumiləşdirilmiş tipik antihumanist obrazını yaradıb.

Müəllif həm də orijinal bədii cizgilərlə, dolğun və inandırıcı məcazlarla, müxtəlif həyati epizodları təqdim etməklə və çeşidli bədii priyomlarla ermənin pərdə arxasında gizlənmiş riyakar üzünü zərgər dəqiqliyi ilə açaraq, böyük fırça ustasıtək məxsusi çalarlarla, bənzərsiz üsullarla və heyrətamiz bir dəqiqliklə onun adekvat portretini çəkib. Həmin portretin bəzi cizgilərini səciyyəvi misallar qismində V.Krevenin öz sözləri ilə oxucuların diqqətinə çatdırmaq istərdik:

"...Allah Azəristan ölkəsinə xalis şeytan oğlunu, Yer üzünün nanəcib və alçaq varlığını, ürəyi qurdlu və dırmıxa oxşayan əllərilə hər şeyi qamarlayıb özünə yığan ermənini göndərdi. Erməni Azəristan ölkəsinə öz arşını, çəki daşları və yekə qapan tərəziylə gəlir, özüylə batman, girvənkə və misqal götürür, öz çanağını, satıl və sərnicini gətirir. Hamısının da ölçüləri saxta idi. O, hər kəsə nə ölçürdüsə, ona külli miqdarda ziyan vururdu, kimə nə çəkirdisə, onu da gözlərinin içinə baxa-baxa aldadıb böyük zərərə salırdı.

Ermənilər Azəristan ölkəsində guya dost kimi məskunlaşdılar. Ancaq ikiüzlü olmalarını, yalan və hiylə qurub əl altından iş görmək və kürəyə xəncər sancmaq məharətlərini gizlin saxlayırdılar. Nə vaxt ki, ermənilər qeyri-ermənilərlə duz-çörək kəsir, kirvəlik edir, onlara guya mehribanlıq göstərir və nəvazişlə baxırdılar, xoş sözlər danışırdılar, məhz o vaxt ermənilər həmin adamlara – onların lənətə gəlmiş cinsinə mənsub olmayanların hamısına – hər hansı bir pislik və yamanlıq etmək barədə düşünürdülər.

Azəristan ölkəsində ermənilər o qədər törəyib artdılar ki, daha neçə baş olduqları bilinmirdi, sayı-hesabları məlum deyildi, özləri də hamılıqla indi olduğu kimi, o vaxtlar da camaatı aldada-aldada dəllallıq edirdilər. Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş idilər, yalnız yad əməyi hesabına yaşayır və haram çörək yeyirdilər, başqalarının əzab-əziyyəti sayəsində dolanır və özgə göz yaşlarını su əvəzinə içirdilər.

Lakin Azəristanın bədbəxt oğulları erməni hiyləsini çox gec başa düşdülər. Belə ki, onlar əvvəlcə ermənilərlə dostlaşdılar və ticarət etməyə başladılar, ermənilərlə alverə girişmiş varlılar qısa müddətdə müflisləşdilər, ortabablar lüt-üryan qaldılar, arıq və cılız canlarından başqa heç nəyi olmayan dilənçi gününə düşdülər. Bütün sərvətlər və dəyərli hər nə vardısa ermənilərin əlinə keçdi, Azəristan oğullarınınsa məkrli ermənilləri yedirtmək üçün əzab-əziyyət və alın təriylə becərdikləri torpaqdan savayı heç nəyi qalmadı..."[25]

Qeyd edək ki, bir sıra rus yazıçıları və başqa millətlərdən olan bəzi müəlliflər əsərlərində ermənilərin iç üzünü açıb göstərən ayrı-ayrı misralar qoşublar, kiçik səhnələr yaradıblar, xırda epizodlar qələmə alıblar. Lakin V.Krevedən fərqli olaraq, onlar erməni xislətinin cizgilərini "Azəristan

[25] – V.Kreve. Əsərləri. 10 cilddə. Kaunas, 1930-cu il, X cild, səh. 131-155 (Litva dilində).

ölkəsi”ndə olduğu kimi erməni-azərbaycanlı qarşıdurması kontekstində çəkməyiblər.

Əsərdən görünür ki, V.Kreve erməni-azərbaycanlı münasibətlərini dərindən öyrənmiş, ermənilər haqqında müxtəlif müəlliflərin ona qədər qələmə aldıqları tarixi-publisistik yazılarla yaxından tanış olmuş və bəlkə də, onlardan yaradıcı şəkildə bəhrələnmişdir. Bu fikrin təsdiqitək, həm qarşılıqlı ədəbi təsir faktı kimi, həm də müqayisəli ədəbi əlaqələr baxımından V.Krevenin "Azəristan ölkəsi" əsəri ilə rus şairi, dramaturq, publisist və qafqazşünas araşdırmaçı Vasili Lvoviç Veliçkonun (1860-1904) təxminən həmin dövrdə yazılmış “Dağlarda” (“В горах”) adlı şeiri arasında mövzu və ideya səsləşməsini misal göstərmək istərdik. Rus müəllifi şeirində rusların sayəsində Azərbaycana gətirilən ermənilər qoca Musa kişinin dilindən “qara ilan” adlandıraraq sonda yazır:

...И продолжал со злобною тоской:
"Все в их руках! Туть пьянства и разврата,
Слыхал ли ты? Ведь не было когда-то!
На молодежь рукой теперь махни!
Адаты кем блюдутся в наши дни?!
А кто виной?! Армяне! Все они!
Все в их руках: и предков наших кости,
Богатство, власть! Хозяева земли!..
Вы их сюда пустили, привели -
И мы рабы, а вы здесь только – гости!!!"[26]

Tərcüməsi:

O acı gülüşlə davam elədi:
“Hər şey əlinizdə! Nə vaxtsa burda
əyyaşlıq, sərxoşluq olub – duyduzmu?
İndi cavanlar da əvvəlki deyil...
Müqəddəs dinlər də unudulubdu.
Günahkar, əlbəttə, ermənilərdir,
Hər şey əllərində! Məzar yurd yeri...
İndi hakimdirlər onlar hər şeyə.
Onları siz bura buraxmısınız –
Biz quluq, siz isə gedəsi qonaq!!! [27]

Qeyd etmək lazımdır ki, V.Kreve erməni-azərbaycanlı təzadlı münasibətləri ilə bağlı təkcə “Azəristan ölkəsi” əsərində ədalətli mövqedən çıxış etməyib, ümumiyyətlə, həyatda da “erməni məsələsində” ardıcıl şəkildə eyni xətt yürüdüb. Məsələn, onun yaxın dostu, Litva yazıçısı Lyudas Gira (1884-1946) 1913-cü ildə Bakıya - V.Kreveyə məktub yazaraq Vilnüsdə buraxılan “Göy qurşağı” (“Vaivorykštė”) adlı jurnalda çap olunmaq üçün erməni əlifbasının 1500 illik yubileyi münasibətilə ondan bir məqalə yazmağı xahiş edir. Məktubda ermənilər “orijinal mədəniyyəti olan qədim xalq” kimi təsnif olunsalar da, dünya ədəbiyyatının gözəl bilicisi olan V.Kreve bu barədə Bakıdan həm litvalı həmkarına yazdığı cavab məktubunda (11 noyabr 1913-cü il), həm də keçmiş şagirdi, sonralar erməni yazıçısı kimi tanınacaq Tiqran

[26] – ВеличкоВасилий Львович. "Арабески", Санкт Петербург, 1904 г., стр. 34-36
[27] – Tərcümə Səlim Babullaoğlunundur.

Axumyana (1894-1973) ünvanladığı məktubda "təəssüflə" bildirirdi ki, "erməni ədəbiyyatı haqqında heç nə bilmədiyi üçün o cür bir məqaləni yazmağa imkanı yoxdur".[28] Kim bilir, bəlkə də, o vaxt V.Krevenin beynində "Azəristan ölkəsi" hekayətində "Əzrayılın Azəristana gətirdiyi ermənilərlə" bağlı təsvir edilmiş hadisələr dolanır, təxəyyülündə artıq o səhnələrin ilk variantları cızılırdı...

Təbii ki, buna qədər Litva ədəbiyyatına xas olmayan mövzuda və Şərq üslubunda yazılmış "Azəristan ölkəsi" kimi güclü əsər barədə müasir Litva ədəbiyyatşünaslığında ədəbi mübahisə doğuran fikir və nəticələr də mövcuddur. Əsasən, Azərbaycanın qonşu xalqlarla dini və millətlərarası münasibətlər prizmasından işıqlandırılan həmin mübahisəli fikirlərin çoxu, tanınmış ədəbiyyatşünas alim, V.Kreve yaradıcılığının gözəl bilicisi və istedadlı araşdırıcısı, professor Albertas Zalatoryus (1932-1999) tərəfindən yürüdülür. Məsələn, onun fikrincə "...bu hekayəti danışan müsəlmanı (azərbaycanlını - M.H.) V.Kreve əsərdə olduqca dardüşüncəli və kateqorik bir surət kimi təsvir edib. Müsəlmanın sözlərində digər xalqlara qarşı, başqa dini inanclı qonşulara - ermənilərə, ruslara, gürcülərə, ümumiyyətlə, Allahı tanımaq istəməyən və onun buyurduğu qayda-qanunlara əməl etməyən hər kəsə qarşı böyük bir nifrət duyulur... Lakin biz o müsəlmanın hekayətini, ələlxüsus, onun dini və milli-etnik münasibətlər barədə etdiyi ümumiləşdirmələri heç bir halda müəllifin şəxsi mövqeyi kimi qəbul etməməli, o surəti müəlliflə eyniləşdirməməliyik..." [29]

Hekayətin həm məzmunu, həm də ideyası ilə heç cür adekvat olmayan və tədqiqatçının obyektivliyini şübhə altında qoyan belə fikirlərdən açıq-aydın görünür ki, litvalı professor bu yolla V.Kreveni əsərindəki qabarıq etnik surətlərə və sərt ümumiləşdirmələrə görə "Azəristan ölkəsi"nin qonşuluğunda yaşayan xristian xalqların gözü qarşısında bir növ "təmizə çıxarmağa" çalışır. Lakin erməni, gürcü və rus qəsbkarları ilə yanaşı, V.Krevenin hekayətdə "həmşəri" etnonimi altında eynilə qəddar işğalçılar kimi təsvir etdiyi farsları - azərbaycanlıların müsəlman qonşularını professor A.Zalatoryus öz məqaləsində nədənsə heç bir yerdə xatırlatmır. Görünür, bunu o məqsədlə edir ki, "azərbaycanlıların xristian qonşularına bəslədiyi böyük nifrət hissləri" ilə bağlı şişirdib irəli sürdüyü qondarma formulu "dini tolerantsızlıq" paradigması ilə əsaslandıra bilsin. Monoqrafiyanın müəllifi həm də "unudur" ki, müxtəlif əsrlərdə Litvanı viran qoyub əsarət altına almağa gəlmiş işğalçı yadelliləri, o cümlədən Tevton dini cəngavərlər ordeninin alman döyüşçülərini vətənsevər litvalıların özləri də heç vaxt gül-çiçək və sayğı ilə qarşılamayıblar. Ələlxüsus səlib yürüşləri dövründə...

V.Krevenin Azərbaycan tarixi və mədəniyyətinə, milli adət-ənənələri və xalq məişətinə göstərdiyi böyük maraq, ümumiyyətlə, yazıçının Azərbaycana bəslədiyi hörmət hissləri, səmimi duyğuları onun "Azəristan ölkəsi" əsərində həm emosional şəkildə, həm də yüksək bədii səviyyədə ifadə olunub. Əsərdən aydın görünür ki, V.Kreve azərbaycanlıların həyat tərzini, xarakterini və əhval-ruhiyyəsini yaxşı öyrənib və lap yaxından duyub. Əsərdə hekayət ikinci şəxsin - "Azəristan ölkəsi"nin bir dindar sakini adından olduqca zəngin bir dildə, yaddaqalan üslubda danışılır. V.Kreve həmin şəxsin danışığına müvafiq temperament və milli çalarlar vermiş, hətta onun danışıq tərzini, and içməsini belə fərdiləşdirmişdir. Həmin hekayətçi şəxs öz danışığında Azərbaycan dilindəki fonetik etnonimləri (gürcü, həmşəri, urus, gavur), dini şəxsiyyətləri bildirən xüsusi və ümumi dini-mifoloji isimləri (Allah, Məhəmməd Peyğəmbər, Şeytan,

[28] – Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 75.

[29] – AlbertasZalatorius. "Vincas Krėvė: nebaigta monografija". Vilnius, Lietuvių literatūros ir tautosakos institutas, 2003, psl. 218-219.

Əzrayıl, Ədəm bağları, divlər), coğrafi toponimləri (Məkkə, Mədinə, Kərbəla, Məşhəd, Muğan düzü), İslam dininin termin və məhfumlarını (Quran, məscid, minarə, şəriət, namaz, molla, şeyx, müəzzin), bitki və meyvə adlarını (palma, tut ağacı, əncir, heyva, hulu, şaftalı), ətraf mühitlə bağlı ifadələri, məişət sözlərini, bayram və insan adlarını (qır, çuxa, aul, Novruz bayramı, Allah-yarxan) el dilində olduğu kimi, yəni orijinal şəkildə işlədir.

Bunlardan əlavə, "Azəristan ölkəsi"ndə Qurandan gətirilmiş kəlamlardan da yerli-yerində istifadə olunur ki, bu da əsərin dini-psixoloji təsir qüvvəsini və emosional effektini nəzərəçarpan dərəcədə gücləndirir. V.Kreve həm də bu əsərində "Bismillahir-rəhmanir-rəhim", "La ilahə illəllah və Məhəmmədün rəsulüllah", "Allahu əkbər", "Allahu Alim" və digər surələri Qurandan Litva ədəbiyyatına ilk dəfə gətirərək onların mənasını açıqlamış yazıçı kimi çıxış edir.

Əsərin dilinə “hopdurulmuş” bütün bu milli çalar və xüsusiyyətlər, milli-etnik zəminlə bağlı təsvir olunan adət-ənənələr, dini ayinlər, hər addımda duyulan milli ruh, Şərq ədəbiyyatına xas bədii təsvir üsulunda işlənmiş milli psixoloji xarakterlər - bunların hamısı, yerli təbiət lövhələri və tarixi hadisələrlə vəhdətdə təkrarolunmaz Azərbaycan koloriti yaradır, əsərə yaddaşa rahat həkk olunan Azərbaycan doğmalığı gətirir.

Deyilənlərə istinadən belə bir qənaətə gəlmək olar ki, “Azəristan ölkəsi” V.Krevenin Azərbaycan tarixinə və etnokulturoloji dəyərlərinə yaxından bələd olaraq onları sayğı ilə tanıdıb yaymağın gözəl nümunəsidir. Hətta deyərdik ki, əsər V.Krevenin Azərbaycanla mədəni tellərlə möhkəm bağlılığını əks etdirən və bədii dillə təsvir olunan monumental bir tablodur, onun Azərbaycan xalqına bəslədiyi hörmətin yüksək ifadəsi, Azərbaycanın dirçəlişinə həsr etdiyi Şah nəğmə, istiqlalına məhəbbətlə qoşduğu və vurğunluqla oxuduğu əzəmətli bir Himndir...

* * *

V.Krevenin başqa əsərlərində də Azərbaycan ədəbiyyatı və folkloru ilə səsləşən məqamlar çoxdur. Ələlxüsus yazıçının “Qadın” əsəri ilə Hüseyn Cavidin (1882-1941) “İblis” dramı arasındakı mövzu yaxınlığı, genetik qohumluğu olmayan tipoloji oxşarlıqlar və digər ədəbi paralellər bunu çox aydın şəkildə göstərir. Bu əsərlərdə qaldırılan və insanlığı həmişə düşünməyə sövq edən oxşar dünyəvi ideyalar, ümumbəşəri problemlər, taleyüklü fəlsəfi suallar və onların həllini bənzər süjetlər və obrazlar vasitəsilə fərqli janrlarda, müxtəlif bədii üsullarla tapmaq cəhdləri, hətta V.Kreve və H.Cavidin oxşar həyat faciələri, bu iki böyük milli yazarı bir-birinə mənən yaxınlaşdıran amillərdir.

V.Krevenin “Daynava diyarı qocalarının rəvayətləri” kitabına daxil olan “Qartal haqqında nəğmə” rəvayəti də Azərbaycan xalq ədəbiyyatı motivləri əsasında yaradılmış məşhur əsərlərdən biridir. Həm də Şərq ruhunda yazılmış bu gözəl rəvayət Litva ədəbiyyatı məkanına olduqca təbii şəkildə daxil olaraq ədəbi camiyə tərəfindən elə qəbul edilib ki, V.Kreve ədəbi istedadının ən sadiq pərəstişkarları “Qartal haqqında nəğmə”dən bir çox parçaları bu gün də əzbərdən söyləyirlər...

* * *

V.Kreve xalqımızın etnokulturoloji dəyərləri ilə maraqlanmaqla bərabər, həm də ümumən türklərin qədim etnik tarixinə aid bir neçə araşdırmalar

aparıb. Belə ki, o, "Hind-avropalıların ilk Vətəni" adlı elmi monoqrafiyasında[30] digər məsələlərlə yanaşı, qədim Hind-Avropa xalqlarının mənşəyi və onların Şərqdən Qərbə köç yollarını tədqiq edərkən Xəzər xaqanlığını, Türküstan tarixi-coğrafi regionunu, o cümlədən Şərqi Türküstanın Uyğur ölkəsini, Qaşqar vahəsini, Yarkand məmləkətini, Əfqanıstanın Herat provinsiyasını, antik Baktriya ölkəsini, Xorasan və Mazandaran əyalətlərini tədqiqat obyektləri kimi çalışmalara cəlb edərək Turan irqi barədə mülahizələr söyləyib.[31] Litvalı müəllif Qafqaz Albaniyası adının mənşəyi ilə bağlı hipotezlər də irəli sürüb.[32]

V.Krevenin monoqrafiyasında balt etnik qruplarının etnogenezi və ilk vətənlərinin tarixi ilə bağlı Orta Asiya, Əfqanıstan, İran və Qafqaz tarixi kontekstində gündəmə gətirdiyi bir neçə linqvistk nəzəriyyə çox-çox sonralar - XX əsrin 70-80-ci illərində Hind-Avropa dillərinin müqayisəli tarixi dilçilik (linqvistik komparativistika) sahəsi üzrə məşhur şərqşünas və qafqazşünas alimlər olaraq tanınmış Vyaçeslav İvanov (1929-2017), Tamaz Qamkrelidze (1929) və Sergey Starostin (1953-2005) tərəfindən inkişaf etdirilmiş, Hind-Avropa dillərinin balt qrupunda və Qafqaz dillərində izoqloslar təşkil edən bəzi əlamətlər üzə çıxarılmış və konkret nümunələrlə əsaslandırılmışdır.[33]

Ümumiyyətlə, V.Krevenin yaradıcılığını geniş anlamda Şərq bulaqlarından qaynaqlanan bol sulu Litva çayına bənzətmək olar. Onun Şərq mövzulu əsərləri həm də Qərb-Şərq mədəniyyətlərarası dialoqu kontekstində mühüm əhəmiyyət kəsb edir. V.Kreve bu əsərləri ilə Litva mədəniyyəti tarixində ilk dəfə olaraq Litva ədəbiyyatının dünya ədəbiyyatının tərkib hissəsi, dünya ədəbi prosesi-nin tamhüquqlu iştirakçısı olduğunu göstərib. Bunu litvalı ədibin Azərbaycan mövzusunda yaratdığı əsərlər - "Azəristan ölkəsi", "Qartal haqqında nəğmə", "Çarpışan qüvvələr" və "Bolşeviklər" barədə də demək mümkündür...

* * *

V.Kreve sadə litvalılar arasında bütün dövrlərdə yüksək qiymətləndirilən, xatirəsi həmişə əziz tutulan və çox sevilən əsl milli yazıçıdır. 1990-cı il martın 11-də Litvanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra, qədirbilən litvalılar V.Krevenin adını layiq olduğu elmi-ictimai və ədəbi mövqelərdə bərpa etməyə başladılar. Yazıçı son arzusuna da çatıb. Belə ki, 1992-ci ilin oktyabrında onun vəsiyyəti yerinə yetirilib, V.Krevenin və həyat yoldaşı Rebekkanın nəşləri uzaq Amerikadan Litvaya gətirilib, doğma Subartonis kəndinin məzarlığında qumsal torpağa - bu dəfə azad ata yurdunun qoynuna tapşırılıb. Beləliklə, V.Krevenin yer üzərindəki yürüşü, onun özünün istədiyi kimi, doğma Litvasında başa çatıb. Yazıçının qızı Ona-Aldona Moşinskene (1914-2005) isə 2005-ci ilin dekabrında Filadelfiyada (ABŞ) 91 yaşında vəfat edib və vəsiyyətinə əsasən onun da nəşi Litvaya gətirilərək 2006-cı il iyunun 30-da ata və anasının əbədi uyuduğu məzarlıqda dəfn edilib.

24 oktyabr 1988-ci ildə Litva SSR Elmlər Akademiyasının Rəyasət Heyəti V.Kreveyə akademik elmi rütbəsini qaytarıb, hazırda Akademiyanın böyük iclas zalını onun barelyefi bəzəyir. Kaunasdakı Böyük Knyaz Vitautas adına Universitetin Humanitar elmlər fakültəsinin 322-ci auditoriyası 2002-ci ildən

---

[30] – V.Krėvė-Mickevičius. „Indoeuropiečių protėvynė". Kaunas, Humanitarinių mokslų fakulteto leidinys, 1927.

[31] – Ibid. psl. 110

[32] – Ibid. psl. 25

[33] – Древний Восток. Этнокультурные связи (сборник статей). Москва, "Наука", 1988 г., 344 стр.

V.Krevenin adını daşıyır, 1989-cu ildə Varena rayonu Merkine qəsəbə gimnaziyasına V.Krevenin adı verilib və 1994-cü ildə bu məktəbin həyətində yazıçının abidəsi ucaldılıb. 1989-cu ildən Kaunas şəhəri Daynava mikrorayo-



1.V.Krevenin Subartonis kəndindəki ev muzeyi.
2.V.Kreve və onun ailə üzvlərinin məzarı. Subartonis kənd qəbristanlığı, 2006-cı il.

nundakı xiyabanlardan, həmçinin Varena şəhərindəki baş küçələrdən biri V.Krevenin adını daşıyır. V.Krevenin Filadelfiyadan gətirilən arxivi və şəxsi əşyaları onun Vilnüsdə 1997-ci ildə açılmış ev muzeyində saxlanılır. Bu muzeydə onun həyat və yaradıcılığının Azərbaycan dövrünə aid eksponatlar ayrıca stend təşkil edir...

* * *

Beləliklə, göründüyü kimi, V.Krevenin Azərbaycanla əlaqələri çoxyönümlü və məhsuldar olub. O, bununla da, Litva-Azərbaycan çoxəsrlik ədəbi-mədəni və ictimai-siyasi əlaqələri tarixinə yeni səhifələr yazıb, xalqlarımız arasındakı münasibətlərin inkişafına qiymətli töhfələr verib, Azərbaycan mədəniyyəti qarşısında müstəsna xidmətlər göstərib.

Bir sözlə, V.Kreve tarixi, ədəbi-mədəni və ictimai-siyasi əlaqələrimiz məkanında çox uzaqlardan görünən bir Xan çinardır desək, yanılmarıq...

Mahir HƏMZƏYEV
Litva Azərbaycanlıları Cəmiyyətinin sədri,
Litva Respublikası Hökuməti yanında Milli İcmalar Şurasının üzvü,
Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü,
Azərbaycan-Baltik ədəbi-mədəni və ictimai-siyasi əlaqələrinin tədqiqatçısı

Bakı - Vilnüs – Bakı, 2006-2019-cu illər

Jalə QƏRİBOVA

Homo Nihilus
Sosial deqradasiyanın kimlik formatı

(Naim Dilmenerin "Tutqu" romanının təhlili əsasında)

"Yox olmadan var olmanın yolu yox"
(Neyzen Tevfik)

Önümüzdə bir kolleksiyaçı əyləşib. Bizə məhəl qoymadan hisli-paslı dükanda yeni gələn ürünlərdən öz kolleksiyası üçün vallar seçməklə məşğuldur. Yaşamın mənasını, zövqünü, məntiqini topladığı vallara daşımış Selami. Əslində, digər kolleksiyaçılardan çox da fərqlənmir: başqaları kimi o da kolleksiyasını sanki bir ibadət yerinə çevirmiş, onu hər şeyin və hər kəsin fövqünə qaldırmış, "kolleksiyası əldən gedərsə, nəfəsi də kəsilər" kimi davranan bir insandır Selami. Kolleksiyası sadəcə ona, o da sadəcə kolleksiyasına aiddir.

Naim Dilmener "Tutqu" (türkcə orijinal adı: "Obsesyon") romanında (Naim Dilmener. Obsesyon. Doğan Kitap. 2018) qarşımıza yeni olmasa da, yaşadığımız ortamda bu günədək diqqətimizi çox da cəlb etməmiş bir sosial tip çıxarır: Homo Nihilus. Günümüzün ən yayğın xarakterlərindən birinə çevrilməkdə olan və etirazı, imtinanı sosial identiklik formatına dönüşdürən nihilist insan. Ənənələrin dominant olduğu tutucu, ierarxik və bu səbəbdən də simvolik olan toplumların görsə də var saymadığı bu, sosial tip bu toplumlarda – yoxsayanı yox sayan, nihilisti annihilyasiya edən ortamlarda yetişmiş ədiblərin də bir o qədər diqqət mərkəzində olmamışdır. Ədiblərimiz bizi çox zaman öz idealları, düşüncələri, hissləri üçün ölümə belə gedən cəsur, mütəfəkkir və bir qədər romantik qəhrəmanlarla əhatə etmişlər. Bu baxımdan, Dilmenerin yaratdığı Homo Nihilus – Selami haqqında bəlkə də yeni demək mümkündür. Selami həm də nə Raskolnikovun, nə Oblomovun, nə Bazarovun, nə də Kefli İskəndərin təkrarıdır – bunların hər birinə azacıq bənzəsə də. Sufi və ya asket də deyil. O öz mühitinin yetişdirdiyi (və sonradan annihilyasiya etdiyi) və "mən"ini universal bir nihilizm prinsipləri ilə deyil, öz mühitinin ona əxz etdirdiyi sosial-psixoloji özəlliklərlə yoğurub yapmış bir nihilistdir. Yazıçı nihilləşmənin dinamikasını Selaminin həftəbəhəftə içindən keçdiyi deqradasiya prosesinin düz bir ilinin sərhədləri daxilində çarpıcı şəkildə gözlərimiz önündə canlandırır.

Obsessiv birisi nihilist ola bilərmi? Eqoist birisi nihilist ola bilərmi? Qəlbində sevginin, inamın ölümöncəsi son qığılcımlarını söndürməyən birisi

nihilist ola bilərmi? Nihilizmin bildiyimiz-bilmədiyimiz müxtəlif şərhlərində bu sualın bəzən təsdiq, bəzən inkarla cavablandığını görürük; nihilistin çeşidli yorumlanmalarında onun aktiv nihilist, passiv nihilist, eqotistik nihilist, ekzistensial nihilist, seyrçi nihilist, anarxo-nihilist, tutqulu və ya tutqusuz nihilist kimi təzahürləri ilə qarşılaşırıq. Əslində bizi əhatə edən mühitin hətta bir qismini belə yox sayaraq bəlkə də hər birimiz qismən nihilistik və bəlkə elə var olanda qismi nihilizmdir. Dilmenerin romanda bu suallara cavab verib-verməməsi (və ya cavab vermək istəyib-istəməməsi) bambaşqa bir məsələdir. Bizim üçün/bir oxucu kimi mənim üçün əsas cazibə nöqtəsi yazarın bizi bu suallar ətrafında düşündürməsi və deməli (məqsədli və ya məqsədsiz) nihilizm məsələsini yeni dalğalar üzərində bir daha gündəmə gətirməsidir.

* * *

Fəlsəfi bir cərəyan kimi meydana çıxan nihilizm[1], özü də daxil olmaqla, hər şeyi yox sayma, annihilyasiya etmə deməkdir. Nihilistin yox saydığı - hər hansı varlığın ya mövcudiyyəti, ya da dəyəridir. Lakin hər şeyi yoxsaymanın özü də bir varoluş, bir mövcudiyyətdir. Bunu yaradan isə nihilistin özü, daxili "mən"i, eqosudur. Bu baxımdan, nihilizm yaradıcı prosesdir.

"Mən boşluq anlamında bir Heç deyiləm; Mən yaradıcı bir Heçəm və bir yaradıcı olaraq bu Heçdən hər şeyi özüm yaradıram"[2].

Normaları, qaydaları, dəyərləri yoxa çevirən nihilist əslində bu xüsusiyyəti daşıyan "mən"in yaradıcısıdır. Nihilist içində yox etdiyi "insan"ın yerinə bir "mən" qoymuşdur.

"Özünü yenidən doğub var etmişdi. Məlamət əbasını geyinib Heçə varmışdı. Bir Heç olaraq çox şey etmişdi"[3].

Nihilist Heçə o qədər dərin məzmun, o qədər böyük anlam verə bilir ki, özünün "Heç" adlandırdığını başqaları bəzən Heç olaraq görmür.

"Nihilistin "heçlik" tutqusu yoxdur. O, sakitcə özünü var olandan uzaqlaşdırır və qorxmadan, dəhşətə düşmədən, özünün dönüşdüyü və özündən oluşan bir boşluğun içinə doğru istiqamətlənir."[4]

Nihilistin "öz"ü, "mən"i onun Heçlə qovuşmasının qayəsidir. Buna görə də hər şeyi inkar edən nihilist əslində eqosunu inkar etmir - inkar edir kimi görünsə də və ya görünmək istəsə də. Çünki onun ondakı nihilizmi yaşadan daxili "mən"ə, eqoya ehtiyacı var. Heçə anlam verən, Heçdən bir var yaradan və bu Heçlə qovuşan - nihilistin daxili "mən"idir. Nihilistin yaratdığı heç məhz bu "mən"in kontekstində ətraf aləm tərəfindən qəbul olunur. Buna görə də, o bu "mən"i hər gün bir az daha çox qabardır, ona bir az daha çox anlam verir və bu "mən"in rəmzi kimi gördüyü hər şeyə getdikcə daha sıx sarılır, ona daha böyük məna, daha böyük bir iqtidar yükləyir.

---

[1] – Bu məqalə və ya onun müvafiq hissələri nihilizmlə bağlı ciddi və müfəssəl elmi-akademik araşdırma olmaq iddiası daşımır.

[2] – Stirner, Max (2013). Biricik ve Mülkiyeti. Almanca'dan Çeviren: Selma Türkis Noyan. İstanbul, Kaos Yayınları, s. 17 (Bu yazıda tez-tez istinad edilən MaksŞtirner (Max Stirner), dövləti, insan toplumunu, kilsəni ve liberalizm de daxil hər hansı dövlətçilik ideologiyasını kökündən, bir fenomen olaraq qəbul etmir ve bütün bunları insan təbiətinə zidd hesab edərək, onları yox sayır. Dilmenerin Homo Nihilusu isə, öz çevrəsində konkret şəkildə gördüyü, təmas etdiyi, mahiyyətini dərk etdiyi hadisələrə və faktlara – istər dövlət, istər din, istərsə də toplum – etiraz edir və bunları ehtiva edən bütün konseptləri də məhz bu səbəbdən Heç olaraq görür. Stirnerin anarxist nihilizminə, Dilmener'in Homo Nihilus'unun konkret faktlara yönəlik nihilizmi üçün ümumi ve abstrakt bir arxa fon yaratmaq məqsədi ilə istinadlar edilir.

[3] – Bu sözlər Erdal Emre tərəfindən türk şairi, həcv ustası, fəlsəfi Heçin poetik tərənnümçüsü Neyzen Tevfik (1879-1953) haqqında söylənmişdir. Bax: http://erdalemre.blogspot.com/2013/02/velilikle-delilik-arasinda-bir-hic_2.html

[4] – Paterson, R. W. K. (1971) The Nihilistic Egoist: Max Stirner. London, Oxford University Press,s. 242

"Mən məsələmi heçə bağladım."[5]

Heçin bir obyekt təşkil etməsi, bir hədəf olması təbii ki, "mən"in, eqonun agentiv gücünü artırır. Üstəlik, əgər nihilist hər şeyin ya mövcudluğunu, ya da dəyərini yox sayaraq yaşamına davam edirsə, onun mərkəzləşdiyi nöqtə (bu və ya digər formada) öz eqosu olacaqdır. Ətrafdan imtina içə qapılmadırsa, eqonun konturları daha aydın görünməyə başlayır. Buna görə də, əslində nihilizm və eqoizm bütöv bir sosio-psixoloji kontinuumun bir-birinə keçə biləcək iki fazasıdır. Əgər nihilizmin (əsasən onun ekzistensial formasının) zirvələrini fəth etmiş Nitsşe hər şeyi, həyatın özünü belə yox saydıqdan sonra Zərdüştün dili ilə insanlara eqolarını yeniləməyi, gücləndirməyi və eqolarından bir fövqəlinsan yaratmağı tövsiyə edirsə, deməli, eqo nihilizmin özülündədir.[6] (Doğrudur, fövqəlinsan yer üzündə önəmli vəzifələri olacaq bir yaradış, nihilizmi aşmış bir varlıqdır; lakin onun rüşeymləri insan nihilizmə varmadan atıla bilməzdi.)

Nişitaniyə görə nihilizm - nihilləşdirmənin "öz"dən başqa hər hansı digər bir dayağının olmamasına inanan bir mövqedir[7].Kierkegaard isə mütləq fərdi təhəddüdün nihilizmə bir cavab reaksiyası ola biləcəyini düşünürdü[8]. (Dreyfus 1993: 291). Nişitani eyni zamanda ətrafa biganəliyi əks etdirən nihilizmin "öz"ün yaşamasını təmin edən hər şeyin qəbulunu da ehtiva etdiyini söyləyir.

Eqoizm və nihilizm bir-birini qarşılıqlı surətdə tamamlayır.

Nişitani belə bir mövqenin həm Nitsşenin, həm də Ştirnerin fəlsəfəsində üzə çıxdığını göstərir. "Stirner, Nitsşenin də daha sonra qeyd edəcəyi kimi, mövcud dəyərlərin getdikcə öz sütunlarını sarsıdaraq bir heçin içinə yuvarlandığını və bunun labüd nəticəsinin eqoizm kimi ortaya çıxdığını söyləyir. Stirnerin eqoizmi onun dinin, fəlsəfənin və mənəviyyatın təməlində olan boşluqları aşkar etməsindən qaynaqlanır." (Nishitani 1990: 104). Nişitani eyni zamanda qeyd edir ki, Nitsşenin sonradan nihilizm və ya nihilizmə dönüşüm kimi adlandırdığını Ştirner daha əvvəl eqoizm olaraq müəyyən etmişdir. (Nişitani 1990: 102).

* * *

Nihilizmin həm 19-cu əsrdə bir axın olaraq gəlişdiyi və fəlsəfi bilim dünyasını demək olar ki, tamamilə sardığı Avropada ve özəlliklə də Almaniyada, həm də eyni dönəmdə Avropanın sərhədlərini aşaraq yayıldığı ve ədəbi düşüncəni öz təsiri altına aldığı Rusiyada, dövlət/toplum səviyyəsində əxlaqi dəyərlərin itməsinə ve mənəvi çöküşə fəlsəfi-psixoloji bir reaksiya olaraq ortaya çıxdığını vurğulamaq yerinə düşərdi. Deməli, nihilizm *a posteriori* bir durumdur, insan təbiətinin uduzulmuş bir savaşıdır və mahiyyəti etibarilə insanın a priori təbiətinə ziddir; çünki aid olma insana xas bir ehtiyacdır. Məhz aidiyyət insanın düşüncələrinin, ideyalarının və əqidəsinin reallaşmasını, bənzər düşüncələrlə, ideyalarla və əqidələrlə ünsiyyətə girməsini, dinamikləşməsini və bu səbəbdən də dayanıqlı hala gəlməsini təmin edə bilir. İnsanın düşüncəsi, əqidəsi isə onun kimliyinin nüvəsidir.

---

[5] – Goethe. (2002). Vanitas! Vanitatum Vanitas! The Poems of Goethe içinde. Çev. Edward Alfred Bowring. Pennsylvania State University, s. 129.

[6] – Bax: Nietzsche, Friedrich (2007). Thus Spoke Zarathustra ("Zərdüşt Belə Deyirdi"). Cambridge, Cambridge University Press.

[7] – Nishitani, Keiji (1990). The Self-Overcoming of Nihilism. Albany, State University of New York Press,s.102-104

[8] – Dreyfus, H. (1993). Heidegger on the Connection between Nihilism, Art, Technology, and Politics. The Cambridge Companion to Heidegger içinde. Ed. C. Guignon. Cambridge: Cambridge University Press, s. 289-316.

Dekartın "Mən varam, çünki mən düşünürəm" tezisini Corc Oruel "1984" romanında "beyninin içindəki bir neçə kub santimetrdən başqa heç nə sənə məxsus deyildi" frazası ilə sanki bir daha təsdiqləmiş və ən imkansız anlarda belə düşüncənin, əqidənin sənlə qala biləcəyini, səni tərk etməyəcəyini bir daha vurğulamışdır. Evini, mülkünü, dostlarını, ailəni, həyatını, canını əlindən ala bilərlər; əlindən ala bilməyəcəkləri tək bir şey sənin düşüncəndir. (Daha doğrusu, düşüncəni əlindən ala bilsələr belə, onun yerinə başqa bir düşüncə qoymaq məcburiyyətindədirlər; çünki düşüncə heç bir zaman onu daşıyan insandan öncə həyata vida etmir). Sənin olan, daim sənlə qalan və sənin əlindən heç kəsin ala bilmədiyi hər hansı bir şey isə sənin ahənginə, daxili sakitliyinə və xoşbəxtliyinə, bir sözlə, mutluluq limanına çevrilir. Məhz buna görə də, düşüncə, inam, etiqad insanın ən əziz sandığı, ən doğma bildiyi, qoynunda bəsləyib heç kimə təslim etmədiyi bir səadət tilsimidir. Lakin insan bu səadəti tək yaşamaq istəmir, onu başqaları ilə paylaşmaq ehtiyacı duyur. İnsan özünü özü kimi düşünənlərin arasında görmək istəyir və bu onun səadətinə səadət qatır; onun düşüncəsinə, əqidəsinə olan güvənini və deməli özünə olan inamını da artırır. Elə bu səbəbdən də insan ona xas olan düşüncəni təcəssüm etdirən (və ya etdirdiyini düşünən) siyasi birliyə, dini axına, sosial hərəkata və s. aid olma ehtiyacı duyur. Düşüncə, əqidə, inam (və deməli, həm də dəyərvermə) aidiyyətin təməlini təşkil edir. Və məhz bu birliklərin, bu axınların, bu cərəyanların, bu hərəkatların içində insan fərdi kimliyinin üzərinə çətir kimi açılmış qrup kimliyini də dərk etmiş olur. Dərk etdikcə isə, bu kimliyə daha möhkəm sarılır və ekstremal hallarda - bəzən siyasi texnologiyaların, müasir dövrdə isə sosial media texnologiyalarının da qurduğu "tələlərə" düşərək - öz fərdi kimliyini bu qrup kimliyində itirir, əridir və yox edir; Məcnun kimi vəhdəti-vücuda təslim olur:

Məndə olan aşikar sənsən,
Mən xud yoxam, ol ki var – sənsən![9]

Qrup kimliklərinin, aidiyyətin ictimai tapınağa, siyasi güc texnologiyasına çevrildiyini anlayan üstün zəkanın problemi də buradan başlayır.

Gər mən mən isəm, nəsən sən, ey yar?
V'ər sən sən isən, nəyəm məni-zar?[10]

Çünki aidiyyətin tapınağa çevrilmə riski - eqonun əzilib tapdalanması riski, eqonun annihilasiya edilməsi təhlükəsi deməkdir.

"Hər kəs bir başqasıdır və heç kəs özü deyildir"[11]***.***

Üstəlik, institutlaşmış/institutlaşdırılmış adiyyətin səbəb olduğu ifratı görən, sezən və ifratın ya bilərəkdən ya daqeyri-ixtiyari olaraq səmimiyyətsizliyiə, yalana-dolana, istifadəçiliyə yol açdığını anlayan birisi üçün belə bir durum, bu durumun dərki və belə bir dərkin qəbul edilməsi faciədir.

"Nihilizm düşüncənin məhsuludur".[12]

---

[9] – Fuzuli. (2000). Leyla ve Mecnun. Hazırlayan: Muhammet Nur Doğan. İstanbul, YKY,s.199
[10] – Yenə orada
[11] – Heidegger, Martin (2001). Being and Time. Blackwell Publishing,s. 128
[12] – Wrisley, George (2016). Nihilism, Hell, and Self-Interest. http://www.georgewrisley.com/blog/?p=386

Dilmenerin Homo Nihilusu da düşüncə, zəka sahibidir: ağıllıdır, məntiqlidir, yaxşını yamandan, doğrunu yalandan seçə bilir. O öz zəifliklər ilə də barışan, bu zəifliklərə gülməyi bacaran və onu normal insan təbiətinin bir hissəsi kimi görə bilən sərbəst bir düşüncə daşıyıcısıdır. Xüsusilə iyerarxik cəmiyyətlərdə hələ xor görülən bir sosial tipdir.

"Mən Mənə aid sifətlərin içində insan olma sifətinə də sahibəm. Tam da bir canlı, bir avropalı, bir berlinli olduğum kimi, mən həm də insanam. Ancaq məni sadəcə bir insan və ya bir berlinli hesab edən şəxs Mənə yalnız səthi hörmət etmiş olur. Səbəbmi? Çünkü o Məni deyil, mənim atributlarımdan yalnız birini nəzərə almış olur... Məni olduğum kimi qəbul etmək yerinə, mənim sifətlərimə, mənim nələrə sahib olduğuma baxılmaqdadır və mənimlə mənim malik olduğum sifətlərə görə bir açıq anlaşma bağlanmaqdadır. Bu mənimlə deyil, mənim sahib olduqlarımla əldə edilən izdivac, razılaşdırılan evlilik kimidir. Xristianlıq mənim ruhuma, liberalizm isə humanizmimə istiqamətlənmişdir."[13]

Selami institutlaşdırılmış aidiyyətin insanların üzlərinə zorla dartıb geyindirdiyi maskanı söküb atmaq, bu maskanın arxasında gizlədilmiş, arada-sırada xəfif bir yel əsintisi kimi maskanı aralayaraq arxasından boylanan insan təbiətini görmək istəyir. O, insan təbiətinin, eqonun gücünü, həyata sarılma çılğınlığını heyranlıqla izləyir. Həm də yalnız özündə deyil, başqalarında da. Dükanda özünə alt paltarı seçərkən etdiyi açıq-saçıq zarafata kimliyindən, görünüşündən asılı olmayaraq hər kəsin gülməsini zövqlə seyr edir:

"... "Özümə Tomi seçəcəyəm, orama-burama layiqdir belə bir marka" dedim. Bir anda dükanı gülüş sardı. Başı açığı da, qapalısı da, yanlarında ərləri olmayanda rahat, dinc və içləri sakit idi. Söylədiklərim onlara ayıb görünmək yerinə çox gülməli gəlmiş və hamısını birdən güldürmüşdü." ("Tutqu": 141).

Selami institutlaşdırılmış aidiyyətin ifratı, fetişizmi və bunların təsis edilməsi üçün gərək olan qorxunu qidalandırdığını anlayır. Hətta insanı öz adından, öz etnik mənsubiyyətindən, öz dinindən vaz keçirəcək dərəcədə. İnstitutlaşdırılmış aidiyyət fetişləşdiriləni elə bir səviyyəyə qaldırır ki, ona tapınmamaq, səcdə etməmək xoş görülmür; bəzi cəmiyyətlərdə isə günah və bəzən cinayət sayılır. Sovet dövründə ideologiyaya səcdə etməyənlərin "xalq düşməni" damğası ilə məhv edildiyi kimi. İnsanların fetişləşdirilənə tapınma məcburiyyəti və ya istəyi gücləndikcə onların eqosu kiçilir və bir qədər sonra fetişin təzyiqi altında məhv olur. Bunlar bütün çılpaqlığı ilə Selaminin ətrafında da baş verir. Selaminin ətrafı da özü kimi, yaxud fərqli formatda gəzib-dolaşan nihilistlərlə doludur. Əslən erməni və xristian olan Hermanın öz doğma adını dəyişdirib Erman etməsi, müsəlman olmamasına baxmayaraq cümə namazına getməsi, erməni və xristian olan Antranikin də adını Kemal olaraq dəyişdirməsi Selamiyə öncə qəribə gəlir. Selami bunları hətta bir fürsətçilik kimi də dəyərləndirir.

".... Özünə Erman adını seçib bəyənmiş Hermancığazım məsələni şişirdərək bir qədər sonra cümə nazmazı üçün məscidə də getməyə başlamışsa, buna sevinərəm. Hər zaman qırxqıfıl vurulu kəpənəklərini endirmədən tualetə belə getməyən hərif sırf pəncərəsinə "cümə namazındayam, dönəcəyəm" kağızını asmaq üçün cümə günləri dükanını hər cür pis əmələ açıq halda buraxa bilərdi. Məhəlləli insanların qarşısında lovğalanmaq üçün din işlərinə aludə olmuşsa, mənə nə?" ("Tutqu": 105).

---

[13] – Stirner, Max (2013). Biricik ve Mülkiyeti. Almanca'dan Çeviren: Selma Türkis Noyan. İstanbul, Kaos Yayınları, s. 216

Lakin sonra belə bir davranışın meqa-ideologiyanın təsiri altında formalaşdığını və bunun milli, dini və s. azlıqların özlərini qoruma təpkisi olaraq meydana çıxdığını düşünür və bu insanlara acıyır.

"İnsanın özünü əsl adı ilə deyil, sonradan götürdüyü adla anmasının nə demək olduğunu mən heç bir zaman anlamayacağam. Mənə nə var ki? Mən türk, üstəlik, müsəlmanam." ("Tutqu": 20).

Dinin siyasiləşdiyi ortamda dinlə (həm də hakim dinlə) əlaqəni gözlər önünə sərmədən güzəranını təmin etmək, işində-gücündə irəliləmək çox çətindir. Sistem/rejim təbii ki, bir xristianı cümə namazına getməyə məcbur etmir. Hətta, yeri gəldikdə, onun öz dini gələnəklərini qorumasını təqdir də edir. Lakin implisit gündəm fərqlidir. İslamla əlaqəni hər hansı şəkildə göstər ki, əlində pulun olsun, vəzifə sahibi olasan, xaricdə oxumaq üçün təqaüd qazanasan və s. Sovet dövrünün "kommunist ol ki, irəli çəkiləsən" paradiqmasının təkrarı. Bu siyasiləşmiş İslam açıq sözlərlə deyil, işarələrlə, him-cimlə, göz-qaşla insanları öz eqolarından qopararaq institutlaşmış aidiyyətin ağuşuna çəkir.Və beləliklə də, Antranik Kemala çevrilir, Erman olmuş Herman cümə namazına getməyə başlayır, Hamzanın dükanı isə El Hamza olaraq ortaya çıxır. Çünki yaxşı dolanışığı da, işdə irəliləyişi də, xaricdə təhsili də arzulamaq, bunları əldə etmək üçün can atmaq insanın ən təbii istəyi, ən təməl haqqıdır.

"Nə imiş mənim üzərimə almalı olduğum o bir yığın məsələ? Öncəliklə müsbət məsələləri mənimsəməli imişəm, sonra Tanrı məsələsini, insanlıq, həqiqət, özgürlük, insaniyyət, ədalət məsələlərini; ondan sonra xalqımın, hökmdarımın, vətənimin məsələlərini; ayrıca olaraq ruh məsələsini və daha minlərcə başqa məsələni... Bir tək Mənim məsələm mənim öz məsələm olmamalı imiş!" [14]

Selami bütün bunları izləyə-izləyə aidyyətin fetişizmə, tapınağa çevrilmə riski böyük olan bir cəmiyyətdə yaşadığını dərk edir və dərk edərək də hər növ aidiyyətdən, hər cür mənsubiyyətdən imtina edir – istər sosial, istər dini, istər milli, istərsə də korporativ. Ailə, iş yeri, siyasi partiya, ictimai-siyasi birlik – bunlar heç biri ona görə deyil. Hər hansı bir iş yerinə belə bağlı olmağa dözümü yoxdur.

"Əzəldən əfəndimiz Tanrı' idi, indi isə əfəndimiz İnsandır."[15]

Selaminin təhlil, mühakimə və proqnozlaşdırma qabiliyyəti kifayət qədər yüksək olduğu üçün və özü kimilərinə ətrafında çox az rast gəldiyinə görə, korporativ məsuliyyəti də asılılıq kimi anlayır və ondan imtina edir. O, işə başlayacağı halda potensial patronunun intellektual səviyyəsi və sosial ünsiyyət vərdişləri ilə bağlı *a priori* şübhələrə də qapılır. İşə qəbul prosesinin ədalətinə və dürüstlüyünə inanmaması bir yana, çox qıcıqlandırıcı və ikrahdoğurucu bir iş ortamına düşmək də onun gözünü qorxudur. Selami gələcək patronunun onu rahatsız edəcək ağız qoxusu ilə təmas etməkdən qorxur. Lakin o yalnız fizioloji rahatsızlıqdanmı ehtiyat edir? Çox güman ki, yox. Yazıçı bu ortamı metaforik deyil, real bir situasiya kimi təsvir etmiş olsa da (ən azından mətn ilk oxunuşda bizi metaforaya çəkmir), sanki metaforizasiyanı oxucunun öhdəsinə buraxır. Gerçək çalarları ilə təsvir edilən bu iş yeri ortamındakı ağız qoxusunu oxucu özü metaforizasiya edərək "ağız qoxusuna" çevirə bilir. Patronun qeyri-etik, qeyri-peşəkar və aşağılayıcı davranışıən azı "ağız qoxusu" qədər qıcıqverici, ikrahdoğurucu və izoləedicidir. Artıq insanların, xüsusilə gənclərin, (mümkün durumlarda) az

---

[14] – Stirner, Max (2013). Biricik ve Mülkiyeti. Almanca'dan Çeviren: Selma Türkis Noyan. İstanbul, Kaos Yayınları, s. 15

[15] – Yenə orada, s. 229

əmək haqqı, aşağı vəzifə, ağır iş yükü kimi sosial-iqtisadi məsələlərdən deyil, daha çox psixoloji rahatsızlıqlar üzündən işdən ayrıldıqları və daha az ödənişlə daha xoş və daha peşəkar bir ortamda işləməyi tərcih etdikləri, onları çərçivəyə salan hər cür aidiyyəti, mənsubiyyəti söküb atdıqları, bu aidiyyətin eqonu əzərək, tapdalayıb heçə çevirərək gətirdiyi rahatlığı əllərinin tərsi ilə itələdikləri bir dövrü əks etdirən sosial xronotopun təcəssümüdür Selami.

Selami bir vaxtlar haqqı, ədaləti, sosial dəyərləri var saymış olsa da, zamanla inandığı dəyərlərə güvənini itirmişdir. Bunu roman boyu Selaminin özü ilə mükalimələrinin keyfiyyətcə dəyişməsi də göstərir. Romanın (və Selaminin müşahidə etdiyimizi bir ilinin) ortalarına doğru onun insanların öz haqlarını niyə anlamadıqlarına, onlara qarşı işlənən haqsızlıqları niyə asanlıqla qəbul etdiklərinə təəccüb etdiyini görürük. Nihilləşməkdə olan bir fərdin var olan və hələ tam anlamadığı toplumsal nihilizmə üsyanıdır bu sanki.

"... İnanmayanlar da vardı. Məsələ inanmaq-inanmamaq məsələsi deyildi ki. Belə bir münasibəti normal və sanki onlara layiq bir münasibət kimi anlayanlar vardı... İnsan qolundan tutub, "Mənə bax, nəyə inanmırsan? İnanman üçün daha nə göstərməliyəm sənə?" demək istəyirdi." ("Tutqu": 111).

Lakin intellekti, sezgisinin gücü hər şeyin göründüyü kimi olmadığını, əslində bu dəyərləri insanların ondan daha öncə annihilyasiya etdiklərini dərk etdirmiş:

"...bu məmləkətin/bu insanların bu adama laiyiq olduğu anlaşılmışdı" ("Tutqu": 111);

Şüarçılığın sözü əməldən bıçaq kimi kəsib ayırdığı simvolik bir cəmiyyətdə yaşadığını getdikcə ona daha çox isbatlamışdır:

"Cümhuriyyətçisi də birdi, şəriətçisi də. Milliyyətçisi də birdi, mömini də. Hətta, hətta, sağçısı da birdi, solçusu da." ("Tutqu": 59).

Sözün, fikrin və əməlin bir-biri ilə heç bir əlaqəsi olmayan cəmiyyətdə sözün iqtidarını yalnız şüarlar, söyləmələr müəyyən edir. Deyilənlərin içi də, altı da çox zaman boşdur. Və sözün əmələ deyil, sadəcə, şüara çevrildiyini görən Selami sözü də annihilyasiya edir:

"... Eşitsəm də inanmayacaqdım..." ("Tutqu": 38).

Tədricən dəyərlərə inamını itirən Selami sosiumdan – insan cəmiyyətindən təcrid olunaraq öz eqosu üzərinə fokuslanmış nihilist birisinə çevrilir. Bununla o, institutlaşmış aidiyyətin onun eqosunu annihilyasiya etməsinə imkan vermir. O özü hər hansı formada (dövlət, insan cəmiyyəti və s.) meydana çıxan institutlaşmış aidiyyəti annihilyasiya edərək yerində öz eqosundan qoruyucu bir qala hörür. ... Və Selami sosial identikliyin yeni bir formatının – aid olmama üzərində qurulmuş özünüdərkin daşıyıcısı kimi qarşımıza çıxır.

"Tanrı və İnsanlıq öz məsələsini heç bir şey üzərində qurmaz; yəni özündən başqa heç bir şey üzərində. Mən də, eynilə Tanrı kimi, öz məsələmi Özümün üzərində qururam, çünki Mən digər hər kəs üçün bir heçəm, çünki Mən yalnız özüm üçün hər şeyəm..."[16]

Selami inşa etdiyi və içində yaşadığı heçi də "öz"ü ilə birlikdə yaratmış və "oz"ü ilə də paylaşmaqdadır. Heçin müqabilində tapınağa çevirdiyi kolleksiyasının həyatını tam doldura bilməsi də "öz"ünün sayəsində mümkün olmuşdur. Bu "öz" – Selaminin Canının İçi - onun qarşısına gah müəllim, gah məsləhətçi, gah dost, gah da sirdaş simasında çıxır. İdeal olaraq. Selaminin "öz"ü onun ideallarından oluşmuş, formalaşmış bir "öz"dür. O, ətrafında

[16] – Stirner, Max (2013). Biricik ve Mülkiyeti. Almanca'dan Çeviren: Selma Türkis Noyan. İstanbul, Kaos Yayınları, s. 17

görmək istədiyi, lakin görə bilmədiyi müəllimini, dostunu, sirdaşını, sevgilisini, başbilənini və daha neçə ümid bəsləyib kam ala bilmədiyi xəyali "öznə"ləri "öz"ünə daşımış və bu məlzəmələrdən "öz"ünü yaratmışdır. Bir zamanlar "öz" ilə bir bütöv kimi mövcud olan (ən azından yazıçı oxucunun belə düşünməsinə heç bir məhdudiyyət qoymur) Selami getdikcə "öz"ündən ayrılır: Selami real aləmə çevrilir; xəyali aləmini isə "öz"ünə dönüşdürür. Qabıq "insan" iç "öz"dən ayrılır. Bəlkə elə buna görə də, Selami "öz"ü ilə daimi dialoqdadır. "Öz"ün susduğu zaman ortalıqda dolaşan Selami isə ətraf aləmin proyeksiyasıdır.

Lakin bu "öz"ü "Canımın İçi" adlandıran Selami oxucuları ekzistensial bir sualla qarşı-qarşıya qoyur: Selami doğrudanmı "öz"ündən ayrı mövcuddur? İç dünyamız bizdənmi, bizdən ayrımı? İç dünya deyiriksə, deməli, bu dünyanı onun əksi olan başqa bir dünyaya qarşı qoyuruq. Deməli, ayrı-ayrı dünyaları birləşdiririk. Amma yenə də birləşdiririk və deməli, bir bütövük.

"Mən gərçəkdən həm insanam, həm də qeyri-insanam; məndə ikisi də bir arada mövcuddur, çünkü Mən insanam, amma eyni zamanda da insanın fövqündə olan biriyəm, yəni Mən sırf bu sifətimin Məniyəm."[17] *(Stirner 2013: 220).*

Selami də bir bütövdür və məhz buna görə də, real aləmlə "öz" arasında bir tarazlıq arayışındadır. Və buna görə də, Selaminin "öz"ü ilə dialoqu da əslində bəlkə də bir bütöv, kəsintisiz, iki tərəfin yer almadığı bir monoloqdur.

"[Selaminin Canının İçi – JQ:]<[18] *Gün gələr, tormoz tutmazsan deyə çox qorxuram. İkimizi birdən məhv etməndən qorxuram.*

"[Selami – JQ:]>[19] *İkimiz, eləmi? Sən özünü tam müstəqilmi saymağa başladın?...." ("Tutqu":24).*

Yazıçı bu sualın cavabını qismən oxucunun şərhinə buraxır və Selamini oxucunun gözü ilə də görmək, oxucunun qavramı çərçivəsində də anlamaq istəyir. Tam olaraq da Selaminin "öz"ünü müəlliminin, dostunun, məsləhətçisinin və sirdaşının gözü ilə görmək, anlamaq istədiyi kimi. Ekzistensial fəlsəfənin də çözə bilmədiyi bu suala, təbii ki, bu yazıda cavab axtarmaq niyyətində deyilik. Lakin yazarın belə bir sualı parıltısız-gurultusuz qarşımıza çıxararaq bizi düşündürməsinin zövqü əvəzedilməzdir.

"Mən deyirəm ki, Sən bir Yəhudidən, bir Xristiandan və bənzərlərindən daha artıq birisən, hətta Sən İnsandan da daha artıqsan. Bütün bu saydıqlarım hər biri bir düşüncədir, amma Sən bədənə sahib birisən. Sən "mücərrəd bir İnsan" halına gələ biləcəyinimi düşünürsən?"[20] *(Stirner 2013: 159).*

Selami və onun Canının İçi arasındakı qarşılıqlı münasibət Corc Medin irəli sürdüyü "institutlaşmış mən" (me) və "öz-mən" (I) arasındakı qarşılıqlı əlaqənin timsalıdır. Med qeyd edir ki, "institutlaşmış mən" cəmiyyətdə, ətraf aləmdə institutlaşmış fikirlərin təcəssümü, başqalarının düşüncələrinin mütəşəkkil məcmuəsi və ətraf mühitin bütün bunlar əsasında sabit və gözlənilən yorumlanması; "öz-mən" isə təşkilatlanmış və institutlaşmış ictimai fikir və davranışlara gözlənilməz, "qaydadan kənar", "düzəni pozan", bəzən çaşdırıcı reaksiyaların təzahürüdür: "Biz bir insandan müəyyən şərtlərə,

---

[17] – Stirner, Max (2013). Biricik ve Mülkiyeti. Almanca'dan Çeviren: Selma Türkis Noyan. İstanbul, Kaos Yayınları, s. 220

[18] – Romanın mətnində istifadə edilən "<" işrəsi ilə yazar söylənənlərin Selaminin "Canının İçi"nə aid olduğunu göstərmişdir.

[19] – Romanın mətnində istifadə edilən ">"işrəsi ilə yazar söylənənlərin Selami'ye aid olduğunu göstərmişdir.

[20] – Stirner, Max (2013). Biricik ve Mülkiyeti. Almanca'dan Çeviren: Selma Türkis Noyan. İstanbul, Kaos Yayınları, s. 159

gözləntilərə uyğun simvolik bir varlıq kimi danışa bilərik; onun ideyaları başqa birisinin (məsələn, onunla qonşu olan birisinin) ideyalarının tam eynisi ola bilər; o, bəlli bir şərait daxilində "institutlaşmış mən"dən başqa bir şey olmaya bilər; onun bəlli düzənə gətirdiyi dəyişiklik də şüurlu deyil, qeyri-ixtiyari şəkildə edilmiş cüzi tənzimləmədən başqa bir şey olmayacaqdır. Lakin bunun tam qarşılığı olaraq, biz bir insandan həm də müəyyən şəxsiyyətə, fərdi xüsusiyyətlərə sahib, institutlaşmış düşüncəyə bu düşüncəni köklü surətdə dəyişdirəcək şəkildə təpki verən bir varlıq - "öz-mən" kimi də danışa bilərik"[21]. Bunların hər ikisi eyni bir fərddə birləşir; və fərd şəraitdən asılı olaraq ətraf aləmə ya gözlənilən, ya da gözlənilməyən təpkilər göstərir. (Və məhz özümüzə tez-tez təəccüb etməmizin və özümüzü bəzən tanımamazın səbəbi də budur). Bu ikiyə haçalanma isə məhz sosial ortam, institutlaşma, ictimai təşkilatlanma var deyə mövcuddur. "İnstitutlaşmış mən"lə institutlaşmaya qarşı çıxan "öz-mən" arasındakı mükalimənin dinamikası sanki Selami ilə onun Canının İçi arasındakı dialoqlarda öz əksini tapır.

* * *

Hər cəmiyyət öz nihilistini yaradır. Hər nihilist onu yaradan cəmiyyətin izlərini daşıyır.

19-du əsrdə inkişaf edərək müxtəlif məkanlarda özünün çeşidli formalarını törədən nihilizmin yan təmayüllərindən biri mənəvi nihilizmdir: əxlaqi dəyərləri, sosial məsuliyyətliliyi və ictimai normaları inkar edən metaetik təsəvvür forması.

Mənəvi nihilistin ətraf aləmdən təcridi və özünəqapanışı fərqli şəkildə təzahür edir. O, ətraf aləmin varlığını deyil, dəyərini yox sayır. Və bu səbəbdən, onun ətraf aləmdən təcrid olunması da yalnız dəyərlərdən təcrid olunma kimi ortaya çıxır. Mənəvi nihilist əslində ətraf aləmin dəyərlər sistemindən təcrid olunaraq onu öz mənfəəti üçün isifadə etməyə başlayır. Bu isə mənəvi nihilistin özünəqapanışını da fərqli bir formatda üzə çıxarır. Mənəvi nihilistin özünəqapanışı öz fikirlərinə, öz düşüncələrinə, öz inamına deyil, öz mənfəətinə qapanma, dəyərsizləşdirdiyi ətraf aləmdən əldə edə biləcəyi çıxarlara fokuslanmadır.

Mənəvi nihilizm imperiyasonrası yeni toplumlara xas olan bir sosial identiklik formatıdır. Bu baxımdan, mənəvi nihilizm Sovet dövrünün fetişizmindən birbaşa postsovet dövrünün nihilizmə atılmış (və ya yuvarlanmış) Homo Post-Sovietikusun da əksər hallarda təzahür etdirdiyi sosial özünüdərk paradiqmasıdır. Belə ki, Sovet sistemi (digər bənzər sistemlər kimi) məhz mənəvi nihilizmi və onun çeşidli formatlarını legitimləşdirən və davamlılığını uzun illər, bir neçə nəsil boyunca təmin edəcək bir sistem olmuşdur.

Roman boyu Selaminin içindən keçdiyi nihilləşdirmə və "mən" yaratma proseslərini izlərkən Homo Sovietikusun varisi olan Homo Post-Sovietikusun bənzər xüsusiyyətləri ani qığılcımlar kimi düşüncələrimizdə sayrışmağa başlayır. Sovetlər Birliyi dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərdə milli quruculuq olduqca çətin bir proses idi: xüsusilə ilk illlərdə məlum iqtisadi sıxıntılar, siyasi təcrübəsizlik, alovlanan ərazi münaqişələri və əlbəttə ki, kağız üzərində qalan qanunlar. Bütün bunlar yeni dövlət inşasını fəsadlarla, ağrılarla dolu bir dönəmə çevirmişdi. Ancaq Sovet dövrünün əks-sədası kimi müstəqillik dövrünə uzanan bu sarsıdıcı maneələr yeni yaşam quruculuğunu əngəlləyən yeganə faktorlar deyildi. Sovet dövrü öz ağrılı çöküşünün ardından həm də nihilist bir insan mirası qoyub getmişdi: məlum fəlsəfi

[21] – Mead, George Herbert (2015). Mind, Self and Society. University of Chicago Press, s. 192-199

cərəyanların müəyyən etdiyi eksplisit nihilist deyil, sosial dəyərlərin nominal daşıyıcısı olan və özünü bəzən aşkara çıxaran, bəzən isə gizli saxlayan mənəvi nihilist. Sovet rejiminin avtoritarlığından, üzdə insan rifahının təminatı kimi alqılandırılan normalara tabe olma məngənəsindən yaxa qurtarmış, keçmişin dəyərsizliyini anlamış, yeni dövrdə isə nəyə inanacağını, nəyə dəyər verəcəyini hələ dərk etməmiş mənəvi nihilist Sovetsonrası dövrün inkişafa, tərəqqiyə, rifaha, müasirləşməyə əngəl törədən ən dözülməz və ən islahedilməz bəlalarından olmuşdur. Çünki Sovet dövrünə gəlib çıxdığı anda artıq nə dürüstlüyü, nə yaradıcılığı, nə sosial məsuliyyət hissi, nə də nikbinliyi qalmışdı. Dürüstlük kimi anladığı dürüstlük, yaradıcılıq kimi anladığı yaradıcılıq, məsuliyyət kimi anladığı məsuliyyət, nikbinlik kimi anladığı isə nikbinlik deyildi - hər zaman olmasa da, çox zaman bunların sadəcə təqlidi idi. Mənəvi nihilistin bir çırpımda islah edilməsi, yox edilməsi, dəyişdirilməsi, məğlub edilməsi mümkün deyildi. Çünki mənəvi nihilistin arxasında toplumsal düşüncənin topluca çöküşü dayanmışdı.

Hər bir nihilistin özünəməxsus "eqo bəsləmə" üsulu var.

Postsovet dövrünün "məndən ötdü, qardaşıma dəydi; elə bildim saman çuvalına dəydi" məntiqini önündə sipər kimi gəzdirən mənəvi nihilisti onun özündən, bəzən öz yaxınlarından, öz evindən, öz mülkündən başqa heç bir şey maraqlandırmırdı. Evinin içi təmiz, zəngin, cazibədar olsun da, qapısının ağzı çör-çöp yuvası olsa da fərq etməzdi. Mənzilinin bir otağını genişləndirə bilsin də, binanın xaricinə çıxardığı aynabənd bir gün birisinin başına uçacaq olsa da, yaxud yaşadığı binanın görüntüsünü eybəcər hala salsa da nə dərd? Nömrəsi özəl rəqəm kombinasiyalı iri, bahalı, "həsəd aparanların gözünə batan" bir lüks maşına sahib olsun da, bu maşın şəhərin dar küçələrində səkilərə park edilərək insanların gediş-gəliş yolunu kəssə də dünyanın sonumu gələcək? Varlı-karlı bir iş adamı olaraq ortaya çıxıb yüksək təbəqəyə damğasını vuranlardan olsun da, tikdiyi binalar şəhərin tarixini yerlə yeksan etsə də nə olacaq? Baxdan, Bethovendən, Lermontovdan məlumatlı olsun da, övladını universitet imtahanlarından tanışlıqla keçirsə də ziyalılığından bir şeymi əskiləcək? Atalar sözlərini, hikmətli deyimləri əzbər bilsin də, klassik şairlərdən tutmuş postmodern yazarlara qədər kimdən istəyirsən sitat gətirsin də, ətrafında hər gün gördüyü ədalətsizliyə göz yumsa da dühasına kimsə şübhəmi edəcək? Böyük-kiçiyin yerini bilsin də, gecə vaxtı maşınını dar küçələrdən çapdıra-çapdıra sürərkən hər tinbaşı siqnala basıb yaşlı, xəstə, uşaq demədən hər kəsi rahatsız etsə də tərbiyəsimi sorğulanacaq? Dünyanı omu xilas edəcəkdi? Dünyaya düzən gətirmək onamı qalmışdı? Köhnə bazara təzə nırxmı qoyacaqdı?

Necə əxz etmişdi bu xüsusiyyətləri postsovet nihilisti? Sovet dövründə nə qapısının ağzında çör-çöp olardı, nə maşınını piyada yolunda park edə bilərdi, nə də yaşadığı binanın divarına icazəsiz bir mismar vura bilərdi. Yaxın qohumunun övladını tanışlıqla və ya rüşvətlə bəlkə imtahanlardan keçirə və ya işə düzəldə bilərdi, amma bunları Homo Post-Sovietikus kimi açıq-aşkar, heç kəsə məhəl qoymadan deyil, çox sakit, çox gizli, qorxusu gözlərindən aşaraq edərdi. Çünki tabe olduğu, tabe olmazsa isə cəzalanmasına səbəb olacaq sərt qanunlar var idi; şikayətlərin verilə biləcəyi və verildikdə də baxılacağı instansiyalar var idi; haqsızlığa məruz qalan insanların haqlarını özlərinə qaytaracaq işlək strukturlar var idi. Lakin o elə bu "qaydaların", bu "qanunların" və bu "ədalətin" daxilində nihilizmə yol almağa başlamışdı. (Əslində Sovet dövrü özü bütün bunları (yalnız mayalandıran yox, həm də) hazırlayan bir maşın idi). Çünki Sovet dövründə tabe olduğu və ya tabe etdirildiyi bütün bu qanunların əslində siyasi düzənin davamlılığını qoruyan

saxta bir ədalət qavramına xidmət etdiyini görməyə, anlamağa başlamışdı. Swaderin, İnkeles ve Bauere[22] də istinadən göstərdiyi kimi, Sovet dönəminin ailə modeli belə totalitar rejimin istək ve ehtiyacları üzərində qurğulanmış və Sovet ailəsi əslində rejim tərəfindən daxildən ələ keçirilmişdi[23]. İnsanların haqqı tapdalana bilməzdi, amma insan əsl haqqının nə olduğunu unutmuş və ya hüququnu Sovet ideoloqlarının istədikləri kimi dərk etməyə məhkum edilmişdi. Hər şeyin sahibi xalq idi, lakin fərdin sahiblənə biləcəyi heç bir şey yox idi. Kimsə digərini incidə, təhqir edə, sözlü hücuma məruz qoya bilməzdi, lakin rejimə güldən ağır söz deyənləri, hətta ağıllı və konstruktiv tənqid edənləri təhqir və təhdid bataqlığında boğmaq hər kəsin borcu idi. İnsanlar kobud, qaba, ağıza alınmayacaq sözlər sərf edərək başqalarının şərəf və ləyaqətini təhqir edə bilməzdilər, lakin xoşu gəlməyən qonşusu, nədəsə razılaşa bilmədiyi həmkarı və s. haqqında "yuxarılara" anonim məktublar yazaraq, ona "xalq düşməni" damğasını vurdura və həyatına son qoydura bilərdilər. Hər kəs bərabər idi, lakin bu, süni bir bərabərlik idi:

"Sağlam bir Homosos (Homo Sovietikus – JQ) əsl beynəlmiləlçidir və bütün insanları öz qardaşları hesab edir. Qardaşların isə nazını çəkməsən də olar"[24]. (Zinoviev, 2006: 356).

Hər kəs bərabər idi, lakin bu həm də o demək idi ki, hər kəs eyni məsuliyyətlə, eyni vicdanla çalışmadığı halda, hamının əməyi eyni maaşa bağlanmışdı. İctimai davranış əxlaq kodeksi üzərində qurulmuşdu və əxlaq, mənəviyyat kommunistin öndə gedən göstəricisi idi; amma "yaltaq", "qorxaq", "yalançı", "satqın", "rüşvətxor", "sözünə dönük", "ikiüzlü" də elə bu dövrün məhsulları idi. Həyat nikbin, işıqlı, zəmanətli bir həyat idi, amma "tələskən", "səbrsiz", "maraqsız", "söz kəsən", "dinləməyi bacarmayan", "bu günü ilə yaşayan" da elə bu həyatın ortaya qoyduğu tiplər idi. Təhsil pulsuz, parasız, hər kəs üçün açıq, dünyəvi bir sistem üzərindən verilirdi – heç kəsin təhsil haqqı tapdalana bilməzdi – lakin dinin təhsilə tətbiq edə biləcəyi yasaq və məhdudiyyət paradiqmaları eyni üsulla kommunizm ideologiyası tərəfindən dünyəvi təhsilə də tətbiq edilirdi. Şilleri və Baxı almanlardan daha yaxşı anlayıb şərh edə bilərdilər – amma bu şərh Sovet ideologiyasına müxalif olmayacaqdı, əksinə, onu dəstəkləyəcəkdi. Mitskeviçi və Şopeni polyaklardan daha yaxşı duyub hiss edə bilərdilər – amma bu duyğu həm də Sovet rejiminin təhsilə və sənətə verdiyi dəyərin az qala yeganə isbatına çevriləcəkdi. Avropanın, Amerikanın, Türkiyənin tarixini avropalılardan, amerikalılardan, türkiyəlilərdən daha yaxşı mənimsəyə bilərdilər; lakin əzbərlənən faktlar təbliğat və anti-Qərb siyasəti üçün istifadə ediləcəkdi. Qalaq-qalaq bilik insanların beyinlərinə sistemli şəkildə yerləşdirilirdi, lakin bu bilikləri həyata keçirmək, reallaşdırmaq üçün hər hansı bacarıq inkişaf etdirilməyəcəkdi. Mütaliə səviyyəsinə görə dünyanın birincisi olmuşdu ölkə, lakin kritik düşüncə tərzinin önündə kəsintisiz olaraq qırmızı işıq yanmaqda idi. Üstəlik, xüsusilə periferik bölgələrdə, Sovet rejimi insanı istehsalçı damarından məhrum olmuş sırf bir istehlakçıya çevrirə bilmiş və istehlaka yönələn ictimai motivasiya insanın və dolayısıyla cəmiyyətin intellektual böhranına da yol açmışdı: nə təşəbbüskarlıq, nə düşünməyə ehtiyac, nə qərarvermə qabiliyyəti, nə uzaqgörənlik, nə strategiya, nə də vizyon qalmışdı. Bütün bunların fonunda isə alışqan və unutqan bir insan – bir nihilist formalaşmışdı. Və bu mənəvi nihilist yeni dönəmə qa-

[22] – Inkeles, A., & Bauer, R. A. (1959). The Soviet citizen. Cambridge: Harvard University Press.

[23] – Swader, Christopher (2010). Homo Sovieticus in Interpersonal Relationships Before and After the Collapse of Communism. Landmark 1989: Central and Eastern European Societies Twenty Years After the System Change içinde. Ed. H. Best and A. Wenniger. Muenster: LIT Verlag, s. 62-79.

[24] – Zinoviev (2006). Homo Sovietikus//"İdi na Golglfu" kitabında. Eksmo,s. 356

nuna, qaydaya, haqqa, ədalətə böyük bir inamsızlıq hissi ilə daxil olmuş; yeni dönəmdə bunların təsis edilməsinə əngəl törədən mühüm amilə çevrilmişdi.

"Hərif götürmürmü guya? Götürür əlbəttə, hamımız da bilirik. Amma götürmənin təhəri və miqdarı əvvəlcə gözlərimizi kəlləmizə çıxartmış, sonra da gələcəklə bağlı bütün ümidlərimizi puç etmişdi." ("Tutqu": 110).

Postsovet dövrünün nihilisti Sovet dövrünün fetişistindən yaranmışdı. Sovet dövrünün çöküşü ilə fetişist birdən-birə nihilistə çevrilmişdi. Çünki Sovet dövrünün üzərində sütunlandığı bütün fetişlər Sovet dövrü ilə birlikdə yox olub getmişdi.

Dissidentlərdən söz etməsək də, onlar da var təbii ki; lakin sözünü etdiyimiz dövrdə toplumsal alqılara düzən vermək iqtidarında deyildilər. Çünki gizli qalmaq məcburiyyətində idilər.

Sovet dövrü – təbii ki, dissidentlər xaric - dörd tip Nihilist mayalandırmışdı: utanc hissini itirmiş və mənəviyyatsızlıq üzərində yeni "mənəviyyat" inşa edərək onu legitimləşdirmiş tip *(azğın tip)*; kritik düşüncə, təhlil, sezgi özəlliklərini itirmiş və sonunda "beyninin məntiq qatından zədə almış" qayğılardan azad tip *("manqurt"laşmış məmnun tip)*; totallaşmanın bütün cəsarətini əlindən aldığı və canını qurtarmaq üçün bütün dəyərlərin üstündən xətt çəkməyi, hətta özünü belə kökündən dəyişdirməyi gözə almış tip *(bitkin tip)*; düşünəbilirliyini və duyabilirliyini itirməmiş, lakin bunların heç bir işə yaramadığını anlamış və bu anlayışını içinə qapanaraq manyakal-depressiv və ya şizofren təpkilərə dönüşdürmüş tip *(küskün tip)*. Dördünü də birləşdirən özəllik isə onların bu və ya digər səbəbdən (a. sosial ədaləti tapdaladığı və ya tapdalamağı bacardığı üçün; b. sosial ədaləti bir qavram olaraq alqılaya bilmədiyi üçün; c. sosial ədaləti qorxu altında bir anlayış olaraq tabulaşdırdığı üçün; c. sosial ədalətin önəmini anlasa da, onun bərqərar olmasını əngəlləyən amillərin çox dərin qatını gördüyü və bu səbəbdən bütün ümidlərini və nikbinliyini itirdiyi üçün) sosial ədaləti yox sayması və ona inanmamasıdır.

PS. Təbii ki, insanı nihilizmə yuvarlatmanın yolları müxtəlifdir. Və təbii ki, Sovet rejiminin seçdiyi yol bunlardan biri idi: basqılarla, yalanlarla, məhrumiyyətlərlə insanı özünə tabe etmək və tabe olmuş beyinə gərəkli ideologiyanı yerləşdirərək insanı bu ideologiyanın daşıyıcısına çevirmək. Və təbii ki, bu və bənzər yollardan yalnız Sovet rejimi deyil, basqı və qorxu üzərində qurulmuş digər rejimlər də tarix boyu istifadə etmiş və etməkdədir.

* * *

Naim Dilmener Selaminin obrazında bizi dördüncü tip *(küskün)* nihilistlə - sosial ədalətin önəmini (qismən də olsa) anlayan, lakin onun reallaşmasının mümkün olmadığını və bu səbəbdən hər cür ədalətdən, yaxşılıqdan, sosial dəyərlərdən əlini üzən obsessiv, özünə qapanmış sosial tiplə qarşılaşdırır. Obsessivlik daha çox genetik, biloloji, psixoloji bir özəllik olaraq qəbul edilsə də, müəllif obsessivliyin sosial faktorlarını da qat-qat açaraq oxucuların gözləri önünə sərir. Yaşadığı cəmiyyət, düşdüyü ortam, bulunduğu şərait insanı elə bir dəli edər, elə bir şizofrenə çevirər, elə bir manyaka dönüşdürər ki, genetik olan sosial olanın qarşısında aciz qalar, diz çöküb ağ bayraq qaldırar. Roman boyu hər məqamda sətirlərin altından oxucuya boylanan bir uyarı var: genetikanın bir nəticə olaraq törətdiyini sosial olan da törədə bilər – həm də daha kəskin. Və əslində hər şeyi/çox şeyi genetikanın çiyinlərinə yükləyərək, sosial faktorun rolunu, əhəmiyyətini kölgələməməliyik. Əks halda

bu, xüsusi məqsədlər üçün sosial faktorları formalaşdıran və yönləndirən siyasi texnoloqların əlinə öz niyyətlərini maskalamaq üçün bir fürsət olaraq keçə bilər. Yazıçının qarşımıza çıxardığı Homo Nihilus da yaşadığı ortamın formalaşdırdığı bir sosial tipdir. Nihilizmi özünüdərkə çevirmiş bu sosial tipin çıxış nöqtəsi isə sosial aidiyyət formasında təzahür edən "ictimai tapınaq"ları sıfırlama, yox sayma məqamıdır.

Əslində, Türkiyə kimi simvolların az qala həyati önəm daşıdığı, bəzən müqəddəsləşdirildiyi bir ölkədə aid olmadan yaşamaq asanmı? Deyil. Simvolların həyəcan, coşqu qaynağı olduğu bir cəmiyyətdə simvollardan uzaq durmaq həyatını rəngsiz, coşqusuz, həyəcansız yaşamaq deməkdir. Ən azı ona görə ki, bu cəmiyyətdə simvollar həyəcanın, coşqunun az qala yeganə mənbəyinə çevrilir.

Dilmener *küskün* nihilisti bütün rəngarəngliyi ilə gözümüzün önündə canlandırmaqla bərabər, Selaminin ətraf mühitlə interaksiya prosesində digər tiplərin də konturlarını cızır. Yuxarıda qeyd etdiyimiz Antranikin/Kemalın və Hermanın/Ermanın timsalında yazıçı bizi *bitkin* nihilistlərlə qarşıladırır.

"Arxası dönük olduğu üçün görə bilməmişdi məni və Erməni olduğunu açığa vuran iynələmənin kimdən gəldiyini görə bilmədiyi üçün çox qorxmuşdu." ("Tutqu": 28);

Və rüşvəti, korrupsiyanı "qədərində", həyatlarına bir o qədər təsir etməyəcək dərəcədə normal sayan, yalnız ifrat həddə çatmış, ətrafa səs-səda salmış yolsuzluğa amöb reaksiyası verən məmnun nihilistlərlə də üzləşdirir.

"Metrobusdakı söhbət 17 dekabr haqqında idi təbii. Şəriət ehtiraslı iqtidar haqqında ən ağır sözlər deyilməyə başlamışdı. ... "A bala, "yemə" demədik ki sənə. Amma bu qədər də yox da, ay adam, belə insafsızcasına da yox da."" ("Tutqu": 111).

İslamçı bələdiyyələrin simasında isə Dilmener *azğın* nihilistlərin profilini çəkir. Selami İslamçı bələdiyyələr haqqında düşüncələrində İslamı ya siyasi, ya da/həm də dolayısı ilə iqtisadi mənfəət üçün istifadə edənlərin əslində İslamla, dinlə hər hansı səmimi bağlılığının olmadığı qənaətinə gəlir və beləliklə İslamın islamçılar tərəfindən annihilyasiyasının, məhvinin bir gerçəkliyə dönüşdüyünə diqqətimizi yönəldir.

"Tanrı öldü. Onu öldürən bizik"[25].

Dini öz məqsədləri üçün istifadə edərək dinin ehtiva etdiyi dəyərləri təhrif etmək yolu ilə onların yerinə - yenə də din pərdəsi altında – yeni "dəyərlər" qoyan implisit İslamçı nihilistlər "azğın" nihilist tipinin təzahürü kimi ortaya çıxırlar.

"Sahil yolunun dörd bir tərəfini zanbaqlar basmışdı yenə. ... Ortalıq dilənçilərlə, əl açıb yolda duranlarla dolu idi. ... Ayıb amma. O qədər ac, o qədər qəpik-quruşa möhtac insan varkən sən dur, nə qədər ömrü olacağı belə bəlli olmayan zanbaqlara pul tök. ..... Allah olsaydı çoxdan çarpardı....Və onlar olmadığını hər kəsdən əvvəl bilirdilər. Yoldan tamamilə çıxmalarının səbəbi də bu idi əslində." ("Tutqu": 183).

Selaminin özündə də küskün formatdan azğın formata keçidi müəyyən mənada izləmək mümkündür. Əslində, digər tiplərdən fərqli olaraq, küskün tipin nihilizmi aşma imkanları daha realdır. Selami bəzi məqamlarda, hətta romanın sonuna doğru belə dəyişə biləcəyi ilə bağlı içimizdə ümid qığılcımları da yaradır. Qızının üzləşdiyi problemi anladıqdan sonra dəyişməyi, düzəlməyi də düşünməmiş deyil Selami. Hətta yeni bir ailə qurma ehtimalını da.

---

[25] – Nietzsche, Friedrich (2001). The Gay Science. Cambridge, Cambridge University Press,s. 120

"Dəyişəcəkdim. Bunu çox istəyirdim. Qızımın anlatdıqlarından sonra qərar vermişdim buna. Qızımla yaşayacaqdım. Həm də nə bilmək olar ki? Bir də gördün həyatıma yeni birisi daxil oldu və qızıma da öz qızı kimi sarıldı." ("Tutqu": 249).

Lakin sosial deqradasiyanın fonunda bu çox çətin və bəlkə də qeyri-mümkündür. Bu baxımdan, Selami də, nihilizmi aşmaq yerinə, tədricən azğınlaşır və "mənəviyyatsızlıq" üzərində yeni mənəviyyat inşa edərək onu legitimləşdirir. Bu, mənəvi nihilizmin çox aydın və çox bəlirli bir yol xəritəsidir.

* * *

Təbii ki, Selami yalnız asimvolik kimlik formatının deskriptiv təqdimatı üçün yaradılmış bir obraz deyildir. Yazıçı Selaminin düşüncələri, sözləri, hərəkətləri və sosial fəsadlara təpkiləri vasitəsilə çoxsaylı sosial problemləri diqqət mərkəzinə gətirir.

"... iş verdiklərinin, işə götürdüklərinin yalnız onlardan olub-olmaması önəm daşıyırdı; buna görə də işçi heyəti bütünlüklə işbilməzlərdən təşkil olunmuşdu... Bəsit və son dərəcə gündəlik bir əsnaf təfəkkürü bütün məmləkəti necə ələ keçirmiş ola bilərdi?" ("Tutqu": 26)

Homo Nihilus müsbət keyfiyyətlərini itirməkdə olan, dəyərlərin tapdalanmasına asanlıqla izin verən bir cəmiyyətin mənəvi baxımdan gücsüzləşdirdiyi bir tipdir. Fikrimizcə, əsərin ana xəttini təşkil edən ideya da budur. Deqradasiya yolunda olan toplum fərdi də arxasınca sürükləyir; onun bütün gücünü, işığını, sevincini, marağını, inamını, bir sözlə, cəmiyyətin inkişafına töhfə verə biləcək bütün məziyyətlərini əlindən alır.

"Çox iş görürlər kimi görünmələrinə baxmayaraq, əslində heç bir iş görməyən, ya da hər gördükləri işin üzərindən dəfələrlə keçib onu üzt-üstə yenidən görən İslamçı bələdiyyələri ən çox da bu yol [sahil yolu - JQ] ələ verirdi. ... Dağ kimi yığılmış borularla kim bilir nə iş görəcəkdilər? Bir şey deyilmişdisə də mən eşitməmişdim. Əslində daha betəri: eşitsəm də inanmayacaqdım. Belə olmuşdu artıq. ... ARTIQ ONLARA İNANMIRDIQ! Həm də heç birimiz." ("Tutqu": 38).

Homo Nihilus gücsüzdür; lakin onun nihilizmi dəyərlərini itirməkdə olan cəmiyyətin varlığına həm də sükunət içində bir etirazdır. O, üsyankar deyil; şahid olduğu eybəcərlikləri islah etmək üçün də əbəs səylər sərf etmir – çox şeyi, bəlkə də heç bir şeyi dəyişə bilməyəcəyini anlayır. Bu səbəbdən də, uyğun şəraitdə bütün bu eybəcərliklərin içində yer ala biləcəyini də düşünür. Sovet insanının deqradasiya yolu da eyni idi: dəyərlərin transformasiyası.

"... Bu dünyada zəngindən başqasına doğru-dürüst həhay haqqı yoxdu. Ən azından yaxın gələcəyə qədər bu belə idi. Amma bu axan kranlardan mənim də payıma bir şeylər düşsə nə səsimi çıxarar, nə də başqa bir şey edərdim. Kefimə baxardım. Pul əla şeydir... " ("Tutqu": 59).

Yazıçı üsyanları ilə, yüksək səslə hayqırılmış etirazları ilə, gücsüzləşdikdə isə yanqıları ilə, bəzən də faciəvi sonluqları ilə neqativ hallara qarşı mübarizəyə qalxan klassik və tipik qəhrəmanlardan fərqli bir obraz yaratmışdır. Homo Nihilus cəmiyyətin eybəcərliklərinə "Oğrudan oğruya halaldır" məntiqi ilə qarşı qoyur. O, bu məntiqlə yola çıxır və "başını birtəhər girləmək" üçün üsullar axtarır. Və tapır da. Çünki ağıllıdır, zəkası itidir. Təhlil etməyi bacarır. Strategiya qurur. Taktik addımları düzgün hesablayır. Yaxşı da müşahidəçi və seyrçidir – gözündən heç nə qaçmır. Özünü dolandırmaq üçün düşünüb tapdığı yollar ictimai mənəviyyat baxımından məqbul sayılmasa da, Selaminin həyatda qalıb yaşamına davam etməsi üçün

yetərlidir və böyük cinayətlərin, dövlət səviyyəsində aşıb-daşan yolsuzluqların yanında Selaminin cəhənnəmin ortasına daşıyacaq yollar da deyildir..... İçinə düşdüyü cəmiyyət Selamini belə bir məntiqlə yaşamağa məhkum etmişdir.

"... dövlət ... mənim insan olmamı tələb edir; bu isə o deməkdir ki, mənim insan olmama ehtimalım da var."[26]

Əlbəttə ki, Homo Nihilusun rüşeymləri Selaminin təbiətindən də gəlir. Selami asılılığı sevmir. Övlad sahibi olmağı belə gözünün önünə gətirə bilmir.

"Mən kim, övlad sahibi olmaq kim? Mən günahlarıyla, savablarıyla, tutqularıyla tənha yaşayacaq biri idim. Oraya gedirəm, buradan dönürəm kimi hesab vermələrin adamı da deyildim..." ("Tutqu": 51).

Tələbə vaxtlarından da hər hansı siyasi və ya ictimai hərəkata qarışmır, özünü bu cür fəaliyyətdən uzaq və təmiz tutur. Özal nəslinə aid olmasının onu avtomatik olaraq bütün ideologiyaların xaricinə atdığına inanırdı.

"Xəstə və ya fanatik bi cümhriyyətçi deyildim. Fərəhkarlar tərəfindən isə heç deyildim. "Mülayim" dediklərinə də heç bir zaman inanmadım, "hər baxışa hörmətlə yanaşırıq" yalanlarına da..... Özal nəslinə aid biri idim və bu məni avtomatik olaraq bütün ideologiyalardan kənar tuturdu." ("Tutqu": 59).

Lakin bu da səbəbsiz deyil: Selami "dünyanın başında Amerika kimi bir bəla olduğu müddətcə" hər hansı fəaliyyətin əbəs, boş, yersiz olduğunu yaxşı anlayır. Bu neytrallıq onun təbiətindən irəli gəlməklə yanaşı, onun məsələləri daha kökündən anlamasından da qaynaqlanır. Onsuz da bütün fiqurları düzən, dəyişdirən, yerindən oynadan, yerinə qaytaran Amerikadır (və ya Amerikanın timsalında başqa bir super gücdür). Barmaq belə qaldırmağa dəyərmi?

"Nə sağçıdır, nə solçu, orta yolçudur Selami" deyərlərdi arxamdan, hətta bəzən üzümə qarşı. İnciyib küsərdimmi? Nə dəxli var? Dünyanı mənmi qurtaracaqdım? Bu dünyanın başında Amerika kimi bir bəla varkən istəyir dünyanın bütün qalan hissəsi birləşsin. Yenə də bacara bilməzdilər." ("Tutqu": 23).

Bir qədər daha dərinə ensək, Selaminin nihilizminin nəinki çarəsizliklə barışma sindromu, hətta oyunpozma strategiyası olduğunu da anlamaq mümkündür: hər şeyi düzən, qoşan, yönləndirən qüvvələrin, xüsusilə xarici güclərin istədikləri də insanların reaksiya verməsidir. Lakin Homo Nihilus öz neytrallığı ilə Güclü Güclərin əlinə kart blanş vermir: "Qarışıqlıqmı istəyirsiniz? Mənim bu işdə payım yoxdur."

"Dövlət, kilsə, xalq, cəmiyyət və bənzər təsisatlar mənim özümə dəyər verməməmdən dolayı mövcuddur."[27] *(Stirner2013: 351).*

Homo Nihilus dəyərlərin "qızıl məcməyi"də maskalanmış, təhrif edilmiş şəkildə insanlara təqdim edilməsinə qarşı etiraz olaraq bu dəyərləri sıfra endirir, yerlə bir edir və üzərlərinə *"etibarsızdır"* möhürünü vurur. İri miqyaslı korrupsiyalar çərçivəsində hökumət mənsublarının düzənlədiyi talanlara, soyğunlara qarşı xırda oğurluğu, "kapkaçlığı", gücü yetdiyinə göstərə biləcəyi şiddəti, yalanı, böhtanı legitimləşdirir. Oğurluq cinayətini/cinayətsizliyini bir ucundan o biri ucuna – bütöv bir kontinuum kimi insanların (lakin əvvəlcə özünün) gözləri önünə sərir: bu kontinuumun bir ucu nədirsə, o biri ucu da odur. Üstəlik, ətrafını da özü kimiləri, onun kimi düşünənlər sarmışkən və ətrafındakılar da əslində bütün bunları haqq etmişkən.

---

[26] – Stirner, Max (2013). Biricik ve Mülkiyeti. Almanca'dan Çevirən: Selma Türkis Noyan. İstanbul, Kaos Yayınları, s. 161

[27] – Yenə orada, s. 351

Ermanın/Hermanın dükanından kolleksiyasını zənginləşdirəcək val qapağını oğurlamaq bu kontinuumun ən son ucunda yer alan bir cinayət deyildi Selaminin fikrincə: necə olsa, Herman da düz əməlli birisi deyildi; lovğa, fürsətçi bir tipdi. "Xainintəki idi, hər zaman olduğu kimi." *("Tutqu": 107)*. Hələ bir tez-tez söz atıb "arvadını, qızını üç-beş val üçün küçəyə atmış Selami bəy" *("Tutqu": 70)* deyərək, onu alçaltmağa da çalışırdı. Üstəlik, insanların hisslərinə, duyğularına heç bir sayqısı da yox idi.

"Vitrinin ən görünən yerinə qoymuşdu var qapağını. Aylardır da orada idi. Mən daxil hər kəs bu qapağın ardınca düşmüşdü, amma (H)Erman bəy satmırdı ki, satmırdı. Satmayacaqsansa, niyə qoymusan bu qapağı vitrinə? Niyə insanları şiniklendirirsən? ("Tutqu": 73-74)."

Hermanın lovğalığının, əslində, dərsini vermək zamanı idi.

"Valın qapağı gicbəsər Ermanın vitrinindən zorla çəkilib götürüləcəkdi. Bu günə qədər lovğalandığı bəs idi. Dərsini vermək yaxşı olardı." ("Tutqu": 105)

Yazıçı burada oxucularını çox mühüm sosial-psixoloji bir məsələ ilə qarşılaşdırır: dəyərini, ayarını itirmiş və ya itirməkdə olan cəmiyyətdə nihilizm passiv deyil, aktivdir. "Oğrudan oğruya halaldır" məntiqi ilə yaşayan nihilist əslində hadisələri sadəcə seyr etmir, oğurluğun və ya oğruluq anlamı ilə metaforlaşdırılan digər cinayətlərin failinə də çevrilir. Düzənini, ədalətini əldən verən bir toplumda linç, qisas, yalan, böhtan, şantaj insanların silahına, özlərini qoruma mexanizminə, intiqam yoluna və hətta həyatda qala bilmə vasitəsinə çevrilir.

"Neçə gündür Fərəhkarlarla Tələbkarların it kimi dalaşmalarını təqib edə-edə dolmuş beynim bir anda boşalmış, Münəvvərin hərifiylə dolmuşdu. Qızımı çimdikləyirmiş. Çimdikləyir dedi. Qızım ne deyəcəyini bilmədiyi üçünmü belə demişdi? Nə edirdi Allahın ayısı? Qızıma nə etmişdi, ya da nə edəcəkdi? (Obsesyon: 242)... Nə Münəvvər, nə də anası maraqlandırırdı məni. Həm də HEÇ! Mən qızımı çəkib almaq istəyirdim əllərindən. ... Bəlkə qızımı asanca alacaqdım əllərindən. Bəlkə Münəvvər dünəndən razıydı. Anası da elə. Qəbul etməz və ya problem çıxararsa, şantaj daxil, hər yolu sınayacaqdım ("Tutqu": 249)".

Selaminin ictimai nəqliyyatda etdiyi uyğunsuz hərəkət qonşuları arasında yayıldığı zaman qapısına hər gün gəlib-gedən, ona sanki sədaqətli bir qonşu kimi davranan qapıçı Rza bu söz-söhbətin qarşısını ala bildiyi halda almır. Çünki söhbəti yayan əslində onun başının üstündəki mənzil yönətmənidir. Bunu yadından çıxarmayan Selami imkan düşdüyü an Rzanı linç edəcəyini düşünür. Və bir gün Rzanın köhnəlmiş çörək almasını bəhanə edərək ona qarşı şiddət törədir. Və heyifsilənmir də. Çünki nə onun səmimiyyətinə inanır, nə də hər fürsətdə kələkgəlmə niyyətinin olmamasına.

Sosial deqradasiyanın törətdiyi əsas fəsadlardan biri də insanların yalnız "yuxarı"lara deyil, bir-birinə də inamını itirməsi və bir-birindən hər cür şəri, böhtanı, xəyanəti gözləməsidir. Min təəssüf; lakin reallıq budur. Sovet rejimi də belə etmədimi? Yalan, böhtan, şər qurbanı olaraq rejimə təslim olanların yanında (real və ya potensial) yalana, böhtana, aşağılamaya, intriqalara qarşı özünü qorumaq üçün özləri də bunlara əl atanlar yetişmədimi? Yetişdi; çünki insan yaşamaq istəyir, yaşamaq üçün doğulmuşdur və yaşamaq onun ən təməl haqqıdır. Böyük yalanlarla, böyük intiqamlarla dolu olan bir cəmiyyətin bu böyük yalanlardan, böyük intiqamlardan özünü qorumaq naminə kiçik yalanları, kiçik böhtanları, kiçik intriqaları ortaya atan bir fərdi qınama haqqı varmı?

Dəyərini itirərək dəyərsizləşən bir cəmiyyət linçi, şəri, böhtanı, yalanı və son nəticədə (kiçik və ya böyük) cinayəti leqallaşdıran cəmiyyətdir. "Oğrudan

oğruya halaldır" məntiqini həyat prinsipinə çevirən bir cəmiyyətdir. Bəlkə də hər zaman eksplisit deyil, bəzən implisit bir şəkildə. Və bu prinsiplər legitimləşdikcə cinayət də legitimləşməyə başlayır. Nihilist cəmiyyətdə, mənəvi nihilistlərin əksəriyyət təşkil etdiyi bir toplumda cinayət çox asanlıqla ozünə yer edər və bəraət də qazanar. Çünki mənəvi nihilist özü kimi nihilistlərlə əhatə olunduğunu bilir və özünü də, ətrafındakıları da cinayətə layiq, cinayəti haqq etmiş varlıqlar kimi görür. İstər fail, istərsə də qurban şəklində.

Nihilist cəmiyyət sonunda Selamini də cinayətə sürükləyir. Arzularının təcəssümü olan, xəyallarını, yuxularını tərk etməyən bir sənətkarın nadir bir valını almaq istəyən Selami demək olar ki, əlində olan hər şeydən keçməyə hazırdır. Valı satanın ardınca düşüb onu əldə etməyə çalışır. Lakin val üçün elə bir qiymət söylənir ki, bu pulu ödəmək Selaminin imkanı xaricindədir. Selami bunu ədalətsizlik hesab edir və valı əldə etmək üçün yollar arayır. Artıq oğurluq mərhələsindən keçmiş Selami bu dəfə daha ağır bir cinayəti - valın satıcısını öldürərərək pul vermədən valı əlinə keçirməyi mümkün hesab edir. Və buna onu Canının İçi də təhrik edir. Selami romanın və bir ilinin sonunda deqradasiyasının son nöqtələrinə yaxınlaşmaqdadır. Bu nöqtədə o, artıq, adam da öldürə bilər. Həm də, öldürdüyü adam ədalətsiz, haqsız biri isə, bunun üçün heç vicdan əzabı da çəkməz... Selami bu cinayəti törədir... Və roman çarpıcı bir kulminasiya ilə sonlanır: əslində, cinayətin qurbanı özü də bir cinayət işlətmişdir – cinayətin failinə olduqca bahalı bir qiymətə saxta bir val satmışdır.

"Bilməyəcəyimi, anlamayacağımı düşünmüşdü. Fərq etməzdi! Pulu əlinə sayıb verərək almış olsaydım, belə bir şəkildə arxasına düşüb sonunu gətirəcəkdim. Fərq etməyəcəkdi!..... Hər durumda ÖLDÜRDƏCƏKDİ özünü!" ("Tutqu": 254).

Deqradasiya edən cəmiyyətin yaratdığı alqılama. Cinayətin qurbanı cinayətə layiqdirsə, bu cinayət bəraət qazanacaqdır.

Selaminin cinayətlərinin əslində daha böyük cinayətlərə bir təpki (şüuraltı, şüurlu və s.) olduğunu ifadə etmək üçün yazıçı bu cinayətlərin miqyasını incə bir təzad vasitəsilə də metaforizasiya edir: dövlət səviyyəsində yer alan yolsuzluq və cinayətlər bütün cəmiyyəti və ya müəyyən qrupu/qrupları hədəf aldığı halda, Selaminin törətdiyi cinayətlərin hədəfi fərdlərdir. Selami heç bir zaman bütöv bir qrupa və ya topluma qarşı cinayət törətmir.

Yazıçı romanda çox mühüm sosial məsələlərə toxunur. Çox zamansa məsələlərin alt qatına enərək onları yuxarıya, oxucularına doğru itələdikdən sonra transformasiyanı oxucuların öhdəsinə buraxır. Yazıçının verdiyi ipucları ilə oxucular təmas etdikləri sosial tipin paradiqmasını yaradan faktorların dərin strukturunu görə bilirlər. Belə bir transformasiya nəticəsində əslində oxucu Homo Nihilusun keçmişini də "rekonstruksiya" etmək iqtidarındadır. Homo Nihilus bir zamanlar ədalətə, dürüstlüyə inanan və dəyər verən, sevməyi bacaran birisi olmuşdur. Qızının yaşını xatırlamasa da, onu yanğın riski ilə qarşı-qarşıya qoyub evdən çıxsa da, qızını sevir. Anasından illərdir diqqətini əsirgəmiş olsa da, sonda ona etmək istədiyi yaxşılığın içindən öz mənfəətini də təmin etmək niyyəti keçsə də, anasına qarşı olan mərhəmətinin və sevgisinin izlərini hələ də büruzə verməkdədir. Qonşusuna, dostuna, tanışına acıdığı anlar da var hələ. Bir vaxtlar ədalət, dürüstlük uğrunda hətta sosial fəallıq da nümayiş etdirmişdir.

"Bir neçə ay öncə Gezi Parkında alış-veriş mərkəzi tikilmək üzərə ikən qopan fırtına sırasında həyəcanlanmamış da deyildim. Hətta bir neçə köhnə dostlarla yığışıb getdik də." ("Tutqu": 23).

Lakin o, zamanla bu keyfiyyətlərini itirməyə başlamış, itirdikcə də, özündən yeni bir insan yaratmışdır. Bu dünya ilə baş edə biləcək bir insan. Romanın əsas məziyyətlərindən biri yazıçının oxucularını nəticə ilə deyil, proseslə qarşı-qarşıya qoymasıdır: oxucu Homo Nihilusun deqradasiya prosesini - ən azı bu prosesin bir ilini izləyə bilir. Bu prosesdə Selamini məyus edən yalnız sistem, rejim, meqagüclər deyil. Selami bu güclərin mənəvi nihilistə çevirdiyi böyük bir qrup insanla əhatə olunduğunu da dərk edir. Nihilist kimi görünməyən implisit mənəvi nihilistlər (sən demə, nihilistin öndə gedəni də elə bunlarmış): hər gün qarşılaşdığı dostu, qonşusu, qohumu, əqrabası. "Oğrudan oğruya halaldır" prinsipini komfort zonasına çevirmiş mənəvi dəyər "yoxçu"ları. Sovet dövrü insanının fərqli bir müstəvidə proyeksiyası. Selami bunu dərk edərək nihilizmində daha da israr edir. Val ticarəti ilə məşğul olan Kemalın qəlbinə dəydiyi üçün bir anlıq peşmançılıq hissi keçirir, Canının İçi ilə dialoqa girib özünə bəraət arayır. Lakin dərhal çox zaman anlayışla yanaşdığı insanların ona - səmimiyyətinin mükafatı olaraq - kələk, fürsətçilik və durumdan yararlanma niyyəti ilə cavab verdiklərini xatırlayaraq nihilizm yuvasına geri dönüş edir:

"... Haradan bilək Hüreymanın [saxta - JQ] valının da onun əlindən çıxmış saxtakarlıq olmadığını? .....

<Eləmə.

>Nə eləmə, balam? Nə eləmə? Hər zaman uduzan, zərər çəkən biz olmadıqmı? Mənlə sən.

<Eləmə. Adamın az qala ürəyi dayanacaqdı.

Yaxşı. Onu və ona bənzərləri hər zaman anlamağa çalışdım. Amma bunlar da hər fürsətdə adamı aldatmağa çalışırdı." ("Tutqu": 70-71).

Bu deqradasiya prosesini Selaminin Canının İçi ilə olan dialoqunun dinamikasında da - Canının İçinin onu əvvəlcə daha cəsarətlə, daha sonra isə bir az incik, bir az qorxaq tərzdə uyarmalarında, Selaminin Canının İçinə qarşı getdikcə daha aqressiv, daha sərt təpki verməsində (">Uzandı dilin, çox uzandı. Hiss edirəm ki, bu yaxınlarda əlim içəri girəcək və səni söküb atacağam." (115)), eyni zamanda Canının İçinin də sona yaxın Selamiyə bir növ dəstək olma meylində və hətta cinayətə doğru yol göstərməsində ("<....Bir yol daha var. >Neymiş? <Kaldır herifi ortadan.") izləyə bilirik.

* * *

Nihilizmin insan təbiətinə zidd olması baxımından, nihilizmə yuvarlanmış və ya yuvarladılmış sosial tipin də aidiyyət ehtiyacı yox deyil - bu ehtiyac basdırılmış, gizlədilmiş bir ehtiyac olsa belə.

Nihilistin aidolma ehtiyacı fetişizmə də gətirib çıxara bilər. Lakin nihilistin fetişizmi fərqlidir. Onun mərkəzində insan deyil, onun eqosunu simvollaşdıran cansız əşyalar var. İnsan mərkəzli hər bir şeydən (milliyyətçlikdən, dindən, sosial hərəkatdan və s.) əlini üzmüş bir nihilist meylini eqosunu simvollaşdıran cansız əşyalara yönəldir.

Selami kolleksiyasının o, əbədiyyətə qovuşanadək yanında olacağına və ona daim həmdərd olacağına inanır. Sonrası isə mühüm deyil: "Hara qədər? Əlbəttə ki, sonuna qədər, mən bu işdən bezib əlini üzəni heç görmədim. 'Son nəfəsə qədər. Sonrası heç birimiz maraqlandırmır..." ("Tutqu": 256). Selami "sonrası heç birimizi maraqlandırmır" demiş olsa da, əslində yaşamının topladığı kolleksiyada davam edəcəyinə də inanır. O bunu məharətlə, açıq-aydın sezdirmədən dükan sahibi Kamalın dili ilə də şüuraltımıza daşıyır: əgər kolleksiya toplamaqla məşğulsansa, sanki dünya ilə heç bir zaman

vidalaşmayacaqsan. Sənin kolleksiyan səndə olmasa belə, bir başqasında mütləq yaşayacaq, həyatını davam etdirəcək. Bir jurnalistin vəfatından sonra əlinə keçən val kolleksiyası haqqında Kamalın özünün də dediyi kimi: "Hərif köhnə bir jurnalistmiş, jurnal müxbiri kimi bir şey.... Amma üst-üstə yığıb-toplamış ha... Lakin fərqi nədir? Ölendən sonra mallar Kemalın əlinə keçəcək." ("Tutqu": 20).

Ən azından səni sən istəməsən heç bir zaman tərk etməyəcək, səni məyus etməyəcək, incitməyəcək, qarşına gözlənilməz xoş və ya xoş olmayan sürprizlərlə çıxmayacaq, səni çətin vəziyyətdə qoymayacaq bir həmdəmin, bir könül dostun, bir həmsöhbətindir kolleksiyan. Ətrafdakı insanlardan ümidini kəsmiş, dəyərlərin ayaqlar altına xalı kimi sərildiyini görərək çevrəsi ilə özü arasında qalın bir hasar hörmüş, tanıdıqları ilə yalnız vacib məqamlarda ünsiyyətə girməyə qərar vermiş birisinin sığınacağı ən sakit limandır kolleksiya. Buna görə də, Selami koleksiyasını hər şeyin, hər kəsin fövqünə qoymuşdur:

"Qızımla yaşayacaqdım. ... Sarılacaqdım. Dəyişəcəkdim. Düzələcəkdim. Valı əldə etdikdən sonra edəcəkdim bütün bunları." ("Tutqu": 249).

Əslində, kolleksiyaçılığa meylin özü də bir qorunma mexanizmi, bir məyusluq riskinin önlənməsi, bir inamsızlıq böhranının xəfiflədilməsidir. Selami isə hər məqamda belə bir məyusluq və böhran riski ilə üz-üzədir.

Selami romanın sonunda "institutlaşmış mən"i tam neytrallaşdırmışdır, bərtərəf etmişdir. Hətta cinayət törədib özünə bəraət qazandıracaq dərəcədə. "İnstitutlaşmış mən"in onu hər dəfə bir sürpriz qarşısında qoymaması üçün, insanın sosial sorumluluqdan, sosial mədəniyyətdən və sosial yetkinlikdən arınmış təbii, maskasız halını öz "institutlaşmış mən"i qarşısında bir sipər etmişdir: mənim ətraf mühitin mənə verəcəyi əzabdan qorunma mexanizmim sosial maskasını söküb atmış bir insan reaksiyasıdır – insanın təbiətindən gələn bir reaksiya – bəyənən bəyənsin, bəyənməyənin yolu açıq olsun.

Selami – Homo Nihilus - əsərin baş qəhrəmanıdır. Lakin yazıçının romanda bizlərə təqdim etdiyi digər obrazlar da əksəriyyəti etibarilə hər biri bir nihilistdir. Biri azğın nihilist, biri bitkin nihilist, biri məmnun nihilist. Bizim diqqətimiz Selamiyə kökləndiyi üçün, yazıçının bizi əslində, içində müxtəlif obrazların yer aldığı bir nihilizm arxa fonu ilə də qarşılaşdırmış olduğunu sezməyə bilərik. Arxa fon - kəsintisiz bir nihilizm xorudur. Solisti isə Selamidir.

* * *

Sosial deqradasiya cəmiyyəti nihilistlər topluluğuna dönüşdürür və bununla da öz çöküşünün təməllərini hazırlayır. Homo Nihilus sosial deqradasiyanın yaratdığı və üzümüzə bütün sərtliyi və soyuqqanlılığı ilə insanlığın məğlubiyyəti kimi çırpılan bir sosial identiklik paradiqmasıdır. Məsuliyyəti hər birimizin boynuna ....

Möhsün NAĞISOYLU

"Nəsimi "Divan"ının leksikası":

Azərbaycan dilçiliyinin böyük uğuru

Azərbaycan xalqının qədim tarixi keçmişini, zəngin ədəbi-mədəni irsini özündə yaşadan qaynaqlar sırasında əlyazma kitabları xüsusi yer tutur. Ərəb, fars və türk dillərində olan Azərbaycan əlyazmalarının böyük əksəriyyəti müəyyən səbəblər üzündən dünyanın müxtəlif muzey və kitabxanalarının bəzəyidir, onların yalnız müəyyən bir hissəsi Azərbaycan Milli Elmlər Akademiyası Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılır. Xalqımızın milli-mənəvi sərvəti sayılan əlyazma kitablarının araşdırılması və nəşri sahəsində səmərəli fəaliyyət göstərmiş Azərbaycanın görkəmli dilçi mətnşünas alimlərindən biri Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Cahangir Qəhrəmanovdur. Mənalı ömrünün 35 ilini indiki Əlyazmalar İnstitutunda keçirmiş, 1972-ci ildən isə ömrünün sonunadək (1995) ona rəhbərlik etmiş C.Qəhrəmanovun bu elmi qurumun inkişafı və yüksəlişində mühüm xidmətləri olmuşdur.

C.Qəhrəmanov 1955-ci ildə Moskvada "Azərbaycan ədəbi dilində fəlsəfə terminləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etdikdən sonra bir müddət indiki Bakı Slavyan Universitetində baş müəllim və dosent vəzifəsində çalışmış, lakin qədim Şərq əlyazmalarına olan böyük marağı üzündən 1960-cı ildə indiki Əlyazmalar İnstitutuna gələrək taleyini bu elm məbədinə bağlamışdır. Gənc tədqiqatçının əlyazma kitablarına bağlılığı və vurğunluğunun ilk ciddi elmi səmərəsi 1964-cü ildə işıq üzü görmüş XV əsr Azərbaycan tərcümə əsəri "Əsrarnamə"nin qədim bir əlyazmasının tam sözlüyü ilə birlikdə faksimile nəşri olur. C.Qəhrəmanovun anadilli əlyazma mətnləri üzərində elmi araşdırmalarının ən böyük uğuru və ciddi nailiyyəti isə böyük Aəzrbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsiminin türkcə divanının leksikasının tədqiqi və elmi-tənqidi mətninin tərtibi ilə bağlıdır. Görkəmli dilçi-mətnşünas alim 1969-cu ildə bu mövzuda doktorluq dissertasiyasını uğurla müdafiə edərək Azərbaycan dilçilik elmində yeni bir sahənin – linqvistik mətnşünaslığın əsasını qoymuşdur. 1970-ci ildə C.Qəhrəmanovun bu sahədə apardığı elmi araşdırmasının uğurlu nəticəsi olan "Nəsimi "Divan"ının leksikası" adlı sanballı kitabı (568 səhifə) nüfuzlu "Elm" nəşriyyatında işıq üzü görür. Alimin bu dəyərli kitabı Azərbaycan dilçiliyində əlamətdar hadisə sayılır, çünki monoqrafiyanın əsasını ayrılıqda götürülmüş bir müəllifin (Azərbaycan yazarının) ana dilində qələmə aldığı möhtəşəm bir əsərin əlyazması əsasında tərtib edilmiş mükəmməl sözlüyü təşkil edir.

C.Qəhrəmanovun kitaba yazdığı sanballı ön sözdə qeyd etdiyi kimi, "Nəsiminin əsərlərində işlənən leksik vahidlərin sözlüyünü tərtib etmək üçün şairin XVI əsrdə üzü köçürülmüş əlyazma "Divan" nüsxəsi əsas götürülmüşdür". Qeyd edək ki, Bakıda – Əlyazmalar İnstitutunda saxlanılan Nəsimi "Divan"ının bu əlyazma nüsxəsi müəllifin keçmiş Sovetlər İttifaqının əlyazma xəzinələrində saxlanılan mövcud əlyazma nüsxələrinin ən qədimi olmaqla yanaşı, eyni zamanda istər mükəmməlliyi, istərsə də mətnin mötəbərliyi baxımından bir sıra üstünlüklərə malikdir. Əlyazmanın peşəkar xəttat qələmindən çıxması, mətnin bütünlüklə hərəkəli olması, "Divan"da işlənmiş sözlərin, xüsusilə də türkmənşəli leksik vahidlərin düzgün oxunuşu işini asanlaşdırır ki, bu da mətnşünaslıq baxımından müsbət və üstün keyfiyyətlərdən biri kimi mühüm əhəmiyyət daşıyır.

C.Qəhrəmanovun nəsimişünaslıq üçün böyük əhəmiyyət daşıyan, gələcək araşdırmalara yol açan "Nəsimi "Divan"ının leksikası" kitabına mənşəyindən asılı olmayaraq əsərdə işlənmiş bütün sözlər daxil edilmişdir. Müəllif Nəsimi "Divan"ındakı leksik vahidləri öncə ərəb əlifbasında, sonra isə tarnskripsiyada verərək onların müasir ədəbi dilimizdə daşıdığı mənaları qeyd etmişdir. Müəllif "Divan"da işlənmiş bir sıra sözlərin mənalarını göstərərkən onların məhz Nəsiminin bədii-fəlsəfi dilində daşıdığı anlamları qeyd etməyə üstünlük vermişdir. Yeri gəlmişkən qeyd edək ki, C.Qəhrəmanovun kitabı bu yaxınlarda işıq üzü görmüş filologiya üzrə fəlsəfə doktoru Xədicə Heydərovanın "Nəsiminin anadilli əsərlərinin izahlı-ensiklopedik lüğəti" (I cild, Bakı, Nurlar, 2019, 344 səh.) üçün başlıca qaynaq rolunu oynamışdır.

C.Qəhrəmanovun "Nəsimi "Divan"ının leksikası" adlı dəyərli kitabının başlıca müsbət keyfiyyətləri sırasında müəllif tərəfindən ümumtürk sözlərinə ayrıca diqqət yetirilməsi, bu qəbildən olan leksik vahidlərə aid lüğət məqalələrində həmin sözlərin qədim türk mətnləri, orta əsrlər yazılı abidələri və əski lüğət materialları ilə tutuşdurulması, müəyyən müqayisələr aparılması və bütün bu faktların qeydə alınması xüsusi yer tutur və türkologiya üçün mühüm elmi əhəmiyyət daşıyır. Müəllifin kitabda istifadə etdiyi mötəbər qaynaqlar sırasında Mahmud Qaşğarinin türk dilləri və mədəniyyətinin ensiklopediyası sayılan möhtəşəm "Divanü lüğat-it-türk" əsəri, eləcə də tanınmış türkoloq alimlərdən B.Padlovun, Y. Malovun və A.Borovkovun türkcənin əski qatlarına dair məlum əsərləri xüsusi yer tutur.

C.Qəhrəmanovun "Nəsimi "Divan"ının leksikası" kitabında qeydə alınmış türkmənşəli sözlər sırasında türk dillərinin əski qatlarını özündə əks etdirən və müasir Azərbaycan ədəbi dili üçün arxaik səciyyə daşıyan sözlər xüsusilə diqqəti çəkir. Qeyd edək ki, Nəsimi "Divan"ının müəyyən bir hissəsini təşkil edən bu qəbildən olan sözlər türkcənin qədim dövrlərdə söz ehtiyatının zənginliyini, ifadə vasitələrinin rəngarəngliyini qabarıq şəkildə əks etdirir. Buna nümunə olaraq belə bir maraqlı faktı qeyd etmək yerinə düşər. Qədim türkcədə Allah anlayışını ifadə edən dörd söz müxtəlif qaynaqlarda qeydə alınmışdır: Tanrı, Çələb, Bayat, Uğan. Bu sözlərdən Bayat istisna olmaqla, digər üçünə Nəsiminin bədii-fəlsəfi dilində də rast gəlirik:

Çələb səni necə şirin dodaqlı yaratmış
Ki, səlsəbil utanır ləblərin zülalindən...
Xuda, saxla Nəsimini sirr içrə,
Fələk fanidürür, baqi uğanım...
Özün biləni yarılğar* uğanım.

Qeyd edək ki, yuxarıda sıra ilə sonuncu olan uğan sözü "Nəsimi "Divan"ının leksikası" kitabında qeyd olunmamışdır. Görünür, müəllifin

istifadə etdiyi Nəsimi "Divan"ının Bakı əlyazmasında uğan sözünün işləndiyi şeir yoxdur. Qədim türk sözü olan bu leksik vahid Nəsiminin "Seçilmiş əsərləri"nin II cildində (Bakı, 2004, s. 326, 329) yer alan bir şeirdə işlənsə də, ona kitabın sonunda verilmiş lüğətdə rast gəlmirik. Qeyd edək ki, uğan sözü run əlifbası ilə yazılmış qədim türk mətnlərində u şəklində (bacaran, edən anlamında), Mahmud Qaşğaridə isə uğan Tanrı (qüdrətli Allah) birləşməsinin tərkibində işlənmişdir.

Kitabda qeydə alınmış assı (fayda, qazanc), əğşi (turş), ögüş (çox, xeyli), uşmək (yığılmaq, toplaşmaq), əsrük (sərxoş, kefli), ısırtmaq (daddırmaq, içirtmək) və s. kimi sözlər diqqətçəkici əski türkmənşəli leksik vahidlər sırasındadır.

C.Qəhrəmanov kitaba yazdığı ön söz səciyyəli "Nəsimi leksikasının bəzi xüsusiyyətləri" adlı sanballı məqaləsində böyük şairin canlı ümumxalq danışıq dili ilə Azərbaycan-türk ədəbi dilinin vahid bir ədəbi normada birləşdirilməsində mühüm xidmətini vurğulayaraq mütəfəkkir sənətkarın əsərlərində işlətdiyi bir sıra məsəl, atalar sözləri və xalq deyimlərini diqqətə çatdırır:

Doğru söz doğrulara acı dəgül...
Xanda kim bir gül bitər, bülbül qırağından gəlür...
Çün hər nə kim, əkərsən, anı biçərsən axir...
Sınuğa lazım dəgüldür bunca atmaq taşlər...
Sadiq oldur könlüni dili ilə düz eyləyə,
Əgri dildən nəsnə gəlməz, durmuşam inkarinə...
Şöylə yanər cigərimdə, ey sənəm, eşqin odi
Kim, yanadur şöləsindən həm quru, həm yaşlər.

C.Qəhrəmanov böyük söz ustadı Nəsiminin bədii-fəlsəfi dilində qabarıq şəkildə özünü göstərən daha bir incə məqamı diqqətə çatdırır. Bu, Nəsimi şeirlərində eyni beyt və ya misra daxilində bir sıra ərəb və fars sözləri ilə yanaşı, onların türkcə qarşılıqlarının da paralel olaraq işlənməsidir. Müəllifin fikrincə, Nəsimi bu qəbildən olan sözləri bilərəkdən qoşa işlətmiş, bunula da doğma dilinin zənginliyini və poetik imkanlarının rəngarəngliyini sübuta yetirmişdir. Bu cür söz qoşalığına nümunə olaraq müəllif aşağıdakı leksik vahidləridiqqətə çatdırır: dil – lisan, göz – eyn, ağ – bəyaz, qara – səvad, buyruq – hökm, al – məkr, tikən//dikən (tikan) – xar, gizli – pünhan, totağ – ləb, qan – xun, od – atəş, saç – zülf, sayru – bimar və s.

Bu cür qoşa sözlərin işləndiyi bir neçə nümunəyə nəzər salaq:

Hesabın saəti gəldi, nə sayırsan, nə sayırsan,
Şümarın sağışın bil kim, hesabın bişümar oldı...
Gərçi süzülmiş gözi eylədi sayru bizi,
Qanı anun rəhməti aşiqi-bimarinə...
Düşürmüş ayə saçın zillini vü kölgəsini,
Düşürmək ancılayın sayə şol hümayə düşər.
Sən bu Nəsiminin dilin anla, sözün bil,
Kim var bu dildən özgə bizim bir lisanımız.

Nəsimi birinci nümunədə eynimənalı hesab, şümar və sağış (say) sözlərini eyni misra daxilində uğurla işlətmişdir. Bu sinonim sözlərdən birincisi ərəbmənşəli, ikincisi farsmənşəlidir, üçüncüsü isə şairin doğma dilinə aiddir.İkinci beytdə şair müasir ədəbi dilimizdəki farsmənşəli xəstə sözünün əski türkcədəki qarşılığı olan sayru sözü ilə yanaşı, onun fars dilindəki qarşılığı olan bimarleksik vahidini də işlətmişdir. Üçüncü nümunədə isə Nəsiminin kölgə sözünü onun ərəbcədəki sinonimi olan zill və farscadakı sayə sözlərini eyni beyt daxilində işlətməsi diqqəti çəkir. Və nəhayət, Nəsimi

sonuncu məşhur beytində türkmənşəli dil sözünü onun ərəb dilindəki qarşılığı olan lisan leksik vahidi ilə qoşa işlətmişdir.

C.Qəhrəmanov sözügedən yazısında Nəsiminin ərəbcə bir söz birləşməsinin onun türkcə qarşılığı ilə qoşa işlətməsini də diqqətə çatdırır. Bu, aşağıdakı beytdə işlənmiş "mətiqüt-teyr" söz birləşməsidir:

Xətt ü xalın məntiqüt-teyridür əhl-i vəhdətün,
Quş dilin sən tərcüman etmək dilərsən, etməgil.

Qeyd edək ki, ərəbmənşəli "məntiqüt-teyr" birləşməsi klassik Şərq ədəbiyyatında geniş yayılmış bir ifadədir və məşhur sufi şairi Fəridəddin Əttarın bu adda bir əsəri də vardır. Böyük özbək şairi Əlişir Nəvai isə F.Əttarın bu əsərinin təsiri ilə çağatayca yazdığı əsərinə eynimənalı "Lisanüt-teyr" adını vermişdir.

Onu da əlavə edək ki, Nəsimi aşağıdakı beytlərdə də "quş dili" ifadəsini ayrıca olaraq işlətmişdir:

Heç kimsə Nəsimi sözüni fəhm edə bilməz,
Bu, quş dilidir, munı Süleyman bilir ancaq...
Heç kimcə Nəsimi sirrini faş edə bilməz,
Bu quş dilidir, bunı Süleyman dəxi bilməz.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, XIV əsr Azərbaycan-türk ədəbi-bədii dilinin poetik imkanlarının zənginliyini, ifadə vasitələrinin çoxçeşidliyini, şirinliyi və cazibəsini, axıcılığı və ahəngdarlığını, lirizmi və coşqunluğunu əruz vəznli poeziyada ən yüksək və dolğun səviyyədə ortaya qoyan İmadəddin Nəsimi olmuşdur. Məhz buna görə də Nəsiminin sonrakı dövr Azərbaycan, bütövlükdə götürdükdə türk dünyası ədəbiyyatına güclü təsiri olmuş, beləliklə də, möhtəşəm və uzunömürlü Nəsimi ədəbi məktəbi yaranmışdır.

Görkəmli dilçi-mətnşünas alim professor Cahangir Qəhrəmanovun "Nəsimi "Divan"ının leksikası" kitabının zəngin materialları böyük Azərbaycan şairi və mütəfəkkiri Nəsiminin əbədiyaşar poeziyasının bütün bu müsbət keyfiyyətlərini əyani şəkildə əks etdirən dəyərli bir qaynaq kimi böyük əhəmiyyət daşıyır.Yeri gəlmişkən qeyd edim ki, 1978-ci ildə Moskvada elmi ezamiyyətdə olarkən məşhur türkoloq alim professor Əmir Nəcibin evində alimin masaüstü kitabları sırasında Cahangir müəllimin "Nəsimi "Divan"ının leksikası" kitabını da görmüşəm. 2005-ci ildə isə Təbrizdə İran İslam Respublikasının məşhur ədəbiyyatşünas alimi, "Süxənvərani-Azərbaycan" (Azərbaycan söz ustaları) kitabının müəllifi Əziz Dövlətabadi ilə söhbət zamanı o, professor Cahangir Qəhrəmanovun adını böyük ehtiramla çəkdi. Bütün bunlar sübut edir ki, professor Cahangir Qəhrəmanov Azərbaycanın hüdudlarından kənarda da dəyərli bir türkoloq alim kimi tanınır.

Son olaraq onu da qeyd edim ki, 2019-cu ildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin ölkəmizdə keçirilən möhtəşəm 650 illik yubileyi münasibətilə C.Qəhrəmanovun "Nəsimi "Divan"ının leksikası" kitabını tanınmış dilçi-mətnşünas alimin istedadlı yetirməsi və davamçısı olan filologiya elmləri doktoru Paşa Kərimov redaktə edərək latın əlifbası ilə ikinci dəfə nəşrə hazırlamışdır. C.Qəhrəmanovun zəngin elmi irsinin zirvələrindən olan bu kitabın ikinci nəşri ölkə Prezidenti cənab İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycanda elan olunmuş Nəsimi ilinə dəyərli bir töhfədir.

Vaqif YUSİFLİ

HEKAYƏNİ SEVİRİK...

Son illər mətbuat səhifələrində yüzdən çox hekayə oxumuşam. Çexova, Mopassana, Cek Londona, Mirzə Cəlilə, Haqverdiyevə, Çəmənzəminliyə şöhrət gətirən, Yusif Səmədoğlunu, Anarı, Elçini, İsi Məlikzadəni, Əkrəm Əylislini, Afaq Məsudu, Məmməd Orucu da romanları, povestləri ilə bir sırada bir hekayəçi kimi tanıdan bu janrın gözəl nümunələri olubdur. Doğrudur, indi nəsrin digər janrları ilə müqayisədə kəmiyyətcə üstünlük təşkil edən hekayələrin heç də hamısı bədii keyfiyyət anlamına gəlmir, bununla yanaşı, ayrı-ayrı müəlliflərin uğurlu hekayələri ilə qarşılaşıram. Vaxtilə -- XIX əsrin sonlarında A.P.Çexov M.Qorki ilə söhbətində demişdi ki: «Mən 25 ildir hekayələrimə yazılan tənqidləri oxuyuram, heç bir qiymətli göstəriş xatırlaya bilmirəm, heç bir xeyirxah məsləhət eşitməmişəm». Təbii ki, iki hekayəçi haqqında bu qeydlərimdə göstəriş və məsləhət vermək fikrində deyiləm, tərifimdə də, iradlarımda da obyektiv olmağa çalışacağam.

VARİSİN HEKAYƏLƏRİ

Varis Yolçuyevdən oxuduğum və bəyəndiyim ilk hekayə «Zalımlar, babam və əncir ağacı»dır («Azərbaycan» jurnalı, 2014, № 12). Nəyini bəyəndim bu hekayənin? İlk növbədə, dilini, səlis ifadə tərzini, sonra hekayədə təsvir olunan hadisələrin reallığını və bu reallığın bədii təcəssümünü, daha sonra obrazların hər birinin fərdi düşüncə tərzinin ifadəsini, hər bir əsas və epizodik personajın özünəməxsus hərəkət «trayektoriyasını»… Hekayədə təsvir olunan əhvalat simvolik əncir ağacı ilə bağlıdır. Belə ki, əncir ağacı «evimizin arxasında - qonşuyla hasara dirənmiş, əsas hissəsi qəribə şəkildə əyilərək qonşu ərazisinə keçmiş nəhəng bir ağac idi, hündürlüyü 3 metri ötüb keçmişdi, gövdəsi qalınlığına görə lap söyüdlə bəhsə də girərdi». Elə qonşular arasındakı konfliktə də səbəb bu əncir ağacı olur. Ağac kultunun, ümumiyyətlə, ədəbiyyatımızda mistik bir anlamı var. «Kitabi-Dədə Qorqud» dastanlarından üzü bəri ağac müqəddəs sayılıb. Və hekayədə təsvir olunan əncir ağacı da belə bir missiyanın daşıyıcısıdır. «Babam danışırdı ki, Allah bu möcüzəli meyvəni nahaqdan bitkilə otun ilkləri arasında yaratmayıb ki. Bu, müqəddəs bir meyvədir, sehrlidir, Deməzsənmiş, o vaxt almanlarla müharibədə əncir çörək funksiyası daşıyırmış, insanlar acanda əncir qurusu yeyirlərmiş». Amma hamı beləmi düşünür? Ona görə də müəllif müqəddəsliyə tapınanlarla onu tapdalayanlar arasında fərqi bizə göstərir. İki

ailə və bir-birindən mənəviyyatca seçilən iki dünyagörüşü. Əncir ağacının bu tərəfində «sarı gözəlliyin içində gizlənən qırmızımtıl, narıncı çalarları» sevən baba, Zümrüd müəllimə, ata, ana, səkkizinci sinif şagirdi (əhvalatı nəql edən uşaq), əncir ağacının o tərəfində isə «hündür boylu, orta yaşlı, zəhmli kişi, yayın istisində də həmişə kostyum geyinən, qalstuk taxan, qara rəngli, alışıb-yanan «Mersedes» sahibi Məlikzadə, «xeyli gənc, gözəl-göyçək, işi-gücü həyət-bacadakı qulluqçulara göstəriş verən, mobil telefonunda qurdalanan, bütün günü tennis oynayan, hovuzda çimən xanımı»… Və bir də mənzil-istismar sahəsinin işçiləri. Onlar Məlikzadənin təşviqiylə ağacı kəsmək əmrini verirlər. Guya əncir ağacının o tərəfə sallanan budaqları onların həyətini zibilləyir, «nəsilli-nəcabətli köpəklərinə xətər toxundurur, it yerə tökülən əncirdən yeyib qarın ağrısına düşübmüş».Və istədiklərinə çatır ağacın o tərəfindəki adamlar. Beləliklə, bir həyətdə faciə, o biri həyətdə şadlıq başlanır. Faciə budur ki, baba bu dərdə dözməyib xəstəxanaya düşür. Müəllif bu faciəni ayrı-ayrı detallarla bizə təqdim edir: «Bilirəm, inanmayacaqsınız, amma vallah, düz deyirəm, mişar irəli-geri hərəkət etdikcə ağacın gövdəsiylə yuxarıdan aşağı yaş axırdı. Ağac ağlayırdı». Amma bu faciənin ömrü uzun olmur, baba xəstəxanadan çıxır, o, əncir ağacının yenidən boy atan gövdəsinə baxıb sevinir, əncir ağacı ayla, günlə yox, saatla, dəqiqəylə böyüyür. Amma gözlənilməz bir hadisə də baş verir: «qara maskalı bir neçə şəxs nömrəsiz maşınla gəlib Məlikzadənin əllərini qandallayaraq apardı».

Varisin bu hekayəsini bir də ona görə bəyəndim ki, adi bir əhvalatda cəmiyyətdə hökm sürən və çox təəssüf ki, hələ də davam edən sosial bərabərsizliyi, bir-birinə zidd həyat tərzini və dünyagörüşlərini açıb-ağardır.

Varisin ən yaxşı hekayələrindən biri «İyirmi bir»dir ki, Fransanın «Avto-qraf» ədəbi almanaxına daxil edilib (Sevindirici haldır ki, onun bir neçə hekayəsi xarici ölkələrdə də uğur qazanıb). Varisdən ilk oxuduğum və öncə haqqında söz açdığım o hekayədən fərqli olaraq, Varis «İyirmi bir» və sonrakı hekayələrində psixoloji effektlərə daha çox diqqət yetirir. Sanki hadisələr ikinci plana keçir, məqsəd təsvir olunan obrazların daxilində baş verən prosesləri açıb-ağartmaqdır. «İyirmi bir» hekayəsində «bir qoca, bir uşaq, bir də «mən» üzü gündoğana» yol gedirlər. «Bu yolçuluq boşuna olası deyildi». Hər kəs onu düşündürən suallara cavab tapmaq istəyir. Bu səyahətdə «Mən» aparıcıdır. O, «mənasızlığın mənasını» axtarmağa çalışır. Hiss olunur ki, o, həyatın cansıxıcı burulğanındadır. Amma bu burulğandan çıxmaq mümkünmü? Bu da qəbiristanlıq. Başdaşındakı yazılar. Və birdən suallar yağışı başlayır: «Niyə xoşbəxtlik hamı üçün eyni, əlçatan məsafədə gizlədilməyib? Niyə ali millət, böyük dövlət, hegemon din adlı dişarı, hakimiyyət, ierarxiya, klan, region adlı içəri imtiyazlar və bunlardan məhrum olan zavallılar mövcuddur axı? Niyə hədəf var, amma hədəfi vurmaq üçün hamıya eyni sayda patron paylanmır?» Amma «Mən»in bu sualları «mənasızlığın mənasını» axtarmaq üçün heç bir önəm daşımır. Qəbiristanda isə başdaşlarından boylanan şəkillər təəccüb və heyrət doğurur: «Diqqət etdikdə onların yaş fərqinin, lap diqqət etdikdə heç cins fərqinin də olmadığını duymağa başladım. Onlar uşaqmı, gəncmi, yaşlımı idilər, kişimi, qadınmı idilər, bilinmirdi». Fani dünyanın qurbanları… Hekayədə yolçulardan biri - Qoca qəbiristanlıqda, lap girəcəkdə yeni qazılmış boş qəbrin içinə enir və oradan çıxmır. Görünür, insan öz fiziki ölümünü qabaqlaşdıra da bilər. Uşaq və «Mən» isə geri qayıdırlar. Amma «Mən»i soyuq tər basır ki, qəbiristanlıqda hələ də boş qəbirlər qalıb.

Belə bir sual doğur: əgər bu dünya qarğa sürüsünün sərçələrin, göyərçinlərin səslərini batırdığı, bir faniliyin, bir ümidsizliyin baş alıb getdiyi

dünyadırsa, bəs onda, biz bu dekadentizmdən, bu pessimizmdən necə xilas ola bilərik? «Külək azacıq səngiyib, buludlar tərpənməzdirlər. Daha yerin altı da, üstü də susur. Nə o qışqırtı-bağırtılardan, nə də o qəhqəhələrdən əsər-əlamət qalmayıb. Qalan təkcə qoxudur. İydə çiçəyinin qoxusu». Bu iydə çiçəyinin qoxusu Tanrıdan gəlirmiş. Məncə, bu son cümlə («İydə çiçəyinin qoxusu») hekayənin pessimist «qoxusunu» nəinki burnumuzdan, beynimizdən, şüurumuzdan da silib aparır.

Varisin «İyirmi ikinci mənzildə» hekayəsində də qəmli, kədərli notlar diqqəti cəlb edir. İyirmi bir yaşlı qız - Ləman 4-cü dərəcəli skolioz xəstəliyindən əziyyət çəkir. Bu xəstəlikdən qurtulmağın yeganə yolu Almaniyada və İsraildə əməliyyat olunmaqdır. Amma bu mümkünsüzdür. Çünki yalnız maaşla dolanan həkim ata-anasının imkanı yoxdur qızlarının əməliyyat pulunu yığmağa. «Ər və arvad nə qədər cəhd eləmişdilər, ixtisasları üzrə dolanışığı təmin edə biləcək iş tapa bilməmişdilər. Kreditlər, kirayə evlər, sonra da yeganə övladlarının bu qəfil dəhşətli xəstəliyi…»

Hekayə boyu o xəstə qızın qüssəli etirafları eşidilir. Tələbəlik illəri, kənd həyatı, onun xəstəliyini bilib nişanından imtina edən Qasımla bağlı düşüncələri, atası-anasının gün-güzəranı, qızlarına sevgiləri, rəfiqələri… bir sözlə, sanki ölümqabağı əndişələr. Hekayə beləmi davam edəcək? Amma yox! Varis hekayədə iki epizodla it hürən tərəfə yox, işığa üz tutur. Birinci epizod: «Bir dəfə kənddə qəribə yuxu görmüşdü. Hər tərəf zülmət idi. Ağappaq, uzun çuxada, üzü görünməyən hündürboy bir şəxs ona «Arxamca gəl, səni olmağın lazım gələn yerə aparacağam» söyləmişdi. Və onlar, lap nağıllardakı kimi, işıqlı, güllü-çiçəkli dünyaya çıxmışdılar. Güllərin arasında heyranlıqla gəzəndə naməlum şəxs onun əlini eynən itburnuya oxşayan bir gülün üstünə qoymuşdu. Demişdi, bu gül Səhləb gülüdür, sənin taleyindir. …Bakıya qayıdandan sonra axtarıb tapmışdı ki, bu, orxideya adlanan bir güldür, məhəbbət rəmzidir». İnsanın ürəyində ki məhəbbət alovu yanır, ölüm gələndə belə, qorxu yoxdur. İkinci epizod Mərcan adlı pişiklə bağlıdır. Bir ev alışıb yanır, hamı qaçır, canını qurtarır. Mərcan isə evdədir, onu yanan halda xilas edirlər. Evin xanımı hər yerdə, hətta televizorda car çəkir ki, ey insanlar, Mərcanı xilas etmək lazımdır. «Aparıcı danışırdı ki, Mərcanın xilası, bütün şəhərin diqqət mərkəzindədir. Tək rəsmi şəxslər deyil, tək məktəblilər, tələbələr deyil, bütün ictimaiyyət burdadır. Ən müxtəlif təşkilatlardan, cəmiyyətlərdən, hətta xarici səfirliklərdən nümayəndələr gələrək Mərcanın taleyi ilə maraqlanırlar». Bu hadisə ironiya deyilmi? Yatağında əzablar çəkən Ləman və «ağıllı» pişik Mərcan. Amma Mərcan xilas olur. «Sahibəsi ona tuşlanmış kameraların və fotoaparatların fonunda ağlaya-ağlaya öpüb-oxşayırdı. Ətrafa toplaşan insanlarsa qışqırır, əl çalırdılar». Dəhşətli mənzərədir. Amma Mərcanın xilası xəstə qızın üzünə təbəssüm yayır. Anasına söyləyir ki, hər şey yaxşı olacaq. Beləliklə, bir pişiyin xilası bir xəstənin həyatına təsirsiz qalmır. Əlbəttə, bu hekayədə öncə dediyim ironiya var, cəmiyyətdəki sosial ədalətsizliyin tənqidi var.

Varisin «Sonuncu mogikan» hekayəsi isə (geniş variantı «Ədəbiyyat qəzeti»nin 3 və 10 fevral saylarında çap olunub) bu, çox uzun bir, hətta kiçik bir povest həcmindədir. Müəllif XVII əsrin ortalarında yaşamış mogikan tayfalarının taleyindən də söz açır və bu tarixi əhvalatın hekayədə təsvir olunan real hadisələrlə heç bir bağlantısı görünmür. Hekayənin qəhrəmanı isə, bitkin bir xarakterə malik deyil. Ən başlıca nöqsan isə, Varisə xas olmayan uzunçuluqdur.

Adətən, əksər nasirlərimiz hekayədən, povestdən sonra roman janrına müraciət edirlər. Varis isə, səhv etmirəmsə, dörd romandan sonra hekayəyə

keçir və romanlarından fərqli olaraq (bu, mənim şəxsi fikrimdir), hekayələrində daha çox uğur qazanır. Hekayə yazıçıdan daha çox çeviklik, yığcamlıq, bir və ya iki hadisənin və obrazın timsalında ümumiləşdirmələr yaratmaq tələb edir. Varis Yolçuyev bunu bacarır.

GÜNEL NATİQİN HEKAYƏLƏRİ

Günel Natiqin hekayələri, həmçinin, məqalə və esseləri, köhə yazıları artıq bir neçə ildir ki, mətbuatı və ədəbiyyat saytlarını dolaşmaqdadır. Yaxınlarda Günelin «Məhəbbət quşları» hekayələr kitabının «Natəvan» klubunda təqdimatı da keçirildi.

Təfərrüata varmadan deyim ki, Günelin hekayələri içərisində onun bu janrda, hamısında olmasa da, potensial imkanlarını aşkara çıxaran nümunələr var. Bir neçə hekayəsindən söz açmaq istəyirəm.

Əvvəla, Günel nədən yazır sualına cavab verim. Həyatda onu nə düşündürürsə, ictimai-sosial problemlərdən tutmuş ailə-məişət məsələlərinə, gördüyü, müşahidə etdiyi və yanından laqeydliklə ötmədiyi hadisələrə qədər. Əksər hekayələrində insan ağrı-acılarını qələmə alır, tənha qadınların həyatından söz açır, xüsusilə, sənət adamlarının taleyindən yazır. Günelin təhkiyəsində bir dolaşıqlıq yox, dilində, ifadə tərzində həmçinin… Hiss olunur ki, onun təsvir etdiyi hadisələr uydurma deyil, sadəcə, bədii təxəyyüldən keçib ümumiləşir, yəni həyat həqiqəti bədii həqiqətə çevrilir. Bunu, əlbəttə, cavan bir yazıçı üçün uğur hesab edə bilərik. Bir kiçik hekayədə maraqlı bir obraz yaratmaq, həm də bu obrazı xarici görünüşündən daxili aləminin çırpıntılarına qədər vəhdətdə təqdim etmək Günelin doğrudan da uğurudur. Lap kitabdakı ilk hekayəsindən başlayaq - «Bircə»dən. Hekayənin əsas personajı, adından göründüyü kimi, Bircədir. «Rəfiqəm Bircənin həyatı insanlarla dolu idi: qohumlar, qonşular, dostlar, rəfiqələr..Hansısa rəfiqəsi ona cürbəcür bahalı hədiyyələr alırdı, hansısa dostu onu dəbdəbəli restoranlara dəvət edirdi, sevimli xalaqızı onun ən bəyəndiyi qutabları bişirib qonaq çağırırdı. Bizə gələndə telefonu əlindən düşmürdü. Gah bir rəfiqəsinə, gah o biri rəfiqəsinə zəng vurur, görüşmək üçün vədələşir, ya da sadəcə, kef-əhval soruşurdu…Bircə pərəstişkar sarıdan da qəriblik çəkmirdi». Amma… sən demə, əri illər öncə onu atıb gedəndən bəri həyatında heç kim olmayıb. Bu qadın tənhadır və tənhalıqdan xilas olmaq üçün özünə yalandan həyat uydurub. Bir sözlə, Bircə tənhalığın tragikomediyasını oynayır. Onun tənhalığı «insanlarla dolu» olsa da, bu, əsl faciədir. İnsan necə olur ki, şaqraq qəhqəhələrlə növbəti dramını yaşasın, özü üçün yalançı bir həyat yaşasın, amma yarıqaranlıq, dar otağında tənhalıqdan əzab çəksin? Hər halda, Günel belə bir obrazı bizə təqdim edir və bu obrazın uydurma olmadığına bizi inandırır.

Ümumiyyətlə, Günelin təsvir etdiyi obrazlar qəribəliyi, hətta qeyri-adiliyi ilə maraqlıdırlar. Məsələn, Adil -- «Ölü səhra» hekayəsinin bədbəxt qəhrəmanı. Həyatı özü istəmədən anası tərəfindən proqramlaşdırılan Adil skripkaçı olmağa məcbur edilir. «Ancaq elə ilk gündən balaca Adil özünü skripkaya verə bilməyəcəyini anlamışdı». Amma anasının hökmündən çıxa bilmir və bundan sonra onun zorla yaşanılmış bir həyatı başlayır. Anası istəyir ki, o, mahir bir skripkaçı olsun, amma sənəti kimə isə sevdirməkdə mənəvi təzyiq baş verməsin gərək. Ananın xəyalları puç olmağa başlayır: «Dəli bir qəzəb bütün bədənini titrətdi. Xəyallarının intiqamını almaq istəyi varlığına hakim kəsildi. Gitaranı oğlunun əlindən alıb çarpayının kənarına çırpdı. Bir dəfə vurmaqla hirsi soyumadı». Skripkaya yox, gitaraya, Vısotskiyə meylini

anası beləcə amansızlıqla məhv edir. Adil musiqi məktəbini bitirir, təhsilini davam etdirmək üçün xaricə göndərilir, qoca yəhudi müəllim Albert Polonskinin tələbəsi olur, istedadı ona imkan verir ki, diplom işində də uğur qazansın. Bəs sonra? Bakıya qayıdır. Anası dünyasını dəyişib: «onsuz da həyatdan təcrid olmuş qarı üçün bu şəkildə yaşamaq ölümdən betər idi». Bəs sonra? Proqramlaşdırılmış həyat sona yetir. Adil bir kimsədən yox, özündən intiqam alır. Fəhlə həyatı yaşayır, qum daşıyır, hər şeyi unudur. Amma «hər gecə yuxu və reallıq olduğunu anlaya bilmədiyi bir xəyal görürdü. Ona oxşayan bir adam əlindəki tanış gitara ilə Ölü Səhraya doğru qaçırdı».

Günelin qurduğu süjet, bu süjetdəki hadisələr, obrazın həyatındakı bütün olaylar səliqə ilə oxucuya nəql edilir, amma bütün bu hadisələrin içində obrazın hisslər, həyəcanlar burulğanı daha təsirlidir. Adilin içindəki dəhşətli boşluq, istəmədiyi həyatı yaşamaq məcburiyyəti və bununla da mənasızlığa yuvarlanması hekayədə maraqlı detallarla təqdim edilir. Bu hekayə əsasında hətta povest, roman ərsəyə gətirmək olar. Amma Günelə bu da kifayətdir ki, bir hekayədə bir «tale romanı» yarada bilib. Məncə, «Ölü səhra» onun ən gözəl hekayəsidir.

Günel ən yaxşı hekayələrində dolğun xarakter yaratmağa meyil edir. «İşığın sorağında» hekayəsində kor bir insanın taleyini qələmə alır. O, kor olsa da son dərəcə hissiyyatlı bir insandır, «həyətdə ağaclar, quşlar vardı, onlarla dərdləşə, onları hiss edə bilirdi. Yarpağın xəfif titrəyişinə qədər hər şeyi duyurdu». Onu necə səciyyələndirir Günel? İşıqsız işıqlı adam kimi.

Günel sənət adamlarının həyatından da bir neçə hekayə yazıb və onların içərisində «Aktrisa» xüsusilə seçilir. Bu hekayədə təsvir olunan obrazın - Alidənin həyat prinsipi «səhnə kraliçası» kimi şöhrətlənmək arzusuyla bağlıdır. Amma neyləyəsən ki, istedadlı olsa da, potensialını göstərə bilmir və illər boyu o «səhnə kraliçasının» kölgəsinə çevrilir. «Düşündü ki, o, ömür boyu öz halal vaxtını gözlədiyini sanaraq, əslində, özgə vaxtı gözləyib. Bu özgə vaxt, bütün nail olduqları kimi, kraliçaya məxsus idi. Bunu anlamaq üçün 50 il gözləmək lazım gəlmişdi». Və «ömür boyu kraliçanın kölgəsində qalan Alidəni öz tale yoldaşından cəmi bircə gün ayırdı. Ertəsi günün səhəri həyatının baş rolunu oynamağa macal tapmamış, ürəktutmasından dünyasını dəyişdi».

Beləliklə, Günel istedadların kölgəsində qalan və öz istedadını parlatmağa cürəti, cəsarəti çatmayan bir sənətçinin faciəsini ümumiləşdirir.

Günelin «Qara donlu», «Konsuelo», «Atlıya əmanət ev», «Məhəbbət quşları», «Ayaqyalın gəzən rəssam» hekayələri də, elə bilirəm, oxucular tərəfindən maraqla qarşılanacaq. Çünki bu hekayələrdə real həyat hadisələri öz bədii təcəssümünü tapıb. Amma Günelin xıpxırda hekayələri var ki, onlar sadəcə, müəyyən bir əhvalatın nəql edilməsindən irəli getmir. «Sevgidim, nə yaxşı gəldin», «Hər şey və heç nə haqqında»…

Günel Natiq. Günel atasının adını özünə təxəllüs seçib. Natiq Səfərovla «Azərbaycan» jurnalında bir yerdə işləmişik. Hətta bir otaqda. Heç vaxt onu unuda bilmirəm və öz sənətində son dərəcə professional olan Natiq mənə təkcə həmkar deyildi, həm də bir müəllim idi, desəm, yanılmaram. Çünki mən ondan çox şey öyrəndim.

Və Günelin kitabının lap arxasında şəkli verilib, onun gözlərinə baxıram, eynən Natiqin gözləridir.

♦Kitab rəfi



QARA QARAYEV -100
SƏNƏTİN YOLLARI (məqalələr toplusu)
BAKI, 2019

Üzeyir Hacıbəyli adına Musiqi Akademiyasının Musiqi nəzəriyyəsi kafedrasının məqalələr toplusu görkəmli bəstəkar, pedaqoq, ictimai xadim, SSRİ xalq artisti Qara Qarayevin 100 illik yubileyinə həsr olunub. Kitabda təqdim olunan tarixi, nəzəri araşdırmalar, xatirələr Q.Qarayevin dünya musiqi mədəniyyətinə verdiyi töhfələr və tutduğu yer barədə fikirləri əks edir. Təqdim olunan nəşrdə arxiv materiallarından istifadə olunub.

Ön sözün müəllifi Fərhad Bədəlbəyli, tərtibçi-redaktor Könül Nəsirovadır.

CAHANGİR QƏHRƏMANOV
NƏSİMİ "DİVAN"ININ LEKSİKASI
BAKI, "ELM VƏ TƏHSİL", 2019

Görkəmli dilçi alim, professor Cahangir Qəhrəmanovun ilk dəfə 1970-ci ildə çap edilmiş monoqrafiyasında İmadəddin Nəsiminin anadilli lirik şeirlər toplusu – "Divan"ının leksikası tədqiq edilir. Kitabda Nəsiminin anadilli şeirlərinin ədəbi dilimizin inkişafındakı rolu hərtərəfli araşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2019-cu ilin "Nəsimi ili" elan edilməsi münasibətilə Cahangir Qəhrəmanovun "Nəsimi "Divan"ının leksikası" monoqrafiyası yenidən nəşr olunub.

Kitabı nəşrə hazırlayan və elmi redaktoru filologiya elmləri doktoru Paşa Kərimovdur.



TOFİQ MÜTƏLLİBOV
SEÇİLMİŞ ƏSƏRLƏRİ. I-II CİLDLƏR
BAKI, "ELM VƏ TƏHSİL", 2019

Kitaba Azərbaycanın görkəmli şairi, Əməkdar incəsənət xadimi Tofiq Mütəllibovun müxtəlif illərdə uşaqlar üçün yazdığı şeirlərdən seçmə nümunələr daxil edilmişdir.

Vətənpərvərlik ruhu ilə süslənmiş son dərəcə səmimi, duyğulu bu şeirlərdə yurdunun gözəlliklərinə tükənməz məhəbbəti olan kövrək bir ruh şairinin ürək döyüntüləri, könül çırpıntıları eşidilir. Bu gün də öz poetik gücünü, enerjisini, aktuallığını itirməyən şeirlər Azərbaycan təbiətinin "döyünən nəbzi" adlandırıla bilər.

Kitaba, həmçinin, müəllifin satirik şeirləri, müxtəlif teatrlarda uğurla tamaşaya qoyulmuş pyesləri, tərcümələri, elmi və publisistik məqalələrinin bir qismi daxil edilmişdir.

HÜSEYNBALA MİRƏLƏMOV
SON SƏFƏR
BAKI, “APASTROF”, 2019

Yazıçı Hüseynbala Mirələmovun “Son səfər” povesti Azərbaycan bədii və fəlsəfi fikrində müstəsna yeri olan şair, mütəfəkkir İmadəddin Nəsimiyə həsr olunub. Əsərdə Nəsiminin həyatının Şamaxı ilə bağlı son dövrü ərzində baş verən hadisələrdən söz açılsa da, şairin kimliyi, həyatının səciyyəvi cizgiləri, obrazı olduqca əhatəli və bədii dillə oxucuya çatdırılır.



VAQİF SULTANLI
AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİ
BAKI, «NURLAR» NƏŞRİYYATI, 2019

Kitabda Azərbaycan ədəbi tənqidinin tarixi təkamülü və inkişaf yolu araşdırılmışdır. Burada həmçinin ədəbi tənqid tarixinin ümumi nəzəri məsələləri yığcam şəkildə nəzərdən keçirilmiş, onun metodları, istiqamətləri və janrları, ədəbi prosesdə rolu səciyyələndirilmişdir. Əsərin diqqəti çəkən və onu əvvəlki araşdırmalardan xeyli dərəcədə fərqləndirən cəhətlərindən biri Azərbaycanın Güneyində və mühacirətdə yaranmış ədəbi-nəzəri irsin təhlil obyektinə çevrilməsidir.

Kitabın elmi redaktoru professor Tofiq Hüseynoğludur.

AZƏR QİSMƏT
XANIM TAKSİ
BAKI, “JEKO PRİNT”, 2019

Yazıçı Azər Qismətin “Xanım Taksi” kitabı Biz Klub layihəsinin oxuculara təqdim etdiyi 4-cü kitabdır. Kitabda müəllifin son illərdə yazdığı, müxtəlif aktual mövzulu novellaları toplanıb. Bundan əvvəl yazıçının “Duman” və “Çuğullar” kitabları çap olunub.



FƏRİD HÜSEYN
SEVDİYİM ƏSƏR / 101 ədəbi söhbət
BAKI, “ZƏRDABİ NƏŞR” MMC 2019

Kitab “Kaspi” nəşrləri” seriyasından təqdim olunur. Kitabda dünya və Azərbaycan ədəbiyyatının şah əsərləri haqqında seçkin söz və fikir adamlarının müsahibələri toplanıb. Toplu Azərbaycan ədiblərinin dünya ədəbiyyatına, ən çox sevdikləri əsərlərə münasibətlərini aydınlaşdırır, həmin əsərlər əhatəli təhlil olunur.